# MÜNAFİQLİKLƏ MÜBARİZƏNİN ƏHƏMİYYƏTİ

**HARUN YƏHYA**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin bütün dinlərə qarşı çıxan fəlsəfənin təməlini qoymasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də bu nəzəriyyənin yalan olduğunu gündəmə gətirmək əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə hər kitabımızda bu mövzuya qısa da olsa yer ayırmışıq.

Diqqətə çatdırılan digər bir məsələ də bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri ilə izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsinə imkan verir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" deyiminə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxunduğu kimi, qarşılıqlı söhbət şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaqları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birilə bölüşmək baxımından da faydalıdır. Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və inandırmaq olduqca güclüdür. Buna görə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının yerləşdirilməsinin əhəmiyyətli səbəbləri vardır. Bunun sayəsində kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyub bəyəndiyini ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib digər bir çox əsərin olduğunu görərək, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, qüdsi olana qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli, həmçinin ümidsizliyə salan yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüslü yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini aşkara çıxaran çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 40.000 rəsmin olduğu cəmi 55.000 səhifəlik külliyyatdır və bu külliyyat 63 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq, adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullah (s.ə.v)-in möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-Kərimin Allahın son kitabı və son sözü, Məhəmməd peyğəmbərimiz (s.ə.v)-in Allahın sonuncu peyğəmbəri olduğunun rəmzidir. Yazıçı bütün yayınladığı bütün işlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bununla da, inkarçı düşüncə sistemlərinin təməl iddialarını bir-bir aradan qaldırmağı və dinə qarşı yönəlmiş etirazlara nöqtə qoyan son sözü söyləməyi hədəfə almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləməyin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək, inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini nümayiş etdirməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-Herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, bosniya, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində heyrətamiz təqdir qazanan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanının dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan başa düşülən və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varar. Bu əsərlər sürətli təsir etmək, düzgün nəticə

vermək, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanlar artıq materialist fəlsəfəni, ateizmi və digər azğın nəzəriyyələri səmimi olaraq müdafiə etməyəcəkdir. Bundan sonra müdafiə etsələr də, ancaq emosional inadla müdafiə edəcəklər. Çünki fikri cəhətdən əsaslandıqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanca da göz dikilmir.

Bu həqiqətlər aydın olduqda insanların görmədiklərini görməsini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri yaymaq əvəzinə insanların düşüncəsini dumanlandıran, fikri qarışdıran, şübhə, tərəddüdlərdən təmizləmək, imanı qurtarmaq üçün güclü təsiri olmayan, ümumi təcrübə əsasında sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilməyəcəyi məlumdur. Bu məsələdə şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq nəzərə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazımlığı aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi öz üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə qovuşmaq üçün vəsilə olacaq.

# GİRİŞ
# MÜNAFİQLƏRLƏ FİKRİ MÜBARİZƏ APARMAQ HƏR MÜSƏLMANIN BORCUDUR

Münafiqlik müsəlmanların həmişə diqqət yetirməsi lazım olan çox vacib bir məsələdir. İnkar edənlər Allahın varlığına və birliyinə inanmadıqlarını açıq-aşkar deyərlər, iman edənlərə qarşı da açıq şəkildə mübarizə aparırlar. Münafiqlər isə özlərini müsəlman, hətta təqvalı bir mömin kimi göstərərək İslama qarşı çıxarlar. Daxildə Allaha, Peyğəmbərimiz (s.ə.v)-ə, Qurana, saleh möminlərə qarşı böyük bir kin bəsləməklərinə baxmayaraq, zahirdə həqiqi üzlərini gizlədər, özlərini yaxşı insan kimi qələmə verərlər. Açıq və ictimai mübarizə aparmadıqlarına görə, əgər diqqət yetirilməsə böyük təxribatlar həyata keçirərlər.

Xüsusilə də hal-hazırda yaşadığımız Axırzamanda:

• Müsəlmanları passivləşdirməyə və onların gücünü, coşğusunu, həyəcanını əlindən almağa çalışarlar.

• Xurafatlarla və bidətlərlə dini yaşanmaz hala gətirməyə çalışarlar.

• Darvinist, materialist cərəyanlara qarşı müsəlmanları müdafiəsiz etməyə çalışarlar.

• Elmə, sənətə, gözəlliyə, keyfiyyətə, nəsl-əcabətə qarşı çıxıb təmiz olmayan, azad düşünməyən, elm və sənətdə inkişaf etməyən bir müsəlman imici yaratmağa çalışarlar.

• Müsəlmanlar arasındakı qardaşlığı və birliyi zədələyən işlərlə İslam Birliyinə mane olmağa çalışarlar.

• Şiddətə, qarışıqlığa, ixtişaşlara təşviq edərək müsəlmanları şiddət tərəfdarı kimi tanıtmağa çalışarlar.

• Peyğəmbərimiz (s.ə.v)-ə və onun mübarək əhlinə qarşı düşmənlik bəsləyərək Əsri-Səadət dövründə yaşanan həqiqi İslamı insanlara unutdurmaq üçün əllərindən gələn səyi göstərərlər.

Buna görə münafiqlik söhbət arasında qısa olaraq üzərindən keçilə biləcək bir mövzu deyil. Quranda Allahın bir çox ayə ilə diqqət çəkdiyi bu təhlükəni müsəlmanlar göz ardı etsələr, belə bir təhlükə yoxmuş kimi davranılsa, İslama, Qurana və Rəsulullah (s.ə.v)-in sünnətinə layiq olmazlar və sahib çıxmamış olarlar. Münafiqlik Peyğəmbərimiz (s.ə.v)-in dövründə olmuş, keçmişdə qalmış, bir daha müsəlmanların qarşılaşmayacaqları bir mövzu da deyil. Münafiqlər hər dövrdə İslam aləmi üçün ən böyük təhlükə olmuşdur. Peyğəmbərimiz (s.ə.v)-in dövründə münafiqlər çox şiddətli idilər, ancaq Axırzaman münafiqlərinin də çox şiddətli olacaqları Rəsulullah (s.ə.v)-in xəbər verdiyi bir

həqiqətdir. Necə ki, Bədiüzzaman Həzrətləri də Axırzamanda "dinsizliyin iki cərəyanının (hərəkatının) güclü olacağını" deyir və bunlardan birinin "münafiq hərəkatı" olacağını bildirir. Hz. Mehdi (ə.s), İslam aləmini məhv etmək üçün aparılan hərəkatı bütünlüklə təsirsizləşdirəcək, yəni münafıq hərəkatını məhv edib dağıdacaq:

***Axırzamanda dinsizliyin iki cərəyanı (hərəkatı) güclənəcək:***

*Birincisi:* ***Nifaq (ikiüzlülük) pərdəsi altında Məhəmməd (s.ə.v)-in elçiliyini inkar edən Süfyan adında bir şəxs, nifaq əhlinə (riyakarlığa) rəhbərlik edəcək, İslam şəriətini (hökmlərini) pozmağa çalışacaq. Ona qarşı Peyğəmbər (s.ə.v)-in Əhli-beytinin nurani soyuna bağlanan (Peyğəmbərimiz (s.ə.v.)-in soyundan olan), əhli-vəlayət (vəlilərə) və əhli-kamala (kamallı, ağıllı insanların) rəhbərlik edəcək. Əhli-beytdən (Peyğəmbərimiz (s.ə.v.)-in soyundan) Məhəmməd Mehdi adında bir nurani şəxs, o Süfyanın şəxsi-mənəvisində (qrupunda, mənəvi qurumunda) olan münafıqlik hərəkatını məhv edib dağıdacaq.*** *(Məktubat, s. 56-57)*

Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən, böyük din alimlərinin şərhlərindən və Rəsulullah (s.ə.v)-in bildirdiyi əlamətlərin hamısının həyata keçməsindən hal-hazırda mehdiyyət dövründə yaşadığımız açıq-aşkar aydın olur. Allahın izni ilə 10-20 il ərzində bütün insanlar, həm hz. İsa (ə.s)-ı, həm də hz. Mehdi (ə.s)-ı şəxsən görəcəklər. Belə bir əhəmiyyətli dövrdə hz. Mehdi (ə.s)-a tələbə olmaq, bu mübarək şəxsi dəstəkləmək və müdafiə etmək istəyən hər bir müsəlman münafiqliyin nə olduğunu yaxşı bilməli, tanımalıdır, Allahın və Peyğəmbərimiz (s.ə.v)-in göstərdiyi kimi münafiqlərə qarşı fikirlə mübarizə aparmağı bacarmalıdır.

Bu kitabda hörmətli Adnan Oktarın müxtəlif televiziya kanallarında yayımlanan verilişlərdə münafiqlərin xüsusiyyətlərini, xarakterlərini, özlərini gizləmə üsullarını, dinə və müsəlmanlara həqiqi dünyagörüşlərini təfərrüatı ilə analiz edən şərhlərini öyrənə biləcəksiniz. Münafiqliyin iç üzünün  təsbit edilməsi, münafiqliyə qarşı aparılan elmi mübarizənin ən əhəmiyyətli mərhələsidir, çünki münafiqlik gizlilik və hiyləgərlik üzərində qurulmuşdur. Gizli-gizli fəaliyyət göstərdiyini zənn edən münafiq bir hərəkatın, məntiqi və hərəkətləri üzə çıxanda hərəkət sahəsinin tamamilə ortadan qalxacağı məlumdur.

Bu kitabı oxuyarkən yaddan çıxartmamalıyıq ki, bir əhəmiyyətli xüsususiyyəti də Quranda münafiqlərin mövqeyi haqqındakı ayələrdir. Allah Quranda münafiqlərin yeri cəhənnəmin ən alt təbəqəsində olduqlarını, onları bağışlamayacağını və onları lənətlədiyini xəbər vermişdir:

**Sizə nə oldu ki, münafiqlər barəsində iki dəstəyə ayrıldınız? Halbuki, Allah onları etdikləri əməllərə görə geriyə qaytarmışdır. Siz Allahın azdırdığı kimsəni doğru yola yönəltməkmi istəyirsiniz? Allahın azdırdığı kimsə üçün heç bir yol tapa bilməzsən.** (Nisa surəsi,  88)

**Həqiqətən, münafiqlər odun ən aşağı təbəqəsində olacaqlar; və sən onlara heç bir köməkçi tapa bilməzsən.** (Nisa surəsi, 145)

**Allah münafiq kişilərə, münafiq qadınlara və kafirlərə içərisində əbədi qalacaqları cəhənnəm odu vəd etmişdir. Bu onlara kifayət edər! Allah onlara lənət etmişdir. Onlar üçün daimi bir əzab vardır.** (Tövbə surəsi, 68)

Buna görə müsəlmanlar münafiq xarakterli hərəkətlə qarşılaşanda qarşılarında Allahın xor və alçaq etdiyi, lənətlədiyi, cəhənnəm əzabı ilə müjdələdiyi bir varlıq olduğunu bilməlidir. Bu kitabdakı analiz və şərhlərin hər biri münafiq təhlükəsinə qarşı şüuru açıq olan hər müsəlman üçün çox qiymətli, hikmətli və əhəmiyyətlidir, Allahın izni ilə "münafiq hərəkatı"nın təsirsizləşdirilməsinə vəsilə olacaq.

## 1-Cİ SÖHBƏT
## 20 İYUL 2010-CU İL HARUN YƏHYA.TV

**ADNAN OKTAR**: Keçən dəfə münafiqlərdən danışdım, münafiqlər turşu tökülmüş soxulcan kimi qıvrılmağa başladılar. O saxtakarları çox yaxşı təsvir etdik, maşaAllah... **Münafiqin yemək yemək, yatmaq, evdə oturmaq, mənfəətini güdməkdən başqa istəyi olmaz.** Yalnız, öz düşüncəsinə görə Allahın varlığını ehtimal edərək – (haşa) Ondan qorxar. Beləəri müsəlmanların imani təzyiqlərindən xilas olmaq üçün müsəlmanların da dinsiz olmalarını istəyərlər, çünki əks halda vicdanları rahat olmur. Həmişə, özlüyündə "ya Allah varsa" düşünərək qorxar. Müsəlmanları da dağıdıb belə vəsvəsəyə salmaq üçün çalışarlar. Necə ki, it öz damını düşünürsə, münafiq də elə bir hiss duyur. Qoyasan ancaq getsin quyruğunu evə soxsun, yesin-içsin. Anasını, atasını, ailəsini sevdiyinə görə deyil, onları bir mənfəət maşını hesab edir. Çünki anası yemək bişirər, atası onu bəsləyər, digər ehtiyaclarını təmin edər. Onları mənfəətinə uyğun hesab edər, yəni sevdiyindən deyil. Münafiq əslində nifrət edər. Sən münafiqlərə aid ayələri aç, bir az da Qurandan izah edək. Oxu bir ayə, mən də şərh edim, inşaAllah.

**OKTAR BABUNA**: İnşaAllah. Şeytandan Allaha sığınıram.

**Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə öz aralarında xısın-xısın danışanları görmədinmi?** (Mücadilə surəsi, 8)

**ADNAN OKTAR**: "*Yaxşı, indi orada dayan. Nə anladın ayədən?*"

**OKTAR BABUNA**: *"Qadağan edilən şeyə dönənləri, yəni günaha, düşmənliyə və Peyğəmbər (s.ə.v)-ə qarşı üsyana dönənləri".*

**ADNAN OKTAR**: *"Bunlar məhz münafiqlərin xüsusiyyətidir,* ***xaincəsinə, gizli şəkildə yığıncaqlar təşkil edərlər.*** *Özlərini ələ vermədən, xəbərsiz, müsəlmanların xəbəri olmadan, quduz itlər kimi divarın dibi ilə sürünər digər münafiqləri tapar və onlara müsəlmanlar haqqında xəbər verər, müsəlmanların əleyhinə danışar. "Nə edək, necə məğlub edək, qarşılarını necə alaq, necə dayandıraq?" kimi fikirlərini bölüşərlər. Quran buna işarə edir, elə izah etdiyi də budur, inşaAllah".*

**OKTAR BABUNA**: **"... Onlar sənin yanına gəldikdə səni Allahın salamladığı kimi salamlamır..."** (Mücadilə surəsi, 8)

**ADNAN OKTAR**: *“Çox xain olarlar. Məsələn, "mən kitab paylayıram, İslamı yayıram" deyər. İslamdan, dindən bəhs edər ki, sən şübhə etməyəsən, rahat olasan, bax bu cür insanlardır, yəqin ki, sizə izah edə bildim. Bu bir maskalanmadır. Məsələn, özünü ələ verməmək üçün "Əssəlamünaleyküm, mən müsəlmanam əlhəmdülillah" deyər. Artıq orada kim varsa hamısı hörmət etməyə başlayar. Rəsulullah (s.ə.v)-in yanına gələrkən də hörmətlə baş əyərlər, amma çox xaindirlər. Rəsulullah (s.ə.v), səhabələr haqqında məlumat əldə etmək və onları küfrə xəbərləmək məqsədilə gələrlər”.*

**OKTAR BABUNA**: **"Və öz-özlərinə: “Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?” deyərlər. Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir...". (Mücadilə surəsi, 8)**

**ADNAN OKTAR:** *“Münafiqlərin ölçüsü belədir. Yəni əgər münafiqlik edirsə və “həqiqətən (haşa) Allah varsa” deyərsə bu sözü sadəcə başa düşmək üçün deyər. Lakin onun məntiqinə görə, (haşa) əgər Allah varsa dərhal onun bəlasını verməlidir. Bəla da gəlmədiyinə görə, onun məntiqinə görə, deməli "Allah yoxdur" deyər (haşa). Çünki, "dərhal bəlamı verməlidir" deyə fikirləşər. Halbuki, Allah onu gözlətdirir. O axmağa təsəvvür edilməyəcək dərəcədə şiddətli və sonsuza qədər davam edən bəla veriləcək. O axmaq kiçik bir şey gözləyir, çox kiçik bir şey. Ya başına bir odun düşəcək, ya xərçəng olacaq. Xərçəng onun üçün nədir ki, onun üçün sürünmək nədir ki? Cəhənnəmdəki əzabla müqayisədə bunlar heç nədir. Diqqət edin, əbədi cəhənnəm quyusunun ən dərinliyindədir, ən şiddətli əzab ilə əbədi olaraq orada qalır və oradan çıxa bilmir. Allah ona görə "xüsusi möhlət verirəm" deyir. "Əsla təəccüblənməyin" deyir, Allah müsəlmanlara bunu deyir. "Mənim onlara möhlət, imkan verməyimə görə əsla təəccüblənməyin" deyir. O axmaq orada murdar qarnını doyurar, murdar kimi oralara gedər sığınar, yeyər, içər, yatar, müsəlmanların xəbərlərini uzaqdan izləyər. Bir də müsəlmana nə pislik edə bilər ki? Münafiq tək olanda müsəlmanlardan çox qorxar, belə bir xüsusiyyəti vardır. Çünki müsəlmanların axirətdəki intiqamı Allahın diləməsi ilə əziyyətli deyilmi? Çünki Allaha şikayət edəcəklər və buna görə də alınan intiqam da çox əziyyətli olacaq. Ona görə çox qorxarlar”.*

**OKTAR BABUNA**: **"Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir.."** (Mücadilə surəsi, 8)

**ADNAN OKTAR**: *“MaşaAllah. Bax dediyimin açıqlamasıdır. Nə vaxt olacaq bilirsiniz? Məsələn, sığınıb deyər ki: "Məni filankəs qurtarar, atam, babam xilas edər". Sənin münafiqlik edən atan, baban iyirmi il sonra ölməyəcəkmi? Ayağını titrədən kimi quyunun içərisinə atacaqlar. Sən yenə ortada qalacaqsan. Sən də onlardan sonra öləcəksən, ayağını titrədəcəksən. Səni də 2 metrlik quyunun içinə atacaqlar, sonra münafiq sırası ilə birlikdə Allahın hüzuruna gələcəksən. Allah: "Orada yedin, içdin, qısa bir müddət ərzində*

*imkan qazandın, indi nə edəcəksən?" deyəcək. Təbii ki, Allah Təalanın sorğu-sual edəcəyəni mən bilmirəm. Təsəvvür edin ki, heç bir şey edə bilməyəcək. Sonsuz əzabın nə olduğunu bilmirlər, onu görəcəklər. Məsələn, yüz milyon il keçəcək, əzab bitməyəcək. Dörd trilyon il keçəcək yenə bitməyəcək. Yüz trilyon il keçsə də yenə də bitməyəcək. Min dəfə, milyon dəfələrlə peşman olacaqlar. Allah burada: "peşman olsunlar deyə acı çəkəcəklər" deyir. Allahı dərk etmirlər. Allahı (haşa) yaşlı bir baba kimi zənn edirlər, sanki onlar ağlayıb-zarıldayacaqlar, Allah da onları bağışlayacaq. Allahın bağışlamağı başqa, əlbəttə ki, Allah bağışlayandır. Amma bu, münafiqlərə aid deyil. Münafiq olaraq öldüsə, o adam yandı. Elə ağlamaqla, zarıldamaqla, saxtakarlıqla və s. heç bir şəkildə xilas ola bilməz. Allah etməyəcəyini deyir. Edib-etməyəcəyini isə görəcəksiniz, inşaAllah.* ***Allahın intiqam sahibi olduğunu görəcəksiniz.*** *Bütün insanların canını bir dəfə alar. Almırmı? Alır. Möminin isə canı rahatlıq və sevinc içində alınar. Peyğəmbərimiz (s.ə.v) nurlu üzü ilə göyə baxır və: "Cənabı Haqqa" deyir. Yəni Uca Dostu üçün eşqlə ölər, eşqlə ruhunu təslim edir. Əbu Cəhl it kimi gəbərərək, böyürə-böyürə öldü. Pis canını cəhənnəmə təslim etdi, inşaAllah".*

**OKTAR BABUNA**: İnşaAllah. Şeytandan Allaha sığınıram **"Əgər onlar sizinlə birgə döyüşə çıxsaydılar, sizə ancaq ziyan verərdilər... " (Tövbə surəsi, 47)**

**ADNAN OKTAR**: "*Bunlar sadəcə murdardırlar.* ***Bir dəfə də olsun qorxaq və alçaq olduqlarına görə işə yaramazlar. Din əxlaqını yaymazlar, gözəl əxlaq göstərməzlər, oyun oynayarlar, yalnız müsəlmanlardan mənfəət qazanmağa çalışarlar.*** *O da onun üçün xeyli ağır gələr. Münafiqlər həmişə ölüm qorxusu içindədirlər, heç vaxt rahat yaşaya bilməzlər. Əsl baş bəlasıdır, gedərkən müsəlmanlar rahatlaşarlar. Amma gedəndə də quduz it kimi orada hürər, sakit durmaz, mütləq bir problem çıxarar. Bir də axmaq kimi özlərinin azad olduqlarını zənn edərlər, halbuki, münafiq yalnız qədərində olanı edər, ondan başqasını bacarmaz. O azad şəkildə hər çür pislik edəcəyini düşünər. Halbuki, məsələn iki-üç, dörd-beş dəfə, neçə dəfə iş görəcəksə, ümumiyyətlə, nə edəcəksə artıq hər şey qədərində müəyyən edilib, taleyində nədirsə yalnız onu edə bilər, altıncını edə bilməz, istəsə də edə bilməz. O, yazılan üç-beş iş müsəlmanlara savab olaraq yazılanlardır.* ***Münafiqlər olmasa, müsəlmanlar çox az savab qazanarlar. Münafiq savab maşını kimidir, yağış kimi müsəlmanlara savab qazandırar. Böyük savab qazandırar.*** *Kafir də müsəlmana çox savab qazandırar, müsəlmana savab qazandırmaq onun vəzifəsidir. Məsələn, əgər müsəlmanın normal savabı bir millidirsə, münafiq o savabın hesabını kilometr qədər artırar. Yəni münafiqin qazandırdığı savab daha çoxdur. Aldığı günah kafirin etdiyi günahla müqayisə etmək olmaz, yəni kafirlə müqayisədə daha çoxdur. Çünki münafiq çox alçaq məxluqdur. Peyğəmbərimiz (s.ə.v)-in də dövründə münafiqlər vardır, onlar çox qorxunc və azğın idi".*

**Hz. Mehdi (ə.s) dövründə də hz. Mehdi (ə.s) camaatının da münafiqləri vardır. Onlar mehdiyyətin bərəkətidir, mehdiyyəti ucaldarlar. Münafiqlər olmasaydı, mehdiyyət**

**dar, məhdud qalardı. Böyük güc verir. Küfr, darvinizm, materializm mehdiyyəti ucaldır.** *Amma münafiqlik göyə ucaldar, münafiqliyin qeyri-adi gücü vardır. Yəni müsəlmanları savaba aparmaq, cənnətini parlaq etmək gücü vardır. Möminləri cənnətə sövq etdikcə, mütənasib olaraq özlərini cəhənnəmə daha da yaxınlaşdırarlar.* ***Yəni onları nə qədər cənnətə itələsələr, o qədər də özlərini cəhənnəmə apararlar.*** *Ona görə də münafiqlər müsəlmanlar üçün çox böyük xeyir və bərəkətdirlər, böyük ehtiyac mənbəyidir, yəni qan kimidir. Allah münafiqləri xüsusi olaraq yaradır, inşaAllah.*

**OKTAR BABUNA**: **"...və sizi fitnəyə məruz qoymaq üçün tez aranıza girərdilər. İçinizdə onlara xəbər aparıb gətirənlər də var. Allah zalımları tanıyır". (Tövbə surəsi, 47)**

**ADNAN OKTAR**: *Münafiqlər xəbər aparıb gətirərlər, yəni söz gəzdirərlər, onların etdikləri iş budur.* ***Ağılsız xəbər aparıb-gətirdikcə pislik etdiyini zənn edir. Halbuki, onunla müsəlmanları gücləndirir və gəzdirdiyi xəbər onların başına bəla olar.*** *Söz aparıb gətirməklə başqalarına tələ qurarlar, amma o tələyə özləri düşərlər. Elə bir xüsusi sistem var ki, onlar onu bilməzlər. Münafiqin əsas xüsusiyyəti Allaha inana bilmədiyinə görə özünün azad hərəkət etdiyini zənn etməyidir. Elə ona görə də münafiq münafiqlik edər. Yəni müsəlmanların qədərdə nədirsə onunla hərəkət etdiyinə inanmazlar. Onların o inancına məəttəl qalarlar. Özünü yüksək səviyyədə hiss etməsinin səbəbi də budur. Münafiqlər özlərini böyük, daha yüksəkdə görərlər.*

**OKTAR BABUNA**: **"...Allah zalımları tanıyır.** (Tövbə surəsi, 47) **İnsanların eləsi vardır ki, "Biz Allaha və axirət gününə iman gətirdik" deyərlər, halbuki, inanmış deyildirlər. (Guya) Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki, onlar, yalnız özlərini aldadırlar və fərqində deyillər. Ürəklərində xəstəlik vardır. Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də onlar üçün şiddətli bir əzab vardır".** (Bəqərə surəsi, 8-10)

**ADNAN OKTAR**: *"MaşaAllah. Ayəni bir daha oxu!"*

**OKTAR BABUNA**: **"İnsanların eləsi vardır ki, "Biz Allaha və axirət gününə iman gətirdik" deyərlər, halbuki, inanmış deyildirlər. (Guya) Allahı və iman gətirənləri aldatmağa çalışırlar."**

**ADNAN OKTAR**: *"Öz fikrinə görə elədir, yəni ağılsız başı ilə elə fikirləşir".*

**OKTAR BABUNA**: **"Halbuki, yalnız özlərini aldadır və (bunu) anlamırlar. Ürəklərində xəstəlik vardır. Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də onlar üçün şiddətli bir əzab vardır".**

**ADNAN OKTAR**: *Ayədə* **"...ürəklərində xəstəlik vardır"** *deyilir. Onsuz da onlar ümumiyyətlə, ruhi xəstə olurlar, cinsləri elədir. Amma müsəlman üçün münafiqə olan ehtiyac, çörəyə, suya olan ehtiyacdan daha böyükdür. Allaha çox yaxınlaşdırır. Darvinizm, materializm olmasa, kafirlər də, münafiqlər də olmaz. Fərz edək ki, hz. Mehdi (ə.s) çıxdı, nə olacaq? Yüz trilyon savab alacaqdınızsa, on savab alardınız. Yüz trilyon hara, on hara? Buna ehtiyac varmı?"*

**OKTAR BABUNA**: *"Bəli, var inşaAllah"*

**ADNAN OKTAR:** "*Davam et".*

**OKTAR BABUNA**: **"Halbuki, göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər anlamırlar.."** (Munafiqun surəsi, 8)

**ADNAN OKTAR**: "*Niyə başa düşmürlər? Çünki ağılsızdırlar, ağılları işləmir.* ***Onlar özlərini çox gözüaçıq zənn edirlər. Müsəlmanların boş işlə məşğul olduqlarını fikirləşirlər.*** *Gecə-gündüz çalışarlar, təbliğ edərlər, infaq edərlər, bir yerdə olarlar. Münafiqlər isə: "Qardaşım gələcəyini düşün, evlən, işində-gücündə ol, iş yeri aç. Özünü belə oturub dinə niyə bağlıyırsan" deyərlər. "Bax, mən nə gözəl bağçalarda gəzirəm, əylənirəm". Sən də gəz, əylən. İki metrlik quyunun dibinə düşəndə, üstün tamamilə örtüləndə sənə "gəl" deyəcəklər, elə deyilmi? Sən bunu görəndə baxarıq. Artıq orada çox şənlənəcəksən. Müsəlmanlar üçün olan şənliyə, Allah "mərasim" (ziyafət, yəni ürəkaçan mərasim) deyir, münafiqlərə aid olan mərasim isə bəla mərasimidir".*

**OKTAR BABUNA**: "İnşaAllah**. "Döyüşə getməyib arxada qalanlar Allahın elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər". (Tövbə surəsi, 81)**

**ADNAN OKTAR**: Məhz "oturub qalmalarına" deyir Allah. Bunlar evdə oturmağa çox sevinirlər. Yalnız evlə, yeyib-içməklə, yatmaqla, gəzməklə maraqlanarlar. Elə ancaq yeyib-içərlər, yatarlar, gəzərlər. Dərdi ancaq bunlar olar, ölmək də istəməz. Mümkün olduğu qədər çox yaşamaq istəyərlər. Təbii ki, müsəlman da uzun yaşayıb Allahın dinini yaymaq istəyər, amma bu dünya üçün deyil, axirətə bağlı olduğu üçün edər. Münafiqlər isə axirətə inanmadığına görə ölümü eşidəndə çox qorxarlar, heç vaxt ölmək istəməzlər. Amma münafiq üçün ev, sığınacaq, hər hansı bir sığınacaq çox əhəmiyyətlidir, təki müsəlmanlardan uzaq olsun. Müsəlmanları təhlükəli hesab edərlər. Uzaqdan xəbər almaq onun üçün çox əhəmiyyətlidir. Halbuki, ən böyük təhlükəyə özü girir, cəhənnəmə gedir, elə deyilmi? **Addım-addım cəhənnəmə yaxınlaşır. Cəhənnəmin qapısında növbəyə durub xəbəri yoxdur.** Çox ağıllı hərəkət etdiyini zənn edir. **Hər münafiq gözüaçıq**

**olduğunu zənn edir. Onları danışdırsan, onlarla söhbət etsən həddindən artıq çoxbilmiş olduqlarını görərsən.**

“Məsələn, Peyğəmbərimiz (s.ə.v) dövrünün Drar məscidinin bütün münafiqlərinə baxsaq hamısının, axmaq, çoxbilmiş, hörmətsiz olduqlarını görərik. Onların axmaqlığı, hörmətsizliyi Peyğəmbər (s.ə.v)-dən ayrı məscid qurmaqlarından görünür. Bunların hörmətsizliyinə, cəsarətlərinə diqqət yetirin: "Peyğəmbər (s.ə.v)-in qurduğu məscidə ehtiyac yoxdur, gəlin bizim (Drar) məscidinə. Gəlin bizim məsciddə namaz qılın" deyirdilər. "(Peyğəmbər (s.ə.v)-in məscidi) o qədər də yaxşı deyil, oradakı danışıqlar, söhbətlər də yaxşı deyil. Biz *peyğəmbərin izah etdiklərindən daha gözəl şeylər danışırıq, bizim yanımıza gəlin” deyirdilər. İndi bu adamlara nə deyəsən? Fərz edək ki, mən o dövrdə yaşayıram və mən o Drar məscidində olacaqdım... Cəsarətə bir baxın. Peyğəmbər (s.ə.v) söhbət edir. O gözəllər gözəli, dünyanın nuru söhbət edir, münafiq çıxır və hər çıxanı həyasızcasına, gizli şəkildə başını tovlayaraq yolunu azdırır. Münafiqin axmaqlığına bir bax. Özünü ələ vermədiyini zənn edir.* ***Münafiq həmişə elə gizli işlər gördüyünü və heç kimin bilmədiyini zənn edər. Halbuki, müsəlman onsuz da onu görər.*** *Səhv başa düşülməsin, münafiq gizli-gizli nə etsə də onsuz da üzə çıxar. Münafiq heç də gizli qalmır. Qəti diaqnoz qoya bilməsən də münafiqin əlamətləri vardır. Məsələn, qışqırar, qaynayar, bir yerdə durmaz. Qətran kimi qaynayarlar. “Onları müəyyən etmək olmaz” deyə bir anlayış yoxdur, əlbəttə ki, müəyyən etmək olur. Amma qəti olaraq diaqnoz qoymaq olmaz. Məsələn, birinə “sən münafiqsən” deyə bilmərik.* ***Lakin onları, qorxaqlığından, xainliyindən, hiyləgər işlərindən, Allahı xatırlamamaqdan, hər şeydən çəkinməklərindən, müsəlmanlara qarşı comərd davranmamaqlarından və s. tanımaq olur. Münafiqliyi hər yerindən bəlli olur”.***

**OKTAR BABUNA: "Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: “Bu istidə döyüşə çıxmayın!” dedilər" dedilər." (Tövbə surəsi, 81)**

**ADNAN OKTAR**: *"Bu istidə" deyirlər, bunların ağılsızlığını, axmaqlığını görürsünüz? “Bu istidə" deyərək, guya onların (möminlərin) halına yanır, sağlamlıqlarını qoruyurlar. Niyə belə edirsən soruşanda da, "sənin sağlamlığını düşünürəm, hava isti olacaq" deyə cavab verərlər. Sanki oradakılar bunu bilmir, haşa Peyğəmbər (s.ə.v) bilmir, (haşa) Allahı ağılsız bilirlər. Ya ailəni qorumağı, ya da sağlamlığı qorumağı, dini qorumağı bəhanə gətirərək belə əxlaqsızlıq edərlər. Aidiyyatı olmayan dəlillərdən istifadə edərlər. Guya Peyğəmbər (s.ə.v) havanın isti olduğunu bilmir. Düzdür, hava isti idi, amma uşaqları, qadınları, yaşlıları məhv edəcək bir sistem var idi. Şəhid edəcəkdilər, ismətinə, namusuna hücum edəcəkdilər. Belə bir vəziyyətdə isti, onların canının təhlükəsizliyi əhəmiyyətli idi? Amma o ağılsızlara görə isti daha çox əhəmiyyət kəsb edir və bunu bir kəşf etmiş kimi, yeni bir şey tapmış kimi izah edirdilər. Guya bunu müsəlmanlar heç bilmirdilər. Münafiqə qarşı nifrət, iman əlamətidir. Müsəlmanın ürəyində münafiqlərə qatı nifrət olar.* ***Bu nifrətimizi biz İslam əxlaqını yayaraq, Quran əxlaqını dünyaya hakim edərək, Türk-İslam***

*Birliyini quraraq, elmi inkişaf etdirərək, sənəti inkişaf etdirərək bəsləyəcəyik ki, münafiqin ürəyi iztirab çəkməkdən parça-parça olsun. Müsəlmanın zəfəri münafiqi pərişan edər.*

## 2-Cİ SÖHBƏT

## 30 İYUL 2010-CU İL HARUNYƏHYA.TV

OKTAR BABUNA: *Şeytandan Allaha sığınıram: "İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və axirət gününə inanırıq" deyərlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki, yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər*". (Bəqərə surəsi, 8-10)

ADNAN OKTAR*: "Bax, hələ bunu dərk etmirlər, yəni qavrama qabiliyyətlərində pozğunluq var.* **"Amma bunu anlamırlar"** deyir, yəni buradan da dəli olduğu aydın olur. Dəli deyərkən, beynində ölçü pozğunluğu nəzərdə tutulur, yəni qavrama pozğunluğu var, beyni xəstədir. Onsuz da Allah nə deyir?: **"Onların qəlblərində xəstəlik vardır və Allah xəstəliklərini daha da artırmışdır"***. "Dərk etməsində pozğunluq var, mühakimə etməyində yəni, qiymətləndirməyində pozğunluq var. Quran buna işarə edir. Yəni açıq düşüncəyə, ağıla sahib deyildir. Şeytani, fitnəkar, xəstə ağıla sahibdirlər".*

OKTAR BABUNA: **"Ürəklərində xəstəlik vardır. Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə onlar üçün şiddətli bir əzab vardır".**

ADNAN OKTAR: "Yalan danışmaq onsuz da münafiqin xüsusiyyətidir".

OKTAR BABUNA: **"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın elçisisən!" deyirlər. Allah da bilir ki, sən Onun elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar..." (Munafiqun surəsi, 1)**

ADNAN OKTAR: Yəni peyğəmbər olmadığına... Məsələn, hz. Mehdi (ə.s)-ın da qarşısına çıxıb, ona Mehdi olduğunu bildirəcəklər, lakin ürəyində nifrət bəslədiklərinə görə öz fikirləşdiklərinin tam əksini deyəcəklər. Onların müsəlmanların yanında verdikləri açıqlamalar, danışıqlarının hamısı planlı şəkildə olar. Həqiqətdə olduqca saxtakar və dəli olarlar, qərarsızdırlar.

OKTAR BABUNA: **"Sizə Allahın ayələri oxunduğu və Onun elçisi sizinlə olduğu bir vaxtda, siz necə küfr edirsiniz?..."** (Ali-İmran surəsi, 101) **"...Cihada qəti əmr verildiyi**

**zaman Allaha sadiq qalsaydılar, əlbəttə ki, onlar üçün daha yaxşı olardı".** (Məhəmməd surəsi, 21)

**ADNAN OKTAR:** Münafiq çox qorxaq, alçaq olar. Harada asanlıq varsa, harada yemək varsa, peyin böcəyi kimi oraya qaçar. Məsələn, peyin böcəyi istini sevməz, istidən qaçar. Həmişə leşin yanına gedər. Amma o leş qoxusu və leş yeməyi onları məhv edər. Yavaş-yavaş çürüyərlər. **Münafiqin münafiqlə birlikdə yaşaması, qədərdə Allahın yaratdığı bir xüsusiyyətdir. Lakin ikisi bir-birini yandıran bir sistemdir, münafiq münafiqi həmişə yandırıb yaxar.** Münafiqin üzünə baxdıqca bir-birilərinə acıq verərlər. Münafiqlər bir-birilərini əzən, çökdürən, yaşlandıran məxluqatlardır. Amma bir-birindən də ayrıla bilməzlər, qövm olaraq bir yerdə yaşayarlar. Məsələn, peyin böcəyi peyindən ayrıla bilmədiyi kimi münafiqlər də bir-birindən ayrıla bilmir. Onu fırladıb-tovlayıb yuvasına aparar, birlikdə olar, ayrıla bilməz. Sanki üstlərinə yapışmış bit gəzdirərlər. Bit kimidir, gedər özü kimisinə yapışar və gənə kimi onu əmərək birlikdə yaşayar. Təmiz, gözəl yerdə yaşaya bilməzlər, ölərlər. Mütləq quduz it kimi, qotur qurd kimi olacaq. Üstəlik xəstə, həm quduz olacaq. Bir sözlə zibil kimi olacaqlar və ancaq zibilinin üstündə yaşaya bilərlər.

**OKTAR BABUNA:** **"Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar..."** (Tövbə surəsi, 74)

**ADNAN OKTAR**: Haşa, münafiqlərdə həmişə Allahdan böyük olmaq istəyi vardır. Peyğəmbər (s.ə.v)-dən daha böyük olduqlarını, eyni zamanda hz. Mehdi (ə.s)-dan daha böyük olduqlarını, hətta (haşa) Allahdan da daha böyük olduqlarını fikirləşərlər. **Münafiqlər öz gizli aləmlərində Allahdan haşa nifrət edərlər, Ona kin bəsləyərlər. Peyğəmbər (s.ə.v)-ə qarşı da içlərində nifrət və qəzəb hissi vardır, haşa.** Amma bunu büruzə verməməyə çalışarlar. Çoxbilmiş, ağılsız, yuxarıdan aşağı baxmaq kimi hərəkətləri vardır. Allah ağıllarını almışdır. Ayənin son qismini oxu.

**OKTAR BABUNA**: **"...Allaha and içirlər ki, nalayiq sözlər deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar..."**

**ADNAN OKTAR**: Budur o təkəbbür hissi, Allahdan daha böyük olma arzusunda olarlar və küfrə düşərlər. Münafiqlərdə şirk, müşrik ruhu çox əhəmiyyətlidir. Məsələn, Quranı, Peyğəmbər (s.ə.v)-in şərhlərini qeyri-kafi hesab edərlər. O öz ağlına görə hərəkət etmək istəyər. Münafiqin içində Qurana qarşı nifrət vardır. Həmişə Qurandan kənar axtarar. Quran münafiqi yandırar. Qurandan uzaq olarlar. Baxar, əgər Quranda özünə sərf edən bir şey tapmadığı halda, dərhal müşriklərin izahlarında bir şey tapmağa çalışar. Ayədə də deyir: **"Nə sizdəndirlər, nə onlardandırlar".** Bir az müşriklərin fikrindən, bir az Qurandan yararlanır və qarışıq aləmləri yaranar. Qarışıq deyəndə Quranı tənzih edirəm, müşriklərdən alınan fikirlər qarışıqdır. Kabus kimi yaşayarlar. Rəsulullah (s.ə.v)-in sünnətinə qarşı da içlərində bir kin var.

**OKTAR BABUNA**: **"...yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir...." (Nur surəsi, 11)**

**ADNAN OKTAR**: Münafiqlər daim müsəlmanların arasından çıxarlar və bütün işləri yalan-palan olar. Amma özünü dürüst insan kimi göstərməyə çalışar. Özünün dürüst hesab etdiyi təbliğatı aparar. Lakin bir nömrəli saxtakardır. Bu münafiqin xüsusiyyətlərindəndir.

**OKTAR BABUNA**: **"Onlara: "Yer üzündə fəsad törətməyin!" – deyildiyi zaman: "Biz ki, ancaq xeyirxahlıq edənlərik!" deyirlər. Sözsüz ki, onlar fəsad törədənlərdir, amma bunu başa düşmürlər".** (Bəqərə surəsi, 11-12)

**ADNAN OKTAR**: Münafiqlər müsəlmanları ara qarışdırmaqla, ixtişaşla, fitnə ilə günahlandırarlar. Amma Allah deyir ki, əsl ara qarışdıran, fitnəçi onlardır, sadəcə bunu dərk etmirlər. Quran buna işarə edir. Münafiqdən "nə edirsən belə?" soruşanda, "müsəlmanlar fitnə-fəsad törədiblər orada, mən onu düzəltməyə çalışıram" deyə cavab verər. "Fitnəni, fəsadı da düzəldə bilmədiyim üçün məcburən ayrı bir məscidə getməliyəm" deyər. Məscidi də quduz itlərlə, qurdlarla qurur. Onlara bit kimi yapışıb orada yaşayır. **Məscid deyil o, şeytanın daxmasını qurmuş olur və şeytanın sığınacağına girmiş olur.**

**OKTAR BABUNA**: **"Möminləri qoyub kafirləri özlərinə dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki qüvvət və əzəmət tamamilə Allaha məxsusdur.."** (Nisa surəsi, 139)

**ADNAN OKTAR**: Münafiqlər kafirlərə, münafiqlərə sığınarlar. Məsələn, onların, bir ünvanı varsa, onlar üçün o çox əhəmiyyət kəsb edər. Hər hansı bir dünyəvi ünvan onlar üçün əhəmiyyətlidir. Onunla böyüyəcəyini, inkişaf edəcəyini zənn edər. Öz-özlərinə elə bir soy bağı qurarlar ki, onlarla öz-özünə öyünməyə başlayarlar. **Amma ən çox onlardan qidalanmağa, yararlanmağa can atarlar, onların yanında bit kimi, bir yerə dadanmış bit kimi yapışar və dayanmadan qanını sovurar.** Yaşadıqları budur. Amma özü kimi qurdların qanı da onlara zəhər kimi təsir edər, xəstələndirər, bərbadlaşdırar, çirkləndirər. Diqqət etsəniz, münafiqlərin üzünə bir zillət çökdüyünü, getdikcə çirkinləşdiklərini, pisləşdiklərini görərsiz və quduz it sürüsü kimi də bir-birlərindən ayrıla bilməzlər. Çox qəribədir. Münafiqin normal halda gedib kafirlərlə, müşriklərlə yaşaması lazımdır. Amma bunu edə bilmir, mütləq münafiq axtarır. Məsələn, it də elə gedib başqa bir varlıqla, canavarla və s. yaşamaz, mütləq itlə yaşayar. Bu qurdlar da mütləq özləri kimisi ilə yaşayar. Bir-birilərindən də ayrıla bilməzlər. Bu bir möcüzədir, Allahın hikmətidir. **Hər biri fərqli bir eqoizm və əzəmətlə bir-birinin pisliyini, yandırıcı işığını seyr edib yaşayarlar və bir-birlərini mənəvi cəhətdən məhv edərlər. Bir-birlərinə zəncirlə bağlanmış bir qrup kimi cəhənnəmə doğru çəkərlər. Cəhənnəmə sövq edilməyə hazır olarlar.** Dünyada da, cəhənnəmdə də bir yerdə olarlar.

**OKTAR BABUNA**: **"Sən onların bir çoxunun kafirlərlə dostluq etdiyini görərsən..."** (Maidə surəsi, 80)

**ADNAN OKTAR**: Müsəlmanlar baxan kimi bunu görərlər. Amma dostluğun mənbəyi xeyirdir. **Təkrar deyirəm, quduz itlərə niyə bit düşər? Onu sevdiklərinə görəmi? Əlbəttə ki, xeyr. Sadəcə qanını sovurmaq üçün, pisliyini yemək üçün ona yapışar. Ona görə ayrıla bilməz. Amma oradan da hökm verər, bit hökmü.** Quduz itin yaxşılığından, gözəlliyindən bəhs edər. "Niyə gəlmirsiniz? Müsəlmanlara burada quduz it var, gəlin qanını sovurun" deyər. Müsəlman isə onlara yanaşmaz, çünki onlardan iyrənər. Allah haram qıldığına görə onlara yaxın getməz. Müsəlman pislikdən iyrənər, ikrah hissi duyar, qanı-iliyi çəkilər, belə şeylərə baxa bilməz. **Müsəlman nuru axtarar, gözəlliyi axtarar, estetikanı, təmizliyi axtarar. Orada ruhu rahatlayar. Pislik içində yaşaya bilməz.**

**OKTAR BABUNA**: Şeytandan Allaha sığınıram. **"Onlar möminlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər..." (Tövbə surəsi, 10)**

**ADNAN OKTAR**: **Münafiq qohumluq bağlarını yalnız mənfəət əldə etdiyi halda qəbul edər.** Məsələn, quduz iti qohumu olaraq qəbul edər, həqiqi mömini qohum olaraq

qəbul etməz. Quran buna işarə edir. Münafiq imandan qaynaqlanan qohumluq bağını qəbul etməz. Yalnız mənfəətdən qaynaqlanan bağı qəbul edər. Ona görə harada mənfəət varsa, münafiq orada olar. Harada təhlükə yoxdur, orada olar**. Çünki bit quduz itin dərisində təhlükə hiss etməz, özbaşına rahat yaşayar. Zəhərlənsə, cəhənnəmə addım-addım yaxınlaşsa da fərqinə varmaz.** Qohumluq bağı onun üçün yalnız mənfəət xatirinə ola bilər. Mənfəətini təmin edən qohum onun üçün qohumdur. İmandan qaynaqlanan qohumluq bağı onu maraqlandırmaz. Amma Peyğəmbər (s.ə.v) ilə olan qohumluq bağını münafiqlər yalnız fürsət kimi istifadə edərlər. Peyğəmbər (s.ə.v)-in ailəyə qarşı olduğunu, qohumluğa qarşı olduğunu və ailəni qorumadığını iddia edərək, haşa, Peyğəmbər (s.ə.v)-ə ağıl verməyə başlayırdılar. "Evimiz açıq qalıb, uşağımız, anamız, atamız bizi gözləyir. Sən də bizi döyüşə təşviq edirsən, ailəmizdən ayrı düşməyə, cihad etməyə təşviq edirsən. Sənin yanında olmağımızı istəyirsən, amma ailəmiz orada başsız qalıb. Biz buna görə onların yanına gedirik, sən get müsəlmanlarla müharibə et. Sən cihad et, biz isə ailəmizlə yeyib-içib rahatlığımızı təmin edərək, yeyib-içib yataraq, elə yaşamaq istəyirik" deyirlər. Peyğəmbər (s.ə.v)-ə: "Sən ailəni qorumursan" deyirlər. "Amma bizim evimiz başsız qalıb" deyirlər. Buna aid Quranda ayə də var. "İndi biz ailəmizi qorumağa gedirik, bizə icazə ver, yəni ailə əldən gedir" deyirlər. "Sən isə dini qurtarmağa çalışırsan, İslamı yaşatmağa çalışırsan. Biz də ailəni qurtarmağa çalışırıq. Biz fərqli düşünürük. Sən isə bunu düşünə bilmirsən" deyirlər, Rəsulullah (s.ə.v)-ə, haşa. Münafiqlər belə ağılsızdırlar. Allahın dinini qurtarmaq əsasdır. Müsəlman aləminin ailəsini, dünya ailəsini xilas etmək əsasdır. Quduz itləri, qaşınan köpəkləri, münafiqləri xilas etmək əsas deyil. Biz küfrə təbliğ edərik. Amma münafiq müsəlmanlara, İslama qarşı döyüş elan etmişdisə, müsəlmanlar onların qanı, biti ilə qidalanmazlar. Onlara ikrahla yanaşarlar.

**OKTAR BABUNA**: "...Allah şahiddir ki, onlar yalançıdırlar.." (Tövbə surəsi, 107)

**ADNAN OKTAR**: "Təbii ki, yalan yalan danışıarlar".

**OKTAR BABUNA**: **" İnsanların eləsi də var ki, onun bu dünya həyatında danışdığı sözlər səni heyran edər. O, qəlbində olana Allahı şahid göstərər. Əslində o, ən qatı mübahisəçidir.." (Bəqərə surəsi, 204)**

**ADNAN OKTAR**: Münafiq çox xain, azğın düşməndir. **Özünü büruzə verməməyə, çox dürüst, dindar göstərməyə çalışır. Təsir etməyə çalışar, başqasını da özü kimi münafiq etmək istəyir ki, gələcəkdə Allahın intiqamından qurtula bilsin.** Ən qorxduğu şey münafiqin İslam əxlaqına hakim olmağıdır. Qısa müddətdə müsəlmanların

dağılmasını istəyər. Hz. Mehdi (ə.s)-a qarşı olan kinin, nifrətin kökündə də elə bu dayanır**. Halbuki, hz. Mehdi (ə.s) şəfqətli bir insandır. Əsl intiqamı Allah alacaqdır.** Amma alçaldılmaqdan qorxduqları üçün hz. Mehdi (ə.s)-ı yalançı çıxartmağa və hz. Mehdi (ə.s)-ın camaatını dağıtmağa çalışacaqlar. Bu zaman bəzi ağılsız insanlar onlara inanacaq. Buna görə də hz. Mehdi (ə.s) camaatının sayı həmişə az olacaq, 300-313 nəfər, bunu Peyğəmbərimiz (s.ə.v) -deyir. İnanan zəiflər də olacaq. Münafiqlər həmişə "gəl bizə qoşul" deyə çağırırlar, buna aid ayə də var. Dayanmadan "bizə qoşul" deyə xəbər göndərərlər. Ağılsız olanlara təsir edə bilirlər, amma münafiq bit təmizləyicisidir. "Burada quduz bir it var" deyir, bəsləndiyini bildirir. "Bit varmı? it biti. Əgər varsa uçsun gəlsin qanını sovuraq" deyir. Bit vardır-yoxdur onun xəbərini alar, o da dərhal oraya uçar. Müsəlmanlar da bu yolla bir pislikdən xilas olmuş olarlar. **Yəni münafiq bit təmizləyicidir, öz yanına çağırar. Müsəlmanlar da beləcə aralarındakı bitdən təmizlənmiş olarlar və müsəlmanların üzərində çirk qalmaz.**

**OKTAR BABUNA**: **"...Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görərsən..." (Əhzab surəsi, 19)**

**ADNAN OKTAR:** Münafiqlərin baxışında bir anormallıq var. Şeyx Nazim münafiqlərin baxışını çox gözəl tanıyır. O bunu başa düşər, baxar-baxmaz baxışlarından tutar. Mürşidlər də dərhal bunu hiss edərlər, hz. Mehdi (ə.s) da başa düşər. Böyüklər münafiqin baxışındakı pozğunluğu başa düşər. Xəstə olarlar. Bir möcüzədir, baxışlarında pozğunluq olar. Sən ayəni bir daha başdan oxu.

**OKTAR BABUNA**: **"... Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görərsən..."**

**ADNAN OKTAR**: Quran buna xüsusi olaraq diqqət çəkir. **Dəhşətli qorxu içərisində olarlar. Allah ayədə də həmişə mağara, sığınacaq axtardıqlarını deyir**. Onlarda həmişə bir ölüm qorxusu və rahatlıqlarının əllərindən getmə qorxusu vardır. Birdən yemək olmasa, birdən ölüm gəlsə, birdən yaralansa, birdən bir şey olsa deyərək daima qorxu, narahatlıq hissi keçirdikləri üçün öz fikrinə görə daha güvənli sığınacaq axtararlar və vəhşi heyvanın yuvasına sığındığı kimi bir daxmaya sığınarlar. Orada özlərini əmin, təhlükəsiz hesab edər, elə orada da yeməyini, içməyini təmin etməyə çalışar. **O pis xarakterinə görə də ətrafında da daim digər münafiqlərin çoxalmağını istəyər (özünü əmin-amanlıqda hiss etmək üçün). Çünki, münafiqin ən böyük qorxusu gələcək qorxusudur,** yəni intiqam alınmasından çox qorxar, həmişə bundan çəkinər. Peyğəmbərimiz (s.ə.v) dövründə də ən

böyük qorxuları o idi. Rəsulullah (s.ə.v)-in onlardan intiqam almağından çox qorxurdular. Həmişə insanlara: "bizə tərəf gəlin" deyirdilər, Drar məscidini qurmuşdular. Peyğəmbər (s.ə.v)-in əleyhinə danışırdılar, amma üz-üzə gələndə nəsə demirdilər. **Lakin qiyabi olaraq, haşa, Rəsulullah (s.ə.v)-in səhv yolda olduğunu deyirdilər. "Gəlin bizim məscidimizə" deyirdilər. Amma Allah indi onların hamısını cəhənnəmin ortasına atıb. Münafiqlərin yeri cəhənnəmin dibindədir.**

**OKTAR BABUNA**: Hz. Mehdi (ə.s)-ın münafiqlərə qarşı mübarizəsi, mücadiləsi ilə əlaqədar bir hədis var, inşaAllah.

***"Ümmətimdən bir camaat dayanmadan Allahın əmri ilə düşməni öldürənədək mübarizə aparacaq. Müxalifləri onlara heç bir zərər verə bilməyəcək. Bu hal qiyamətə qədər belə davam edəcək".*** *(Qiyamət Əlamətləri)*

**ADNAN OKTAR**: EvelAllah, evelAllah. Hz. Mehdi (ə.s)-ın ömrü uzundur inşaAllah. Tələbələrinin də ömrü uzun olacaq, inşaAllah. Qarşı-qarşıya bir mübarizə olacaq. Münafiqlər, müşrikləri kafirlərlə birlikdə, Axırzamanın o məşhur şəxsi və şəxsləri, hz. Mehdi (ə.s)-a qarşı var gücləri ilə mübarizə aparacaqlar. Hz. Mehdi (ə.s)-a qarşı İstanbulda bir xurafatçı, Mehdi əleyhdarı zühur edəcək. Bir topal vardır, o da Mehdi əleyhdarıdır, hz. Mehdi (ə.s)-a qarşı mübarizə aparacaq. Başqa insanlar da olacaq. Lakin qədərlərində olan vəzifəni yerinə yetirərlər və məğlubiyyət bunların hamısının qədərindədir, inşaAllah.

## 3-CÜ SÖHBƏT
## 31 İYUL 2010-CU İL KOCAELİ TV

**ALTUĞ BERKER**: “Xüsusi ilə üstündə dayandığımız bir mövzu var. Bədiüzzaman Həzrətləri bu haqda "cərəyani-münafiq (yəni münafiq hərəkatı)" -deyərək bildirib”.

**ADNAN OKTAR**: Çox əhəmiyyətli mövzudur. Küfr, dinsizlik hərəkatı demir, məhz münafiq hərəkatı deyir. Münafiq dünyanın ən alçaq məxluqudur. Münafiq daim müsəlman və təqvalı kimi tanınar. Peyğəmbərimiz (s.ə.v) dövründə 300-ə yaxın münafiq var idi, hətta 300-dən də çox idilər. Peyğəmbərimiz (s.ə.v)-ə qarşı ürəklərində böyük bir kin və qəzəb bəsləyərdilər. Amma sarıqları, cübbələri, saqqalları yerində idi. Münafiqlərlə aid ayə de.

**OKTAR BABUNA**: Şeytandan Allaha sığınıram; **"Şübhəsiz ki, o və onun nəsli sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Həqiqətən, Biz şeytanları iman gətirməyənlərin dostları etdik..."** (Əraf surəsi, 27)

**ADNAN OKTAR**: Yəni şeytan hər yerdə var, Allah bunu deyir. Hər yerdə müsəlmanları izləyərlər. Ona görə müsəlman tələsməməli, təmkinli və diqqətli olmalıdır. "Yerin qulağı vardır" deyə bir misal var, şeytanın adamları da hər yerdə olduğunu bildirir, yəni Allah “diqqətli olun” deyir.

**OKTAR BABUNA**: **"Orada möminlər imtahana çəkilmiş və güclü sarsıntıya məruz qalmışdılar. O zaman münafiqlər və qəlbində xəstəlik olanlar: “Allah və Onun elçisi bizə ancaq yalan vəd vermişdir” deyirdilər".** (Əhzab surəsi, 11-12)

**ADNAN OKTAR**: Hal-hazırda münafiqlərin əsas xüsusiyyəti budur. Hz. Mehdi (ə.s)-da da belə olacaq, deyəcəklər ki, "qardaşım, bu adam çıxdı, Mehdilik hüsnü-zənnimiz var idi, illərdir ki, fəaliyyət göstərir, bəs guya bu Mehdi idi?”-deyəcəklər. "Boş yerə ömrünüzü, gəncliyinizi sərf etdiyinizi başa düşmürsünüz? Dağılsın artıq!..." deyəcəklər. "Quduz donuzlar sizi gözləyir. Can verən donuzlar. Ağcaqanad kimi, özləri qurd olub, ağcaqanad olub onların üzərinə qonub qan sovuranlar kimi, "buyurun" deyərlər. Donuzun qanını sovurmaq üçün dəvət edər. Müsəlman nə deyər?: "Mən elə iyrənc murdarlıqlardan çox iyrənirəm" - deyər. "Sən burada o donuzun qanını sovurmağa

davam et, axirətdə də onun pisliyini və qanını sovuracaqsan. Mən isə Allah yolunda, Quranın əmri ilə sonuna qədər mübarizə aparacağam..." deyər.

Mehdiyyət İslam Birliyidir. Yəni Türk-İslam Birliyidir. Türk-İslam Birliyi üçün biz o yolda mübarizə apardıqdan sonra, onsuz da hz. Mehdi (ə.s) tələbəsi oluruq. Eyni savabı alarıq. Çünki istər hz. Mehdi (ə.s)-ın əlini öp və arxasınca get, istərsə də mehdiyyətin eyni üsulları ilə var gücünlə mübarizə apar. Hər ikisindəki savab eynidir, inşaALlah. **Diqqət yetirin, münafiq İslam, Quran yolunda fəaliyyət göstərməyə güc tapa bilməz, bunu bacarmaz. Münafiq yalnız müsəlmanları doğru yoldan azdırmaq üçün fəaliyyət göstərər.** Məsələn, məscid tikər, lakin İslam əxlaqını yaymaq, Quranı yaymaq üçün edə bilməz, yalnız müsəlmanların dağılması üçün edər. Taqəti çatmaz. Çünki kömək edəndə, İslam əxlaqını izah edəndə ən nifrət etdiyi hz. Mehdi (ə.s)-ın əsgəri (tələbəsi) olduğunu görəcək. **Allahdan bəhs olunanda danışmaz, bir söz belə deməz, çünki bununla hz. Mehdi (ə.s)-a kömək etdiyini başa düşər ona görə də heç danışmaz.** Təkcə müsəlmanları dağıtmaq üçün danışar. Məsələn, Qurandan danışarlar, yəni münafiqin Quran haqqında məlumatı yaxşıdır. Şeytan alimdir. Ayələri xeyli araşdırar. Amma bunu müsəlmanları dağıtmaq üçün edər. Məsələn, Drar məscidinin münafiqləri həmişə alim olublar, qeyri-adi alimdilər. Amma nə deyirdilər? "Peyğəmbər (s.ə.v) yaxşı insandır, gözəl insandır, Quranı bizə gətirdi. Biz burada onsuz da İslam əxlaqını yaşayırıq. 100 km uzaqda olsaq, Peyğəmbər yanımızda olacaq? Xeyr. Amma biz yenə orada bir camaat ola bilirikmi? Oluruq. Peyğəmbər (s.ə.v)-in məscidindən 200 m daha irəlidəyik. İstər 200 km, istərsə də 200 m, nə fərqi var. Gəl yanımıza, Peyğəmbər (s.ə.v)-i görmədən, ondan uzaqda bir olub İslam əxlaqını yaşayaq. ”Peyğəmbər: “yaxşı, gözəl"-deyir. Onlar isə: "Onun qadınlara qarşı rəftarını görürsünüz? Gör nə qədər qadınla evlidir, hələ cariyələri də var. Hz. Əli (r.ə) də çox qadınla evlidir, hz. Həsən (r.ə) də. Nəvələri də, Əhli-beyt də elədir. Gəlin, bu məsciddə davam edək, burada davam edək" deyirlər. Bu xainlər bunu qəbul edə bilmədilər, Peyğəmbərimiz (s.ə.v)-in vəfatından sonra bütün Əhli-beyti şəhid etdilər. Əhli-beyt düşmənləridirlər. Dərdləri nədir bilirsinizmi? Onların coşğusu, gücü, sevinci. Hz. Həsən (r.ə)-in çoxlu sayda evliliyi onların ürəyinə ox kimi batırdı. "Hz. Həsən (r.ə)-in "Həsən Müctəba (seçilmiş, qiymətli) babam, Taki (təqva sahibi), ağıllı, Tahir (çox təmiz), Sibt (nəvə)” kimi gözəl ləqəbləri vardır. Onun 90-100-ə qədər qadınla evli olduğu haqqında rəvayətlər vardır. "Aslanım mənim, igidimi görürsənmi? 90-100, bununla sanki münafiqləri ox vurdu. Dərdləri-sərləri budur. Təbii ki, mənim aslanlarımın əhli-qüdrəti, eşqi, coşğusu, ruhları Allah eşqi ilə coşubdur, Allahın təcəllisi olaraq, Allahın o gözəlliklərinə aşiq idilər. Kor olan o iblis komandası, onların sevgisini qəbul edə bilmədilər. O dövrün Şehruh adlı alimi bundan əlavə hz. Həsən (r.ə)-in 250-300 cariyəsi olduğunu bildirmişdir. Aslanım mənim, halal olsun, min dəfə halal olsun. Sonsuza qədər halal olsun. Bu haqda qaynaqlar həddindən artıq çoxdur. Hz. Mehdi (ə.s) də münafiqlərə

çox dağ çəkəcək. Hz. Mehdi (ə.s)-ın gücü, qüdrəti, sevinci, zənginliyi və bir çox şeyi münafiqləri özlərindən çıxardacaq, inşaAllah. Hz. Həsən (r.ə)-in 23 uşağı var idi, aslanım mənim, maşaAllah. "Hz. Əli (r.ə)-in də 9 qadınla evləndiyi bildirilir. Bu münafiqlərə od vurur. MaşaAllah babamın bu xanımlardan 14 oğlan, 18 qız uşağı olmuşdur. Münafiqlər sevgisiz, məhəbbətsiz olarlar. Nə qadın sevgisi bilməzlər, nə uşaq sevgisi, nə çiçək sevgisi bilməzlər, nə də heyvanlara qarşı sevgiləri olmaz. Ruhu, içi qurumuş iblis ordusudur".

**ALTUĞ BERKER**: "Peyğəmbərimiz (s.ə.v) hz. Mehdi (ə.s)-ın münafiqləri pərişan edənə kimi mübarizə aparacağını bildirmişdir".

**ADNAN OKTAR**: "Mənim aslanım, məğlub edici gücü ilə mübarizə aparacaq.

**ALTUĞ BERKER:** "Müxalifləri ona heç bir zərər verə bilməyəcək" deyir.

**ALTUĞ BERKER**: "İnşaAllah, münafiqlər hz. Mehdi (ə.s)-ın gücü və sevincindən, büzülmüş soxulcan kimi qıvrılaraq dərd çəkəcəklər".

**SERDAR DAYANIK:** "Əlhəmdülillah".

**ADNAN OKTAR**: Müsəlmanlıq inkişaf etdikcə münafiqlərin içinə ağırlıq çökəcək. Qəlbləri quruyacaq, yığılacaq. Allah, nə qədər münafiq varsa içlərini qurutsun.

**OKTAR BABUNA**: İnşaAllah.

**SERDAR DAYANIK:** Əlhəmdülillah.

**OKTAR BABUNA**: Bununla əlaqədar bir hədis var, müəllim, oxuyum?

**ADNAN OKTAR:** Bəli, oxu.

**OKTAR BABUNA**: Peyğəmbərimiz (s.ə.v) münafiqlərin hz. Mehdi (ə.s)-dan necə çəkinəcəklərini, qorxacaqlarını belə bildirmişdir: *"Bir çox insan Qurandan çox onun, hz. Mehdi (ə.s)-dan qorxduğuna görə günahlardan çəkinəcəklər".*

**ADNAN OKTAR**: Allahdan qorxmayan ondan qorxacaq...

Münafiqlərə aid ayələrlə davam et.

**OKTAR BABUNA**: Oldu, inşaAllah. Şeytandan Allaha sığınıram: **"Onlardan çoxunun kafirlərlə dostluq etdiyini görərsən..."** (Maidə surəsi, 80)

**ADNAN OKTAR: Münafiqin yeri, soxulcanlar necə heyvan peyinliyində yaşayar, münafiq da kafir peyni içində, münafiqlərin arasında,** soxulcan kimi zibilliklərdə yaşayarlar. Onların dostu onlardır. Mənfəəti orada tapdığı üçün oraya gedər. Rəsulullah (s.ə.v) dövründə bu əxlaqsızlar bu tərzdə idilər. Rəsulullah (s.ə.v)-in sevincinə, qayğıkeşliyinə, səmimiyyətinə həsəd aparırdılar, qısqanırdılar. Vəfatından sonra bu adamlar Əhli-beytə qudurmuş kimi hücum etdilər. Çünki əvvəldən kin bəslədiklərinə görə artıq qətiyyətlə hazırlaşmışdılar. Bu kin münafiqlərdə nəsilbənəsil, ondan-ona keçərək hz. Mehdi (ə.s)-a qarşı da davam etdi. Amma hz. Mehdi (ə.s) elə onların qarşı çıxdıqları insanlar kimi deyil. Nə darvinistlər, nə materialist, nə ateist, nə kommunistlər, nə münafiqlər, nə fırıldaqçılar, nə saxtakarlar hz. Mehdi (ə.s)-la bacara bilməz, onun öhdəsindən gələ bilməzlər. Allah ona qeyri-adi güc vermişdir. Cəbrayıl bir tərəfində, Mikayıl bir tərəfində, İsrafil də o biri tərəfindədir. Üç böyük mələk, Ulul-Azim mələklər onun yanındadırlar, eyni zamanda Allah onu on minlərlə mələklə qoruyur. Mühafizə altındadır, ona görə onunla bacara bilmirlər. Bütün hadisələr mehdiyyət istiqamətində inkişaf edir.

**ALTUĞ BERKER:** Hz. Mehdi (ə.s) haqqında belə deyilir: "Qaim (hz. Mehdi (ə.s)), bir qövmlə ortaya çıxacaq və Allah bu qövm vasitəsilə, onların elm qılıncları ilə haqqı qalib edib batili söndürəcəkdir".

**ADNAN OKTAR**: MaşaAllah, elm qılıncıdır bu. İnşaAllah.

**OKTAR BABUNA**: Münafiqlərin necə etibarsız olduqlarını Allah Quranda bildirir. Şeytandan Allaha sığınıram:" **Onlar əhd bağladığın kimsələrdir ki, sonra hər dəfə öz**

**əhdlərini pozur və heç nədən çəkinmirlər." (Ənfal Surəsi, 56) "Onlar möminlərlə münasibətdə nə qohumluq əlaqəsinə, nə də əhdə riayət etmirlər. Onlar həddi aşanlardır".** (Tövbə surəsi, 10)

**ADNAN OKTAR: Münafiqin qohumu mənfəətini ödəyəndir. İman qardaşlığını tanımaz. Münafiq yemək və pul haradan gəlirsə, oraya gedər**. İndi çirkli bir it təsəvvür edin, kim ona ət atsa onun qabağına qaçar, kim olduğu fərq etməz, yemi leş belə versə onun da qabağına gedər. Yəni münafiq elədir. Amma cəmiyyət arasında özünü ailəni qoruyan kimi göstərər. Peyğəmbər (s.ə.v)-ə ağıl vermək istəyirdilər, haşa. Peyğəmbər (s.ə.v) deyir ki: "gəlin cihad edək, təbliğə gedək". Onlar isə "Bundan da vacib olan işlər var" deyirlər. "Nədir?"-deyə soruşulur. "Ev başsız qalıb" deyə cavab verər. Evlə maraqlanarlar, yeyər, içər, yatar, gizlənərlər. Hələ Peyğəmbər (s.ə.v)-ə ağıl verməyə çalışırdılar, haşa. "Sən ailəni qoruya bilmirsən, mən qoruyuram, belə şeyləri mən başa düşürəm"-məntiqinə gətirib çıxardır. Halbuki, yalnız mənfəəti üçün, qorxaqlığından və xainliyindən bunu edər. **Ailəni sevdiyindən, kiməsə qarşı bir məhəbbəti olduğundan deyil. Əgər orada pul və mənfəət yoxdursa, münafiq heç vaxt oraya getməz. İstər babası, istər atası, istər qohumu, hər kimi olursa olsun, onlara da kin bəsləyər, əgər kasıbdırsa, pulu yoxdursa, nifrət edər**. Heç vaxt getməz. Belə vəziyyətdə münafiq yapışıb qalar, müsəlmanların yanında olmağa çalışar. Lakin bir pislik olduğuna görə Allah müsəlmanları təmizləyər, yəni qoruyar. Münafiqlər müsəlmanların üstündə bir kirdir. Müsəlman təmizləndikcə münafiqi üstündən atar. Məsələn, hər gün duş qəbul edəndə daha da təmiz olduğun kimi münafiq də elədir, hər yuyunanda münafiq silinər. Allah münafiqləri öldürsün. Allah ağıllarını alsın. Allah bəsirətlərini bağlasın. Allah bütün münafiqləri içdən yandırsın. Küfrə bir şey demirəm. Küfrə Allah hidayət versin və inşaAllah təbliğimizdən istifadə edərlər. Amma münafiqlər nicat tapmaz, hidayətə gəlməz, Allah onları öldürsün.

**ALTUĞ BERKER**: Müəllm, siz daha yaxşı bilərsiniz, inşaAllah, Peyğəmbərimiz (s.ə.v) “Qeybəti-Numanidə” belə buyurur: *"Hz. Mehdi (ə.s) bir müddət onlardan uzaqlaşacaq, beləcə dəlalət əhli ayrılacaq"*. Bununla əlaqədar cahil münafiqlər də belə deyirlər: "Allaha çatmaq üçün, Ali-Məhəmmədə, Peyğəmbərimiz (s.ə.v)-in nəslindən birinə ehtiyac yoxdur".

**ADNAN OKTAR**: Münafiqlər "Hz. Mehdi (ə.s)-a ehtiyac yoxdur" deyir. Peyğəmbərimiz (s.ə.v) deyir: Çünki münafiqlər həm Peyğəmbər (s.ə.v)-ə, həm, haşa, Allaha qarşı da çox kinlidirlər. **Münafiqlər də ağlasığmaz dərəcədə eqoistdirlər. Amma münafiq bunu biruzə verməməyə çalışar**. Məsələn, tək qaldıqda namazını qılmaz, yalnız müsəlman gördüyündə namazını qılar. Tək başına qalanda Allaha qarşı çox qəzəb hissi

duyar. Peyğəmbər (s.ə.v)-ə və hz. Mehdi (ə.s)-a qarşı çox kinli və qəzəblidirlər. Dini yalnız müsəlmanları ayırmaq üçün istifadə edərlər. Ona görə də din əxlaqını yaymaq üçün heç istifadə etməz, danışmaz. Çünki hz. Mehdi (ə.s) əsgəri (tələbəsi) olmaq ən çəkindiyi və qorxduğu mövzudur.

**SERDAR DAYANIK**: Bəhs etdiyiniz mövzu ilə əlaqədar yenə bir ayə var inşaAllah. Qovulmuş şeytandan Allaha sığınıram: **"Onlara: "Gəlin Allahın Elçisi sizin üçün bağışlanma diləsin!" deyildiyi zaman başlarını yelləyər və sən onların özlərini dartaraq üz döndərdiklərini görərsən".** (Munafiqun surəsi, 5)

**ADNAN OKTAR**: Budur, mümkün olduğu qədər uzaq durarlar. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in söhbətlərində iştirak etmək istəməzlər, üzünü görmək istəməzlər, evindən uzaq olmaq istəyərlər. Xainlər məscidə də Peyğəmbər (s.ə.v) orada olduğuna görə gəlməzlər. Üzünü görmək istəməzlər, Peyğəmbirimiz (s.ə.v)-in nuru onları yandırıb-yaxır. Rəsulullah (s.ə.v)-in nurundan yanarlar onlar....

**ADNAN OKTAR:** Məsələn, internetdə münafiq olduğundan şübhələndiyiniz kəslərə fikir verin. Onlar onsuz da bir it sürüsü halında olarlar. Mən küçədə gedərkən bəzən itlərin bir yerə yığıldıqlarını görürəm, amma onlar günahsızdırlar, yol üstündə toplu halında olarlar. Münafiqlər də o cür toplu şəkildə olarlar. Məsələn, facebookda baxın, görün münafiqlər heç Allahdan bəhs edirlər? Əvvəllər övliya kimi, Quran aşiqi kimi görünən, hz. Mehdi (ə.s)-a zəmin hazırladığını deyən münafiqlərin toplu şəkildə olduğu yerlərə bir baxın, Allahdan bir söz belə danışmazlar? Artıq bu oyunu, bu tələni qura bilmədilər. Yəni əslində müsəlmanları aldatmaq istəyirdilər, aldada bilərdilər, Allahın adından yerli-yerində istifadə edə bilərdilər haşa, amma Allah buna icazə vermədi. Bir söz deyə bilməmişdilər. İnanmadığına görə deməyən, ya da öz düşüncəsinə, eşitmədiyinə görə deməyən qardaşlarımızı tənzih edirəm. Mən onlara bir şey demirəm, mən münafiq dəstəsini nəzərdə tuturam. Əvvəllər dayanmadan Allahdan, Kitabdan, dindən, imandan bəhs edənləri deyirəm. Bir baxın internet saytlarına, Allahdan bir kəlmə də olsa danışmırlar. Məsələn, əvvəllər yüz nəfər münafiq bir yerdə dayanmadan Allahdan, dindən danışardılar, indi nə oldu bəs? Bəs övliya idiniz? Mücahid idiniz? Bəs darvinizmə, materializmə qarşı idiniz? Bəs İslam əxlaqını daha gözəl yaymaq üçün ayrılırdınız? Bəs çox yaxşı insanlardınız? Bəs Quranı ən gözəl şərh edən sizlər idiniz? Bəs müsəlmanlar səhv yolda idi? Ən yaxşısını siz bilirdiniz? Mən burada münafiqləri nəzərdə tuturam, bizlə əlaqəsi olan kəsləri deyil. İndi mənim bu bəhs etdiklərim aydındırmı? Bu xainlər bir "Allah" sözünü belə deyə bilmirlər. Allah icazə vermir. Çox böyük möcüzədir. Aldatmaq münafiqin xüsusiyyətidir, elə deyilmi? Ən azı öz düşüncəsinə görə bir şeylər

etməyə çalışar, bir söz deməyə çalışar, amma edə bilmir. Allah icazə vermir desin, ona görə deyə bilmirlər. Allahın adını eşidəndə ciyəri yarılar, ürəyi partlayar, çünki, axirəti xatırlayacaq, hz. Mehdi (ə.s)-ı xatırlayacaq, İslamı xatırlayacaq və buna görə də kefi qaçacaq. Münafiqlər Allahın adını çəkə bilmədiyinə görə özlərini isbat edirlər, inşaAllah.

SERDAR DAYANIK: Qovulmuş şeytandan Allaha sığınıram: **"Sən onlara baxdıqda bədən quruluşları xoşuna gələr, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanarlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər!".** (Munafiqun surəsi, 4)

ADNAN OKTAR: Allah onları lənətləyir. Allah münafiqlər üçün, **"Allah onları öldürsün"** deyir. Biz də Allaha dua edirik. Allah bütün münafiqləri öldürsün, İnşaAllah. Allah onları həlak etsin. Allah onların canını yandırsın. Ürəklərindən, içindən yandırsın. Allah onları batırsın, daxilən çökdürsün. İnşaAllah. İndi ayəni mənə cümlə-cümlə de açıqlayım. İnşaAllah.

SERDAR DAYANIK: İnşaAllah. **"Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir".**

ADNAN OKTAR: Məsələn, kənardan baxanda, adamların evi olar, avtomobili olar. Bura hər şey daxildir. Görünüşündən, paltarından, xarici görünüşündən bəzi insanlar onları məqbul bir insan kimi görər, sanki normal biri kimi qəbul edər.

SERDAR DAYANIK: **".. danışanda onların dediklərinə qulaq asırsan.."**

ADNAN OKTAR: Məsələn, münafiqlər adətən ayə ilə danışar. Yəni Quran ayəsi ilə danışar. İnsan əvvəl həqiqətən dürüst danışdığını zənn edər.

SERDAR DAYANIK:**"... Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər..."**

ADNAN OKTAR: Yəni adamın ruhu yoxdur. O qədər alçaq və o qədər boşdur ki, odun kimidir. Onsuz da baxışlarından da məlum olduğunu, yəni necə insan olduqlarını

baxışlarından, danışıqlarından da başa düşmək olduğunu deyir Allah. Ətdən, sümükdən bir odundur onlar. Odun var sellülozadan əmələ gələr, bir də ətdən, sümükdən meydana gələn odunlar var. Bu sümük odunu olmaq deməkdir. Harada mənfəət var, harada yemək var, yataq yeri var, harada sığınılacaq yer var o oradadır. Yəni bir heyvan, bitki davranışını göstərər. Məsələn, bir bitki nə istəyir? İnkişaf etmək istəyər, elə deyilmi? Böyümək istəyər, amma yerindən tərpənmək istəməz. Münafiqin də xüsusiyyəti elədir. Bir yerdə sabit qalıb orada kötük kimi inkişaf etmək istəyər. Bu qədər.

**SERDAR DAYANIK**: **"...hər bir səs-küyün özlərinə qarşı (öz əleyhlərinə) olduğunu sanarlar.."**

**ADNAN OKTAR**: Hər növdə danışıqları, yəni kənardan, daxildən, müsəlmanlardan, küfrdən, haradan gəlirsə, gəlsin, həmişə bir qorxu içindədirlər. Həm sağlamlıq qorxusu, həm ölüm qorxusu, dinsiz-imansız olduqları üçün də Allaha axirətdə hesab verə bilməyəcəklərini başa düşdüklərinə görə həmişə narahat olarlar. Çünki münafiqlər özlərini, haşa, Allahdan daha böyük hesab edərlər. Allahdan yalnız müsəlmanları aldatmaq üçün öz tərəflərinə çəkmək üçün bəhs edərlər. Eyni zamanda da Allahdan danışmaq istəməzlər, çünki danışanda depressiyaya düşürlər. Allahı heç eşitmək istəməzlər, müsəlmanların yanından qaçmaqlarının səbəbi də Allahı eşitmək istəmədiklərindən irəli gəlir. Allahdan bəhs etməmək üçündür. Amma müsəlmanlara təsir etmək üçün də tez-tez Allahdan bəhs edərlər. Öz düşüncələrinə görə müsəlmanları bu yolla öz ətrafına yığmaq istəyərlər. Müsəlmanları da özləri kimi odun və kötük edə biləcəyini düşünürlər.

**SERDAR DAYANIK**: **"Onlar düşməndirlər. Sən onlardan uzaq ol!".**

**ADNAN OKTAR**: Yəni fitrətində müsəlmanlara, Allaha qarşı, Qurana qarşı qəzəbli, kinli olarlar, onlara qarşı vuruşarlar, bunlar onların fitrətində olar. Amma təbii ki, bunu gizlədərlər. Xarici görünüşündən onları müttəqi, müsəlman zənn edərsən. "Onun xarici görünüşünə baxsan bəyənərsən" deyir Allah. Yəni ilk baxışdan bilmək olmur, amma düşməndir, özü də ağılsız, kötük düşməndir.

**SERDAR DAYANIK**: **"Allah onları məhv etsin, necə də haqdan döndərilirlər".**

**ADNAN OKTAR**: Onların ölməsi üçün dua etməyin lazım olduğunu Allah göstərir. Münafiqlərə hər namazda həlak olmaları üçün, Allahın onları həlak etməsi üçün dua etmək lazımdır. Hər müsəlman bunu etməlidir. Yalvararaq Allaha dua edəcəklər, bu da bir ibadətdir. Allahın onları daxildən yandırmağı üçün, mənəvi cəhətdən məğlub olmaları üçün, Allahın onlara ruhən əzab verməsi üçün, bədənlə əzab verməsi üçün, çökdürüb cəhənnəmə göndərməyi üçün dua etmək lazımdır. Quranın əmri budur.

**SERDAR DAYANIK**: Peyğəmbər (s.ə.v)-in onlar üçün bağışlanma diləməsinə görə, Peyğəmbər (s.ə.v)-ə dəvət olunanda, "**sən onların üz çevirməkdə olduqlarını görərsən**" ayəsini oxumuşdum. Onun davamı da vardı inşaAllah. Qovulmuş şeytandan Allaha sığınıram. **"Sən onlar üçün bağışlanma diləsəndə, diləməsəndə onlar üçün birdir".**

**ADNAN OKTAR**: Onsuz da onlar Allaha qarşı qəzəblidirlər, haşa. Amma münafiqin ağzı həmişə ayə ilə, hədislə açılar, Peyğəmbərimiz (s.ə.v)-dən bəhs edər, düzgünlükdən, dürüstlükdən, alicənablıqdan, namusdan, ailəyə itaətdən danışar, amma əslində çox xaindir, olduqca xaindir. Fürsət tapanda xainliyi üzə çıxar, amma xarici görünüşünə çox diqqət edər. Kənardakılara özünü büruzə verməməyə çalışar. **Hər münafiq öz dünyasında, iç dünyasında anormaldır. Ağla gələn hər sahədə anormaldır, hər sahədə namussuzdur, amma bunu büruzə verməz, yəni mənfəətinə görə hərəkət edər və bunu öz ağlına görə, öz məntiqinə görə istifadə edər.** Ailəyə düşkündür, amma ailəyə nifrət edər, çünki ailəni yalnız mənfəəti qədər sevər. Məsələn, münafiqin atası kasıb olsa nifrət edər. Anası kasıbdırsa nifrət edər. Zəngindirsə, onlara yaltaqlanar, yəni yemək, pul əldə edəcəksə, gedər onlara yapışar. Ana-ata deyərkən təbii ki, münafiq münafiqi seçir, əlbəttə ki, münafiq müsəlman ana-atanın yanına getməz. Valideynləri dindardırlarsa, dərhal onlardan uzaqlaşar. Allahı anmayandırsa onlara yaxın olar. Bunu həmişə deyirik, çirkli bir donuzu fikirləşin, necə gənə ona yapışıb onu təmizləyirsə, münafiq də gedər ona yapışar, ondan mənfəət əldə etmək istəyər, yəni qarşılıqlı mənfəət vardır, İnşaAllah.

**SERDAR DAYANIK** : **"... Allah onları bağışlamayacaqdır. Şübhəsiz ki, Allah fasiq adamları doğru yola yönəltməz."** (Munafiqun surəsi, 6)

**ADNAN OKTAR**: Ayədən məlum olduğu kimi, Allah münafiqlərə hidayət verməz, Allah onları bağışlamaz. Ona görə Allahdan onların həlak etməsini istəyirik. Kafirin qurtuluş imkanı var, amma münafiq bir mikrobdur, cəmiyyət mikrobudur. Lakin hamısı da təqvalı, dürüst kimi ortaya çıxar. Ən ağıllı olduqlarını bildirərək ortaya çıxarlar, bu çox mənalıdır, eyni zamanda təəccüblüdür. Məsələn, birbaşa kafir olduğunu deyib ayrıla

bilər, amma bunu etmir. Drar məscidini qurur, "biz daha təqvalıyıq" deyirlər. Münafiq uzun-uzadı ayə, hədislə özünü müdafiə edər.

**SERDAR DAYANIK: Qovulmuş şeytandan Allaha sığınıram: "Məhz onlar: "Allahın elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!" - deyirlər. Halbuki, göylərin və yerin xəzinələri Allahındır, lakin münafiqlər bunu başa düşmürlər".** (Munafiqun surəsi, 7)

**ADNAN OKTAR:** Münafiq pulu, mənfəəti alandır. Əsla paylamaz, ondan 5 qəpik belə çıxsa əziyyət çəkər. Ayəni hissə-hissə açıqlayaq.

**SERDAR DAYANIK:** Qovulmuş şeytandan Allaha sığınıram: **"Məhz onlar: "Allahın elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!" - deyirlər".**

**ADNAN OKTAR: Özləri pul vermədiyi kimi, imkan təmin etmədiyi kimi başqalarına da mane olarlar. Necə edir? Ayə, hədislə mane olmağa çalışır. Onlar çox saxtakardır, Allahı xatırlayaraq mane olmağa çalışarlar. Amma gəlin məqsədə diqqət edək. "Dağılıb getsinlər!" deyirlər, müsəlmanların parçalanmasını istəyərlər, çünki müsəlmanlar ayağa qalxmadıqca, münafiqin əzabının ardı-arası kəsilməz.** Bir nəfər müsəlman qalmayana kimi dağılmalarını istəyərlər, 3 nəfərin belə qalmağını istəməzlər. Hamısının dağılmağını istəyər. Çünki müsəlmanlara baxanda öz əxlaqsızlığını başa düşəcək. Müsəlmanların ona necə ikrah hissi ilə baxdığını biləcək, Allahın intiqam alacağını da bilir, amma, haşa, özünü Allahdan böyük hesab edir. Ona görə fikir edər, xəstə olar, beyni yoxdur, ağılsızdır, özünü çox ağıllı zənn edən ağılsızdır. Məsələn, Peyğəmbərimiz (s.ə.v.) söhbət etdiyi vaxt biri gizlincə aradan çıxar, heç kimin görmədiyini zənn edər, amma orada bir çox müsəlman var ki, onu görür və əlbəttə ki, Peyğəmbər (s.ə.v)-ə bunu xəbər verəcəklər. Çox ağılsızdır, özünü büruzə vermədiyini zənn edir, halbuki, bir çoxları onu görür. **Münafiqin vücudu açıq olar gözü isə bağlı, elə də gəzər. Arxası bütünlüklə açıqdır, gözünü də bağlasa heç kimin heç nə görmədiyini zənn edər. Yəni heyvan ağlına malikdir və özünü ağıllı bilərək hamıya ağıl verməyə çalışar.**

**ALTUĞ BERKER:** Başqa bir ayədə də Allah münafiqlər haqqında belə buyurur, şeytandan Allaha sığınıram: **"Onlar möminləri qoyub kafirlərlə dost olarlar".** (Nisa surəsi, 39)

**ADNAN OKTAR:** Kafirlər, dinsizlər, imansızlar, münafiqlər Allah zikr olunmadıqda rahatlaşarlar. İndi münafiqin yanında sən dindən, imandan danışsan onu yandırıb-yaxar, qıcıqlanar. Müsəlmanların yanından qaçmaqlarının səbəbi də budur. Allahdan danışanda narahat olarlar. "Namaza gəl" deyir Allah, amma onlar "ərinərək, qorxaraq gələrlər". Bir şeyini paylaşanda nifrət edərək edər, amma danışanda çoxbilmiş kimi danışar. Allah deyir ki, "danışanda ona qulaq asarsan". Xarici görünüşü də yaxşı olar, amma məxluq olaraq şeytanın bir təcəllisidir. Şeytanın bir insan şəklindəki görünüşüdür.

**ALTUĞ BERKER:** Ayədə Allah buyurur, şeytandan Allaha sığınıram: **"Əgər taqətimiz olsaydı, biz də sizinlə birlikdə çıxardıq!..."** (Tövbə surəsi, 42)

**ADNAN OKTAR**: Münafiq cəhd edilən vaxtda ara verər, istirahətə çıxar. Çox uzun müddət dözə bilməz, ürəyi sıxılar. Hz. Mehdi (ə.s) camaatında da, Peyğəmbərimiz (s.ə.v) dövründə də belədir. Məsələn, 10 il keçər, amma hələ hakimiyyət olmaz. Bu vaxt münafiq: "indi isə mənə icazə verin gedim" deyər. Məsələn, 20 il keçər, yəni münafiq var ki, 20 ilə dözər bu uzun müddətdən sonra: "mənə icazə verin, mən gedim" deyər. Eləsi də var ki, 3 il dözər, 4-cü ilə keçəndə artıq gücü çatmaz, çıxıb gedər. Uzun müddət dözməməkləri onların limit qoyduqlarını göstərir. Yəni vaxt keçdikcə başları dərddə olar. Əgər yol uzundursa, nəticəsi də hələ yoxdursa, "mənə icazə verin" deyər. Həm hz. Mehdi (ə.s) camaatında, həm də Peyğəmbərimiz (s.ə.v) dövründə bunları görürük. Bu hədislərdə də, ayədə də var. Ayədə **"Çıxacaqları yol onlara uzun gəldi"** deyilir. Çünki hər şey istədikləri kimi olmur. Vaxt uzanır, zaman uzanır. Onlar mallara, uşaqlara qovuşmaq istəyir, rahat olmaq istəyir. Cihadın (səy göstərməyin, elmi mübarizənin), təbliğin bitməsini istəyir.

**ALTUĞ BERKER:** Ayəyə davam edirəm. Şeytandan Allaha sığınıram: **"Amma yorucu məsafə onlara uzaq gəldi".**

**ADNAN OKTAR:** Çətinlik, münafiqin dözə bilmədiyi bir mövzudur. Münafiq kef, rahatlıq axtarar. Müsəlman da çətinliyi bir ibadət olaraq məhəbbətlə, sevinclə qarşılayar. Allah **"Hər çətinliklə birlikdə asanlıq vardır"** deyir. Allah yenə təkrar edir, şeytandan Allaha sığınıram: **"Hər çətinliklə birlikdə bir asanlıq vardır"** (İnşirah surəsi, 5-6). Çətinlik, hz. Mehdi (ə.s)-ın də qarşılaşdığı bir vəziyyətdir. Çətinlik dərəcəsi olmasa, imtahan da olmaz.

**ALTUĞ BERKER:" "Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!" - deyə Allaha and içəcəklər.... "** (Tövbə surəsi, 42)

**ADNAN OKTAR:** Burada münafiq Allahın adından istifadə istifadə edir. İnanmadığı halda istifadə edir, xain. **"Amma mənim qabiliyətim çatmır"** deyir. Bəs nəyə qabiliyyətin var? Saxtakarlığa, gəzməyə qabiliyyətin var. Yeməyə, içməyə qabiliyyətin var. Özünü möhkəmlədirmək üçün tədbirlər almağa qabiliyyətin çatır. Amma "İslam əxlaqını təbliğ etməyə qabiliyyətim yoxdur" deyir. Pul versən edərmi? Edər. Mənfəəti olsa edərmi? Edər. Mənfəəti olmadığına görə qabiliyyətinin də olmadığını deyər münafiq.....

**ALTUĞ BERKER:** Münafiqlərin qorxaq olduqlarını demişdiniz. Şeytandan Allaha sığınıram: **"... Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görürsən..."** (Əhzab surəsi, 19)

**ADNAN OKTAR:** Münafiqlərin canları özlərinə görə şirindir... **Münafiqin ən qorxduğu nədir bilirsinizmi? Allahın adının hər hansı bir yerdə yazılması. Allahın adını görəndə ağlına nə gəlir bilirsinizmi? Peyğəmbər (s.ə.v)-i fikirləşəndə ağlına nə gəlir bilirsinizmi? Hz. Mehdi (ə.s). Hz. Mehdi (ə.s) də ağlına gələndə münafiqin beyni zəhərlənər, pərişan olar**. Ona görə nə ayə görmək istəyər, nə Quran, nə də Allahın xatırlanmasını istəməz. **Çünki hz. Mehdi (ə.s) münafiqlərin kabusudur. Azan oxunanda, biri Bismillah deyəndə ağlına hz. Mehdi (ə.s) gələr. Məsələn, münafiq evdə Quran olmağını istəməz. Bundan sıxılar, Quranı görəndə hz. Mehdi (ə.s) ağlına gələr. Allah onları bütünlüklə əhatə etdi...**

**ADNAN OKTAR**: Münafiqlərin Axırzamanda yeganə eşitmək istəmədikləri söz nədir bilirsinizmi? Hz. Mehdi (ə.s)-dır. Yəni bu söz onların içini yandırar, ciyərini yandırar. Allah haqqında eşidəndə, Peyğəmbər (s.ə.v) haqqında eşidəndə, məscid görəndə ağlına hz. Mehdi (ə.s) gələr. Televiziyada həccdən bəhs ediləndə hz. Mehdi (ə.s) ağlına gələr. Hz. Mehdi (ə.s)-a görə dünya onlar üçün bir kabusa çevrilmişdir**. Allah onlara hz. Mehdi (ə.s)-ı əzab olaraq göndərmişdir, möminlərə isə müjdə olaraq göndərmişdir, inşaAllah.**

**SERDAR DAYANIK:** Siz hz. Mehdi (ə.s)-ın münafiqlərin kabusu olacağını dediniz, inşaAllah. Buna aid hədis var, əlhəmdülillah. Münafiqlərin bir xüsusiyyəti də siz daha yaxşı bilərsiniz, inşaAllah, Allahdan çox hz. Mehdi (ə.s)-dan qorxmalarıdır.

Əlhəmdülillah. “*çox insanlar Qurandan çox onun (Hz. Mehdi (ə.s)-ın) qorxusundan günahlardan çəkinirlər"* deyir.

**ADNAN OKTAR**: Allah onu da bir xeyir və hikmətlə yaradır, maşaAllah.

**ALTUĞ BERKER**: Hədisi-şərifdə münafiqlər haqqında belə deyilir: *"Ayrılanlar da müxaliflər də hz. Mehdi (ə.s)-a zərər verə bilməyəcək. O, ondan ayrılanlara baxmayaraq müzəffər olaraq (zəfərlə) yoluna davam edəcək".*

**ADNAN OKTAR**: MaşaAllah. Müzəffərdir (zəfər, qalibiyyət), aslandır. İnşaAllah.

**SERDAR DAYANIK:** Axırzamandakı, hz. Mehdi (ə.s) dövründəki münafiqlər "buğdaya düşən qurd"a bənzədilir, inşaAllah. Ən sonda da o qurdlardan geriyə qalan ən möhkəm buğdalar qalacağı deyilir, inşaAllah.

**ADNAN OKTAR:** MaşaAllah, maşaAllah. Deməli mübarək buğdalara tez-tez baxacaq... Münafiq hər zaman özünü müdafiə edərkən Quranla, hədislə müdafiə edər. Peyğəmbərimiz (s.ə.v) dövründə də münafiqlər özlərini Quran ayələri ilə müdafiə etməyə çalışırdılar. Hətta sonra Quranı şişlərinin ucuna keçirtdilər, bilirsiniz. **Münafiqlər belə xainlərdir. Quranı özünümüdafiə və zireh olaraq istifadə edər. Müşrikləri də, kafirləri də arxasınca gətirər.** Öz ağlına görə onunla hücuma keçər. Amma qədərində bunu onsuz da etməlidir, amma o, elə zənn edir ki, özü edir... Lakin münafiq müsəlmana Quranla təsir etməyə çalışar, amma dilini əyərək və saxtakarcasına, yəni mənfəətinə uyğun şəkildə etməyə çalışar. **Bu münafiqin əsas xüsusiyyətidir. Quranın açıq hökmlərini görməməzliyə vurur.** Məsələn, Peyğəmbərimiz (s.ə.v) dövründə insanları Drar məscidinə çağırırdılar və: "Allahın əmri təmizlikdir. Baxın, bura çox təmiz bir yerdir, buraya gəlin"-deyirdilər. "Və biz burada daha mükəmməl, daha yaxşı ibadət edirik, Peyğəmbər (s.ə.v)-i görürsünüz, qadınlarla vaxt keçirir" - deyirdilər. Mənim aslanım güclü idi, Peyğəmbərimiz (s.ə.v) güclü idi. Qurban olum mən onu yaradan Allaha. Ona üç şey sevdirildi. Namaz "gözümün nuru namaz" deyir, "gözəl qoxu və qadınlar" 100 qızım olsaydı hamısını ona verərdim, “halal olsun” deyərdim. Təbii ki, biri ilə evlənərdi. Amma 100 dəfə dünyaya gəlsəydim, 100 qızım olsaydı, Peyğəmbərimiz (s.ə.v) ilə evləndirərdim. Bunun əksini edəni dünyanın ən alçaq adamı olaraq görürəm. **Peyğəmbər (s.ə.v) varkən gedib başqası ilə evlənsə mənim qızım, mən onu ən alçaq adam sayardım. Onu övladlıqdan rədd edərdim. Mən onu insan gözündə görməzdim.** Münafiqlərə ən çox zülm verən nə idi bilirsinizmi?

**Rəsulullah (s.ə.v)-in gücü idi, sağlamlığı və sevincli olması idi, qadınlara qarşı düşkünlüyü, sevgisi, məhəbbəti idi.** Düşkün deyərkən, Allahın təcəllisi olaraq düşkün idi. Gülə, bülbülə, qadına düşkün idi. Düşkün deyərkən, arzulu, istəkli, sevən, xoşuna gələn, Allahın təcəllisi olaraq sevən idi. Bu əxlaqsızlar kimi əsl şəhvətdən qaynaqlanan, əxlaqsızlıq deyildi, olanların məntiqində deyildi Rəsulullah (s.ə.v)... Hal-hazırda mehdiyyətdən münafiqlər də, küfr də, dəccaliyyət də dəhşətli dərəcədə qorxurlar, qorxularından titrəyirlər, nə edəcəklərini bilmirlər. Çünki hara getsələr, (mənəvi cəhətdən) qırtlaqlarından tuturam.

**OKTAR BABUNA**: Dünya səviyyəsində, müəllimim, maşaAllah.

**ADNAN OKTAR**: “Hey, hara gedirsən”- deyirik, cizgi filmlərdəki kimi bir əyləc düzəldib dayanır, boynundan yaxalayırıq, sovurub atırıq cəhənnəmin içinə Allahın izni ilə. Yenə başqa yerdə tutub atırıq. Fikir verin, hz. Mehdi (ə.s)-ın işığını almış, hz. Mehdi (ə.s)-ın qabaqcılı olan, adi, hz. Mehdi (ə.s)-ın ayağının tozu olan tələbəsiyəm mən. Mən Oktar belə əzirəmsə, gör hz. Mehdi (ə.s) nə edəcək. Elə deyilmi? Münafiq müsəlmanın enerji qaynağıdır. Müsəlmanı (mənəvi) dəli edər, coşdurar, dəli kimi axan çay halına gətirər, şövqünü artırar, sağlamlıq, səhhət gətirər. Adrenalindir İnşaAllah, qüdrətə vəsilə olar. Münafiqləri tənqid etmək olduqca vacib məsələdir, izah edilməsi çox əhəmiyyətlidir, çünki birbaşa küfr deyil, **İslam aləmində ən böyük təhlükə münafiqlikdir.** Münafiq təhlükəsi var. Bədiüzzaman da: *"cərəyani-münafiq",* yəni münafiq hərəkatı deyir. "Cərəyanı-münafiqanəni dağıdacaq”, yəni münafiq hərəkatını dağıdacağını deyir—həm küfrü, həm də münafiq hərəkatını. Ona görə hz. Mehdi (ə.s)-ın vəzifəsi çətindir. Asan bir vəzifə deyil, inşaAllah. Siz bu ayələri hər dəfə oxuduğunuzda münafiqlərin beyni parça-parça olur. Amma bununla sakit olmayacağıq, əlbəttə, çox təfərrüatı ilə izah edəcəyik. Hədislərlə, ayələrlə izah edəcəyik. Dönə-dönə, təkrar-təkrar izah edəcəyik. Ən az darvinizmi izah etdiyimiz qədər bu mövzunun da izah edilməsi lazımdır. Olduqca vacib bir mövzudur, inşaAllah və günümüzdə tətbiq edərək izah edilməsi çox vacibdir. Peyğəmbər (s.ə.v) dövründəki münafiqlərin rəftarını çox əhatəli izah etməliyik, inşaAllah. O dövrdəki münafiqlərin həyatı həmişə yazılmışdır. Onları Peyğəmbərimiz (s.ə.v)-in həyatından götürülən nümunələrlə əhatəli şəkildə izah edəcəyik, inşaAllah. Amma əvvəl ayələrlə izah etməyə başlayaq. Çünki peyğəmbərimiz (s.ə.v) münafiqlərə görə çox çətin vəziyyətlərdə qalmışdır. Ən əziyyətli məxluqlar onlardır. Çox əxlaqsız insanlardır, övliya kimi, təqvalı kimi görünərlər, amma hər şeyə tamah salarlar. Çox alçaqdırlar. **Daxildə dinsiz, imansız, Allaha düşmən olurlar haşa, lakin müsəlmanlardan çəkindiklərinə görə, qorxduqlarına görə özlərini dindar kimi aparırlar. Buna qarşı da münafiqə aid ən vacib xüsusiyyət onun iç üzünü üzə çıxartmaqdır. Ona görə hərtərəfli izah etmək lazımdır.**

**Münafiqlər Quranın kafiliyinə inanmaz, Qurana inanmaz, xurafata tabe olar, ancaq xurafat axtarar.** Peyğəmbərimiz (s.ə.v) dövründə də həmişə xurafat axtarırdılar. Hz. Ömər (r.ə)-i niyə şəhid etdilər? Xurafata qarşı olduğuna görə münafiqlər onu şəhid etdi. Hz. Əli (r.ə)-i niyə şəhid etdilər? O da xurafata qarşı olduğuna görə, onları Quranın kafiliyinə inandıqlarına görə şəhid etdilər. Belə bir xain xüsusiyyətləri var. Hz. Ömər (r.ə) də, hz. Əli (r.ə) də tamamilə sünnətə tabe olan, Qurana tabe olan insanlar idi.

Münafiqlər möcüzəvi şəkildə təsir edə bilmirlər. Müsəlmanlara zərər verə bilmir, çünki qədərlərində yoxdur. Nə etsələr etsinlər yenə də zərər verə bilmirlər, etdikləri həmişə öz əleyhlərinə olur, hər qurduqları tələyə özləri düşür, bu möcüzə olaraq belədir. Onlar müstəqil olaraq yaşadıqlarını zənn edirlər, halbuki, onları istiqamətləndirən də, yaradan da Allahdır, sadəcə onlar bunu dərk etmirlər.

**OKTAR BABUNA**: **"Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir.."** (Ali İmran surəsi, 120). Amma Allah sonda hesaba çəkəcək, inşaAllah. **"Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsilər..."** (Mumtəhənə surəsi, 2). Yəni müsəlmanları ələ keçirtdikdə onlara hücum edərlər, düşmən olarlar, zülm edərlər. **"...Əllərini və dillərini sizə pisliklə uzadarlar..."** (Mumtəhənə surəsi, 2). Allah diqqət etsəniz əllərini və dillərini vurğulayır. Bu ifadəni hal-hazırdakı dövrümüzə aid etsək media, mətbuat yolu ilə, atdıqları böhtanlarla işarə etmək olar, Allahualəm. **"... Onlar sizin kafir olmanızı istəyərlər..."** (Mumtəhənə surəsi, 2). Yəni müsəlmanların da özləri kimi inkar etmələrini istəyərlər. İman etmələri və imanlarında qərarlı olmaları onları çox əsəbləşdirir, inşaALlah.

**ADNAN OKTAR**: Münafiqlər əslində, haşa, Allahı bəyənməz, Peyğəmbər (s.ə.v)-i, sonra imamları bəyənməz. Yəni onların xəstəliyi ordadır. Əslində Allaha qarşı qəzəblidirlər, bu hisslərini də Peyğəmbər (s.ə.v)-ə, yaxud dövrümüzdəki hz. Mehdi (ə.s)-a aid edərlər. Xəstəliklərinin əsl mənşəyi imansızlıqdan qaynaqlanır.

**OKTAR BABUNA**: Müsəlmanların arasında olduqları müddət ərzində də müsəlmanların arasını vurmağa çalışarlar. Quranda Allah belə buyurur, şeytandan Allaha sığınıram: **"Müsəlmanlara zərər vurmaq, küfr etmək, möminləri ayırmaq.."** (Tövbə surəsi, 107) Yəni möminlərin, insanların inkar etmələrini istəyirlər. Möminlərin arasını vurmaq, onları bölmək, parçalamaq, bir-birindən ayırmaq istəyirlər. **"..Əvvəlcədən Allaha və Onun elçisinə qarşı müharibə edən kimsəni gözləmək üçün məscid tikənlər "(Tövbə surəsi, 107)** Onlar, təhlükəli hesab etdikləri üçün Peyğəmbərimiz (s.ə.v)-in dövründə hz. Peyğəmbər (s.ə.v)-in yanından, hz. Mehdi (ə.s.) dövründə də hz. Mehdi (ə.s)-ın yanından

ayrılıb başqa bir yerdə sığınaraq, oradan onların mübarizələrinə, onların başlarına gələnlərə uzaqdan baxmaq istəyirlər.

**ADNAN OKTAR**: Onlara edilən hücumları kənardan izləmək istəyirlər, yanlarında olmaqdan qorxurlar, onlarla bir yerdə olmaq istəməzlər. Onlara da bir zərər gələr deyə, müsəlmanları uzaqdan izləyərək öz fikirlərinə görə hiyləgərlik etdiklərini zənn edirlər.

**OKTAR BABUNA:... "Məscid tikənlər, əlbəttə: "Biz yaxşılıqdan başqa bir şey istəmədik" – deyə and içəcəklər."** (Tövbə surəsi, 107) Çox yalançıdırlar. Guya bu şəkildə yaxşılıq istədiklərini, müsəlmanların yaxşılığını istədiklərini iddia edirlər, amma daxilən çox saxtakardırlar və çox böyük kin və nifrət hissi bəsləyərlər. Xüsusilə, hz. Mehdi (ə.s)-a və yanındakılara qarşı kinli olarlar. Peyğəmbərimiz (s.ə.v) dövründə də Peyğəmbər (s.ə.v)-ə qarşı belə idilər, inşaAllah.

**ADNAN OKTAR**: Münafiqlər bir-birlərinə də çox nifrət edərlər. Bir-birlərini çox alçaq hesab edərlər... Təbii ki, Quranda da var: **"... Onların qəlbləri dağınıqdır..."** (Həşr surəsi, 14). Ağlasığmaz dərəcədə nifrət edirlər. Çünki hamısı bir-birlərinin alçaq olduğunu bilir, lakin mənfəət əldə edəcəkləri üçün, mənafelərinə görə buna dözməli olarlar, amma necə küçə itləri bir-birlərinə yaxşı davranar, amma mənfəəti toxunduqda bir-birlərinə hücum edərlər, eləcə də canavarlar, lazım olsa bir-birlərini parçalayarlar, münafiq də o cür olarlar.

# 4-CÜ SÖHBƏT
# 1 AVQUST 2010-CU İL HARUNYƏHYA.TV

**ADNAN OKTAR**: Hər izahımızda təfərrüatları ilə Quranın bir sirrini öyrənmiş oluruq. Bir az daha dərinliyinə varırıq. Hər izah edəndə da Allah yeni hikmətlər bəxş edir... Məsələn, müsəlman alimləri də münafiqlər haqqında danışar, mən uşaqlığımdan bəri onları dinləyirəm, amma çox qısa izah edərlər. Bundan çox səthi, ötəri bir təhlükə kimi, insanların çox nadir qarşılaşacağı bir hadisə kimi bəhs edərlər. Şeytan, münafiq haqqında çox az danışarlar. Sanki nadir hallarda rast gəlinən hadisə kimi bəhs edərlər. Danışanda da bir neçə nümunəvi söhbətdən ibarət olar. Sanki bununla dərhal məsələ həll olur. Amma bu belə deyil, Allah yüzlərlə ayədə münafiqin təfərrüatlı şəkildə xüsusiyyətlərini bildirmişdir. Yüzlərlə ayə nə deməkdir? Çox əhəmiyyətli olduğu deməkdir. Diqqət edin, Peyğəmbər (s.ə.v) peyğəmbər olmağına baxmayaraq münafiqi tanımır. Ancaq Allah vəhy ilə bildirir. Yəni çox şeytani bir məxluqdurlar. Öz zəkası, ağlı ilə deyil, şeytanın təlqini, fikri ilə çox dəqiq iş görərlər. **Münafiq əslində ağılsız olur. Şeytanın əmri altına girmiş bir robotdur.** Ona görə təhlükəlidir. Şeytanın zəkasını istifadə edər, öz ağılından istifadə etməz. Münafiq ağılsızdır. "Boş (ağılsız) kötük kimidir" deyir Allah. Kötük, yəni adi bir kötükdür, amma o kötüyü şeytan istifadə edər. Onu danışdırar, ona nələrisə etdirər, onu müxtəlif yollara sövq edər. **Münafiqin mütləq müsəlmana ehtiyacı vardır. Kafirin müsəlmana ehtiyacı yoxdur. Amma münafiqin müsəlmana həmişə ehtiyacı olur. Ona görə münafiq eyni zamanda həm müsəlmanların dağılmasını istəyər, həm də istəməz.** Çünki dağılsa münafiqə də ehtiyac qalmır, yəni müsəlman dağılanda münafiq də olmur, həm də artıq kafir hökmünə girmiş olar. Müsəlmanların dağılmağını, İslam camaatının parçalanmasını fitrətən, ruhunda həmişə istəyər. Həm də özünün mühafizə olmağını istəyər. Qurana diqqətlə baxanda, ətraflı araşdıranda **münafiqin əsas dərdinin öz mənfəətləri ilə əlaqədar mövzularda sıx fəaliyyət göstədiyini görərik**. Məsələn, münafiq İslam əxlaqının dünyaya hakim olmağı üçün bir iş görməz. Bu məhz münafiqin əsas cəhətlərindəndir. Bu yolda heç bir iş görməz.  Bununla əlaqədar heç bir fikri, izahatı olmaz. Olsa da planlı şəkildə edər. Yəni sırf göstəriş üçün edər. **Çünki münafiqin, özünü müsəlman kimi göstərməyə ehtiyacı vardır. Buna görə də çox nadir hallarda olsa da, söz ucu da olsa İslam əxlaqının dünya hakimiyyətini guya istədiyini bildirər, amma əslində istəməz.** Çünki İslam əxlaqı onun mənəvi olaraq sistemini məhv edər. Münafiqi (mənəvi olaraq) öldürən, məhv edən bir sistemdir. Münafiq bunu özlüyündə hiss edər və buna görə də mehdiyyəti, İslam əxlaqının dünya hakimiyyətini heç vaxt istəməz. Münafiqin dərdi nədir bilirsinizmi? Ancaq özü üçün ələ keçirdiyi malının, tayfasının, imkanlarının, yəni yalnız mənfəətinin dərdində olar, yalnız bunun üçün çalışar. Ona görə bir şeyi verərkən ağılsız olduğu üçün, istəməyərək verər. Məsələn, malını, imkanlarını istəməyərək verər. İstəməyərək namaz qılar, itaət edər. İstəməyərək

hər cür imkanı təmin edər. Amma bu hal onu daxilən incidər, mənəvi olaraq çox böyük əzab-əziyyət verər. Artıq o elə dözülməz hala gələr ki, birdən partlayar və müsəlman camaatından ayrılar. Ayrıldıqdan sonra kənardan möminlər haqqındakı xəbərləri öyrənməyə başlayar. **Yəni münafiqin iblis ruhu getdikcə dərəcəsini artırar.** Özünü əvvəl itaət edirmiş kimi göstərər, amma çox hiyləgərcəsinə, vərəm mikrobu kimi özünü gizlədər. Vaxt ötdükcə rahatsızlığı və narahatçılığı ilə yavaş-yavaş özünü büruzə verməyə başlayar. Sonra hərəkətlərinə başlayar. Axırda da ayrılar. Orada da getdikcə dozasını artırar. Şeytanlığı və iblisliyi artmağa başlayar. Qurana baxsanız, görərsiniz. Ən yüksək mərtəbəyə kimi **ucalar və son mərtəbədə boğular. Yəni o şeytan onu orada artıq boğar.** Bütün nəfsi, bədəni artıq şeytanlaşdığına görə məhv olar. Ruhi pozğunluq yaşayar. Artıq iflic vəziyyətə qalar.

Bu mərhələləri Qurandan çox təfərrüatı ilə izah edərək gözəl bir əsər hazırlayıram—**"Quranda münafiq"**. Bizdə var, amma psixoloji cəhətdən analiz edilməyib, sadəcə birbaşa köçürülüb. Amma bu əsərdə biz psixoloji cəhətdən analiz də edəcəyik, yəni yaşadığımız həyatda, Rəsulullah (s.ə.v) dövrü, hz. Mehdi (ə.s) dövrü və əvvəlki dövrlərləri analiz edəcəyik. Müsəlmanların bunun qarşılığında necə davranması barədə əhatəli şəkildə hazırlayıram.

Bunun faydası isə müsəlmanların münafiqlərə qarşı daha güclü, daha cürətli və diqqətli olmağı, asan tanıya bilmələri olacaq. Yəni asan tanıya bilmələri üçündür. İndi məsələn, münafiqdən Habil-Qabil hekayəsində bəhs edilir. İki qardaş olublar, amma biri kafir, münafiq olub, o biri isə övliya və vəli olub. Allah elə yaradır. Məsələn, biri qatil, cinayətə meyilli, qanı sevən, manyak olur. Amma digəri vəli, məzlum, Allaha təslim olur. Quran Habil-Qabil hekayəsini xüsusilə ifadə etmişdir. Məsələn, hz. Nuh (ə.s) da belə buyurur: "**Ya Rəbbim, axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır"** deyir. **"Mənim oğlum"** deyərək oğlunu xilas etmək istəyir. Allah isə: **"o sənin ailəndən deyildir**" deyir. **Çünki münafiqin fikrinə görə ailə, genetik bağa əsaslanır. Qurana görə isə imana görədir.** Əgər iman yoxdursa, münafiqdirsə, o, artıq onun qardaşı deyil. Atası da, anası da hesab olunmur. Babası da, qohumu da deyil. Heç bir şeyi deyil. Yəni münafiq, kafir olanda qohumluq bağı ortadan qalxır. Birbaşa iman ilə əlaqədardır. Allah ona görə: **"Əsla cahillərdən olma, o sənin ailəndən deyildir"** deyir. Amma münafiqlərin qohumluq bağını axtardığını, yəni nəslə görə qiymət verdiyini Allah Quranda bildirir. Qohumluq bağını, yəni irqçilik fikri ilə qiymət verir. Allah **"Bu, hətta məzarları ziyarətlərinə qədər davam etdi" (Terkasur surəsi, 2)** deyir. Yəni onlarda irqə görə, genetik koda əsaslanır. Həm də, qan bağına görə bir inanc vardır. Ona görə oğlunu qurtarmaq istəyirdi. Ona görə münafiqlər qardaşlarına: **"bizə qoşul"** deyirlər. Yəni münafiq həmişə onun

arxasındadır. Uzaqdan seyr edər. "Bizə qoşul" deməkləri, digərlərinin də özlərinə bənzətməyə çalışmaqdan irəli gəlir. Amma orada yenə mənfəət qayğısı vardır. Çünki münafiq axirətə gedəndə, məsələn, cəhənnəmdə deyirlər ki, **"ananı, atanı, qardaşını fidyə olaraq vermək istərsənmi? O da verirəm"** deyir. **"Başqa? Dünyadakı hər kəsi fidyə olaraq verərəm mən"** deyir. **"Malımızı da verərəm. Yetər ki, mən xilas olum"** deyir. Münafiq belə bir məxluqdur. **Yəni qohumluq bağı onun üçün mal və mənfəət deməkdir.** Yəni bütün tayfa, Quranda bildirildiyi kimi: **"mallarınız, oğullarınız, qardaşlarınız, yarımçıq qalmasından qorxduğunuz ticarət, evlər"**. Diqqət etsəz "tayfa" nəzərdə tutulur, yəni **"atalarınız, qardaşlarınız, oğullarınız, övrətləriniz, yarımçıq qalmasından qorxduğunuz ticarət, hal-hazırda yaşadığınız evlər. Allahdan, Rəsulundan və Allah yolunda cihaddan daha xeyirli görürsünüzsə, gözləyin**" deyir Allah. Yəni Allah: **"bəlanızı verəcəyəm"** deyir. Yəni Allah əsas iş cəhd (elmi mübarizə), Allahın dinini yaymaq olduğunu ifadə edir. **"Allah, elçisi və Allah yolunda mübarizə",** yəni, cihad etməkdir. **Münafiqin də ən narahat olduğu şey cihaddır. Cihad etməyi heç sevməz.** Münafiq malın, mülkün qayğısına qalır. Əgər diqqət etsəniz, münafiqlə əlaqəli olan ayələrdə həmişə malla, mülklə əlaqədar olan ifadələr istifadə edilmişdir. Həmişə mülklə əlaqədar ayələrdən istifadə edilir və Peyğəmbər (s.ə.v)-in rahatlığı, zövqü, gücü və nəvələrinin rahatlığı, gücü onları çox yandırırdı, bu vəziyyətdə münafiqlərin ürəyi sıxılır. **Münafiq qadın düşmənidir, anti-qadındır**. Məsələn, bu Quranda çox ətraflı olaraq bildirilir. **Hətta qız uşaqlarını öldürərlər. Qadınlardan uzaq qalmaq üçün min cür yol və küfr tapmışdılar.** Bunlar münafiqin xüsusiyyətidir. Anti-qadındır. Müsəlmanlarda qadın məhəbbəti olur. Allah onları elə yaratmışdır, ona görə Allah belə buyurur: **"münafiq kişilər və münafiq qadınlar bir-birlərinin tayıdırlar".** Bir-birlərinə yaxın olarlar. Möminun və möminat, yəni mömin kişilər və mömin qadınlar da bir-birlərini sevəcək şəkildə yaradılmışdır. Yəni əti ilə, sümüyü ilə Allah bir-birini sevdirəcək şəkildə yaradır. Münafiqlər də peyin böcəyi kimi bir-birlərini sevir, necə ki, peyin böcəyi peyini xoşlayır. Anormal bir şeydir, amma heyvan kimidirlər. O da peyin böcəyi kimi onu xoşlayar. Yəni münafiqi xoşlayar. Peyin böcəyinin xüsusiyyəti nədir? Oxşar xüsusiyyət onda da olmağıdır. Yəni sevgiyə, mərhəmətə, şəfqətə əsaslanmaz. **Münafiqdə ancaq mal, mülk, eqoizm və əzəmət əsasdır. Bir eqoizm, iki itaət altında olmaz. Münafiqin ən böyük əziyyət çəkdiyi şey, şeytani istiqamətidir. Bu da itaətdən çox uzaq olmalarıdır. İtaət onlara əziyətli görünər. İtaət altında qalmaq istəməz.** Məsələn, Allah şeytana: **"insana itaət edəcəksən"** dedi. Münafiq qürurlu, təkəbbürlü olduğu üçün, yəni bütün münafiqlərdən olan əsas xarakter onda olduğu üçün, bu ona çox əziyyət verər. Çoxbilmiş və modabaz bir üslubla, haşa, dedi: **"Sən məni oddan, onu torpaqdan yaratdın"** göründüyü kimi çox ağılsızdır: **"Mən səcdə etməyəcəyəm"** dedi və Allaha itaət etmədi. **"Artıq fitnə ilə məşğul olacam"** dedi şeytan**. Münafiq də elədir. Baxın, şeytan ayrıldı. Allah ayırdı şeytanı, dərhal fitnəyə qoşuldu, vəzifəsi budur. Ondan başqa dərdi yoxdur. Münafiqin də əsas işi fitnədir.** Amma təbii özünü müttəqi kimi göstərir. Özünü elə tanıdır ki, hətta Peyğəmbər (s.ə.v) belə bəzən münafiq olduqlarını ayırd edə

bilmir. Allah: **"Mən onları sənə baxışlarından tanıtdıraram"** deyir. Həqiqətən də o**nların şeytani baxışları vardır. Mürşidlər, böyük alimlər, peyğəmbərlər Allahın izni ilə onları tanıya bilirlər**. Baxışlarında bir anormallıq olur, yəni qəribə baxışları var və Allah: **"(yersiz, xoşagəlməz) danışıqlarından da onları tanıyarsan"** deyir. Xoşagəlməz, yersiz danışıqları deyərkən Quranı və Allahı xatırlayaraq danışarlar. Dillərini əyib-bükərək, lazımsız yerlərdə istifadə edərlər. Dil əyib-bükmələri onların şeytani üsuludur. Peyğəmbər (s.ə.v)-in yanında **"sən Allahın Rəsulusan"** deyərlər. Halbuki, inanmaz, amma ehtiyacı olduğuna görə dilə gətirib deyər. Çünki Peyğəmbər (s.ə.v)-in yanına gəldikləri vaxt yaxşı biri kimi görünmək üçün **"sən Allahın Rəsulusan"** deməyi lazımdır. Münafiqlərin belə bir xüsusiyyətləri vardır. **Qadın düşməni olduqlarına görə də möminlərin qadınlara olan məhəbbəti onlara çox ağır gəlir. Gözəlliyə olan məhəbbəti qəbul etmirlər. Məsələn, zənginliyi, müsəlmanların gücünü, evlərinin təmizliyini, hakimiyyətini qısqanarlar. Müsəlmanların bir-birinə olan itaətini, hörmətini qısqanarlar.** Münafiq itaət etməyə nifrət edən məxluqdur. Özünü, haşa, Allah hesab edir. Ona görə itaətdən şiddətlə qaçarlar. **Sənətə, gözəlliyə, estetikaya düşməndirlər. Hz. Həsən (r.ə)-ə, Hüseyn (r.ə)-ə, Peyğəmbərimiz (s.ə.v)-ə qarşı kökündə də bu vardır**. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in evliliklərini qısqandılar. Hz. Həsən (r.ə)-in evliliklərini qısqandılar. Qadınlara qarşı olan məhəbbətini qısqandılar. Hələ saymaqla davam etmək olar**. Əgər küfrün kafir saytlarını, münafiq saytlarını açıb baxsanız qəzəblərinin hələ də davam etdiyini görərsiniz. Sakit durmazlar. 1400 ildən bəri o hirsləri hələ də soyumayıb.** Peyğəmbərimiz (s.ə.v)-in Zeynəb anamızla evliliyi münafiqlərin çox acığına gəlmişdir. **Çünki onların o fanatik, primitiv, o mühafizəkar fikirlərinə görə belə şeylər heç vaxt olmamalı idi.** Amma Allah onu ona bir nemət olaraq, gözəllik olaraq vermişdi. Tövratda da deyilir ki, Kral Süleyman Fironun qızını da alıb, nigaha girib. Eyni zamanda Moğollu, Emmovlu, Edonlu, Saydalı və Hittili bir çox xarici qadını sevdiyi deyilir. Hz. Süleyman (ə.s) onlara sevgi ilə bağlanmışdı. Diqqət edin, “sevgi ilə bağlandı” deyir. Hz. Süleyman (ə.s)-ın kral qızlarından 700 arvadı və 300 cariyəsinin olduğu bildirilir. Cəmi 1000 nəfər xanımı var idi. Aşiq idilər qadınlar, eşqlə, Allah eşqi ilə gəlirdilər, yəni bəzi ağılsızlar bunu saf şəhvətə aid bir məntiqlə yozurlar. Bu məntiq yalnız münafiqlərin və küfrün ağlına görədir. **Halbuki, Allah eşqinin təcəllisi olaraq hz. Süleyman (ə.s) bunu istəyir. "Ya Rəbbim, mən bu sevgini, bu varlıqların sevgisini Sənin rizan üçün istədim"** deyir. Buna aid Quran ayəsi dəə var. Məsələn, atları oxşayır. Boyunlarını sığallayır, oxşayır. Allah sevgisindən onlara sevgi bəsləyir. **"Atlara yaxınlaşır, boyunlarını sığallayır, oxşayır, ayaqlarını oxşayır"** deyir. Sarayı möhtəşəm idi, hər yer qızıldan hörülmüşdür. O dövrün münafiqləri "çox israf edirsən" deyirdilər. "Nə edirsən sən, hər yeri qızıldan düzəldirsən?" deyirdilər. Quranda da Allah tərifləyir. Çanaqlar (qablar), yerindən tərpənməyən iri qazanlar, heykəllər olan böyük bir saray tikdirdi. Allah ona nəsib etdi. Allah yaratdı. Amma bu, münafiqləri çox narahat etdi. Hələ dəə min illərdir ki, bundan danışırlar və dəfələrlə hz. Süleyman (ə.s)-ın o möhtəşəm məbədini yıxdılar. Dəfələrlə yıxıldı. Hz. Mehdi (ə.s) dövründə təkrar

qurulacaq, bərpa ediləcək. Hz. Mehdi (ə.s) babasının məbədini yenidən quracaq, inşaAllah. Hz. Süleyman (ə.s)-ın eyni ehtişam və eyni gözəlliyi ilə yenidən quracaq. Münafiqlər mənəvi cəhətdən yanıb-töküləcəklər, əziyyət çəkəcəklər, yəni onlara (mənəvi) iztirab çəkdirəcək, inşaAllah.

O dövrdəəki, münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in zənginliyini də qısqanırdı. Hz. Həsən (r.ə)-in özünəməxsusluğunu, sevgisinə də paxıllıq edirdilər, bu barədə dünən də oxumuşdum. Hz. Həsən (r.ə) "müştəba," Hz. Mehdi (ə.s)-ın babasıdır. "Ta ki (günahdan, haramdan uzaq olan), ağıllı, tahir, sıbt (nəvə) və 90-100-ə yaxın qadınla evləndiyi rəvayət edilir". Həm də 300 nəfər cariyəsi olduğu da rəvayət edilir. Halal olsun babama, min dəfə, milyon dəfə, sonsuz halal olsun. Bu münafiqləri çox narahat edirdi. Ona görə mallarını mülklərini əllərindən almağa, şəhid etməyə çalışdılar. Allah da onlara cənnət nəsib etdi. Yenə dayandıra bilmədilər və "Axırzamanda, mənim nəslimdən, mənim nəvələrimdən Mehdi bütün dünyanın mülkünə hakim olacaq" deyir. Münafiqləri pərişan edəcək, onlar üçün bu bir zülm olacaq. Hal-hazırda da münafiqlər yanıb qovrulurlar... Allah Nəhl surəsi, 58-ci ayədə münafiqlərdən və küfrdən bəhs edir: **"Onlardan birinə"**- yəni münafiqlərdən, küfr əhlindən birinə "**qız uşağının olması ilə müjdə verdikdə, içi qəzəbindən daşaraq üzü qapqara qaralar"** deyir Allah. Allah anti-qadın olduqlarını bildirir. Münafiqlər qadınlara nifrət edərlər. Ona görə onlardan uzaqlaşarlar. Yəni pozğun niyyətlidirlər. Diqqət edin: **"müjdə verdikdə içi qəzəbdən daşar, üzü qapqara qaralar"** deyir Allah.

Bu mövzuya aid bir çox Quran ayələri var, bunlardan biri də belədir: **"Onlara qız uşağının olması ilə müjdə verdikdə, içi qəzəbindən daşaraq üzü qapqara qaralar. Qəhrindən udqunduqca udqunar"** deyir. Yəni münafiqlərin çox böyük qadın nifrəti vardır. Bu küfrün xüsusiyyətidir. Müsəlmanda isə tam tərsinədir. Münafiq və kafir müsəlmanın qidasıdır.

Rəhmətlik Nəcib Fazil Qısa Kürək bu haqda nə deyir bilirsinizmi? "Ey düşmənim" - yəni- "Ey münafiq, ey kafir, sən mənim ifadəm və sürətimsən" deyir. "Səninlə sürətim çoxalır. Beynim açılır, qan vurur beynimə, şövqüm artır" deyir. Yəni "cəhdimin əzmi artar. Necə ki, gündüz gecəyə möhtacdır, mənə də sən lazımsan. Müsəlman münafiqsiz bir iş görə bilməz, inşaAllah.

## 5-Cİ SÖHBƏT
## 1 AVQUST 2010-CU İL, HARUNYAHYA.TV

**OKTAR BABUNA:** Münafiqlərdən bəhs etmişdik. Allah yolunda mallarını xərcləməkdən şiddətlə çəkinərlər. Buna aid Quranda ayələr var, inşaAllah.

**ADNAN OKTAR:** Ələ keçirdiyi malı belə geri almaq üçün çalışarlar. Münafiqi ən çox yandıran Allah yolunda mal sərf etməkdir. Ayədə bu keçir: **"istəməyərəkdən verərlər"** deyilir. Allah yolunda malını sərf etdikdə çox əziyyət çəkərlər. Elə bil ciyərindən, ətindən qopur.

**OKTAR BABUNA:** Dediyiniz kimi dinlə, imanla heç əlaqələri olmaz. Yəni İslam Birliyinin qurulması üçün, darvinizm, materializm üçün heç bir iş görməzlər.

**ADNAN OKTAR:** Bəli, münafiq haqqında soruşanda bunun haqqında heç danışırlarmı? Danışsalar, artıq hz. Mehdi (ə.s)-ın əsgəri olarlar. Bu haqda heç söhbət gedə bilməz. Əgər münafiq bir adama İslamı öyrətsə, bu zaman hz. Mehdi (ə.s)-a əsgər yetişdirər. Hz. Mehdi (ə.s)-a nifrət etdiyinə görə heç vaxt bunu etməz. O yalnız malının, mülkünün, tayfasının qurtarılması üçün çalışar. Amma Allah: "bir qohumluq bağı yoxdur"-yəni- "küfr içində olan, münafiq olan onsuz da sizin ailənizdən deyil" deyir. Münafiq bunu başa düşməz, ona görə də məzarları ziyarət etməyə gedər, atasının, babasının, atasına kimi olanların məzarlarını ziyarət edər. Münafiqin məntiqi səhvdir. Şeytani, iblisani məntiqi vardır. **O müsəlmanlara verilən nemətin qarşısını necə almaq barədə fikirləşər, müsəlmanların zənginliyi onlara çox əziyyət verər.** Ona görə Allah hz. Süleyman (ə.s)-a və hz. Zülqərneyn (ə.s)-a böyük zəngilnlik verdi, hz. Mehdi (ə.s)-a isə bütün dünyanı verəcəyini deyir və bununla bütün Allah münafiqləri pərişan edəcək. Münafiqlərin, kafirlərin dəfələrlə dağıtdığı, babası hz. Süleyman (ə.s)-ın məscidini bərpa edəcək. Yenidən təmir edəcək, inşaAllah.

**TARKAN YAVAŞ: "Möminləri qoyub kafirləri (özlərinə) dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki, qüvvət və əzəmət tamamilə Allaha məxsusdur" (Nisa surəsi, 139)**. İnşaAllah. Münafiqlər öz düşüncələrinə görə müşriklərin, münafiqlərin güclü və qüdrətli olduğunu zənn edirlər və onların yanına gedərək daha güclü olacaqlarını fikirləşirlər, buna görə də möminləri tərk edib gedirlər. Halbuki, Allah deyir ki, inşaAllah **"bütün güc və qürur möminlərə aiddir",** inşaAllah.

**ADNAN OKTAR**: MaşaAllah. **İndi münafiqlərin yanıldığı bir nöqtə var. Münafiqlər çox mala həris, xəsis və pis insanlardır. İndi münafiq münafiqin yanına getdiyində, o biri münafiqin malını mülkünü yeyəcəyini, hər şeyini alacağını fikirləşir. Halbuki, digər münafiq də onun kimi mal hərisidir, xəsisdir və buna görə hər zaman yanına gələn münafiqi əzər.** Ona görə Allah ayədə bir-birlərinə nifrət etdiklərini bildirir. O nifrətlə daha da pisləşər, əziyyət çəkər, çünki onun nəfəsinə görə bir cür əziyyət çəkər, murdar nəfəsinə görə bir başqa cür əziyyət çəkər, pis baxışlarından, murdar təəssüratından, pis danışıqlarından, murdar mənliklərindən bir başqa cür əziyyət çəkər. Hər bir pis xüsusiyyəti ona fərqli-fərqli əziyyət verir. Yəni onlar bir-birlərinə çox pis təsir bağışlayarlar. **Münafiq münafiqi yandırar. İkisi də bir-birini yandırıb-yaxar, qovurar.** Ona görə münafiqlər bir-birlərinin yanına ruzi-bərəkət tapacağını düşünərək, yəni mal, mülk əldə edəcəyini düşünərək gedər, bir-birlərini soymağa çalışarlarlar. Biri o birisindən mənfəət əldə etməyə çalışar. Məsələn, Əbu Cəhl o dövrün azğını, münafiqi, kafiri idi. Onun yanına başqa münafiqlər gəlirdi, o da onlardan istifadə edirdi, yəni pisliyini təmizlətdirirdi, özünə xidmət etdirirdi, kölə kimi işlədirdi, amma bir qəpik də verməzdi, çox alçaldırdı.

# 6-CI SÖHBƏT
## 2 AVQUST 2010-CU İL, Adıyaman Asu TV

**TARKAN YAVAŞ:** Allahın yad edilməsindən çox narahat olarlar. Amma diqqəti cəlb etməmək üçün dillərinin ucu ilə Allahı xatırlayarlar. Bu cür haşa, sırf Allahı anmış olmaları üçün Allahın adını zikr edirdilər.

**ADNAN OKTAR:** Xeyr, müsəlmanlara elə görünmək üçün edirdilər. Çünki birbaşa dinsiz olduğunu desə, danışmağa bir şeyi qalmaz. Müsəlmana hücum etmək, nəyisə demək üçün əvvəl təqvalı olduğunu iddia etməlidir, yəni özünü mömin kimi göstərmək məcburiyyətindədir. Bu münafiqin pərdələndiyi bir örtükdür. **Yəni bilinməməsi üçün zahirini münafiq ayə, hədislə pərdələyər. Necə məsələn, QİÇS virusu, tanınmamaq üçün xüsusi bir zülalla özünü bürüyür, hüceyrəyə girir.** İndi haşa bənzətmək kimi olmasın, Quranı tənzih edirəm, münafiq də özünü Quranla, hədislə örtər, büruzə verməməyə çalışar ki, müsəlmanlarla savaşa bilsin. Çünki başqa cür müsəlmanın qarşısına çıxsa, müsəlman: "sən onsuz da dinsiz, kafir olduğunu açıq şəkildə bildirirsən, mənimlə nə danışacaqsan?" deyər. Amma münafiqlə üz-üzə gəldikdə, münafiq normal müsəlman kimi olmasa da, müsəlmana: "sən də normal bir müsəlmansan, mən də bir müsəlmanam"- deyər və bu zaman müsəlman danışacağı bir şey olmadığını düşünə bilməz, çox iddialı da olmaz. **Münafiq çox iddialı ortaya çıxar. Yəni ən ağıllı, övliya, ən yaxşı bilən, hər şeyi çox yaxşı qavrayan, hətta özünü o qədər yuxarı tutar ki, Peyğəmbər (s.ə.v)-dən də özünü üstün sayar, əsl dünyasında da özünü haşa Allahdan üstün sayar.** Özünü Allahdan daha mərhəmətli, daha ağıllı, daha doğru düşünən olaraq görər. **Münafiqin əsl dünyası belədir. Diqqət etsəniz bütün münafiqlərin hamısının özünü ağıllı hesab edən və çox bilmiş olduğunu görərsiz.** Dərindən fikirləşsək, tarixə baxsaq, görərik ki, hamısı həddindən artıq bilmişdirlər. Hər şeyi çox doğru bildikləri qənaətindədirlər. Düzgün diaqnoz qoyduğunu, düzgün anladığını düşünər və dini də ən yaxşı anlayan iddiasındadır. Yəni Qurana tam hakim olduğunu fikirləşirlər. Əsri-Səadətdə Rəsulullah (s.ə.v) dövründə, Drar məscidinin münafiqləri öz ağıllarına görə həmişə alim idilər. Yəni guya Quranı ən yaxşı bilənlər onlar idi. Haşa, Peyğəmbərimiz (s.ə.v)-ə, səhabələrə Quranı öyrətməyə çalışırdılar. **Həddindən artıq çoxbilmiş, lovğa, təkəbbürlü, itaət etməyən, azğın, şeytan və iblis xarakterli idilər. Yəni şeytanın insan modelidirlər.** Şeytan tipik münafiqdir. İlk baxışda sanki şeytana baxırıq. Mərhələlərə diqqət edin, o da əvvəl müsəlmanlarla birlikdə cənnətdə yaşayır. Sonra çoxbilmişliyi ortaya çıxır, münafiq xarakterli olduğuna görə: "sizə əbədiyyət ağacını və sonsuz olmağı, sonsuz mülkü sizə öyrədəcəyəm" deyir, yəni haşa Allahdan üstün olduğunu, Allahdan fərqli bir məlumata sahib olduğunu və onlardan da ayrı bir məlumata sahib olduğunu iddia edir.

Artıq bir anormallıq, yəni müsəlmanları öz iblis ruhuna çəkmə meyli var, müsəlmanları da özü kimi etməyə çalışır. Müsəlmanları məhv etməkdə qərarlıdır. Allah deyir ki, Allah (şeytanın) təkəbbürlüyünü bildiyi üçün "Adəmə səcdə et" deyir. Münafiq olduğuna görə sanki başına isti su tökürlər. Onsuz da itaət ona ən çətin gələn məsələdir, Allaha itaət etmək də ona çətin olar. Amma o vaxta kimi bunu bildirməmişdir. O vaxta qədər bu hissi gizlətmişdir. Amma "Adəmə səcdə et" deyiləndə iç üzü açılır. **Münafiqin ayrılma nöqtəsi vardır. Münafiq dözər, dözər birdən bağırsaq kimi qopar.** Əvvəlcə bir şey etməz. Yəni onun müqavimət göstərmə nöqtəsi vardır. Allah ən həssas nöqtəsindən onu vurur. Ona görə Allah münafiqləri ayırarkən həmişə onları dözməyəcəkləri nöqtəyə gətirib, oradan qoparar. Müsəlman camaatında bu belədir. Onların dözməyəcəkləri bir nöqtə vardır. Həssas yerindən vurulmuşdur. Ona görə artıq münafiqliyini elan edir və müsəlmanlardan ayrılıb fərqli bir mövqedə dayanar. Allah onu ən həssas yerindən vurar, Allah: "səcdə edəcəksən" deyir. Dərhal o lovğa, axmaq başıyla "məni oddan, onu isə palçıqdan yaratdın"-deyir. Sanki, Allah bilmir kimi nədən yaradıb, haşa. Ağılsız olduğuna görə: "mən ondan daha üstünəm, mən ona səcdə etmərəm" deyir və itaətsizlik göstərir. Çünki itaət etmək münafiqə ən çətin olan, dözə bilmədiyi mövzudur. **Münafiq heç kimə itaət etmək istəməz. Dikbaş və bölünməyə, parçalanmağa meyillidir. Müsəlmanlarda birləşdirmək vardır. Münafiqdə isə parçalamaq, ayırmaq meyli vardır.** Daima dağıtmaq, parçalamaq və mülk sahibi olmaq meyli vardır. Diqqət edin, deyir: "sizi sonsuz bir mülkün sahibi edim?" Hz. Adəm (ə.s) və hz. Həvvanı da məhz o damarından tutmağa çalışır. Çünki öz problemi də onun sonsuz mülk sahibi olmaqdır. Mal həvəsi var və itaət etməzlər. Özü itaət etmədiyinə görə, onların da itaət etməyini istəmir. Onları da itaətsizliyə çəkir, əsas məsələ də budur. Bir də ki, axirətə getdiyində: "mən Allahdan qorxuram" deyir, dəliliyindən belə ağlasığmaz cavablar verir. Əgər Allahdan qorxursansa bəs niyə bunları edirdin? Bu hərəkətlərin səbəbi nə idi? Belə ağılsızdır. Gözlənilməz hərəkətlər edər. Birdən-birə: "mən Allahdan qorxuram, siz özünüz gəldiniz" deyir. Bütün ömrü boyu insanları yoldan çıxartmağa çalışır və sonda da: "Mən belə bir şey etmədim" deyir. Şeytanın axmaqcasına özünü müdafiə sistemi var.

Münafiqlər də belədir. "Mənim belə bir iddiam yox idi. Mən yalnız dəvət etdim siz də gəldiniz, mən Allahdan qorxuram" deyər. Yəni ağılsızdır. Dünyada olarkən bu ağılsızlığı etmədinmi? Sənə bir müddət verilmədimi? Baxın, münafiqlərə, tarixə şeytanla eyni xüsusiyyətdə olduğunu görərsiniz. **Münafiq şeytanın ən güclü təcəllisidir. Küfrə daha zəif təcəlli edər. Çünki küfrdə mərdlik vardır, küfr əhli fikrini açıq şəkildə bildirər. Şeytan isə mərd deyil, xaindir.**

Bu cəhətdən fərqlənirlər. Ona görə münafiq cəhənnəmin ən dərin yerindədir. Şeytanlarla birlikdə həşr edilirlər. Quranı araşdırdığınızda bunu görərsiniz, çox ətraflı araşdırın və münafiqlərin həyatına baxın, eynilə Quranda verildiyi kimi olduqlarını görəcəksiniz. **Məsələn, şeytan alim ola bilər, çoxlu məlumatlara malik ola bilər.**

**Münafiqlər də eyni şəkildə hər şeyi təfərrüatlı şəkildə araşdırar. Məsələn, şeytan qarışıq məsələləri çox yaxşı bilər, münafiq də qarışıq tərəfdən yaxınlaşmağa çalışar.** Məsələn, insanların zəif nöqtələrindən yaxınlaşar. Çünki öz münafiq ruhunda öz-özünə: "nədir mənim istədiyim?"—deyə soruşur və itaətsiz olduğunu, mala-mülkə həris olduğunu düşünür, darlığa düşəndə də Allahdan qorxduğunu, Allaha bağlı olduğunu, özünün də bir günahı olmadığını düşünür. Lakin hz. Adəm (ə.s) şeytanın bu oyununu başa düşdü. Çox yüksək ruhlu bir insan idi. Üstü-başı açılanda, təbii ki, öz ehtiyaclarını gördü, hadisənin şiddətindən ağladı, çünki cənnətdə bunlar yox idi. Bir də gördü ki, təbii ehtiyacları var. Çox qeyri-adi vəziyyət yarandı. Məsələn, acmağa başlayır, susayır, çimməli olur, üşüyür, istilənir, yəni çox acınacaqlı vəziyyət yaranır. Cənnətdən yer üzünə gəldikdə bu fərq ona kifayət etdi. Cənnətlə dünya arasındakı fərq ona belə kifayət etdi. Cənnətlə müqayisədə dünya sanki cəhənnəm kimi olur. Bunu başa düşərək qəti tövbə etdi və peyğəmbər oldu, bilirsiniz. Həvva anamız da vəli, övliya, çox möhtərəm bir insan idi. O da tövbə etdi və Allaha tam qul oldu. Allah da onlara kömək etdi.

Amma münafiq çox qərarlıdır. Allah ona görə onlar haqqında belə deyir: **"Onların ürəkləri parça-parça olmadıqca əsla imtina etməzlər" (Tövbə surəsi, 110). Münafiq tamam fərqli bir şeydir, heç vaxt qərarından dönməz, yəni nə etsən də, istər yağı üstə çevir, istər başı üstə çevir xeyri yoxdur, ağılsızdır ki, ağılsız, ayaq üstə basdırsan da yenə ağılsızlığından əl çəkməz, dayanıb yenə öz istədiyini edər.** Vaxt keçdikcə də özünü övliya kimi, həqiqətən peşman olmuş kimi göstərər. Necə ki, axirətdə, cəhənnəmdə "mən Allahdan qorxuram" deyir. Şeytanın bu cür üslubda olması şoka salan, heyrətləndirici bir hadisədir. Ömrü boyu iblislik etmiş, sonra da "mən Allahdan qorxuram" deyir. Bununla bir daha açıqlama verir, bu da yenə şok açıqlamadır, çox təəccüblüdür. "Mən sizi dəvət etmədim" -deyir. Kim etdi bəs? "Mən yalnız dedim siz də qəbul etdiniz" deyir. Bir yandan baxanda həqiqətəndə düz deyir, elə bir gücü yoxdur, amma məhz insanlara da məhz onların etməsi üçün çalışar, yəni etməməsi üçün deyil, etməkləri üçün deyər. Amma buna baxmayaraq həqiqəti bilir. Məsələn, şeytan hz. Mehdi (ə.s)-ı tanıyır. Peyğəmbər (s.ə.v)-in də peyğəmbər olduğunu bilir. Münafiqlər də Peyğəmbər olduğunu bilir. Amma tabe olmazlar, çox təəccüblü bir şeydir. Məsələn, Peyğəmbər (s.ə.v)-in yanında "Sən Allahın Rəsulusan" deyirlər, bilir əslində, amma daxildə çox böyük qəzəb, kin bəsləyərlər, şeytani ruhları var və buna görə də itaət etməzlər. Çox təəccüblüdür, yəni münafiqin və şeytanın ağılsızlığı çox dərindir. **Amma hz. Mehdi (ə.s) anti-şeytandır, anti-iblisdir, anti-dəccaldır.** Ona görə hz. Mehdi (ə.s) dövründə şeytan öldürülür. İlk dəfə həqiqi mənada şeytan məhv edilir, inşaAllah. Şeytan bütün dünyada məğlub ediləcəkdir və hər kəs hz. İsa Məsih (ə.s)-ın köməyi ilə iman edəcək.

**SERDAR DAYANIK:** Sizin izah etdiyiniz mövzu ilə bağlı bir ayə var. Həm münafiqlərin xüsusiyyəti, həm də şeytanla olan iş birliyinə işarə edir, inşaAllah. Bəqərə surəsi, 14-cü ayə, qovulmuş şeytandan Allaha sığınıram: **"Onlar möminlərlə rastlaşdıqda:**

**“Biz iman gətirdik!” deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: “Biz sizinləyik. Biz (möminlərə) ancaq istehza edirik! deyərlər."**

**ADNAN OKTAR**: Yəni belə ağılsız ruhu vardır. **Vaxt keçdikcə həqiqətən müsəlman kimi danışır. Məsələn, münafiq peşman olmuş kimi özünü göstərir.** Amma bunun ardınca münafiq cildinə girər, təcavüzkarlaşar, azğınlaşar yenə peşman olmuş bir üslubdan istifadə edər. Bunları Quranda görürük. Ona görə müsəlman münafiqin ruh halını yaxşı qavramalıdır. Münafiqin üstünlüyünü minimuma endirmək lazımdır. **Yəni hiyləgər və özünü büruzə vermədiyi üçün üstünlüyü var, amma bütün hiyləgərliyi və gizliliyi ortaya çıxartsaq, üzə çıxartsaq, münafiqin qolunu, qanadını qırmış olarıq.** Bizim edəcəyimiz də məhz budur. **Yəni halını, rəftarını, əlamətini, oyunlarını, taktikalarını bütün müsəlmanlara izah edib münafiqi iflic edəcəyik, yəni onun gizlilik gücünü məhv edəcəyik.** Ən azından minimuma endirəcəyik. Amma buna baxmayaraq yenə gizlənsə bu başqa məsələdir. Amma biz onları yod kimi üzə çıxartmaq üçün əlimizdən gələni edəcəyik, inşaAllah.

## 7-Cİ SÖHBƏT

## 3 avqust 2010-cu il, ÇAY TV

**ADNAN OKTAR:** Münafiqi başa düşmək üçün şeytanı yaxşı dərk etmək lazımdır. **Münafiq şeytanın birbaşa eynisidir. Yəni ona ağılla baxmaq lazımdır.** Məsələn, münafiqə baxarkən və kimisə tanımaq istəyəndə, şeytan ilə əlaqədar olan ayələrə baxmalıyıq. Şeytanın əsas xüsusiyyəti nədir? Haşa, şeytan Allah olmaq istəyər. Haşa, Allahı bəyənmir. Yəni: "mən daha ağıllıyam, daha uzaqgörənəm" -deyir. Çox primitiv məntiqə sahib olduğu üçün, hikmət gözü ilə, ledun gözü ilə baxmadığına görə çox axmaqcasına qərarlar verir. Məsələn, çox səthi məntiqə sahibdirlər. Deyir: "mən oddan yaradıldım, insanları isə torpaqdan yaratdın". Buna görə də, haşa, Allaha: "məntiqsiz qərar verirsən"-deyir. "Onlar mənə səcdə etsin, mən niyə ona səcdə edim?" deyir. Yəni tamamilə axmaqdır. Hadisəyə ledun gözü ilə, dərin düşüncə ilə baxmır və əvvəldən Allah haqqında bir qərar vermişdir. Yəni Allaha qarşı çıxmışdır, haşa, Allahdan böyük olmaq qərarına gəlmişdir, haşa, özü Allah olmaq istəyir. Allah da imtahanın əsasını uyğun yaratdığı üçün şeytana imkan verir. Çünki həqiqətən imtahanın meydana gəlməsi üçün ona ehtiyac var. Dərhal da nalayiq hərəkətlərini və dəliliyini insanlara yaymağa başlayır. Məsələn, çox eqoist olduğuna görə hz. Adəm (ə.s)-a, haşa, sən Allahdan böyüksən demək istəmir. Çünki, haşa özü Allah olmaq istəyir. Amma onu öz təsiri altına almaq üçün, onun zəif nöqtəsinin nə olduğunu düşünür, bunu tapmaq üçün ilk növbədə özünə baxır və öz zəif nöqtəsinin nə olduğun düşünür. Öz zəifliyi nədirsə insana da həmin nöqtədən yanaşır. Məsələn, özü mal-mülk sahibi olmaq, rahat olmaq və sonsuza qədər yaşamaq istəyir və haşa, Allahdan da şübhə edir. Yəni "görəsən sonsuza qədər yaşadacaq ya yox, sonsuza qədər imkan verəcəkmi" kimi şübhələri var. Həmin fikirləri də hz. Adəm (ə.s)-a təlqin edir. Deyir: "sənə sonsuzluğun sirrini verim? Sonsuzluğun yolunu sənə göstərim? (sonsuz olmağın yolunu)". Birdən hz. Adəm (ə.s)-ın ağlına şübhə salır. Halbuki, Allah onsuz da onu yaşadacaq. Orada hz. Adəm (ə.s)-ın Allaha etibar etməyi lazım idi. Peyğəmbər səhvinə "zəllə" deyilir. Zəllə işlətmiş olur və şeytana uyur. Məsələn, münafiq ilk mərhələdə onu özünə bir addım yaxınlaşdırır. Təbii ki, ikinci üçüncü, dördüncü mərhələləri də vardır, amma Allah o mərhələdə hz. Adəm (ə.s)-ı xilas edir, yoxsa şeytan ondan əl çəkməzdi. O yedirtdiyi ilə kifayətlənməz, inkişaf edərək qrup olmaq istəyər. Mələkləri, haşa, heç əhəmiyyətli saymaz. Bunun səbəbi isə hz. Adəm (ə.s)-a səcdə etməkləridir. Bununla onların məğlub olduğunu düşünür. Yəni qürurlu, eqoist, təkəbbürlü olduğuna görə onların o xüsusiyyətləri itirdiyini düşünər, onlara heç toxunmaz. Yalnız hz. Adəm (ə.s)-a da Allahın ona dəyər verdiyinə görə qəzəblənər. Onu da istəmir. Yalnız özünə əhəmiyyət verilməsini istəyir.

Həm də şeytan, özünü guya Allahı gizli sevən, gizli hörmət edən, amma biruzə vermək istəməyən kimi göstərər. Bu cür anormal xarakterə malikdir. Çünki bir tərəfdən "mən Allahdan qorxuram"-deyir, bir yandan da ağılsızlıq edir, çox təəccüblü hərəkətlər edir. Anormal bir davranışı var. Hətta cəhənnəmi gözə alaraq dəliliyini davam etdirir. Cəhənnəmə gedəcəyini bilə-bilə bunu edir. O qədər ehtiraslı, o qədər azğın, psixopat tiplərdir ki, hətta başını divara vurar, özünü yandırar, sanki manyakdır. Hər şeyi gözə alar. Buna görə "cəhənnəmdə sonsuza qədər yanarsan" deyirsən. "Qoy yanım" deyir. Şeytan bu cür manyakdır. Münafiq də elə onun kimi manyakdır. Yəni bilir, amma buna baxmayaraq elədiyini də edir. Məsələn, belə manyak insanları filmlərdə verirlər, hansı ki, insanlar şüuraltında bildiklərinə görə göstərərlər, yəni bu cür hərəkətlər edərlər. Diqqət edin, sonsuza qədər cəhənnəmdə qalmağı gözə alacaq qədər azğındırlar. Amma orada da düşüncəsinə görə özünə haqq qazandırmağa çalışır. Deyir: "mən Allaha iman edirəm, Allahdan qorxuram və mən sizi elə təşviq etmədim", bu cür fikirlərlə orada insanları alçaltmağa çalışır. Orada da eqoist davranır, "mən sizi yalnız çağırdım" deyir. "Siz o qədər düşüncəsiz, o qədər ağılsızsınız ki, yalnız bir dəvətim belə kifayət etdi. Gedib azğın, anormal oldunuz. Mən sizə belə bir şey dedimmi? Gedin belə bir hərəkət edin demədim. Yenə də eqoistlik və təkəbbürlülük edir. "Cəhənnəm də heç əhəmiyyətli deyil, qoy yanım" deyir və şeytan sonsuza qədər Allaha qarşı dikbaşlıq edir. Yəni psixopat manyakdır. Ona görə Allah: **"cəhənnəmdə dərindən peşman olarlar"** deyir. Millət zənn edir ki, cəhənnəmdə fikrindən yayınar, amma yenə öz fikrində qalır. Yəni sonsuza qədər fikrindən dönmür, yəni manyakdır. Allah onu elə yaradıb. İnsan həmişə peşman olduqlarını zənn edir, amma heç vaxt peşman olmazlar. Hətta ayədə: **"peşmanlığını gizlətmək üçün göz ucu ilə baxar"** deyilir. Yəni yenə özünü haqlı çıxartmaq üçün eqoistlik edir. Dünyadakı münafiqlərə də diqqət etsək onlara da ağır gəldiyini görərik.

**Məsələn, münafiqlər Drar məscidi quranda, haşa, Peyğəmbərimiz (s.ə.v)-i bəyənmədilər**. Əslində Allaha qarşı da haşa daxilən kin bəsləyirdilər, amma bunu birbaşa, açq şəkildə ifadə edə bilmirdilər, ona görə məscidə ehtiyacları olur. Çünki məscidi olmasa kimsə gəlməz. Yəni birdən-birə Allahsız, Kitabsız olduqlarını desələr heç kim gəlməzdi. **Ona görə "Allaha inanırıq" deyirlər ki, məscid olsun. Yəni məscid onları br az hərəkətləndirir. Məsələn, namaz qılmaları onları hərəkətləndirər. Buna görə saqqal buraxır, cübbə geyinir, başına sarıq sarıyır, təsbeh çəkir. İnsanlar da elə bilir ki, bunlar hər halda müsəlmandırlar. Halbuki, elə deyil, onu haşa bir tələ olaraq istifadə edir**. Çünki onu istifadə etməsə açıq kafir olar. Bu isə onun fikrinə görə işinə yaramır, o münafiqliyi istəyir. Peyğəmbərimiz (s.ə.v)-ə qarşı qəzəblərini açıq-aşkar büruzə verə bilmədiklərinə görə, belə bir məscid vasitəsi ilə fikirlərini deməyi uyğun hesab edirlər. Məsələn: "buraya baxın, bu məscidə heç bir qadın girməz. Amma Peyğəmbər (s.ə.v)-in məscidinə gedin, oraya, qadınlar da gəlir" deyirlər. Yəni "biz, qadına qarşı heç nə hiss etmirik, görürsünüz. Biz dünyadan üz döndərdik. O qədər təqvalıyıq ki, bizim qadın şəhvətimiz yoxdur.

Amma onların qadınlara qarşı istəkləri var, həssasdırlar. Biz bəzək əşyası taxmırıq" deyir. Halbuki, Allah: **"Zinətlərinizi taxıb gəlin məscidlərə"** deyir. Onlar isə: "Zinət dünya həyatının bəzəyidir, bizim bər-bəzəklə işimiz yoxdur, niyə zinət taxmalıyıq ki? Biz özümüzü Allaha təslim etmiş insanlarıq, zinət niyə taxmalıyıq ki?" deyirlər. Allah ayədə: "zinətlərinizi taxın" deyir, onlar isə "olmaz, təqvaya uyğun deyil", deyirlər. "Biz tamamilə özümüzü Allaha verdik" deyirlər.

**SERDAR DAYANIK:** Qovulmuş şeytandan Allaha sığınıram, Əraf surəsi, 31-ci ayə: **"Ey Adəm övladı hər məscid yanında zinətlərinizi taxın. Yeyin-için, lakin israf etməyin. Çünki o israf edənləri sevməz".**

**ADNAN OKTAR:** Hal-hazırda zinət münafiqə ən ağır gələn bir şeydir. Hz. Süleyman (ə.s)-ın zinətləri, hz. Həsən (r.ə)-in, hz. Hüseyn (r.ə)-in paltarları, Peyğəmbərimiz (s.ə.v)-in paltarları, cübbəsi də onlara ağır gəlirdi. "Bir baxın, biz çula büründük gəldik. Əynimizdə çul var. Yəni o qədər təqvalıyıq ki, neçə gündür yemək də yemirik. Qadınlara marağın varmı? Haşa, sən mənim anam kimisən" deyir, arvadını da özünə haram qılır. Yəni cinsi əlaqəyə nifrət edən üslubları var. Amma halal olan cinsi əlaqəyə və qadına nifrət edərlər. Təmiz və gözəl geyinməyə, zinətlərə nifrət edərlər. Bir də dinin asan olması onları daha da boğur. "İnsanlar namazını qılır çıxıb gedirlər, belə olmaz, onları məscidə dəvət edin" deyir. İnsanları məscidə çağıraraq axşama qədər dedi-qodu edir. Oranı, haşa, bir yığıncaq qurmaq üçün istifadə edir, yalnız dedi-qodu ediləcək bir yer olaraq istifadə edir. Yəni münafiqlərin o qədər çox fırıldaqları vardır ki, bir, iki, on deyil. **Amma hamısını Qurana uyğun, Peyğəmbər (s.ə.v)-in sözünə uyğun iddiası ilə edərlər.** Məsələn: "Peyğəmbər dünyadan üz çevirin demədimi?" deyir. Dedi, amma o mənada deyil. Peyğəmbər demir ki, dünyanı tamamilə tərk edin, avara-avara sürünün. O, dünyanı Allahın dininə xidmət etmək üçün istifadə edin" deyir. Ayədə də Allah: **"Dünyadakı nemətlər sizindir. Axirət də yalnız sizindir"** deyir. Əlbəttə ki, möminlər dünya nemətlərini istifadə edəcək. Amma münafiqlər bunu başqa mənaya yozaraq: "heç istifadə etməyin dedi" deyir. Sanki, Peyğəmbər (s.ə.v)-in dediyini, Peyğəmbər (s.ə.v)-ə öyrətməyə çalışır və təhrif edir. Ümumiyyətlə, təhrif edilmiş hədislər o dövrün münafiqlərindən qaynaqlanır. Hansı ki, bu günə kimi təhrif edilmiş, azğın inanclar kimi gəlib çıxıb. Hamısının mənbəyi o Drar məscidindəki münafiqlərdir, Bu fırıldaqçı, saxtakarların nəsli indiyə kimi davam edir. Uydurma rəvayətləri, uydurma şərhləri var hansı ki, hər cür azğın inanclardan ibarətdir. **Ona görə münafiqlərin bir çox üzü var, bir tərəfdən Peyğəmbər (s.ə.v)-i heç qəbul etməzlər, bir tərəfdən də özlərini Peyğəmbər (s.ə.v)-i çox sevən kimi göstərərlər. İki fərqli cərəyanla çıxmışdır.** Məsələn, İslam tarixində Peyğəmbər (s.ə.v)-in vəfatından sonra meydana gələn bu iki düşüncə sistemi formalaşmışdır: biri

Peyğəmbərimiz (s.ə.v)-in sünnətinə, Peyğəmbərimiz (s.ə.v)-ə bağlılığa, sədaqətə qarşı qəzəb tərzində idi. Digəri isə Peyğəmbər (s.ə.v)-i çox sevən adı altında Peyğəmbər (s.ə.v)-i və hz. Əli (r.ə)-i, haşa, ilahlaşdırmağa çalışan bir hərəkat şəklində idi. Məsələn, hz. Əli (r.ə)-ə "sən Allahsan" deyir haşa. Hz. Əli (r.ə) çox əsəbləşir, qəzəbindən: "yandırın bu adamı" deyir. O da: "Allahın şənindəndir, təbii ki, yandırmalısan məni" deyir. Manyaklığı görürsünüzmü? Yəni manyakdır. Münafiq manyaklığının ucu-bucağı yoxdur. Halbuki, hirslə deyilmiş bir sözdür. Amma o: "Əlbətdəki, bu Allahın şənindəndir, əlbəttə ki, məni yandırmaq lazımdır, yandırmalısan" deyir. Ayədə isə Allah: "cəhənnəmə ataram" deyir. "O da sənin xüsusiyyətin onsuz da" deyir, haşa. Yəni münafiqin manyaklığının ucu-bucağı yoxdur, onları başa düşmək olmur, çox qaranlıq gizli bir dünyası vardır.

Münafiqlər bir-birlərinə çox nifrət edərlər. Heç kafirə bu qədər nifrət etməzlər. Bir-birlərinə nifrət etmələrinə baxmayaraq, bir-birlərindən də ayrılmazlar. Köpək sürüsü kimidilər. Necə ki, onlar bir-birini boğar, öldürər, yaralayar, amma ayrılmazlar. Münafiq də elədir, bir-birlərindən ayrılmazlar. Həm nifrət edərlər, həm də ayrı qalmazlar. Çünki çox mənfur, bəyənilməyən görünüşləri olur. Çox pis heyvan kimidirlər, amma ayrıla da bilmirlər. Məsələn, çöl donuzları da, çöl donuzu sürüsü də elədir. Çöl donuzları bir-birlərini həmişə buynuzlayırlar, çox murdardır, yəni iyrənc həyatları vardır. Amma təkidlə bir yerdə yaşayarlar. Bir-birlərindən qopa bilmirlər, münafiqlər də belədir, çöl donuzu sürüsü kimi, həm bir-birlərindən zəhləsi gedir, həm bir-birlərinə düşməndirlər, həm də ayrıla bilmirlər. Müsəlmanları belə çöl donuzu sürüsü kimi uzaqdan izləyərlər, inşaAllah və onların əleyhinə bir surə nazil olduqda da çox qorxarlar. Yəni yenə də Allahın onlara bəla verməyindən də bir cür çəkinirlər, amma qərar da verə bilmirlər, tərəddüd içində olarlar. Tərəddüdlər içində boğularlar. “Ola da bilər, olmaya da bilər” məntiqində olarlar.

**SERDAR DAYANIK:** Siz daha yaxşı bilirsiniz, inşaAllah. Quran ayəsində: Uca Rəbbimiz "şübhəyə düşdüklərini" buyurur, münafiqlərin "...şübhələrində də qərarsız olduqlarını" deyir, inşaAllah.

Bu zinətlə əlaqədar bir ayə də var. Əraf surəsi, 32-ci ayədə, qovulmuş şeytandan Allaha sığınıram: **"De: "Allahın Öz bəndələri üçün endirdiyi zinətləri və təmiz ruziləri kim haram etmişdir? "De:" Bunlar, dünya həyatında iman gətirənlər üçündür, qiyamət günü isə yalnız onlarındır". Bilən bir qövm üçün ayələri belə ətraflı izah edirik".**

**ADNAN OKTAR:** Münafiqlər, səhabələrin gözəl və təmiz olmağından çox narahat olarlar. Xüsusilə Əhli-beytin hz. Həsən (r.ə), hz. Hüseyn (r.ə) çox gözəl, qəşəng paltarlar geyinirdilər. Peyğəmbərimiz (s.ə.v) də çox gözəl geyinirdi. O qədər gözəl geyinirdi ki, insanın nəfəsi kəsilirdi. Xüsusilə, hz. Həsən (r.ə), hz. Hüseyn (r.ə) Peyğəmbərimiz (s.ə.v)-in nəvələri o bölgənin ən görkəmli, cazibədar insanları idi. Onların gözəlliyi münafiqlərə

əziyyət verirdi, özləri isə çul-mul geyinirdilər. Rəzil başlarına da köhnəlmiş bez sarıyırdılar, bu cür pərişan vəziyyətdə idilər. Leş kimi iy verirdilər, gülməzdilər, sevinməzdilər. Peyğəmbərimiz (s.ə.v) xanımları ilə gizlənqaç oynayanda, münafiqlərin acığına gəlirdi. "Peyğəmbər də oyun oynayar?" deyirdilər. Onlar Məkkə müşrikləri, azğın böyüklər, o dövrün azğınları idi. Məsələn, bir çoxlarının atası o dövrün məşhur müşrik alimi yaxud müşrik bir zabiti, müşrik zəngini,  pullu və yaxud o dövrün hər hansı bir yüksək vəzifəli adamı idi. Peyğəmbərimiz (s.ə.v) dövründə bunların hamısı müsəlman oldular və kəndlilərin, adi işçilərin də gəldiyi eyni məscidə gəlməli olurdular. Məsələn, işçinin yanında paşa, paşanın yanında həkim, həkimin yanında kölə olurdu, münafiqlər də bunu özlərinə sığışdırmadıqlarına görə bu onlara həddindən artıq ağır gəlirdi. Peyğəmbər (s.ə.v)-ə də "Əbu Qasımın yetimi" deyirlər. Ona da peyğəmbərlik verilməsi onların acığına gəlirdi. Sonda işi dəliliyə gətirib çıxarıb Drar məscidini qurdular. Öz düşüncələrinə görə  dəyişik forma verdilər və oraya üst təbəqənin münafiqləri gəlməyə başladılar—özünü böyük, yuxarı səviyyədə zənn edənlər. Yəni əslinə-nəslinə görə hərəkət edənlər idi, məsələn, filan bəy, bəy deyə tanıdıqları kəslər idi. Peyğəmbərimiz (s.ə.v)-in məscidinə gələnlərə özlərindən aşağı insan kimi baxırdılar. Çünki kölələr, fəhlələr, sıravi işçilər ora gəlirdi. Eyni zamanda Rəsulullah (s.ə.v)-in yanına şikəst insanlar da gəlirdi, o isə hamısını qucaqlayırdı. Onlar da bunu qəbul edə bilmirdilər, haşa. **Münafiqlərin bir cəhəti də budur, özlərini daha seçmə, daha üstün sayarlar, yəni maddi, görünüş cəhətdən, hər cəhətdən və bu da onlarda ibadət kimidir. Yəni maddiyyata görə insanlara qiymət verərlər.** Məsələn, pul haradadırsa oraya gedər, yemək haradadırsa oraya gedər, Quran buna işarə etmişdir, inşaAllah. Müsəlmanların yanında qalmaqlarının səbəbi də budur. Məsələn, müsəlmanın evində buğda olar, buğdaya qurd kimi daraşarlar. Bu cür parazit məxluqlardır. Öz buğdasını yeyib qurtardıqdan sonra acan kimi gedər başqa yerlərdə axtarmağa başlayar. Qurd kimi sürünərək axtarmağa gedər. Problemləri o olduğuna görə münafiqlər yalnız mənfəət əldə edə biləcəkləri yerləri axtararlar. Ona görə Allah: "qohumluq bağlarını güdməzlər" deyir. Qohumluğu kim zəngindirsə onunla edər, kim yemək verərsə qohum olar, kim onu səy göstərməkdən, təbliğ etməkdən uzaqlaşdırarsa o olar, çünki səy göstərməyi və təbliği riskli, təhlükəli hesab edərlər. Bundan uzaqlaşdırmaq istəyən kim varsa onun yanına gedər. Ayədə: "mağara, boş bir yer tapsalar getmək istəyərlər və uzaqdan sizin xəbərlərinizi izləyərlər" deyilir. Münafiq əlaqəni də kəsməz. **Onə görə ki, məsələn, hz. Mehdi (ə.s) camaatını da, münafiqlər çox diqqətlə izləyərlər, hər təfərrüatlarını güdərlər. Peyğəmbərimiz (s.ə.v)-in camaatını da çox diqqətlə izləyirdilər.** Münafiq “mənə nə” deyib getməz. Ayədə də: "Uzaqdan xəbərlərinizi izləyir" deyir. Yəni münafiq ömrünün sonuna kimi təqib edər və ayədə: “sizə bir xeyir nəsib olduqda sevinməzlər" deyilir. Məsələn, möminlərin gənc olmaları, gümrahlığı, sağlamlığı, səhhəti, qüdrəti, malı, mülkü və s. onlara xoş gəlməz. Allah (bu nemətləri) onlara əzab vermək üçün yaratmışdır, inşaAllah. **Möminlərə nemət verildikcə onlar əzab çəkər.** Allah Allah "amma sizə bir hücum

edildiyində onların xoşuna gələr" deyir. Halbuki, öz ağlı ilə başa düşmədiyinə görə axmaq olur. Halbuki, hücum ediləndə müsəlmanın mənəvi məqamı yüksəlir, dəyəri artar. Çünki müsəlman onsuz da axirəti üçün, Allah rizası üçün buradadır. Hücum edilmədikdə isə, müsəlmanın mənəvi məqamı yüksəlməz. Yəni az artar, müəyyən bir dərəcədə qalar. Hücumların artırmaq gücü çox böyükdür. Ona görə məsələn, hz. Mehdi (ə.s) camaatına da tez-tez hücumlar olur. Peyğəmbərimiz (s.ə.v) deyir: "Hz. Mehdi (ə.s) camaatına qarşı üç böyük münafiq hücumları olacaq, üç dəfə Mədinə sarsılacaq". Hədisdə verilən mənaya diqqət etsək, sarsıntılar baş verdiyi vaxtda münafiqlərin qaçdığını görərik. Məsələn, hücum, iqtisadi böhran, təzyiq, qorxu və yaxud zəlzələ  və ya hər hansı bir çətin vəziyyətdə qalacağı hadisə baş verəndə, acınacaqlı vəziyyətlərdə münafiqlər aradan çıxar, qaçar. Normal bir mühit olsa münafiq getməz, qalar. Ona görə "üç dəfə zəlzələ olar və Mədinə bütün münafiqlərdən azad olar. Dəmir pasından təmizləndiyi kimi Mədinə də münafiqlərdən təmizlənər və yalnız seçmə müsəlmanlar qalar. Mehdi (ə.s)-ın xas tələbələri qalar" hədisdə deyir. "Bütün münafiqlərdən Mədinə (İstanbul) azad olar" deyir. **Axırzamanda hz. Mehdi (ə.s) camaatının münafiqləri çox əhəmiyyət kəsb edir, bunlar, sonra insanlar tərəfindən tanınacaqlar, təkbətək, adbaad üzə çıxacaqlar.** Peyğəmbərimiz (s.ə.v) dövrünün münafiqlərinin hamısı tanınır, adbaad, məsələn, filankəs, o, bu və s. hamısı tanınan, məşhur münafiqlərdir. Hz. Mehdi (ə.s) dövrünün də bütün məşhur münafiqləri bilinəcək, qiyamətə qədər də insanlar tərəfindən tanınacaqlar. İki münafiq qrupu xüsusi əhəmiyyət daşıyır. Biri, Rəsulullah (s.ə.v) dövrünün münafiqləri, biri də hz. Mehdi (ə.s) dövrünün münafiqləridir. Ona görə də  Peyğəmbərimiz (s.ə.v) bu iki dövrü müjdələmişdir. "İki dövr də qəribədir, qeyri-adi, heyrətamizdir. “Bir mənim dövrüm, bir də Mehdi (ə.s) dövrü—hər ikisi də bir-birinə bənzəyən, səhabə dövrü kimidir" deyir. Amma Axırzamanı Peyğəmbərimiz (s.ə.v) elə tərifləyir ki, hədisdə bununla əlaqədar belə buyurur: "Nə əvvəlkilər, nə axırdakılar onları keçə bilməyəcəklər". Çünki dəccaliyyətlə boğuşacaqlar, Peyğəmbərimiz (s.ə.v) "hz. Mehdi (ə.s) və tələbələri çox üstündür" deyir. Hətta: "Əbubəkr və Ömər ondan üstün ola bilməzlər. Yəni hz. Mehdi (ə.s)-dan üstün ola bilməz. Mövqe cəhətdən Əbubəkr və Ömərdən də üstündür" deyir. Məsələn, münafiqlər deyirlər ki,**"...və dedilər ki: “Bu Quran iki şəhərdən birinin böyük bir adamına endirilməli deyildimi?'".** "Əbu Qasımın yetiminə endirdi Allah? Bu səhvdir" deyirlər, haşa, Məkkənin, Mədinənin məşhur müşrikləri var idi, başçıları, professorları, o dövrün paşası, yaxud zənginինə endiriləydi. "Onlara enməsi lazım idi" deyir. "Necə olur, cahil insana Peyğəmbərlik verilir?" deyirdilər, haşa. Allah ayədə "ümmi" deyir. Məsələn, biri səkkiz dil bilir, amma Allah onu deyil ümmini seçir. "O varkən necə o elçi olur" deyir. Əslində oradakı savaşları Allaha qarşı aparılır. Amma münafiqin təbii axmaq üslubunda bunu büruzə verməmək üçün özünü sanki dini müdafiə edən biri kimi göstərmək siyasəti vardır.

## 8-Cİ SÖHBƏT
## 4 AVQUST 2010-CU İL, HARUNYƏHYA.TV

OKTAR BABUNA: Şeytandan Allaha sığınıram: **"Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsidirlər (şeytana uyanlardır). Bilin ki, şeytanın firqəsi-məhz onlar ziyana uğrayanlardır! (Mücadilə surəsi, 19)**

ADNAN OKTAR: Allah, Sad surəsi, 75-ci ayədə belə buyurur: **(Allah) dedi: "Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?".** Təkəbbürlənmək, özünü yuxarı tutmaq şeytanın münafiqlərlə ortaq olan xəstəliyidir. Hansına baxsaq həddindən artıq lovğa, daim özünü haqlı sayan, özlərini və ağıllarını bəyənən və təkəbbürlü olduqlarını görərik. Əslində ciddi mənada ağılsızdırlar. Çünki bir insanın kafir olmağı üçün kafir, amma münafiq olmağı üçün manyak olması lazımdır. Münafiqlər manyakdırlar. Allah "**Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?** deyir. O qədər təkəbbürlüdür ki, haşa Allahdan da böyük olmaq istəyir. Münafiqin də şeytanın da xüsusiyyəti belə olur. "**Dedi: "Mən ondan daha xeyirliyəm".** Münafiqlərin ortaq xüsusiyyəti həmişə "mən daha yaxşı bilirəm, mən daha gözəl danışaram, mən daha xeyirliyəm, Peyğəmbər (s.ə.v)-dən, hz. Mehdi (ə.s)-dan daha düzgün hərəkət edirəm, hamısından daha yaxşıyam" demələridir. **"Mən ondan daha xeyirliyəm, sən məni oddan, onu isə palçıqdan yaratdın"** deyir. Bu tamamilə münafiq axmaqlığıdır. Dəliliyi görürsünüzmü? Palçığı yaradan da Allahdır, odu yaradan da Allahdır. O, bunu düşünə bilməyəcək dərəcədə ağılsızdır.

**"Onlar dedilər: "Məgər bu Quran iki şəhərdən birinin böyük bir adamına endirilməli deyildimi? " (Zuxruf surəsi, 31).** Bu ayədə də yenə münafiqin ağılsızlığı ifadə edilir. Sanki, mütləq Quran böyük və əzəmətli birisinə endirilməlidir. Onlar etiketə də çox əhəmiyyət verirlər. Professor olmağı, zəngin, iş adamı olmağı münafiq üçün çox əhəmiyyət kəsb edir. Halbuki, bunlar dünya həyatında gəlib keçici məqamlardır. Məzara qoyulanda istər professor olsun, istər fəhlə, istərsə də sıravi işçi hamısı eyni olur.

**Onlar dedilər: "Bu necə elçidir ki, yemək yeyir, bazarları gəzib dolaşır?" (Furqan surəsi, 7).** İndi Peyğəmbərimiz (s.ə.v)-i, haşa, bəyənməmək üçün münafiq həddindən artıq ağılsız olmalıdır. Bu səfər də yemək yeməyini dəlil olaraq göstərirlər. Yəni: "yemək yeyir, bazarda gəzir" deyirlər. Münafiq elə bir məxluqdur ki, insan cavab verərkən belə bir insanla həmsöhbət olduğuna görə çaşıb qalar. Şeytan insanın yaxşılığını istəyirmiş kimi davranar. Münafiqlər də eyni ilə onun kimi möminin yaxşılığını istəyirmiş kimi

hərəkət edər. Məsələn: "Səni qurtarmaq üçün edirəm, sənin yaxşılığına görə deyirəm filan" deyər.

**"Şeytan onların bir-birindən gizli qalan ayıb yerlərini özlərinə göstərmək üçün onlara pıçıldayıb dedi (vəsvəsə verdi)". (Əraf surəsi, 20).** Münafiq də vəsvəsə verər. Zəif adamları seçər. Münafiqlər, necə bir vəhşi heyvan zəif heyvanları seçər və dərhal başının üstünü alar, münafiqlər də zəif olduğuna qane olan zəif insanları hədəfləyərlər və zərbə endirməyə çalışarlar. Ona görə münafiqlər bir insanı hədəflədikdə, zərər vermək istədikdə həmin insan Allaha sığınmalıdır və buna çox ciddi diqqət etməlidir.

**"...dedi: "Rəbbiniz sizə bu ağacı yalnız ona görə qadağan etmişdir ki, siz mələk və ya (Cənnətdə) əbədi qalanlardan olmayasınız." (Əraf surəsi, 20).** Yəni "bu ağacdan uzaq dayanmağınızı istəməyinin səbəbi əbədi yaşamağınıza maneə törətmək üçündür." Sanki Allah bu ağacı qadağan etməyinin səbəbi onların əbədi cənnətdə qalmamaqları üçündür, yəni əgər Allahın bu qadağan etdiyi ağaca toxunsalar, onun meyvəsindən yesələr əbədi yaşayacaqlar. Ağacı yaradan da, əbədi həyatı da yardan Allahdır. Ağılsız şeytan və münafiqlər bunu dərk etmirlər. Allahın, haşa, Öz qanununa gücü çatmayacağını zənn edirlər. Yəni, ağılsızlar, Allahın Öz qanununa nəzarət edə bilməyəcəyini fikirləşirlər və "O ağacın meyvəsindən yesə, bir daha özünə də nəzarət edə bilməyəcəyini" deyir.

**"Və onlara: "Həqiqətən, mən sizin xeyirxah məsləhətçilərinizdənəm"—deyə and içdi". (Əraf surəsi, 21)**

Münafiqlər dini ifadələr istifadə edir, öyüd-nəsihət verməyə də çox maraqlı, həvəsli olarlar. Ona buna öyüd verərlər, məsələn, belə deyərlər: "Həqiqətən mənim məqsədim səni qurtarmaqdır, yaxşılıq etməkdir". Hələ yalandan "həqiqətən" də deyər, necə ki, ayədə də məhz belə bildirir: **"həqiqətən mən sizin xeyirxah məsləhətçilərinizdənəm".** Bu tamamilə münafiq üslubudur. Hələ üstəlik inandırmaq üçün Allahın adını istifadə edərək də and içir.

**"Onlara: "Yer üzündə fəsad törətməyin!"-deyildiyi zaman: "Biz ki, ancaq xeyirxahlıq edənlərik!"- deyirlər" (Bəqərə surəsi, 11).** Yəni: "İslah etmək üçün, yaxşılıq etmək istəyərəm, başqa bir məqsədim yoxdur" deyir. Çoxbilmiş kimi başda olarlar. Ayədə **"Bilin ki, onlar fəsad törədəndirlər, lakin (bunu) dərk etmirlər". (Bəqərə surəsi, 12)"** deyilir. Yəni ağılsızdırlar, dərk etmirlər. Allah "əsl fitnə-fəsad törədən bunlardır" deyir. Münafiqin əsl məqsədi zərər vermək, küfrü gücləndirmək olar. Münafiq möminlərin imansız olmasını istəyər. Həm bir yerdə yaşamaqlarını istəyər, çünki fitnə çıxarmaq üçün onlara ehtiyacları var, həm də inkar etmələrini istəyərlər.

Allah **"Möminlərin arasına təfriqə salmaq... (Tövbə surəsi, 107)"** deyir. Münafiq axşama qədər bununla məşğul olar. Möminlərin arasını ayırmaq üçün çalışar. **"əvvəllər**

**Allaha və Onun elçisinə qarşı müharibə aparanı gözləmək".** Yəni hər hansı saxta bildirişdə tapılar, müsəlmanlara hücum etmək üçün yalandan böhtan atmaq üçün gözləyər. Şahidlik edər, oyunlar oynayar, yalandan məlumatlar verər. Bunlar münafiqin xüsusiyyətidir. **"...üçün məscid düzəldər",** yəni bir qrup düzəldərlər və buna görə də bir məscid tuturlar, bununla da birlik yaradırlar. Münafiqlər bir-birindən ayrılmazlar. **"...Biz yaxşılıq etməkdən başqa bir şey istəmədik deyə Allaha and içərlər".** Soruşanda da belə yaxşılıqdan bəhs edərlər, guya həmişə yaxşılıq məqsədi ilə edərlər. Elə danışarlar ki, sanki ən ağıllı olanlar onlardır, ən yaxşı insanlar, ən düzgün onlardır, bununla sanki özünü müdafiə etməyə çalışır, lakin özü gic kimi görünür. Çünki bir lağımın üstünə neylon örtsən də bilinəcək. Yəni o bütün hallarda özünü büruzə verər.

**"O zaman şeytan onlara öz əməllərini gözəl göstərib demişdi: "** yəni etdikləri işləri gözəl göstərib **"Bu gün insanlar içərisində sizə qalib gələ biləcək bir kimsə yoxdur. Mən də sizin (pənahınız) dadınıza çatanam! (Ənfal surəsi, 48)"** demişdi. "Münafiqlər bir yerə yığılanda özlərini çox güclü hiss edərlər. Müsəlmanlardan uzaq olduqlarına görə özlərinin təhlükədən xilas olduqlarını fikirləşirdilər və artıq onlara hücum olmayacağına inanırdılar. Çünki onlar müsəlmanları təhlükənin mərkəzi hesab edərlər. Müsəlmanların açıq hədəf olmağına inanarlar. Müsəlmanlardan uzaq olduqda da artıq açıq hədəfdən xilas və artıq olacaqlarını, yəni cəmiyyətin təzyiq etməyəcəyini, küfrün onlara hücum etməyəcəyini, ailələrin, onun-bunun onlarla artıq maraqlanmayacağını fikirləşirlər. Buna görə münafiqlər bir olduqları zaman qorunan bir birlik olduqlarına inanarlar. **"Bu gün insanlar içərisində sizə qalib gələ biləcək bir kimsə yoxdur".** Artıq küfrün və imansızların onları dəstəklədiyini bildiklərinə görə, yəni ateist masonların, kafir düşüncəni müdafiə edən bəzi mətbuat orqanlarının, bəzi saxtakarların yəni hər cür riyakar və ağılsız dostlarından dəstək aldıqlarını fikirləşdiklərinə görə özlərini güclü hiss edirlər. **"Mən də sizin (pənahınız) dadınıza çatanam".** Şeytan onları öyrədir. Həqiqətən münafiqlər özlərinə güvənən, özlərini əmin-amanlıqda, psixoloji cəhətdən rahat hiss edərlər. **"Lakin iki dəstə üz-üzə gəldiyi zaman dönüb qaçaraq: "Mənim sizinlə heç bir əlaqəm yoxdur. Mən sizin görmədiklərinizi görürəm. Mən Allahdan qorxuram. Allah (Ona asi olanlara) şiddətli əzab verəndir!" – demişdi. (Ənfal surəsi, 48)**

"Birdən-birə şeytan onları tək qoyur. Bu səfər də yenə manyaklıq edir. **"Çünki mən sizin görmədiklərinizi görürəm"** deyir. **"Mən Allahdan qorxuram"** deyərək o da münafiqləri tənqid edir. Münafiqlərdən fərqli olduğunu deyir. Çünki **"Allahın cəzası şiddətli olandır".**

**"(Şeytan) onlara vədlər verir..."(Nisa surəsi, 120).** Yəni məsələn, yaxşı iş adamı olacağını, imkanlı olacağını, evlənəcəyini, əylənəcəyini, hər şey olacağını deyərək **"onları xülyalara salır.** "Münafiqlər qeyri-adi vəsvəsə verərlər. Heç ağla gəlməyən fikirləri

vəsvəsə edərlər.  Hər şeydən şübhələnərlər. Ümumiyyətlə, münafiqlər tək yaşayarlar, təkliyi seçərlər. Yalnızlıq onların bir xüsusiyyətidir.  İzdihamlı olsalar da həmişə təklik arzulayarlar. Amma əsas xüsusiyyətləri, sürü halında yaşayarlar. **"Halbuki, şeytan verdiyi vədlər onları aldatmaqdan başqa bir şey deyildir".** Münafiqlər həmişə aldanarlar.

**OKTAR BABUNA:** Münafiqlər Allahın hökmünə görə deyil şeytanın əxlaqsızlığına görə hərəkət edərlər. Şeytandan Allaha sığınıram, **"Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki, onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir". (Nisa surəsi, 60).**

## 9-CU SÖHBƏT
## 4 AVQUST 2010-cu il SAMSUN AKS TV və TV KAYSERİ

**ADNAN OKTAR:** Münafiqlərlə əlaqədar Quran ayələri var. Amma biz Quranı düşünməli, analiz etməliyik. İndi mən şeytanın bu gizli, iblis tərzli sistemini açıqlayacağam və şeytan iflic olacaq. Münafiqlər təfərrütların açıqlanmadığına görə bu qədər rahatdırlar. İndi onların ciyərindən tutmuş, xromosomlarına qədər təsvir edəcəyəm. Ondan sonra bir sirləri qalmayacaq. Onsuz da vaxtı gələndə onlar elə ağ-qara şəkilləri ilə, xeyli məşhur olacaqlar, inşaAllah.

Allah münafiqlərə Öz dili ilə lənət edib bəla diləyir. Yəni Allah belə dua edin deyir. Allah münafiqləri məhv etsin. Münafiqlərin ölümü ilə insanlar xilas olacaq. Küfrə demirəm. Küfrə hidayət diləyirəm və düz yola gəlmələrinə görə səy göstərəcəm. Amma münafiq çox pozğundur. Onların çox xain bir sistemi var. Allah ayədə: **"Onların bağışlanması üçün dua etsən də, etməsən də, (hətta) onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaqdır. (Tövbə surəsi, 80)"** deyir. **"Onların qurduğu bina (məscid) ürəkləri parça-parça olana (ölənə) qədər qəlblərində bir şübhə (fikirlərindən vaz keçməyəcəklər) olaraq qalacaqdır. (Tövbə surəsi, 110)"**.. Axirətdə də vaz keçməyəcəklər.

## 10-CU SÖHBƏT
## 9 AVQUST 2010-cu il, Adıyaman Asu TV

**Altuğ Berker:** MaşaAllah, münafiqlərdən bəhs etdiniz. Allah Nisa surəsi 141-ci ayədə belə buyurur, şeytandan Allaha sığınıram: **"Onlar sizə göz qoyurlar, güdürlər..."**

**ADNAN OKTAR:** Təbii ki, bu münafiqlərin xüsusiyyətidir. Uzaqdan müsəlmanlara baxarlar. Müsəlmanlar onların heç fikrindən çıxmaz. **Küfr onlar üçün bir hədəf deyil. Dinsizlər, ateist, darvinist hədəf deyil. Birbaşa müsəlmanlar hədəfdir. Birbaşa müsəlmanları hədəfə alarlar.** O quruluş daxilində də şeytani xasiyyətlərini dayanmadan inkişaf etdirərlər. Məsələn, şeytanın xarakterinə baxanda, münafiqlərlə eyni xüsusiyyətləri görürük. Peyğəmbərimiz (s.ə.v) dövründə də hz. Musa (ə.s)-ın dövründə də eyni xarakterləri göstərdiklərini görürük. Məsələn, hz. Musa (ə.s): **"Rəbbiniz bir buzov kəsməyinizi əmr edir!** deyir. **"Necə bir buzov?"** soruşurlar, **"bizə xüsusiyyətlərini bildir"**- deyirlər. Hz. Musa (ə.s) vəhylə təfərrüatlarını bildirir. Yenə də **"olmaz"** deyirlər.

**OKTAR BABUNA:** Şeytandan Allaha sığınıram: **"Bir zaman Musa öz xalqına dedi: “Allah sizə bir inək kəsməyinizi əmr edir!” Onlar: “Sən bizi ələ salırsan?”- dedilər. (Musa): “Cahil olmaqdan Allaha sığınıram!”-dedi. Onlar dedilər: “Rəbbinə dua et ki, onun nə cür (inək) olduğunu bizə bildirsin!” (Musa) dedi: “(Allah) buyurur ki, o, nə çox qoca, nə də çox cavan, bunların ikisinin arasında olan orta yaşlı bir inəkdir. Sizə nə əmr edilirsə, (onu da) yerinə yetirin! Onlar dedilər: “Rəbbinə dua et ki, onun rəngini də bizə bildirsin!” (Musa) dedi: “(Allah) buyurur ki, o, sarı rəngli parlaq bir inəkdir. (Ona) baxanları sevindirir. Onlar dedilər: “Rəbbinə dua et ki, onun nə cür (inək) olduğunu bizə bildirsin! Çünki (bu) inək bizə (başqa inəklərə) bənzər görünür. Əgər Allah istəsə, biz düz yolda olarıq. (Musa) dedi: “(Allah) buyurur ki, o, nə yer şumlamağa, nə də əkin suvarmağa ram edilməmiş bir inəkdir. O, sağlamdır və onda (heç bir) ləkə-qüsur yoxdur”. Onlar: “İndi sən əsl həqiqəti bildirdin!” dedilər və onu kəsdilər. Halbuki, az qala (bunu) yerinə yetirməyəcəkdilər”. (Bəqərə surəsi, 67-71)**

**ADNAN OKTAR:** Görürsünüz o dövrün xəstələri, münafiqləri, nə qədər çürükçüdürlər. Ayələri yenidən hissə-hissə oxu, açıqlayım.

**OKTAR BABUNA:"Bir zaman Musa öz xalqına dedi: “Allah sizə bir inək kəsmənizi əmr edir!” Onlar: “Sən bizi ələ salırsan?”- dedilər. (Musa): “Cahil olmaqdan Allaha sığınıram!” dedi. Rəbbinə bizim adımızdan yalvar bizə təfərrüatlarını açıqlasın..."**

**ADNAN OKTAR:** Bir mal kəsəcəklər, amma gör nə qədər təfərrüatlar istəyirlər. Tamamilə münafiq xarakteridir. Bütün münafiqlərdə bu vardır. Burada məqsədin nə olduğunu bilirsinizmi? Haşa, Allahın fikirləşmədiyini vurğulamaq və Peyğəmbər (s.ə.v)-in də bunu soruşmağı fikirləşmədiyini vurğulamaqdır. Haşa, nə Allahı bəyənirlər, nə də Peyğəmbəri bəyənirlər. Belə bir vəziyyətdədirlər. Amma niyə soruşduqlarının səbəbini soruşsan, təqva adına soruşuruq deyəcəklər.

**OKTAR BABUNA: "... Musa dedi: "Allah buyurur ki, o, nə çox qoca, nə də çox cavan, bunların ikisinin arasında olan orta yaşlı bir inəkdir. Sizə nə əmr edilirsə, onu da yerinə yetirin!"**

**ADNAN OKTAR: Artıq sizə nə əmr olundusa onu da yerinə yetirin. Yəni artıq sorğu-sual bitməli, əmr yerinə yetirilməlidir.**

**OKTAR BABUNA: "(Bu səfər) dedilər ki: "Rəbbinə dua et ki, bizə rəngini bildirsin..."**

**ADNAN OKTAR: Münafiqin necə xırdaçı olduğunu görürsünüzmü? Münafiq tam rahat olmaz.** Məsələn, Quranda açıq hökmlər vardır. Peyğəmbər (s.ə.v) izah edərdi, amma yenə də rahatlanmırlar. İllah ki, təfərrüatlarını istəyəcəklər, bütün ayrıntılarını istəyəcəklər.

**OKTAR BABUNA: "...(Musa) dedi: "(Allah) buyurur ki, o, sarı rəngli parlaq bir inəkdir. (Ona) baxanları sevindirir. Onlar dedilər: "Rəbbinə dua et ki, onun nə cür (inək) olduğunu bizə bildirsin! Çünki (bu) inək bizə (başqa inəklərə) bənzər görünür. Əgər Allah istəsə (inşaAllah), biz düz olanı taparıq".**

**ADNAN OKTAR:** Görürsünüz, malların bir-birinə bənzədiklərini deyirlər. Ayədə: **"inşaAllah doğrunu taparıq"** deyilir. Bu ifadə ilə, haşa nə Allaha etibar etdikləri, nə Peyğəmbərin gətirdiyi vəhyə inandıqları üzə çıxır, onlar yalnız öz ağıllarına güvənirlər. **Münafiqlər belədir. Yalnız öz ağlına etibar edər. Ona görə Peyğəmbərimiz (s.ə.v) dövründə də münafiqlər Quranı özlərinə görə şərh etdilər.** Quranı qeyri-kafi gördülər. Peyğəmbərimiz (s.ə.v)-in şərhlərini, izahlarını qeyri-kafi gördülər. Özlərindən ağlasığmaz cərəyanlar yaradıb bu cərəyanları inkişaf etdirirlər. Yüzlərlə məzhəb yaratdılar. Dörd haqq məzhəbdən kənarda ağlasığmaz azğın yollara üz tutdular. Şiə, cəfəri, vəhhabi istisna olmaqla dediklərimdir. Buradakı məqsəd nədir bəs? Əlbəttə ki, təqva deyil. Burada məqsəd xırdaçılıq etmək və müsəlmanları bu xırdaçılıqla boğmaqdır.

Çünki bunlar heç cihad, təbliğ, dini yaymaq haqqında soruşmur, Allahın kitabını insanlara necə öyrətməyi soruşmur. Təkcə təfərrüatları soruşur. Hansı mövzudakı təfərrüatları? Bunlardan əlavə inək kəsmək kimi mövzuların təfərrüatlarını soruşurlar. Çünki cihad, təbliğ, dini yaymaq, İslam əxlaqını hakim etmək kimi mövzular ona sərf etmir, işinə yaramır. Amma öz düşüncələrinə görə bu təfərrüatlarla müsəlmanları boğmaq istəyərlər. Halbuki, Allahın hökmü də çox açıqdır. Amma o başqa mənaya yozur. Yəni Quranda başqa mənalar tapmağa çalışar. Halbuki, Qurandakı hökmlər möhkəmdir, çox açıqdır, aydın şəkildə izah edilmişdir və Peyğəmbərimiz (s.ə.v) də hədislərlə onu şərh etmişdir. **Lakin münafiq Quranın özünü və əslini əsas götürməz. Təfərrüatları əsas tutar. Təfərrüatlarla müsəlmanlara hücum etməyə çalışar.** Peyğəmbərimiz (s.ə.v) dövründə də belə idi. Məsələn, Peyğəmbərimiz (s.ə.v) nə deyir?: "Cəhd etməyə gedək, təbliğə çıxaq" deyir. Onlar isə: "Evim açıq qalıb" deyirdillər. Amma diqqət etsək görərik ki, bütün müsəlmanların da evi açıq qalmışdı, hər kəsin evi açıq qalmışdı. Cəhd etməyə gedən adamın evi açıq qalmazmı? Orada müsəlmanları öz düşüncəsinə görə çıxılmaz vəziyyətdə qoymaq istəyir. Müqəddəs bilinən ailəni bəhanə gətirərək istifadə edir. Ailəni əsas götürərək Peyğəmbərimiz (s.ə.v) və səhabələri çıxılmaz vəziyyətdə qoymaq istəyir, öz ağlına görə. Təbii ki, Allah elələrini mütləq məğlubiyyətə uğradır. Onların bəhanə gətirərək aradan çıxması müsəlmanların şövqünü daha da artırırdı. Bunlara deyən lazım idi ki, bəs niyə: "Ya Rəsulullah, daha çox cihad etmək lazımdır, daha çox təbliğ etmək üçün nələr etməliyəm?"—deyə soruşmurdular. Bunların soruşduqları suallara bir baxın. Hz. Musa (ə.s) mübarizə aparanda, cihad edəndə, İslamı yayanda münafiqlər: "Sən və Rəbbin onlarla gedib vuruşsun" deyirlər. Amma inək barəsində, sığırın kəsilməsi barəsində isə çoxlu təfərrüatlara girirlər. Bəs cihad edəndə, dini yaymaq istəyəndə niyə təfərrüatlarını istəmirlər? Bu zaman: **"Sən və Rəbbin gedib vuruşun"** deyirlər. Belə vaxtlarda müsəlmanları tək qoyurlar, münafiqlərlə birlikdə gedib it kimi yuvasına girib orada ac qarnını doyurmağa çalışırlar. Deməli, əsl məqsədləri, fikirləri tamamilə başqadır.

**ALTUĞ BERKER:** Bir başqa ayədə Allah belə buyurur, şeytandan Allaha sığınıram: **"Onlardan eləsi vardır ki, dillərini kitaba doğru əyib bükərlər..." (Ali İmran surəsi, 78)**

**ADNAN OKTAR:** Yəni Quranı, özündən uydurduğu mənalarla, şərhlərlə, açıq, möhkəm hökmləri dəyişdirməyə çalışarlar. Yaxud Tövratın hökmlərini, o dövrdəki hökmlərini dəyişdirməyə çalışdılar və həqiqətən də dəyişdirdilər. Eləcə də İncilin hökmlərini dəyişdirməyə çalışırdılar, həqiqətən də dəyişdirdilər. İndi də Quranın hökmlərini münafiqlər öz ağıllarına görə dillərini əyib bükərək özlərini anlamazlığa vuraraq dəyişdirməyə çalışacaqlar. Amma Peyğəmbərimiz (s.ə.v) münafiqlərə qarşı necə

rəftarda olacağımızı bizə açıqlamışdır. Quranın açıq hökmləri ilə də bu müəyyən olunub. Biz onlara qarşı ağıllı, tam Peyğəmbərimiz (s.ə.v)-in izahlarına uyğun olaraq, əhli-sünnə etiqadı daxilində elmi mübarizə aparırıq və aparacayıq, inşaAllah.

**OKTAR BABUNA:** Əvvəl də qeyd etdiyiniz kimi Peyğəmbərimiz (s.ə.v) dövründə Quranın hökmlərini, haşa, səhv hesab etmək üçün müşriklərdən də dəlillər gətirirdilər.

**ADNAN OKTAR:** Bu hətta münafiqlərin əsl məqsədinə çevrilir, müşriklərlə ittifaq qurublar, onlardan öyrəndikləri dəlilləri, Əhli-Kitabdakı müşriklərdən öyrəndikləri dəlilləri müsəlmanlara dəlil olaraq göstərməyə çalışarlar, Peyğəmbər (s.ə.v)-ə təzyiq edirdilər. Peyğəmbərimiz (s.ə.v)-ə Allah **"az da olsa onlara meyil edəcəkdin"** deyir. Yəni Allah xəbərdarlıq edir. "Az da olsa meyil edəcəkdin" deyir. Yəni "Allahın lütfü ilə meyil etmədin" deyir.

**OKTAR BABUNA: Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar fəsada uğrayardı. Doğrusu, Biz onlara Zikr gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər.. (Muminun surəsi, 71)**

**ADNAN OKTAR**: Yəni Allah: **"Əgər Biz səni sağlamlaşdırmasaydıq, and olsun, onlara bir az da olsa meyl göstərəcəkdin. Bu zaman, Biz sənə həyatın da, ölümün də qat-qat artıq (ağrısını) daddırardıq, sonra Bizə qarşı özünə birköməkçi də tapa bilməzdin". (İsra surəsi, 74-75)**

Burada Allah sanki xəbərdalıq edir. "Az da olsa onlara meyil edəcəkdin, bu zaman da sənə çox şiddətli əzab daddırardıq" deyir. Allah əzabı da həm dünyada da, həm də axirətdə verəcəkdi. **"Lakin Allahın lütfü ilə Allah səni qorudu"** deyir. Münafiqlər və müşriklər Peyğəmbərimiz (s.ə.v)-i o dövrdə əlimizdən almaq istəyirdilər. Yəni Qurana yeni əlavələr, yeni hökm verməsi üçün: "bizə başqa bir Quran gətir" deyirdilər. Yəni düşüncəsində başqa bir inanc var və bu inanca uyğun olan hökmləri də Quranda axtarırdılar. Bunu tapa bilmələri üçün də Qurana yeni əlavələr edilməsini istəyirdilər. Bunu edə bilmədikdə də başqa məna verib, təfsir edib yeni mənalar ortaya çıxartmağa çalışırlar. Peyğəmbərimiz (s.ə.v) də o dövrdə onlara qarşı çox güclü tədbirlər görmüşdü, inşaAllah.

**OKTAR BABUNA**: İnşaAllah siz daha yaxşı bilirsiniz. Allah bir ayədə belə buyurur, şeytandan Allaha sığınıram: **"Dilinizin uydurduğu yalana əsasən: “Bu halaldır, o haramdır!” deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar". (Nəhl surəsi, 116)**

**ADNAN OKTAR:** Bu da münafiqlərin bir xüsusiyyətidir. Özlərindən halal, haramlar çıxardarlar. Məsələn, haramı halal, haramı da açıq-aşkar halal hesab edərlər, ona görə ayədə Allah haramı, halalı əksinə hesab etdiklərini bildirir. Məsələn, halaldır, dilini əyib bükərək bir də baxıb görərsən ki, haram etmişdir. Soruşsanki "niyə görə?" öz ağlına görə şərh edər. Bu da bir təhlükədir, bir anormallıqdır, qeyri-normal bir düşüncə tərzidir. Ona qarşı Axırzamanda müsəlmanlar çox güclü mübarizə aparacaqlar, inşaAllah.

## 11-Cİ SÖHBƏT

## 9 AVQUST 2010-cu il, HARUNYAHYA.TV

**ALTUĞ BERKER:** Siz danışarkən ağılıma bir fikir gəldi, daha əvvəl izah etdiyim kimi, "hz. Mehdi (ə.s)-ın birinci vəzifəsi, iman vəzifəsi, 40 il davam edəcək" dediniz. Tövbə surəsi, 42-ci ayədə də münafiqlər haqqında Allah belə buyurur: **"Əgər yaxın bir fayda və orta bir səfər olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Amma yorucu məsafə onlara uzaq gəldi"**.

**ADNAN OKTAR:** Əlbəttə ki, münafiqlər, bir maddi imkan, bir asanlıq təmin edilmiş olan yerə dərhal qaçarlar. Amma münafiqin ən çox çəkindiyi şey təhlükədir. Məsələn, həbs olunmaqdan, döyülməkdən, söyülməkdən, sürgünə göndərilməkdən çox qorxarlar. Yenə elə aclığa və digər çətinliklərə bir müddət dözərlər, amma çox qısa bir müddət dözərlər. Lakin ən şirin şey canı olduğuna görə bu cür şeylərdən qorxar. Ona görə də həmişə belə şeylərdən qaçar. Gənəli it kimi qovarlar, heyvan uzaqdan geri dönüb baxar ki, nə var, nə yox kimi bir şeydir. Münafiqlər də belədir. Qaçar, uzaqdan müsəlmanları güdər ki, nə dəyişiklik olmuşdur. Münafiqlər dinin yayılması və mübarizə aparmaq haqqında heç vaxt bəhs etməzlər. Belə söhbətlər etməz ya da, çox dolaşıq, mürəkkəb, şeytani bir məntiqlə, Quranı şeytani bir düşüncə ilə araşdırıb, dilini əyib bükməyə başlayar. Allahın hökmlərini dəyişdirmək istəyər, halalı haram, haramı halal hesab etməyə başlayar və bununla da müsəlmanları günahlandırmağa çalışarlar. Halal olan bir şeyə, "niyə harama girirsiniz?" deyər, haram olan bir şeyə də "niyə halal etmirsiniz?" deyər. Münafiqlərin belə bir məntiqi vardır. Peyğəmbərimiz (s.ə.v) dövründə də belə idi. Hər dövrdə belədirlər.

**OKTAR BABUNA:** Bir də, bir az əvvəl hz. Musa (ə.s) hekayəsini nümunə vermişdiniz, inşaAllah. Orada da Allahın əmr etdiyini yerinə yetirmirlər, etsələr də xırdaçılığa vararaq yerinə yetirərlər, inşaAllah.

**ADNAN OKTAR:** Elə ki, mübarizə haqqında danışılır o zaman: "sən, Rəbbinlə birlikdə gedin, döyüşün" deyirlər. Amma malı inəyi kəsmək istəyəndə özlərini tam təqvalı kimi göstərərək: "Rəngi, forması necə olmalıdır, bir daha soruş"-deyirdilər. Ayədə Allah: "az qala əmri yerinə yetirməyəcəkdilər" deyir. Tam münafiq məntiqidir. Mübarizə haqqında bəs niyə elə təfərrüatlar soruşmursunuz? Allah mübarizə əmr etdiyində niyə soruşmursunuz? "Ya Rəsulullah, haradan gedim, dərhal gedək, digər yoldaşlarımı da çağırımmı?" deməzlər, elə deyilmi? Dolaşıq şeylərdə özlərini çoxbilmiş kimi göstərərlər,

yersiz hərəkətlər edərlər, o da onların əleyhinə olar. Halbuki, ayədə də: "Peyğəmbərə sual verməyin. Lazım olsa elə özü sizə lazım olanları deyər" deyilir. "Üzən şeyləri soruşmayın" deyir. Münafiqlər həddindən artıq xırdaçıdırlar. Elə ancaq: "Bu necə oldu? Bu nədir? Bu hardan gəlir?" yersiz suallar verərlər. Allah ayədə: "Bir ruhanilik yaratdılar" deyir. "Heç ona da lazımınca əməl etməzlər" deyir. Yəhudilərdə də, xristianlarda da elədir. Həddindən artıq təfərrüata girərlər və bunu da yerinə yetirəcəyini zənn edərsən, amma ona da əməl etməzlər. Ayədə də Allah: "ona da lazımlı şəkildə əməl etmirlər" deyir.

**OKTAR BABUNA:** Siz Peyğəmbər (s.ə.v)-ə itaətdən bəhs edərkən bir dəfə demişdiniz ki, kim Peyğəmbər (s.ə.v)-in o vaxt dediyini başa düşməsə belə itaət etsə, savabı da elə daha çox olar, inşaAllah. Hikmətini anlamasa belə dediyini edər, çünki onsuz da hikmətini sonra başa düşəcəyini düşünər, inşaAllah.

**ADNAN OKTAR:** Hz. Xızır (ə.s) hekayəsində də var. Məsələn, Peyğəmbərimiz (s.ə.v): "dərhal iki adam gecə burdan aşağıdakı şəhərə getsin" deyir. Münafiq isə, haşa, Peyğəmbər (s.ə.v)-ə ağıl verməyə çalışır və: "yol təhlükəlidir, elə deyilmi?" deyir. Sanki Peyğəmbər təhlükəli yer olsaydı deməyəcəkdi? Məhz **özünü çoxbilmiş göstərməlidir, bu münafiqlərin xüsusiyyətidir. Məsələn, mübarizəyə dəvət edirsən, o isə:** "hava istidir" deyir. Sanki Peyğəmbər (s.ə.v) havanın isti olduğunu bilmir. Halbuki, **Peyğəmbər (s.ə.v)-in də tərlədiyini, istiləndiyini görür. Peyğəmbər (s.ə.v)-ə, haşa, ağıl verməyə çalışırlar. Allahın hökmünü bəyənmirlər. Əslində onlar bu bəhanələri ilə Allaha qarşı çıxırlar. Haşa, Allaha qarşı kin bəslədiklərinə görə Peyğəmbər (s.ə.v)-i də bəyənmirlər.** Peyğəmbər (s.ə.v)-ə qarşı düşmənçiliklərinin səbəbi əslində Allaha qarşı düşmən olmalarıdır.

**OKTAR BABUNA:** Sizin dediyiniz ayəni oxuyuram, inşaAllah, şeytandan Allaha sığınıram: **"Ey iman gətirənlər! Sizə agah olunca xoşunuza gəlməyəcək şeylər barəsində soruşmayın. Əgər Quran nazil edildiyi zaman onlar haqqında soruşsanız, sizə aydın olar. Allah bunları (indiyə qədər verdiyiniz bu cür sualları) əfv etdi. Allah Bağışlayandır, Rəhmlidir". (Maidə surəsi, 101)**

**ADNAN OKTAR:** Bir də müşriklər və münafiqlər Allaha şirk qoşarlar. **Məsələn, İslamiyyəti əvvəl öz ağıllarına görə müəyyənləşdirər. Sanki qadağalarla dolu din anlayışı axtararlar. İlk öncə beyninə belə qəzəbli, qadağalarla dolu, qan tökən, təzyiq göstərən, xırdaçı bir din anlayışını qoyar. Qurana, hədisə baxanda ağlında tutduğu mənfi şeyləri görə bilməz. Ondan sonra dilini əyib bükməyə başlayar.** Bu Quranda da belə bildirilir. Xüsusi şeylər çıxartmağa çalışır. **Münafiq Quranda halal olan şeyləri görər, amma narahat olar. Halal bildirilmiş şeyləri halal olaraq qəbul etmək istəməz. Eləcə də haram bildirilmiş**

**şeyləri görəndə narahat olar, bir sözlə haramı halala, halalı da harama qarışdırmaq istəyər.** Amma xüsusilə halal olan şeylərdən narahat olar. Çünki nə qədər haram çox olsa münafiq üçün öz ağlına görə o qədər də yaxşı olar, haşa. Çünki haramlar çox olanda, insanları bezdirəcəyini düşünər şeytani ağlı ilə bu cür insanları dindən uzaqlaşdıracağını fikirləşər. Ona görə münafiqlər dini çox çətin və öhdəsindən gəlinməyəcək, qarışıq hala salar. Dini çətinləşdirər və bu cür insanları müsəlmançılıqdan döndərirlər. Bu şeytani bir üsuldur. Elə bir şərhlər edər ki, dini qeyri-mümkün, yaşanmayacaq hala salar. Onun fikrinə görə dini yaşamaq mümkün deyil. Nə geriyə çəkilə bilərsən, nə irəliyə gedə bilərsən, nə sağa, nə də sola dönə bilərsən. Hərəkət edə bilməyəcək hala salar. "Bu Allahın hökmüdür, bunu edəcəksən" deyər.

**OKTAR BABUNA:** Siz daha yaxşı bilirsiniz inşaAllah, bu halalı haram hesab etmələri barədə danışmışdınız. Yəni Peyğəmbərimiz (s.ə.v) dövründən bəhs etmişdiniz. Münafiqlərin Peyğəmbər (s.ə.v)-in yoldaşlarına, paltarlarına, hz. Həsən (r.ə)-in paltarlarına həsəd apardıqlarını və bunlara mane olmağa çalışdıqları haqqında bəhs etmişdiniz, inşaAllah.

**ALTUĞ BERKER:** İnşaAllah, siz daha yaxşı bilirsiniz, Allah Quranda müsəlmanlara: "bir olun, dağılıb ayrılmayın" deyir. Bir olmalarını əmr edir. Münafiqlər də Munafiqun surəsi, 17-ci ayədə bildirildiyi kimi: **"infaq etməyin, dağılıb getsinlər!"** deyir.

**ADNAN OKTAR:** Münafiqin hər vəziyyətdə, bütünlüklə möminlərin dağılmağını istəməz. Çünki onlara həmişə ehtiyacı olur. **Küfrlə, imansızlarla mübarizə aparmayacağına görə şeytani təcavüzkarlığı tətbiq etmək üçün mütləq müsəlmana ehtiyacı olur. Necə ki, bir qudurmuş it mütləq insanı dişləmək istəyər, münafiqlər də it kimi, heyvani davranarlar,** mütləq müsəlmana hücum edərlər. Ona görə müsəlmanların tamamilə parçalanmağını istəməz, çünki belə olsa hücum etməyə adam qalmaz. Mütləq biri ilə başını qatmalı, birinə diqqət yetirməlidir. **Uzaqdan öz ağlına görə baş qarışdırmağa, nəsə etməyə çalışarlar və bu münafiqlərdə çox əhəmiyyət kəsb edir. Öz başı (fikri, ağlı) qarışıq olar, eləcə də müsəlmanların da ağlını, fikrini qarışdıracağını zənn edər.** Halbuki, müsəlmanların düşüncəsi möhkəm polad kimidir, heç vaxt qarışmaz. Amma öz axmaq başı qarışıq olduğuna görə öz ruhundakı qarışıq şəxsiyyəti onu həmişə bu hərəkətə vadar edir. Şeytan da belə bir cins varlıqdır, anormal bir məxluqdur. Buna görə "görəsən vəsvəsə verə bilərəm, görəsən qarışıqlıq çıxara bilərəm, görəsən diqqətlərini yayındıra bilərəm, görəsən halalı haram edə bilərəm, görəsən onları necə şübhəyə sala bilərəm?" kimi fikirlərlə özünü məşğul edər. Lakin ağılsız olduğuna görə həqiqətən zərər verə biləcəyini düşünər. **Halbuki, hər münafiq eyni üsulu tətbiq edər və**

**hamısı məğlub olar.** Baxın münafiqlərə, tarix boyu eyni metodlarla gələrlər. Hamısının stili, üsulu, modeli eyni formadadır. Lakin bir-birlərindən xəbərsiz olduqlarına görə bu axmaqlar həmişə də eyni metodu tətbiq etmək istəyərlər. Bir sürü heyvan kimi eyni şeyi edərlər. Lakin müsəlmanların bunlara ehtiyacı olar. **Yəni şeytana, münafiqə, müşrikə ehtiyacı vardır ki, mübarizə apara bilsin, təbliğ edə bilsin, savab qazana bilsin.** Məsələn, bir çox münafiqlərə aid ayələr var. Münafiq olmayanda biz nəyi izah edəcəyik? Münafiq olmasa münafiqlərdənmi bəhs edəcəyik? Allah münafiqi yaradır ki, biz münafiqə aid Quran ayələrini izah edək. Münafiq həm də qadın düşmənidir, bu da onun xüsusiyyətlərindən biridir. Anti-qadındır və bunlar daim mənəvi cəhətdən pis olarlar. Allah bunların mənəvi gücünü qırmışdır. Bunlarda qısqanclıq olar, Allah ruhlarında güc yaratmır, xəstədirlər. Ona görə, ümumiyyətlə, münafiqlər həmişə pozğun olurlar. Qarışıq bir ruha sahibdirlər. Bir yerdə qərar tuta bilməyən insanlardır. Müsəlmanların gücü, qüdrəti, sevinci, sağlamlığı bunlara çox pis təsir edər, mənəvi cəhətdən sıxırlarlar, əzab-əziyyət çəkərlər.

## 12-Cİ SÖHBƏT

## 10 AVQUST 2010-CU İL, QAZİANTEP OLAY TV və ÇAY TV

**ADNAN OKTAR:** Allah Quranda, Nəhl surəsinin 116-cı ayəsində: **"Diliniz yalana vərdiş etdiyi üçün "Bu halaldır, o haramdır!" deməyin..."** deyir. Bu, münafiqlərin əsas xüsusiyyətlərindəndir. Özlərindən çoxlu halal, haramlar çıxararlar. Biri bir şey deyəndə: "bu haramdır, o halaldır" deyər. Hardan qaynaqlanır? Heç bir qaynağı yoxdur, **öz başından, öz məntiqindən icad edir. "Mənim məntiqimə görə belə olmalıdır" deyər.** Münafiqlərin bu xüsusiyyətinə qarşı insanları xəbərdar etmək lazımdır. Allah **"...çünki Allaha qarşı yalan uydurursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar.."** deyir. Allaha qarşı həmişə yalan uydurmaq münafiqin xüsusiyyətidir. Maidə surəsinin 87-ci ayəsində Allah belə buyurur: **"Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu, gözəl şeyləri haram etməyin....".** Buradakı "gözəl bir şey" ifadəsi məsələn, insana xoş gələn şeylərdir, həqiqətən də münafiqlər xoş, gözəl şeyləri haram hesab edir. Nəyə əsasən haram sayır? "Mənim düşüncəmə görə haramdır" deyir. Uydurmaya görə haramdır. Görün Allah nə deyir ayədə: **"... Allahın sizin üçün halal etdiyi gözəl şeyləri haram etməyin və həddi aşmayın. Həqiqətən, Allah həddi aşanları sevməz".** Yəni Allah Quran əxlaqından kənar hərəkət etməməyi buyurur. Ənam surəsinin 119-cu ayəsində Allah belə buyurur: **"Sizə nə olur ki, məcburiyyət qarşısında yeməli olduğunuz şeylər istisna olmaqla, O, sizə haram buyrulanları təfərrüatı ilə bildirdiyi halda",** yəni **"haram olan şeylərin adını Quranda demişkən" "... üstündə Allahın adı çəkilmiş şeyləri yeməyəsiniz?...".** Yeməklərdə də: "filan şeylər yeyilməz"deyir. "Niyə?" soruşursan. "Haramdır" deyir. "Yaxşı bu necə?", "o da haramdır, bu da haramdır" deyirlər. Ayədə Allah məhz buna diqqət çəkir. Allah **"... Üstündə Allahın adı çəkilmiş şeyləri yeməyəsiniz?.."** deyir. **"... Həqiqətən, çoxları (elm, şəriəti) bilmədiklərindən...",** yəni Allah bir elm, qaynaqları olmadan - **"nəfslərinin istəklərinə uyaraq (xalqı) düz yoldan azdırarlar..."** deyir. Yəni elə həmişə özlərindən haram, qadağalar çıxardırlar. **"... Şübhəsiz ki, Rəbbin həddi aşanları ən yaxşı tanıyandır!".** Burada ayədə, münafiqlərin, müşriklərin halal, haram çıxartma üsullarından birini göstərir. Ənam surəsinin 138-ci ayəsində Allah belə buyurur:**"Onlar öz (batil) iddialarına görə...",** yəni öz ağlına görə zənn edir**"... bu mal-qara...",** yəni gördüyünüz bu-bu heyvanlar haramdır. **"... Və əkinlər haramdır. Bunları bizim istədiklərimizdən başqa heç kəs yeyə bilməz deyirlər. (Müşriklər) mal-qaradan bəzisinə minməyi haram edir, bəzisini də (kəsərkən) üstündə Allahın adını çəkmirlər. Onlar (bunu) Allaha iftira ataraq edirlər. O da onları atdıqları iftiraya görə cəzalandıracaqdır"** deyir Allah. Münafiqlərin ən xoşladığı şeylərdən biri də özlərindən haramlar, qadağalar çıxartmaqdır. Həmişə: "bu haramdır, bu qadağandır" deyərək qadağalar və haramlar yaradarlar. **Buradakı məqsəd İslamı çətinləşdirmək və yaşanmaz hala gətirməkdir, haşa.** İnanan, səmimi müsəlmanları da özləri kimi etmək istəyirlər,

dərdləri ancaq budur. Bəqərə surəsinin 246-cı ayəsində Allah belə buyurur: **"Musadan sonra bir dəstə (tanınmış) İsrail övladının başına gələnləri görmədinmi?** Yəni o dövrdəki başçıları bildirir Allah. **"..Onlar öz peyğəmbərinə: "Bizə bir hökmdar göndər ki....",** yəni idarəedici, bir Mehdi göndər: **"... Allah yolunda vuruşaq!" dedilər! O da (onlara): "Sizə vuruşma əmri olduqda, bəlkə, vuruşmadınız?" dedi... ".** Yəni: "birdən mübarizə aparmasalar, təbliğə getməsələr, İslamı yaymasalar, tənbəllik etsələr" deyir. "**Onlar cavabında dedilər: "Allah yolunda nə üçün vuruşmayaq ki, yurdumuzdan çıxarıldıq, övladlarımızdan ayrıldıq".** Yəni, şübhəsiz, mübarizə aparacaqlarını deyirlər.**"Lakin onlara vuruşmaq vacib olduğu vaxt"**, yəni, təbliğ, dini yaymaq nəzərdə tutulduğu vaxt **"içərilərindən az bir qismi istisna olmaqla, (hamısı döyüşdən) üz çevirdilər. Allah (özlərinə) zülm edənləri tanıyır".** Bu da münafiqlərin xüsusiyyətlərindəndir. "Quran hökmlərini qadağan edəcəyik. Müsəlmanların sevincini, şövqünü qaçırmaq üçün bir şey etmək istəyirik. Nə deyirsən?" desən dərhal, qaça-qaça gələr. **Amma belə şeylərdə əvvəl özlərini çox gözəl cihad edən kimi göstərər. "Ay belə edərəm, elə edərəm" deyər. Amma iş ciddiləşəndə dərhal gənəli donuzların arasına girir və gedir orada onlara gənə kimi yapışır.** Məsələn, Bəqərə surəsinin 249-cu ayəsində, Allah belə bildirir: **"Talut qoşunu ilə (öz yurdundan, Qüdsdən) ayrıldığı zaman (əsgərlərinə) dedi: "Allah sizi (axar) bir çay vasitəsilə imtahan edəcək. Kim onun suyundan içsə, o məndən (mənə tabe olanlardan) deyildir. Kim ondan dadmasa, dadsa da, bir ovucdan artıq içməsə, o məndəndir...".** Yəni: "bir ovuc su içsəniz, mənimlə gəlin. Amma bunu etməyənlər mənimlə gəlməsinlər" deyir. Allah **"lakin onların az bir qismi istisna olmaqla, (hamısı) o sudan içdi"** deyr. İndi bir insanın ürəyində münafiqlik, xəstəlik olanda: "Allahın halal buyurduğu suyu sən mənə necə qadağan edə bilərsən?" deyir. Halbuki, komandir dediyini yerinə yetirməlidirlər. Əmr sahibinə: "sən mənə qarışa bilməzsən"-deyir. Şeytani ağlı ilə, dikbaşlıq edir, burnunun dikinə gedir. **"... (Hamısı) o sudan içdi. O, özüylə birlikdə iman edənlərlə... "**-hansı ki, bunlar 313 adamdır. Hz. Mehdi (ə.s) tələbələrinin də sayları buna oxşar 313 nəfərdir. Hədislərdə də bildirilmişdir bu - **"O (Talut) və onunla birlikdə olan möminlər (çayı) keçdikdən sonra (düşmən qoşununu görüb) dedilər: "Bu gün bizim Calut (düşmən tərəfin hökmdarı) və onun qoşunu ilə vuruşmağa taqətimiz yoxdur!"** dedilər. Onsuz da qaçacaq yer axtarırdılar. Yəni: "Biz təbliğə, mübarizəyə getmirik"- deyirlər. **"...Allahın rəhmətinə qovuşacaqlarına (Allahın dərgahına qayıdacaqlarına) inananlar isə dedilər...".** Burada, Axırzamana, həqiqətən iman edən hz. Mehdi (ə.s) tələbələrinə işarə edir, Allahualəm.**"...Neçə dəfə olub ki, az bir dəstə..."** -yəni, 313 nəfər adam - **"... Allahın izni (iradəsi) ilə çox bir dəstəyə qalib gəlib! Allah səbir edənlərlədir...".** Bu birbaşa hz. Mehdi (ə.s) tələbələrinə işarə edən bir ayədir. Əbcəd hesabı da hz. Mehdi (ə.s) dövrünü verir. Allah burada da münafiqlərin o həyasız, dikbaş, itaətsiz rəftarının nə qədər anormal olduğunu Allah izah edir.

**OKTAR BABUNA:** Siz, "münafiqlərin heç xoşlamadığı şeylərdən biri “itaətdir" demişdiniz.

**ADNAN OKTAR:** Bir də münafiq, məntiqini inkişaf etdirər, **çoxbilmiş olar, həmişə dikbaşlıq edərlər. Yəni özlərini hər şeyi ən yaxşı bilən hesab edirlər.** Allah, Ali İmran surəsinin 168-ci ayəsində: **"(Evlərində) oturub öz qardaşları barəsində: “Əgər onlar bizə qulaq asmış olsaydılar, öldürülməzdilər...."** deyir. Yəni başı bəlaya girməzdi, çətinliyə düşməzdi. Bunu, əvvəlcədən ayrılmış münafiqlər deyir hansı ki, çoxbilmişlik edib öz qardaşlarından ayrılıblar. Çoxbilmiş olduqlarını hesab edirlər. Qudurmuş keçi kimi eqoistlik edirlər və şeytan kimi qıcıqlandırırlar. “Evdə, yanımda otursaydın başına bəla gələrdi, nə tutulmazdı, nə yaralanmazdı, heç bir şey olmazdı. Amma qulaq asmadılar, başa düşmədilər. Ətraflarına bunu deməli idilər. Başa düşməli idilər, getməməli idilər, yanımıza gəlməli idilər" -deyir.**"... De: Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın!"**-deyir Allah. Burada Allah: “O zaman münafiqləri gözləyən ölümün qarşısını alın, dayandırın"-deyir. Münafiqlərin ən çəkindiyi, qorxduğu şey nədir bilirsinizmii? Ölməkdən çox qorxarlar. Gecə-gündüz ən böyük dərdləri budur. Çünki əxlaqsız və alçaq olduqlarını bildikləri üçün hər şeydə ölüm qorxusu hiss edərlər. Ən kiçik bir şeydə belə. Hər an ölümün onları yaxalayacağından qorxurlar. Məsələn, Bəqərə surəsi 67-ci ayədə Allah belə buyurur: **“Bir zaman Musa öz xalqına dedi: “Allah sizə bir inək kəsmənizi əmr edir...",** yəni hər hansı bir malı alın, qurban kəsin deyir. Onlar isə: **"...Sən bizi ələ salırsan?"** dedilər. Tamamilə lovğa çaqqal üslubu nümayiş etdirirlər. Amma bu, münafiqlərin klassik üslubudur. Onlar həmişə dikbaş, alçaq, pozğun xarakterli olublar. Onlar şeytanın ruhuna sahib olduqlarına, şeytanı bir xarakterə, şeytanın fəlsəfəsinə malik olduqlarına görə: **"...Sən bizi ələ salırsan?" dedilər..."**Əzm sahibi olan dövrün Peyğəmbəri vəhylə söz deyir, onlar isə: **"ələ salırsan?"** deyirlər. Verdikləri cavab əsl münafiq cavabıdır: **"... (Musa):" Cahil olmaqdan Allaha sığınıram" dedi".** Yəni: "Mən cahil bir insan deyiləm, Allaha sığınıram, vəhylə hərəkət edirəm" deyir. Bəqərə surəsi 68-ci ayədə Allah buyurur: **"Rəbbinə dua et ki,..."**—burada, münafiqlərin həyasız üslübunu görürük, həmişə gizli saxladıqları üslubdur. Çünki: “Rəbbimizə deyil, Rəbbinə de” deyirlər. **"Rəbbinə dua et ki, onun nə cür (inək) olduğunu bizə bildirsin".** Burada münafiqlərin özlərini üstün tutduqlarını görürük, çünki özləri dua etmir, hz. Musanın Allaha dua etməyini istəyirlər, özlərini adam yerinə qoyurlar, yəni onların adından dua etməyi deyirlər. **"Rəbbinə dua et ki, onun nə cür (inək) olduğunu bizə bildirsin...",** yəni demək istəyir ki, onların fikirləşdiyini Allah fikirləşməmişdir haşa, sanki Allah səhv hökm verib hətta peyğəmbər də başa düşmür, haşa, bəyənmədiklərinə görə təfərrüatlarını bilmək istəyirlər. **Münafiqlər ən çox təfərrüatlara diqqət yetirərlər, yəni xırdaçılığa getməyi vacib bilərlər. Təfərrüatlara girdikləri üçün boğular, həm də buna əməl etməz, xaindir. Əsasən də müsəlmanları təfərrüat, xırdaçılığa yönəldər, həm də özü**

**əməl etməz.** Bu halaldır, o haramdır, bu qadağandır, sağa dönmək, sola dönmək, oturmaq qadağandır, qalxmaq qadağandır. Soruşanda ki "sən özün bunlara əməl edirsən?" "Mən əslində etmirəm" deyir. Amma aşkarda özünü əməl edən kimi göstərir. Öz-özlüyündə münafiq: "nümayiş olsun deyə, göstəriş üçün edərəm" deyir. "Amma gizlində etmirəm" deyir. **"...Nə cür inək olduğunu bizə bildirsin..."** dedilər. Bunu Allahdan istəyirlər. **"Rəbbinə dua et ki, onun nə cür (inək) olduğunu bizə bildirsin!" (Musa) dedi: "(Allah) buyurur ki, o, nə çox qoca, nə də çox cavan, bunların ikisinin arasında olan orta yaşlı bir inəkdir. Sizə nə əmr edilirsə, (onu da) yerinə yetirin!"** dedi. Yəni "artıq məsələni bitirin" deyir. Xırdaçı olmaq, təfərrüatları vacib saymaq münafiqin xasiyyətidir, mütləq gərək təfərrüatlara girsin, xırdaçılıqdan doymur ki, doymur. **"(Bu səfər) onlar dedilər: "Rəbbinə dua et ki, onun rəngini də bizə bildirsin!" (Musa) dedi: "(Allah) buyurur ki, o, sarı rəngli parlaq bir inəkdir. (Ona) baxanları sevindirir...".** Göründüyü kimi tamamilə münafiq ağlıdır. Yəni münafiq sadə, asan dini heç vaxt qəbul etməz. Çətin bir din istəyər. Nə qədər çətin, nə qədər dözülməz bir din olsa münafiq üçün bir o qədər yaxşıdır. Bu onun əməl edəcəyindən irəli gəlmir, sırf şeytanlıq olsun deyə belə istəyir **"... "(Allah) buyurur ki, o, sarı rəngli parlaq bir inəkdir. (Ona) baxanları sevindirən bir inəkdir".** "Sarı rəngli bir inəkdir" deyir, yəni Allah rəngini də deyir. **"(Onlar yenə:)" Rəbbinə dua et ki..."**—burada münafiqin inadkar, azğın, dikbaş olduğunu, müqavimət göstərdiyini görürük. Qarşısındakını mütləq yalançı çıxartmaq istəyər. Allahın hökmünü hec vaxt bəyənməz, haşa, mütləq Peyğəmbərin hökmünə qarşı çıxar, itaətsizlik göstərər. "...**Bizə onun xüsusiyyətlərini bildirsin. Onun (inəyin) əsl sifətini bizə bildirsin, çünki biz (ümumiyyətlə) inəkləri bir-birinə bənzədirik..."** deyirlər. Allah burada özlərini daha ağıllı, çoxbilmiş sandıqlarını bildirir. Bütün münafiqlər çoxbilmiş, dikbaş və qıcıqlandırıcıdırlar. Ayədə: "**çünki biz (ümumiyyətlə) inəkləri bir-birinə bənzədirik..."** deyirlər, sanki haşa, guya Allah bilmir, Peyğəmbər də bilmir, öz başlarına fikirləşib tapırlar, nəsə bilirlər. **"... İnşaAllah (Allah diləsə) biz düz olanı taparıq"** dedilər. Burada yenə də bir müsəlman üslubundan istifadə etdiklərini görürük. Peyğəmbər izah etdiyi, Allahın dediyi onların düzgün olanı tapmağı üçün kifayət etmir, çünki onların düşüncəsində bir din var və həmin dini tapmaq istəyirlər. Yəni Quranın izah etdiyi din ona kifayət etmir. Mütləq, elə bil başqa bir din tapmalıdırlar. Çox qərarlı olarlar. **"...İnşaAllah (əgər Allah istəsə) biz düz olanı taparıq" dedilər. (Musa) dedi: "(Allah) buyurur ki, o, nə yer şumlamağa, nə də əkin suvarmaq üçün ram edilməmiş bir inəkdir. O, sağlamdır və onda (heç bir) ləkə-qüsur yoxdur". Onlar: "İndi sən əsl həqiqəti bildirdin!" dedilər.** Ayədən də görünür ki, artıq xırdaçılıq etmək üçün soruşmağa sözləri qalmamışdır. "... **Beləliklə inəyi kəsdilər, amma az qala (bunu) yerinə yetirməyəcəkdilər".** Burada Allah münafiqlərin xasiyyətinə diqqət çəkir. **Yəni əsl niyyətləri inəyi kəsməmək və başqasına da elətdirməmək idi.** Baxın indi eyni adamlara Allah deyir ki: "Peyğəmbər: "Biz indi təbliğ edəcəyik, İslamı, Quranı, Tövratı (o dövrdəki Quran hökmündə olan kitabı—Tövratı) yaymaq üçün, təbliğ etmək üçün hərəkətə keçəcəyik. Gəlin birlikdə gedək" deyir. Maidə surəsi, 22-ci ayədə Allah

buyurur: **"Onlar dedilər: "Ya Musa, orada nəhəng (qüvvətli) adamlar vardır",** yəni yenə ağıl verməyə başlayırlar: **"...onlar oradan çıxmayınca biz ora girməyəcəyik. Əgər onlar oradan çıxsalar, biz ora daxil olarıq".** Göründüyü kimi, əsl xain kimi hərəkət edirlər. Necə mühit istəyir? Cihad edilməyən, təbliğ olmayan, bir çətinliklə qarşılaşmayacaq bir mühit istəyir. Yəni tutulmaqdan, nəzarətə götürülməkdən, yaralanmaqdan, risk etməkdən qorxar, çəkinər, belə bir mühitin olmamasını, tamam rahat bir şərait istəyər. Bu ayə məhz münafiqin riskdən qorxmağının dəlilidir. Bunu heç vaxt istəməz. Halbuki, məsələn: bizim əsgərlərimiz Şərqə getməklə riskə gedir, Allah rizası üçün canını fəda edir. Haqqı müdafiə etmək üçün risk lazımdır. İnsan həbsə də düşə bilər, böhtana da uğraya bilər, hər şey ola bilər. Amma münafiqlər "belə şey olmaz" deyirlər. Maidə surəsi, 24-cü ayədə: **"Onlar dedilər: "Ey Musa onlar oradan çıxmayınca biz ora girməyəcəyik..."** dedilər. Yəni: "biz təhlükə, kiminsə bizə söz deməsini istəmirik, danışıqların olmağını, həbsə düşməyi, tutulmağı istəmirik. Döyülmək, söyülmək istəmirik" deyirlər. Rahat bir mühit istəyirlər. Bu lovğa insanların üslubuna diqqət edin, onlar: **"... Sən və Rəbbin gedib onlarla vuruşun..."** deyirlər. Münafiq xarakteri məhz burada üzə çıxır. Çünki oradakı insanlara və Peyğəmbərə: "mən təhlükə istəmirəm" deyir. Bu, münafiqin əsas xüsusiyyətidir. **"...Sən və Rəbbin gedib onlarla vuruşun"** deyirlər-"biz isə burada qalacağıq". Harada? O pis donuzların, ağlını itirmiş kaftar donuzların peyinlərinin içində. "Siz gedin, həbsə də düşün, mübarizə də aparın, amma biz küfrə sığınacağıq, əxlaqsızların içinə sığınacağıq və onlar da bizi qoruyacaqlar" deyirlər. "Biz təhlükənin içinə girə bilmərik" deyirlər. Nur surəsinin 53-cü ayəsində Allah: **"...Allaha çox möhkəm and içdilər...."** deyir. Münafiqlər elə danışarlar ki, həqiqətən dindar olduqlarını zənn edərsən. Yəni tam müsəlman üslubu ilə danışarlar. Allahdan çox bəhs edərlər. Çox təqvalı bir üslubdur. **"Onlara əmr etdiyin zaman mütləq (cihada) çıxacaqları haqqında Allaha çox möhkəm and içdilər....".** Haşa, "sən vəzifəni yerinə yetirmirsən. Əgər etsən bax gör biz nələr edəcəyik" deyir. **"...Onlara de: "(Yalandan) and içməyin, itaətiniz məlumdur. Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır!...".** Tövbə surəsinin 81-ci ayəsində Allah belə buyurur: **"(Döyüşə getməyib) arxada qalanlar Allahın elçisinin əleyhinə çıxaraq (evdə) qalmalarına sevindilər....".** Donuzların qanı ilə bəslənən bit kimi oturub qalmaqlarına sevinənlər, "necə də düzgün hərəkət etdim" deyir. "O donuz yuvasına girməklə necə də düzgün hərəkət etdiyini" deyir. Elə oturub-durub sevinir. "Aralarında olsaydım özümü təhlükəyə atardım, indi başım-beynim sakitdir, rahatam" deyir. **Nə risk var, nə təhlükə var, sağında kafir, solunda fırıldaq, önündə münafiq, digər tərəfdə azğınlardır. Amma: "təhlükə yoxdur" deyir. Təhlükənin tam içinə girib. Allah bəlanı verib. Cəhənnəm qatarına minib, amma bundan xəbəri yoxdur. "...Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər...".** Ayədə: **"malları və canları ilə"** deyir. Münafiq: "vaxtında malımı vermişəm" deyir. Münafiqin ən böyük dərdi mal dərdidir, ondan mal-pul çıxınca canı çıxar. Münafiqlər canlarını əsla təhlükəyə atmazlar. "Canımı təhlükəyə ata bilmərəm, yaşlanaram, xəstələnə bilərəm, həbs edilə bilərəm, hər şey ola bilər" deyərlər. Canını da,

malını da çox şirin sayar. Mal verdikdə də başa qaxaraq verərlər, verdiyi mala görə peşman olarlar, buna görə əziyyət çəkərlər. Allah **“Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər..."** deyir. Əylənməyə gedər, buna pis baxmaz, amma söhbət mal verməyə gələndə buna pis baxar. Əsl hədəfləri mal-pul olduğuna görə malı gedəndə sanki ətindən-canından gedər. Münafiiqin həm malı, həm də canı çox şirin olar. Malı çıxınca canı çıxar. Allah ayədə: **"...De ki: "Cəhənnəm odu daha istidir..."** deyir. Burada Allah verəcəyi bəlanın dərəcəsini bildirir. Tövbə surəsi, 81-ci ayədə Allah: **"... Kaş ki, bir bilsəydilər”** deyir. Tövbə surəsi, 86-cı ayədə isə belə buyrulur: **"“Allaha iman gətirin və Onun elçisi ilə birlikdə cihad edin!”—deyə bir surə nazil edildikdə onların var-dövlətə malik olanları səndən icazə istəyib dedilər: “Bizi burax (evdə) oturanlarla birlikdə qalaq"**. Burada Allah vaxtı ilə mal-mülk, pul yığmış münafiqlərdən və onların ağılsız dostlarından, tərəfdaşlarından bəhs edir. Bu tərəfdaşları, dostları qotur itlər kimi, onların bitləriylə, qanıyla bəslənərlər. **"... Onlardan sərvət sahibi olanlar səndən icazə istəyib: "Bizi burax evdə oturanlarla birlikdə qalaq" dedilər** Münafiq məhz öz yuvasına girər və heç bir iş görmədən orada yaşayar. **"Onlar arxada qalanlarla birgə qalmağı seçdilər..."**. Yəni, digər arxada qalan münafiqlərlə birlikdə qalmağa razı oldular. Əvvəl qaldıqlarına görə fəxr edərlər. **"Bizi burax evdə oturanlarla birlikdə qalaq"** dedilər. "Yəni: “o biri münafiqlər kimi arxada qalaq". **Münafiqlərin ən sevdiyi şey bir küncə çəkilib qotur qaya porsuğu kimi uzaqdan hadisələri seyr etməkdir.** Qotur qaya porsuğu necə təhlükədən qorxursa, həmişə yuvalarında necə gizlənirlərsə, bunlar da həyatda həmişə qorxu içində olar və müsəlmanlardan həmişə uzaq olarlar. Müsəlmanlardan qaçmalarının səbəbi təhlükə qorxusudur. Allah **"...onların qəlblərinə möhür vuruldu..."** deyir. Yəni ölü kimidirlər, artıq heç bir söz də başa düşməzlər. **"...Buna görə də onlar (haqqı) başa düşməyəcəklər".** Allah Tövbə surəsi, 86-87-ci ayəsində səbəbini belə açıqlayır. Tövbə surəsi 42-ci ayədə Allah buyurur: **"Əgər səfəriniz gəlir gətirən və yüngül bir yürüş olsaydı, onlar mütləq sənin ardınca gedərdilər..."**. Məsələn, 6 aylıq, 1 illik asan nəticələnən bir şey olsaydı **"...onlar mütləq sənin ardınca gedərdilər..."**. Çünki nəticədə dərhal qazancı əldə edəcəklər. **"...Lakin əziyyətli yol onlara çətin gəldi...",** yəni böhtana, təzyiqə, təhqirə uğramaqdan, həbs olunmaqdan qorxdular. **"...Əgər taqətimiz olsaydı, biz də sizinlə bərabər çıxardıq!”—deyə Allaha and içəcəklər..."**, yəni imkanlarının olmadığını və s. müxtəlif bəhanələr gətirərlər. Allah **"...Onlar özlərini həlak edirlər. Allah isə onların yalançı olduqlarını bilir"** deyir. Münafiqin əsas xüsusiyyəti çox yalan danışmasıdır. Nisa surəsi, 72-ci ayədə Allah belə bildirir: **"İçərinizdə elələri də var ki,...",** yəni bu münafiqlər həddindən artıq tənbəl olarlar. Yəni açıq-aşkar, yavaş-yavaş, ağır tərpənərlər. Bütün münafiqlərə baxın, çox yavaş-yavaş tərpənərlər. Qotur itlər necə hərəkət edərlər, bunlar da elədirlər. **"...Əgər, sizə bir müsibət üz versə...”,** məsələn, mömin tutulsa, döyülüb söyülsə, malını-mülkünü itirsə: **"...Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə (bəlaya düçar) olmadım”** deyər. Məsələn, deyər ki: “vaxtında nə yaxşı etdim onlardan uzaq oldum". Ali İmran surəsinin 78-ci ayəsində:

**"Onlardan eləsi vardır ki, dillərini kitaba doğru əyib bükərlər..."** deyir. İndi Quran var, dillərini Kitaba doğru əyib bükərlər, yəni Qurandakı hökmləri dəyişdirərlər. Tamamilə başqa mənalar çıxardarlar. Məsələn, Allah deyir: **"məscidlərə gedərkən zinətlərinizi taxın gedin".** Quran elə deyir, amma onlar: "o ayənin hökmünü bir fikirləş gör nə məna verir? İndi mən sənə mənasını başa salaram. Zinət nədir? Təmiz geyinəndə o zinət olur? Zinət oraya pərişan halda girməməkdir, zinətin mənası budur" deyir. Öz ağlına görə tamamilə başqa bir məna verir. **"...Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər...".** Yəni Quran hökmü kimi dilini əyib-bükərək dəlilləndirməyə çalışar, Allahın hökmü kimi qələmə verər. Allah **"...Halbuki, bu, kitabdan deyil..."** deyir. Yəni Quranın hökmü deyil, amma elə göstərmək istəyir. Zənnə qapılırlar, təxmin edərək yalan danışırlar. **"Bu, Allah qatındandır!" deyərlər".** Burada Allah münafiqlərin insanlara dini necə təlqin etdikləri, necə səhv izah etdiklərini bildirir. **"...Halbuki, o, Allah qatından deyildir...". "Onlar bilə-bilə Allaha qarşı yalan danışarlar".** Burada Allah münafiqlərin necə saxtakar olduqlarını bildirir. Özləri də bilərəkdən yalan danışırlar. Çünki dinin altından çıxılmaz hala gətirmək, çətinləşdirmək istəyirlər. Yəni bu əxlaqsızlığı qəsdən edərlər. Ənfal surəsi, 49-cu ayədə Allah belə buyurur: **"münafiqlər və qəlbində xəstəlik olanlar belə deyirdilər: "Bunları (müsəlmanları) öz dinləri aldatdı...".** Yəni öz səhv düşüncələrinə görə, müsəlmanlara: "bunlar səhv yola girdilər, aldandılar" deyərlər. **"...Halbuki kim Allaha təvəkkül etsə, həqiqətən Allah yenilməz qüvvət sahibidir, hikmət sahibidir".** Yəni: "Müsəlmanlar Allaha təvəkkül edərlər, Allah da hökm və hikmət sahibidir" deyir. Ən düzgün hökmü hikmət sahibi verər. Allah qısa və ən düzgün olanı izah edər" deyir. Sad surəsi, 6-cı ayədə Allah belə buyurur: **"Onların adlı-sanlı adamları çıxıb gedərək (dedilər)** (yəni münafiqlərin böyük hesab etdikləri ağa babaları, aparıcı münafiqlər): **Gedin tanrılarınıza qarşı (bağlılıqda) qərarlı davranın. Doğrusu, bu (sizdən) istənilən bir şeydir".** Bunların ilahı nədir bilirsiniz? Allahın hökmünü dəyişdirən bəzi saxtakar alimlərdir. Məsələn, səbəbsiz yerə halalı haram edər. Nə Peyğəmbər (s.ə.v)-in sünnətini, nə hədis, nə də Quran tanıyar. Öz-özünə halallar, haramlar icad edər. Çünki "**Doğrusu, bu (sizdən) istənilən bir şeydir"** deyir. Yəni: "Allahın nəzərdə tutduğu əslində budur. Doğru olan budur, bunu etməliyik" deyir. Ətrafdakılara ağıl verir. Amma söhbət cihaddan, təbliğdən, dini yaymaqdan gedəndə: "Amandır, mənə belə şeylərdən bəhs etməyin" deyir. Dərhal gedib donuza yapışar, qanını sovurmağa başlayar. Ən böyük biti olan donuzla birlikdə yaşayırlar. Bu münafiqlərin xüsusiyyətidir. **"...Gedin, tanrılarınıza qarşı..."**—yəni ilahlaşdırdığı, Allah adına hökm verən hər kəs, Allah adına yeni bir hökm verən varlıqlar—bunları ilahlaşdırdıqlarını deyir. Alim deyirlər, amma onu ilahlaşdırmışlar. **"Qərarlı olun"** deyir, məsələn, filan müəllimin sözünə itaətdə qərarlı olun deyir. Çünki "**Doğrusu, bu (sizdən) istənilən bir şeydir"**—deyə Quranın hökmünə qarşı çıxırlar və dini dözülməz vəziyyətə gətirmək istəyirlər. Şeytani bir üsuldur. Allah ona görə Maidə surəsinin 101-ci ayəsində: **"Ey iman gətirənlər! Sizə agah olunca xoşunuza gəlməyəcək şeylər barəsində soruşmayın..."** deyir. Yəni "bu necə olacaq, filan

şey hardandır" deyib xırdaçılığa getməyin. "Bunları soruşmayın" deyir**. "...Əgər onlar haqqında Quran nazil edildikdə soruşsanız, onlar sizə aydın olar. Allah onları bağışladı. Allah bağışlayandır, həlimdir!".** Yəni Allahın Qurandakı hökmü, Peyğəmbər (s.ə.v)-in sünnəti nədirsə hamı ona tabe olmalıdır, təfərrüatlara girilməməli, sual verilməməlidir. Maidə surəsinin 102-ci ayəsində Allah buyurur: **"Sizdən əvvəl bir tayfa (belə lüzumsuz şeyləri) soruşmuş, sonra da buna görə kafir olmuşdu".** Yəni belə olanda insanlar dindən çıxmış olur. Məsələn, izah edə-edə dini elə bir vəziyyətə gətirib çıxardır ki, insanlar bunun yerinə yetirilməsinin qeyri-mümkünlüyünü deyir. Yəni: "insanın yerinə yetirə biləcəyi bir şey deyil" deyir. Bu yolla insanları dindən uzaqlaşdırırlar. Yunis surəsi, 59-cu ayədə Allah belə buyurur: **"De: "Allahın sizə nazil etdiyi ruzi barədə söyləyin görüm, onun bir qismini haram, bir qismini isə halal saydınız". De: "Allahmı sizə izn verdi, yoxsa Allaha iftira yaxırsınız?".** Allah burada özbaşına Allahın nazil etdiklərinin bir qismini halal, bir qismini də haram qılan saxtakarlardan bəhs edir. **"...De: "Allahmı sizə izn verdi**?", yəni Allah "hansı dəlilləriniz var?" deyir. **"...Yoxsa Allah haqqında yalan uydurub iftira yaxırsınız?".** Yəni Allah haqqında yalan danışıb iftira atırlar, Allah ayədə məhz bunu bildirir.

## 13-CÜ SÖHBƏT
## 11 AVQUST 2010-CU İL, HARUNYAHYA.TV

**ADNAN OKTAR:** (Münafiqlər) Çox sarsaq, çoxbilmiş, özündən razı, axmaq bir ruha malikdirlər. **Bütün münafiqlər özlərini dünyanın ən ağıllı insan olduqlarını zənn edərlər. Bu çox böyük bir möcüzədir. Bütün münafiqlər ayrı-ayrılıqda özünü ən ağıllı adam hesab edir və özündən daha ağıllı bir münafiq olacağını da qəbul etmir.** Məsələn, qədim dövrlərdə də Drar məscidinin münafiqlərinin hər biri ayrı-ayrılıqda özünü dünyanın ən ağıllı adamı zənn edirdi. Münafiqlər həddindən artıq lovğa və çoxbilmiş olurlar. Öz daxilində yerləşmiş şeytani sistemdir. Öz-özünü yeyib-dağıdan şeytani hiylədir. Bədiüzzaman "hiyləli hissləri verən şeytandır" deyir. Şeytan hiyləgər, yalançıdır, bu ayədə də şeytanın dilindən deyilir: “insanların qəlblərinə vəsvəsə verəcəyəm”. Münafiq də buna görə daima şeytanın verdiyi bu vəsvəsə ilə məşğul olar. Öz düşüncəsinə əsasən müsəlmanların inancına təsir etməyə, müvəffəqiyyətini alt-üst etməyə çalışar. Münafiq də var qüvvəsilə, hərbi gücü ilə, həm atlı, həm piyada gücü ilə, əlindən nə gəlirsə onu müsəlmanlara qarşı istifadə edər. Bütün gücünü bu yolda səfərbər edər. Küfrdə şeytanın əmrində çox böyük birliklər olar. Məsələn, böyük sistemləri vardır. Çini təsəvvür edək və oradan nümunə verək. Çində bir münafiqi düşünək. Çin ordusu, münafiqin əmri altındadır. Eləcə də Çin polisi, Çin kəşfiyyatı da münafiqin əmrindədir. Çinin bütün manyakları, ağılsızları, əyyaşları, cinsi azğınları, əxlaqsızları, hamısı onların əmrindədir. Ona görə münafiqin gücü şeytanın gücü kimidir. Böyük bir gücə sahibdir. Amma eyni zamanda da şeytan kimi axmaq və gücsüzdür. **Yəni eyni zamanda bu iki xüsusiyyətə sahib olar. Həm gücsüz olar, həm də şeytani gücü olar. Amma müsəlmanın bir üfürməsi ilə alt-üst olar.** Münafiqlər möminlərə təsir edə bilmir. Qəlbi (mənəvi, iman cəhətdən zəif) zəif olana təsir edə bilər. Ona görə, münafiq zəif adam görən kimi onu narahat edər. Yəni öz fikri etibarilə onu axmaq bilər. Münafiqin fikrinə əsasən ilk növbədə qan qohumu olan yaxın insanları xilas etməlidir. Peyğəmbərimiz (s.ə.v) dövründə də elə idi. Münafiqi özgələri çox maraqlandırmazdı, qan bağını (qohumluğu) əsas götürdüyünə görə onları xilas etmək üçün, və ya çətin bir vəziyyətdən qurtarmaq üçün başqalarına ziyan vurarlar, hücum edərlər. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in yanına gedirdilər. Sonra isə ayrılırdılar "sən necə gedə bilərsən (ayrılarsan)" deyəndə, "niyə ki, sən mənim övladımsan"—deyə cavab verir. "Nəyə görə övladınam?” soruşanda "qan bağı var, mənim qanımdan gəlirsən" deyir. "Mən də Peyğəmbər (s.ə.v)-in dinindən gəlirəm" deyir. "Səninlə qan bağım varsa onunla da iman bağım var" deyir. Müsəlman: "bu iş qanla irinlə olmaz"-deyir. **İman, əxlaq bağıyla, ruhla, dərinliklə olar. Qardaşlıq da elə bu şəkildə olar.** Ona görə münafiqlərin maddi dünyagörüşləri çox ziddiyyətli xarakter daşıyır. İnsanlığın ruhuna çox zidd bir xarakterdir. Quran bunu çox ətraflı izah edir. Quran əxlaqı ilə ziddiyyət təşkil edir. Amma öz fikrinə əsasən Qurandan sui-istifadə etməyə çalışar.

Amma bacarmaz, həll edə bilmədikdə də əl çəkməz, yenə də elə bu işə can atar. Məsələn, münafiqlər, Peyğəmbərimiz (s.ə.v)-in hədislərini Peyğəmbərin öz əleyhinə istifadə etmək istəyər. Drar məscidini quranlar: "biz Qurana tam tabeyik" deyirdilər. "MaşaAllah, əlhəmdülillah" deyirdilər. Amma əlbətdə ki, Peyğəmbər buna baxmayaraq onların münafiq olduğunu bilirdi. Onlar: “Peyğəmbərimiz özü məscidlər açın dedi" deyirdilər. “Burda qəbahətli nə var ki, biz də məscid açdıq" deyirdilər. “Onda Peyğəmbər (s.ə.v)-in məscidinə gəlin”—deyəndə “yox gəlmirik" deyirdilər. "Niyə gəlmirsiniz? Bizim məsciddə artiq biz daha təqvalıyq. Çünki bu məscidə qadınlar gəlmir. Orada bizi hz. Həsən, hz. Hüseynin evlilikləri haqqında söhbətlər narahat edir" deyirlər. "Hz. Əlinin zarafatçılığı, sevinci, də bizi narahat edir. Amma bu məsciddə elə bir şey yoxdur, biz zarafat etmirik, çox ciddi insanlarıq" deyirdilər. "Qadın da gəlmir" deyir. Dediyim kimi bütün münafiqlər həmişə anti-qadın, anormal olublar. Bunu gizlətməyə çalışsalar da həmişə bəlli olur. Öz düşüncəsinə görə gizlədər, amma onsuz da bilinər. Münafiqlər bu nifrəti, qadın nifrətini bir çox yerdə İslama da gətirməyə çalışmışdılar və bu məntiq günümüzə qədər davam etmişdir. Qadına qarşı qəzəb və nifrət bəsləyərlər. İndiyə kimi qadınlara qarşı etibarsızlıq, hörmətsizlik bəsləyərlər. Əlbəttə ki, Peyğəmbərimiz (s.ə.v)-in hədisləri ilə, Quran ayələri ilə bu vəziyyətin qarşısı alınmışdır. Lakin həmişə hücum etməyi gözləyər. Münafiqlərdən qadınlar haqqında soruşanda çox qeyri-adi bir şey təsvir edərlər. Ona görə Allah: "Münafiqun və münafıkat" deyir. Yəni münafiq kişilər və münafiq qadınlar ancaq bir-birləri ilə yola gedə bilərlər. Amma dava ilə, nifrətlə və kinlə davam edərlər. Bir-birlərinə nifrət edərlər. Eləcədə Allah Quranda: "Muminun və müminat" deyir. Yəni mömin kişilər və mömin qadınlar da bir-birlərini canı kimi çox sevərlər. Bir bədəndə iki can kimi çox sevərlər. Bir-birlərinə qeyri-adi sevgi bəsləyərlər.

**ALTUĞ BERKER:** Bir ayə oxuyuram, inşaAllah. Şeytandan Allaha sığınıram: **"Sən qəlbində xəstəlik olanların: “Qorxuruq ki, başımıza bir fəlakət gələ”—deyərək onların (Kitab əhli) arasında vurnuxduqlarını görürsən. Ola bilsin ki, Allah qələbə (bəxş etsin) və ya dərgahından bir əmr versin və onlar ürəklərində gizlətdiklərindən peşman olsunlar. "**

**ADNAN OKTAR:** Yəni münafiqlər: “Əgər birdən bizi polis tutsa, ya həbs edilsək, ya təhqir edilsək, televiziyada, qəzetlərdə bizimlə əlaqədar bir şey çıxsa” deyərək qorxarlar. Quranda da açıq-aşkar bildirilir. Həmişə bu qorxu, çaxnaşma içində olduqlarına görə, etibarlı hesab etdikləri yerə gənə kimi yapışarlar.

## 14-CÜ SÖHBƏT

## 11 AVQUST 2010-CU İL, SAMSUN AKS TV

ADNAN OKTAR: **Münafiq çox arsız varlıqdır. Müsəlmanın dinə görə hərəkət etməyinə inanmadığına görə hadisələri qan, mənfəət bağına görə qiymətləndirər.** Məsələn, Peyğəmbərimiz (s.ə.v) dövründə də, əvvəlki dövrlərdə də elə idi. Oğlu, övladı müsəlman olar, yaxud qardaşı müsəlman olar, dindar olar, amma özü münafiq, dinsiz olar. Məsələn, ona: "gəl birlikdə iş görək" deyir. "Niyə?" deyir. "Biz qan qardaşıyıq, qan asılılığı var" deyir. "Eyni anadan, eyni atadan doğulduq" deyir. İman qardaşlığı varmı? Xeyr, yoxdur. Onu vacib hesab etmir. **Münafiq qan bağının hər şeyi həll edəcəyinə inanar. İman qohumluğunu** heç vaxt başa düşməz. Halbuki, hz. Nuh (ə.s): "mənim oğlum" deyir, Allah isə: "Sənin oğlun deyil" deyir. Yəni artıq qohumluq bağı qırılır. **Qohumluq bağı imanla olar. Münafiqin qohumluq bağı olmaz.** Qohum münafiqdirsə qohumluğa da son qoyular. Qanla, ilik-sümüklə və s. qohumluq olmaz. Çünki onun qanını, sümüyünü onsuz da torpaq udacaq. Ruh bağı da imana görədir. İmanını itirdisə və ya münafiq oldusa, küfrə düşdüsə artıq heç bir bağı qalmaz, inşaAllah. Quranı diqqətlə araşdırsaq hz. Lut (ə.s)-ın xanımının da elə olduğunu görərik. Onlar isə  halədə bağın davam etdiyini zənn edirlər. Halbuki, küfrünü elan etdikdən sonra artıq hər şey bitir, yəni qohumluq və s. Bununla da qohumluq bağları qırılır, inşaAllah.

OKTAR BABUNA: Siz daha yaxşı bilərsiniz, inşaAllah. Hz. İbrahim (ə.s)-ın atası da elə olub.

ADNAN OKTAR: Buna aid olduqca çoxlu sayda nümunələr var. **Münafiq öz içində Allah tərəfindən çürüdülən şeytani bir məxluqdur.** Münafiq olduqdan sonra Allah ondan hidayəti alır. Ayədə də Allah Allahın diləmədikcə: **"Artıq onlar hidayət tapmazlar"** deyir. Öz içində, öz sistemində o yavaş-yavaş çürüyər. Münafiqlər **öz-özünə hücum etməyə başlayarlar. Əvvəl şeytanın təsiri ilə müsəlmanlara hücum edər. Müvəffəqiyyətli ola bilmədikdə müsəlmanların daha da gücləndiyini görəndə, daha da özünə qapılıb, yanmağa başlayar.** Allahı Quranda ürəkləri daxildən yandırıb yaxan bir atəşdən bəhs edir. bu dünyada atəş məhz münafiqlərə aiddir. Onları içdən yandırar və çürüdər, münafiq təkliyin ağrısını çəkər. **Münafiq 100.000 adamın içində olsa da tək olar.** Çünki, haşa, özünü Allahdan, Peyğəmbərdən böyük saydığına görə o ağrını, eqoistliyin ağrısını şiddətli şəkildə hiss edərlər. Eqoistlik onu boğar. Bədiüzzaman: "(eqoistlik) onun bütün bədənini bürüyər" deyir və bunun təsiri altında bədəni getdikcə çökər və məhv olar. Bütün bədəni bürüyəndə də, vücudu bütövlüklə ruhən xərçəng olar. Artıq bədən özünə

hücum edər. Həqiqətən, həm fiziki, həm ruhən çökər. Allah onu bir cür dəli edər. Dəli edənə qədər də əl çəkməz. Bütün münafiqlərin sonu belə nəticələnir. Yəni belə yavaş-yavaş həlak olarlar. **Quranda ona işarə olaraq Allah: "heç gözləmədikləri tərəfdən yavaş-yavaş onları həlaka sürüyərik"** deyir. Məsələn, münafiq heç bir şey olmayacağını fikirləşir. Çünki münafiq təhlükədən, riskdən qorxar, "aman mənə zərər gəlməsin, kefim pozulmasın, malıma, mülkümə zərər gəlməsin"—deyə düşünər. At ağcaqanadı kimi qaçdığını düşünər. Məsələn, donuzun çirkin yerlərinə ağcaqanad qonar və orada qanını sovurar. Münafiqlər də belə donuzun çirkin yerinə qonmuş ağcaqanad kimidir, at ağcaqanadı kimidir, orada qanını sovurar. Amma o pisliyi də onu çəkər. Eyni zamanda o murdar şəraitdə, o iyrənclikdə yaşayar. Qanı sovurar, amma iyrənc qanı, bu murdarlıq da onu çökdürər. **Münafiqin özünə xas murdar qoxusu olar, murdar bir təəssürat bağışlayar, o onu yandırar.** Allah Quranda buna işarə olaraq: "yavaş-yavaş onları həlaka sürüyərik" deyir. Əlbətdə, bunun da bir hikməti var. Yavaş-yavaş öz içində qovrular və çökər. Cəhənnəmdə də Allah, onlara əbədi əzab verəcəyini deyir. **Guya təhlükədən xilas olmuş olur, amma ən böyük təhlükənin və bəlanın içinə girmişdir.** Orada təhlükə var. Orada birbaşa hadisənin, bəlanın içinə girir. Münafiqlərin dünən xırdaçılığını izah etmişdik. **Münafiq eyni zamanda öz təfərrüatında boğulan, amma müsəlmanları da təfərrüatda boğmağa çalışan bir varlıqdır.** Yəni müsəlmanları da öz yanına çəkməyə çalışar. Onları da boğmağa çalışar, amma müsəlman Quranın fərasətiylə, İslamın sadə, dəqiq bir din olduğunu bilər. **Quran öz içində özünü qoruyar. Qurana tabe olan da özünü çox yaxşı qorumağı bacarar, təsir altına düşməz.** Yəni müsəlman qatı dinçiliyə, xurafatçılığa uymaz, münafiqliyə düşməz. Quran polad zireh kimidir. Qurana sarılan qorunmuş olar. Bütün ayələr Quranda açıqdır. Allahın hökmləri çox açıqdır. Münafiq öz ağlına görə ayələrə başqa məna verərək, dözülməz vəziyyətə salaraq müsəlmanları belə ziddiyyətlə, yeni hökmlərlə, yeni qadağalarla, şərhlərlə boğmağa çalışar. Lakin bunu bacarmayanda da yeni hücumlara keçər. Ən sonda da münafiq təkbaşına dəli olar. Ən son mərhələsi budur. Əlbəttə ki, bu mövzunu, daha da ətraflı izah edəcəyik, başa salacağıq. Amma Quran ayələri ilə izah etsək daha yaxşı, daha ətraflı olar.

**OKTAR BABUNA:** Şeytandan Allaha sığınaram: **"(Uhudda) iki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu ki, möminləri aşkara çıxartsın və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud (heç olmasa) müdafiədə durun!"- deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik"- dedilər. Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir. (Evlərində) oturub öz qardaşları barəsində: "Əgər onlar bizə qulaq asmış olsaydılar, öldürülməzdilər"- söyləyənlərə de: "Əgər doğru danışırsınızsa, onda ölümü özünüzdən uzaqlaşdırın!" (Ali İmran surəsi, 166-168)**

**ADNAN OKTAR:** İndi ayəni hissə-hissə oxu!

**OKTAR BABUNA:** **"İki qoşunun üz-üzə gəldiyi gün sizə üz vermiş müsibət Allahın izni ilə oldu".**

**ADNAN OKTAR:** İndi bunu Axırzamana aid edək. Allah iki birlikdən bəhs edir. Mehdiyyət və dəccaliyyət qarşı-qarşıya gəlir. Mehdiyyət bir çox hücuma məruz qalar. Əvvəldə iddia edilən Ərgənəkon təşkilatı olmaqla, ateist masonlar, münafiqlər, küfr, ateist və darvinistlər tərəfindən hücum və təzyiqlərə məruz qalacaqlar. Bunu Allah yaradır, əgər yaratmasa onda mehdiyyət də olmaz. Yəni mehdiyyətin mütləq hücuma, təzyiqə, münafiqə, kafirə ehtiyacı vardır. İddia edilən Ərgənəkon təşkilatını yaradan Allahdır. Bunu mehdiyyət üçün yaradır. Hz. Mehdi (ə.s)-ın (fikirlə) məğlub etməyi üçün yaradır. Darvinizm hz. Mehdi (ə.s)-ın (fikirlə) onu məğlub etməyi üçün xüsusi olaraq yaradılır. Münafiq və ya münafiq camaatı, hz. Mehdi (ə.s)-ın onu məğlub etməyi üçün xüsusi olaraq yaradılar, Küfr də xüsusi olaraq həmişə cılız və gücsüz yaradılar.

**OKTAR BABUNA:** Peyğəmbərimiz (s.ə.v) hədislərinin birində belə buyurur: ***"Münafiqlərin və küfrün işləri hz. Mehdi (ə.s)-a zərər verə bilməyəcək, ayrılanlar da, müxaliflər də hz. Mehdi (ə.s)-a heç bir zərər toxundura bilməyəcək. O, ondan ayrılanlara baxmayaraq zəfərlə yoluna davam edəcək"*** *(*Ramuz el-Ehadis).

**ADNAN OKTAR:** Münafiq elmi inkişaf etdirər. Münafiq sayəsində sən biliyini artıra bilərsən. Münafiqə qarşı Quranın hökmlərini yaxşıca öyrənərsən və özünü necə müdafiə edəcəyini, müsəlmanları necə müdafiə edəcəyini Qurandan başa düşərsən. Kafir elmi inkişaf etdirər. Kafirə qarşı necə mübarizə aparacağını Quran oxuyaraq və ümumi mədəniyyətini artıraraq öyrənə bilərsən. Yəni çox böyük bir məlumata ehtiyac yaranar.

**OKTAR BABUNA:** Küfrün və münafiqlərin Axırzamandakı möminlərə qarşı bəslədikləri kinlərinə işarə edən bir ayə oxuyuram, inşaAllah. Şeytandan Allaha sığınıram: **"Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz (nazil olan) kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!" deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: "Qəzəbinizdən ölün!" Şübhəsiz ki, Allah ürəkdə olanları bilir". (Ali İmran surəsi, 119)**

**ADNAN OKTAR:** Allahın bu ayəsinə uyğun olaraq, Allah bütün münafiqləri kin və hirsiylə öldürsün, inşaAllah. Kin və hirsi ilə Allah onları həlak etsin, içlərini yandırsın Allah. Beyinlərini, ruhlarını yandırsın. Allah belə əmr etdiyinə görə mən də belə deyirəm. Sən indi ayəni mənə hissə-hissə oxusan, mən də onları şərh edərəm, inşaAllah.

**OKTAR BABUNA: "Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər..."**

**ADNAN OKTAR:** İndi müsəlmanların bir qismi münafiqi başa düşmədiyinə görə, qan bağına görə onlara şəfqət hissi duyur, onlarla maraqlanır, əlaqə qurmaq istəyir, onu qorumaq istəyir, yalnız qan bağı olduğuna görə, iman bağına görə deyil. Allah da ona lənət edir. "Amma onlar isə sizi sevməz" deyir. Çünki mənfəət kimi görər. Yəni yemək verən bir maşın kimi, ya da pul kəsən (çıxaran) bir maşın kimi baxarlar. **Buna görə münafiq insanı insan kimi sevən bir məxluq deyil.** Münafiq mənfəət üzərində qurulmuşdur, amma Quranı özü üçün, haşa istifadə etməyə çalışar. İndi isə davam edək.

**OKTAR BABUNA: "... Siz nazil olan kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz iman gətirdik!" deyirlər..."**

**ADNAN OKTAR:** İndi müsəlmanlar Quranın hamısına, möhkəm ayələrə, açıq hökmlərə itaət edir. Qarşılaşanda münafiq: "mən də itaət edirəm" deyər. Yəni bu münafiqin xüsusiyyətidir. Quranla özünü pərdələməyə, büruzə verməməyə çalışar. Özünü gizlədər.

**OKTAR BABUNA: "... təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirərlər..."**

**ADNAN OKTAR:** Onların nə ağıla qulluq etdiklərini görürsünüz. Münafiq onsuz da həmişə öz fikrinə uyğun yaşayan, öz daxilində özünü parçalayan bir varlıqdır. Quran ona diqqət çəkir. "Barmaq ucunu" deyərkən mənəvi cəhətdən özünü içindən yeməsi nəzərdə tutulur. Allah bunu Quranda çox qısa bir üslubla izah edir. Bir insanın öz-özünün barmaq ucunu gəmirməyi nə deməkdir? Yəni öz-özünü yeyib-tökməkdir, qəzəbindən, əsəbindən bir şey edə bilmir. Baxır ki, müsəlmanlar güclü, qüdrətli, şən, cəld, cürətlidir

və onları da məğlub edir. Onları zəfər, nemət, bolluq, gözəllik içində bunu gördükcə münafiq yanar. Yəni daxilən yanıb-yaxılar. Daxilində yanan alov onu əhatə edər. Bu həmin izah etdiyim mövzudur. Allah bunu Quranda çox gözəl açıqlayır. Öz-özünü yeyən bir məxluqdur. Daxilən əriyər, əriyər və yanar. Axırda da münafiq həlak olar.

OKTAR BABUNA: **"...De: "Qəzəbinizdən ölün!."**

ADNAN OKTAR: Qəzəbindən və əsəbindən ölərlər. Bu dua, yəni Allahın bildirdiyi dua, sonda münafiqlərin, kindən və əsəbindən öldüklərini bildirir. Yəni kin və əsəb onun ruhunu xərçəng xəstəliyi kimi xəstələndirər. Ruh xəstəsi edər, əziyyət verər. Bütün bədən üzvləri pozular. Əsəb saçlarına, gözünə, sinir sisteminə, qara ciyərinə, mədəsinə, hər yerinə təsir edər və müxtəlif xəstəliklərə səbəb olar. O xəstəliklərə görə də ölər. Lakin əsl səbəbi kin və əsəbdir. Quran bu möcüzəyə diqqət çəkir. Yəni Allah yavaş-yavaş daxilən onları həlak edər. Məsələn, heç gözləmədiyi vaxtda xərçəng xəstəliyinə tutular. Heç ümid etmədiyi yerdə Allah bir şey edər. Mömində bir imtahandır, münafiqdə də bir bəladır. Amma Allah münafiqin xəstəliyə tutulmasına kini və əsəbi vəsilə edir. Mömində isə birbaşa xəstəlik olaraq yaradar.

OKTAR BABUNA: Şeytandan Allaha sığınıram: **"Bədəvilərdən eləsi də var ki, Allah yolunda xərclədiyini itki sayır və sizə bir bədbəxtlik üz verməsini gözləyir. Bədbəxtlik onların öz başlarına gələcək. Allah eşidəndir, biləndir". (Tövbə surəsi, 98)**

ADNAN OKTAR: Münafiqlər müsəlmanlara bir verib əvəzində isə on almaq fikrində olarlar. Özünü çoxbilmiş, gözüaçıq zənn edib əvəzində qat-qat artıq almaq istəyər. Həqiqətən, verər və əvəzində 10 dəfə artıq almaq istəyər, amma ala bilməz, gözləyər, gözləyər heç bir dənə də ala bilməz. Çünki İslamda yığmaq yox, paylamaq vardır. Bu münafiqin başına bəla olar. Nəticədə də fitnəyə çevrilər. Olduqca pərişan olar. "Vaxtında bu qədər verdiyim mal-pul nə olacaq?" deyər. Bu bəladan heç cür xilas ola bilməz. Bu, münafiqin ürəyinə düşmüş yanğı olar. Bunu ziyan, zülm, bəla kimi görər.

OKTAR BABUNA: **"... və sizə bir bədbəxtlik üz verməsini gözləyir..."**

ADNAN OKTAR: Müsəlmanların yalnız pisliyini istəyər, elə həmişə onlara qarşı bir plan hazırlanmağını, tutulmaqlarını, həbsə atılmaqlarını, döyülməklərini, söyülməklərini, əzilməklərini, təhqir olunmaqlarını gözləyərlər, bu işlərə dəstək olarlar, müsəlmanları

satarlar. Bunu etməyə can atan qruplara daxil olar. Onlara məlumat verər, onları təşviq edər, istiqamətləndirər. Halbuki, müsəlmanın elə buna ehtiyacı vardır. Çünki müsəlmana qarşı hücum olmasa qalib gələ bilməz. Bir qudurmuş it olmalıdır ki, sən də odunla onu qovasan. Odun isə elm, sevgi və qardaşlıq olmalıdır. Onlar hücum edəcəklər, mehdiyyət qovacaq, bizlər də qabaqcıl əsgər kimi qovacağıq.

**OKTAR BABUNA: "Bədbəxtlik onların öz başlarına gələcək"** deyir Allah.

**ADNAN OKTAR:** Bu ayə bədbəxtliyin qəti olaraq, mütləq baş verəcəyini bildirir. Münafiqlər mütləq pis fəlakətlərə düçar olarlar. Həmçinin, münafiq donuzun çirkin yerində yaşayan parazit kimidir. Orada yaşamağı onub üçün onsuz da bir zülmdür. O murdar qan onu onsuz da pərişan edər. O murdar qan onsuz da onun halını pisləşdirər, münafiq orada təkliyə qərq olar. Təkliyin əzabını çəkər. Ona görə əzab çəkdikcə daha da təcavüzkarlaşar, təcavüzkarlaşdıqca da daha çox məğlubiyyətə uğrayar. Məğlub olduqca təcavüzkarlaşar, beləliklə, tamamilə çıxılmaz bir vəziyyətə düşər və orada elə çırpına-çırpına qalıb həlak olar. Münafiqin xüsusiyyəti, möminlərin gücünü, sevincini, sağlamlığını, səhhətini gördükcə pərişan olmaqdır. **Ona görə münafiqləri, kafirləri əsəbləşdirmək bir ibadətdir.** Müsəlman güclü olmalıdır. Ən gözəl evlər, ən gözəl avtomobil, ən gözəl paltar, gözəl yemək, gözəl elm, gözəl sevgi, hər şeyin ən gözəlini axtarmalıdır. Qorxmaq, çəkinmək, əldən düşmək və s. bunu kimi hallar müsəlmanda yoxdur. Belə şeylər müsəlmana yaraşmaz. Müsəlman olduqca gümrah olmalıdır. Hətta Peyğəmbərimiz (s.ə.v) dövründə 70 yaşında kişilər saçlarını, saqqalını qapqara rəngləyirdilər. Mənim aslanlarım! Günəşdən rəngləri qıpqırmızı, qızarmış olardı. Münafiqlər isə onları görəndə "aman" deyirdilər. Pərişan olurdular. Səhabələrin sevinci, canlılığı və gücü onları daha da çökdürürdü. Tərtəmiz idilər. Atları baxımlı, bədənləri sağlam, qüvvətli idi, maşaAllah.

**OKTAR BABUNA:** Şeytandan Allaha sığınıram: **"Allah aranızdan (camaatı cihaddan) çəkindirənləri və öz qardaşlarına: “Bizə qoşulun!” deyənləri tanıyır. Onlar nadir hallarda döyüşə qatılırlar. (Çünki) sizə qarşı xəsislik edirlər. Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görürsən. Qorxu keçib getdikdə isə qənimətdə xəsislik edib acı dilləri ilə səni sancırlar. Onlar iman gətirməmişlər. Allah da onların əməllərini puç etmişdir. Bu, Allah üçün asandır". (Əhzab surəsi, 18-19)**

**ADNAN OKTAR:** Münafiqlərin əgər bir uşağı, övladı varsa və müsəlmanlara qonaq gedirsə uşağını aparmaz, mütləq evdə qoyar. Yaxud evdə saxlayır "müsəlmanların yanına

getməyəcəksən" deyərlər. Səhabə dövründə də belə idi. Hal-hazırki dövrümüzdə də elədir. Hər dövrdə olmuşdur. Övladlarını buraxmaz, evdə saxlayar. Bu, münafiqlərə aid üsuludur, müsəlmanların yanına getməsin deyə zorakılıq tətbiq edər. Əllərini, ağzını bağlayar. "Müsəlmanlarla görüşməyəcəksən!" deyər.

**OKTAR BABUNA: "...Onlar nadir hallarda döyüşə qatılırlar..."**

**ADNAN OKTAR:** Əgər övladını əlində saxlaya bilməsə, müsəlman onlara gedibsə, münafiqin uşağı hicrət edib xilas olarsa münafiq yenidən ona: "**Bizə qoşulun**" deyərlər. Yəni ağzından qan axan gənə kimidir. Qanlı pəncəsi ilə "gəl-gəl"—deyə çağırar. Bilmirəm donuzun harasına yapışıb, elə qanını sovurur. Digərlərini də "gəl bura" deyə çağırır. "Bura çox yaxşı bir yerdir"deyir. "Axı mənim gəlməyim sizin nəyinizə lazımdır?"—deyə cavab verdikdə "qan bağı var" deyir. Müsəlman da: "mən iman bağına görə qardaş olaram. Sən mənim qardaşım deyilsən. Sən münafiqsən" deyir. Münafiq başqadır, qan bağına görə münafiqdən qohum olmaz. Qohumluq iman bağına görə olar. Allah ayədə: "bir-birinizlə qardaş oldunuz" deyir. İman qardaşlığı vardır. Qana görə qardaşlıq olmaz.

**OKTAR BABUNA: "...Çünki sizə qarşı xəsislik edirlər..."**

**ADNAN OKTAR:** Pul vermək onlar üçün ən çətin məsələdir. Pul vermək münafiq üçün bir dərd olar. Verdikdən sonra çox peşman olar. Hələ bunun dərdini də çəkər. Ömrü boyu onun yanğısı ilə yanar. Allah onlara bəla olaraq bunu verir. Çox eqoist olurlar. Münafiq ac it kimi ancaq özünü düşünər. Yalnız öz yeməyini, öz qurtuluşunu düşünər. Tayfasını ancaq gəlir gətirəcək varlıqlar kimi gördüyünə görə özünə tərəf çağırar. "Gəlin, sizdən də nəsə əldə edim"—deyə fikirləşərək çağırar. Onların, özündən güclü olduğuna görə çağırar. Yoxsa iman bağına görə deyil. Onların imanı maraqlandırmaz. Əgər maraqlandırsaydı elə dini, İslamı, Quranı yayardı. Özünü Allaha özünü təslim edər, cihad edərdi.

**OKTAR BABUNA: "...Onlara qorxu gəldikdə, ölüm ayağında bayılan adam kimi, dönüb sənə baxdıqlarını görürsən..."**

**ADNAN OKTAR:** Münafiqlər çox böyük qorxu içində olarlar. **Hər şeydən qorxar. Xəstələnməkdən qorxar, həbs olunmaqdan qorxar, təhqirdən qorxar, birinin hücum etməsindən qorxar, bütün ömrü qorxu içində keçər.** Ona görə müsəlmanların yanından

qaçır. Əsl dərdi budur. Həmişə qorxunu yaşayar və qorxu içində də ölər. Cəhənnəmə gedər orada da qorxu içində yaşayar. Sonsuza qədər həmişə belədir.

**OKTAR BABUNA: "...Qorxu keçib getdikdə qənimətdə xəsislik edib acı dilləri ilə səni sancırlar..."**

**ADNAN OKTAR:** Münafiqlər çox qorxaq olarlar. Həmişə qorxu içində yaşayarlar. **Hər şeydən qorxarlar. Xəstələnəndə qorxar, tutulanda qorxar, təhqirdən qorxar, hücumdan qorxar, həyatını ömrü boyu qorxu içində keçirər.** Ona görə müsəlmanlardan uzaq olar. Əsl dərdi budur. Həmişə qorxu hissi keçirər, elə qorxu içində də ölərlər. Cəhənnəmə gedər orada da qorxu içində yaşayar. Sonsuza qədər həmişə belə olar.

**OKTAR BABUNA: Qorxu keçib getdikdə isə qənimətdə xəsislik edib acı dilləri ilə səni sancırlar.**

**ADNAN OKTAR:** Yalnız mənfəət güdərlər. Mənfəəti də əldə edə bilməyəndə təcavüzkarlaşar. Məsələn, təhqir edər, müsəlmanın başını qarışdırmağa çalışar, "bizə gəl" deyər. Tələ qurdurar. Münafiqin başı qarışıq olar, sanki havalanar. Nə edəcəyini bilməz. Müşriklərlə birlik qurarlar, bu, Quranda keçir. Kafirlərlə və müşriklər ittifaq qurarlar. Müşrik məntiqi ilə ortaya çıxar, bəzən haşa Quranı istifadə etməyə çalışar, nə edəcəyini bilməz. Ona görə nə istədiyi də tam bəlli olmaz. Mənfəət güddüyünə görə dəli kimi olar. Möminlərin arxasınca sancan dilləri ilə təhqir edərlər, böhtan atarlar, təzyiq göstərərlər. Bunu müxtəlif formalarda edərlər. Öz düşüncəsi etibarı ilə əsrimizin bütün imkanlarını istifadə edərlər. Amma bu, müsəlmanları gücləndirər, dincəldər, canlandırar, hücum etməyə şövqləndirər. Müsəlmanlar üçün xeyirli, onlar üçün şərdir. Müsəlmanların belə bir xeyirə ehtiyacı vardır.

**OKTAR BABUNA: "...Onlar iman gətirməmişlər. Allah da onların əməllərini puç etmişdir. Bu, Allah üçün asandır".**

**ADNAN OKTAR:** Mənşəyində imansız olurlar. Amma özlərini imanlı kimi göstərdiklərinə görə, insanlar onları imanlı hesab edər. Lakin sonda həm dünyada məğlub olarlar, həm də axirətdə həlak olarlar. Bütün münafiqlər dünyada rəzil, rüsvay kimi məşhur olarlar. Məsələn, Peyğəmbərimiz (s.ə.v) dövrünün münafiqləri məşhurdur. Mehdiyyət dövrünün münafiqləri də məşhur olacaq, hamı tərəfindən tanınacaq, yəni pis mənada məşhur olacaqlar.

**OKTAR BABUNA:** Münafiqlər dost bildikləri insanlara əslində nifrət edərlər. Şeytandan Allaha sığınıram: **"Onlar hamılıqla sizə qarşı ancaq möhkəmləndirilmiş şəhərlərdə və ya divar arxasından vuruşarlar. Onların öz aralarındakı düşmənçilik isə çox kəskindir. Sən onların həmrəy olduğunu güman edirsən, halbuki onların qəlbləri dağınıqdır. Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır." (Həşr Surəsi, 14)**

**ADNAN OKTAR:** Münafiqlər çox axmaqdırlar, amma hamısı özünü çox ağıllı sayır. Hamısı ayrı-ayrılıqda ağıl işlədərlər. Özlərindən razı və çox bilmiş olarlar. **Amma çox axmaqdırlar və bir-birlərinə çox nifrət edərlər. Lakin it sürüsü kimi də bir-birlərindən ayrılmazlar, gənəli itlər də bir-birlərindən ayrılmazlar, onlar da bir-birlərindən ayrı yaşamazlar.** Amma Allah bunu, onlara bir bəla olaraq verir. Yəni **nifrət etdikləri ilə birlikdə olmağa məcbur olmaları onlar üçün çox böyük bir bəladır. Üzünə baxır, danışığından nifrət edir, yemək yeməyindən, içməyindən nifrət edir, hər şeyindən nifrət edir, lakin onunla yaşamağa məcburdur.** Cəhənnəmdə də Allah onları ayırmır, orada da bir yerdə olarlar, heç ayrılmazlar.

**OKTAR BABUNA:** Siz bu barədə demişdiniz, iddiasını satan, xəyanətkar, etibarsız olduqlarını bildiklərinə görə bir-birlərinə nifrət edərlər.

**ADNAN OKTAR:** Hamısı bir-birinin xain olduğundan xəbərdardırlar. Üzünə baxan kimi ürəyində bu ona xain, o da buna xain deyər, ikisi də bir-birlərinə xain deyərlər. İkisi də bir-birlərinin əxlaqsız olduqlarından əmindirlər. Lakin bir-birlərinin üzünə gülər, canım, ciyərim, şən kimi görünməyə çalışarlar, amma bir-birlərinin münafiq olduqlarından 100% əmindirlər.

## 15-Cİ SÖHBƏT

## 12 AVQUST, 2010-CU İL, HARUNYAHYA.TV

**ALTUĞ BERKER:** Allah münafiqlər haqqında, Maidə surəsi 13-cü ayədə belə buyurur, şeytandan Allaha sığınıram:**"... Onlar Kitabda olan kəlmələrin yerlərini dəyişdirirlər..."**

**ADNAN OKTAR:** Münafiqlər nə edər? Məsələn, Allah: **"Bu halaldır"** deyir. Münafiqin xüsusiyyəti nədir? **Halal olan onun düşmənidir, halalı haram edər. Ürəyi sıxılar, Allahın rəhmətini azaltmaq istəyər, Allahın verdiyi gözəllikləri yox etmək istəyər.** Nə qədər gözəllik varsa, hamısını yox etmək istəyər. O axmaq, ağılsız düşüncəsi ilə bunu edər, özünü dünyanın ən ağıllı adamı sanaraq edər. Nə etsə də boşa çıxar. Rəzil, rüsvay olar, inşaAllah. Maidə surəsi, 13-cü ayədə Allah: **"verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik..."** deyir. Bu tamamilə münafiq əlamətidir, onlar xaindirlər. Müqaviləni, itaəti pozar, itaətdən qaçar. Allah: **"...onları lənətlədik və qəlblərini sərtləşdirdik**..." deyir ayədə. Allah onlara lənət etsin, bir daha lənət etsin. Allahın lənəti bütün münafiqlərin üzərinə olsun. **"... və qəlblərini sərtləşdirdik**..." deyir Allah. Məhz sərt və pis xarakteri bundan qaynaqlanır. **Ürəyi daşlaşmışdır, sevgi, şəfqət, mərhəmət, hörmət, diqqət, itaət olmur. "...Onlar (münafiqlər), (Kitabda olan) kəlmələrin yerlərini dəyişdirirlər...".** Yəni tamamilə fərqli şərhlər edərlər, məsələn, Allahın möhkəm (açıq) ayəsi vardır, münafiq bu ayələri ağlagəlməz formada şərh edərlər. Münafiq münafiqə dəstək olar. Ya müşriklərdən, ya da münafiqlərdən məsləhət alarlar. Allahın ucsuz-bucaqsız rəhmətini daraltmağa çalışarlar. **"...Onlar özlərinə öyrədilənlərin bir hissəsini unutdular...**" deyir Allah. Məsələn: “Qurana itaət et, sünnəyə əməl et, gözəl əxlaqlı ol, mehriban ol, itaətli ol, hörmətli ol” deyirsən, tez-tez xatırladırsan, amma sanki başları sümükdəndir, beyni yoxdur, kötük kimidirlər, başına vursan taqqıldayar. **"...İçərilərindən az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görəcəksən...."** deyir Allah. Həmişə xəyanət edərlər. Onların ən əsas xüsusiyyəti, xain olmalarıdır. Vəfasız və xaindirlər. **"...Onları əfv et və təqsirlərindən keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir".** Yəni: “onlara fikir vermə” deyir Allah. Əlbəttə ki, bu ayə tək münafiqlərə aid deyil. Amma eyni zamanda münafiq xarakteridir, ona görə izah edirəm. Yoxsa Allah: **"onları yetmiş dəfə bağışlasanda, onlar üçün yetmiş dəfə bağışlanma diləsəndə yenə Allah onları bağışlamaz"** deyir. Münafiq çox alçaq varlıqdır. Allah Səba surəsi, 38-ci ayədə: **"Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlərsə (qiyamət günü) gətirilib əzaba düçar ediləcəklər...."** deyir. Necə cəhd göstərir? Məsələn, Quranı açırıq, açıq, möhkəm ayə var deyirik. Onlar isə: "Olmaz" deyir. "İndi mən sənə izah edəcəyəm, tamamilə zidd olduğunu görəcəksən" deyir. Adamın eşşək dili kimi dili var. Dilini bükərək, tam fərqli şəkildə şərh edir. **Dini qarışıq, başa**

**düşülməz və normal bir insanın heç vaxt yerinə yetirə bilməyəcəyi şəklə salar və dinə öz ağlına görə, haşa, zərbə vurduğunu düşünür. Ona bunu etməyə nə məcbur edir? Özü kimi dinsiz, imansız, münafiq adamlar yaratmaq istəyir, ona görə belə edir.** Çünki bizim dinimiz tərtəmiz, sağlam, səhhətli, çox güclü, gözəl bir dindir. İnsanın beyninə şəfa verir. Dinimizdə sevinc, gözəllik, estetika, sənət, azadlıq var. Onlar isə sənəti, azadlığı, sevgini müsəlmanların əlindən almaq istəyir. Allah **"Onların intiqam almağı yalnız Allahın və Onun elçisinin onları Öz lütfündən varlandırdığına görədir**" deyir. Münafiqlər Peyğəmbərimiz (s.ə.v)-dən intiqam almaq istəyirdilər. Allah **"...Yalnız Allahın və Onun elçisinin onları Öz lütfündən varlandırdığına görədir...**" deyir. Rahatlıq münafiqlərin gözünə batır, qulaqlarına batır. Peyğəmbərimiz (s.ə.v)-ə düşmən olurlar. Allah deyir: **"...Onların intiqam almağı yalnız Onun elçisinin onları Öz lütfündən varlandırdığına görədir...".** Yəni intiqam deyəndə əslində intiqam deyil, birbaşa öldürmək, şəhid etmək istəyirlər, elə bir intiqam almaq fikrində idilər. **"...Allahın və Onun elçisinin onları Öz lütfündən varlandırdığına görədir...". Allah onların** buna görə etməsinə diqqət çəkir.

Həqiqətən, bu məxluqlar murdar suların yığıldığı dərədən də aşağı səviyyədədirlər. Dünyadakı ən murdar, ən pis mikrobdurlar, mikrob belə onlardan təmizdir, mikrobdan da alçaqdırlar. İman təzahürüdür, münafiqlərə nifrət etməliyik. Bütün dövrlərdə dünyanın başına bəla olmuşlar. Yəni münafiq şeytandır. Şeytana bərabərdir. Xüsusiyyəti bunlardır. Yəni iblisdir.

**OKTAR BABUNA**: Peyğəmbərimiz (s.ə.v)-in buna aid hədislərini oxumaq istəyirəm. Əbu Hureyrədən rəvayət edildiyinə görə Peyğəmbərimiz (s.ə.v) belə buyurmuşdur: ***"Bunlar münafiqlərə aiddir. Söz danışarkən yalan danışar, söz verər əməl etməz. Ona bir şey əmanət edildiyi vaxt xəyanət edər***".

**ADNAN OKTAR**: Rəsulullah (s.ə.v) bu hədisi, əlbəttə, bir çox istiqamətdə izah edərək vermişdir. Cümlə-cümlə oxu, şərh edim.

**OKTAR BABUNA**: "*Bunlar münafiqlərə aiddir. Söz danışarkən yalan danışar...*"

**ADNAN OKTAR**: Yəni Quranı dəyişdirər, hədisi dəyişdirər, haqqı dəyişdirər, sevgini dəyişdirər, hər şeyi dəyişdirər, yalan danışar.

**OKTAR BABUNA**: "*...söz verər əməl etməz...*"

**ADNAN OKTAR:** Məsələn: "Allaha, Rəsuluna imama, yaxud hz. Mehdi (ə.s)-a tabe olacağam, ömrüm boyu düzələcəm" deyər. Bir də görərsən ki, xain, fırıldaqçı kimi sözünü tutmaz. Küfrün içinə girər, orada da fırıldaqlıq edər. Heç vaxt verdiyi sözü yerinə yetirməz, sözündən dönər. Münafiqin xüsusiyyətidir.

**OKTAR BABUNA:** *"Ona bir şey əmanət edildiyi zaman xəyanət edər".*

**ADNAN OKTAR:** Mütləq xəyanət edər, bu onun xüsusiyyətidir. Çünki həm də şeytanın xüsusiyyətidir. Münafiqdə də bu çox görünər.

## 16-CI SÖHBƏT

## 13 AVQUST, 2010-CU İL, HARUNYAHYA.TV

**OKTAR BABUNA: "Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?" Möminlər deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız, möminlərə bəla üz verməsini gözləyirdiniz, haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı."** (Hədid surəsi, 14)

**ADNAN OKTAR: "Münafiqlər onları haraylayıb deyəcəklər: "Məgər biz sizinlə birlikdə deyildikmi?..".** Yəni münafiqlər axirətə gedəndə, məlumatın bir qismini unudarlar. Həqiqətən, müsəlmanlarla birlikdə olduqları bir dövr var. Amma müsəlmanlara qarşı apardıqları müharibəni, mübarizəni və küfrlə iş birliyini bir kənara qoyarlar. **"Sizlərlə birlikdə deyildikmi?"** deyərlər. Hər münafiqin müsəlmanlarla müəyyən bir əlaqə dövrü vardır. Yəni onlarla danışar, bir yerdə olar, yeyər. Münafiq olduğunu hiss etdirməz, əsl simasını gizlədər, səhifə arasına girmiş at ağcaqanadı kimidir. Onun fərqinə varılmaz.

**OKTAR BABUNA: "...Deyəcəklər: "Bəli, lakin siz öz-özünüzü aldadırdınız..."**

**ADNAN OKTAR:** Belə olduqda möminlər deyərlər: "Siz özünüzü fitnəyə saldınız", çünki ortada bir şey yoxdur, lakin özü iblis ruhu ilə baxdığına görə, özünü şeytani bir rejimə soxar, şeytani bir xarakterə salar.

**OKTAR BABUNA: "... möminlərə bəla üz verməsini gözləyirdiniz..."**

**ADNAN OKTAR:** Burada, möminlərə bəla üz verməsini gözləmələri çox əhəmiyyətlidir. Bunu kənardan gözləyər. İt kimi qaçmalarının səbəbi də budur. Məsələn, it də bir yerdə səs-küy olanda tez qaçar, qulaqlarını tıxayar, quyruğunu da qısaraq uzaqdan dəhşət içində hadisələri seyr edər, həm uzaqlaşar, həm də kənardan seyr edər. Münafiqlər də it kimidir. Quyruğunu qısaraq uzaqdan baxaraq qaçar. Bəlaların, ağrı-acıların müsəlmanları əhatə etməyini gözləyər. Ağrı-acı yəni, həbs edilmək, döyülmək, söyülmək, təhqir olunmaq, iqtisadi cəhətdən çıxılmaz vəziyyətə düşmək deməkdir. Bunlara nə ehtiyac vardır? Münafiqin nəyə ehtiyacı vardır? Bir sözlə, münafiq ən üst

təbəqəyə çox diqqət yetirər. Məsələn, imama, liderə və s. Başdakı adam kimdir, Axırzamanda hansı nöqtəyə diqqət edəcək və s. Axırzamanda birinci növbədə üst nöqtəyə, yəni hz. Mehdi (ə.s)-ı hədəfə alacaq. İkinci hədəfi isə hz. Mehdi (ə.s)-ın ətrafındakı xas tələbələri olacaq. Üçüncü hədəfi də, ən zəif gördükləri, yəni ən alt təbəqə olacaq. Burada iki nöqtəyə hücum ediləcək. Bir tərəfdən mehdiyyətə hücum edər, yəni üst təbəqəyə, digər tərəfdən də zəiflərə, yəni alt təbəqəyə hücum edər. Özlərinə tərəf çəkmək üçün altdan-altdan hücum edər. Hz. Mehdi (ə.s)-a da üstdən hücum etməyə çalışar. Ağrı-acıların və fəlakətlərin əhatə etməyini gözləməsinin səbəbi də budur. Hər cür pisliyin onları əhatə etdiyini düşünər. Özlərinin qorxmasının da səbəbi budur. Onlar həmişə bəla qorxusu içindədirlər və bir gün qorxduqları bu bəla baş verəcək. Ona görə də müsəlmanların yanından qaçar. Qaçandan sonra da, özünün xilas olduğunu fikirləşər. Müsəlmanlara da bəla və qorxu gəlməsə qaçmağının bir mənası olmaz. Ona görə də müsəlmanlara bəla, ağrı-acının baş verməsi üçün çalışar, cəhd göstərər. Xəbərçilik edər, yəni müsəlmanları satar, yalandan şahidlik, əxlaqsızlıq edər, müşriklərlə birlikdə olar. İddia edilən Ərgənakon təşkilatının üzvləri ilə olar, hamısıyla bir olar. Mətbuatdan bəzi şərəfsizləri tapar, onların vasitəsi ilə müsəlmanlara zərər vermək üçün iş görər. Fəlakət baş verməyəndə də depressiyaya düşər, dərd çəkər. Çünki müsəlmanlardan üz döndərib getməsinin mənasız olduğunu görər. Həm də, müsəlmanların sağ olduğu müddətdə onlardan intiqam alacaqlarından qorxarlar. Yəni alçaldılmaqdan, şərəfsiz vəziyyətinə düşməkdən qorxarlar. Çünki Allahın qarşısında özünə haqq qazandıra bilməyəcəyini bilər. Bir əsl müsəlmanlar var, bir də özü kimi qansız və vicdansızlar. Hamını öz vəziyyətinə salmaq üçün səy göstərər ki, Allah qarşısında özünə haqq qazandıra bilsin. Bununla haqq qazana biləcəyini fikirləşər. Yəni zəif də olsa bir inancı vardır. Çünki şeytan da elədir. Şeytan cəhənnəmdə: “Mən Allaha inanıram, mən sizi çağırmadım, mən Allahdan qorxaram" deyir.

**OKTAR BABUNA: "...haqqa şübhə edirdiniz və Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı..."**

**ADNAN OKTAR:** Allaha və İslama qarşı çıxarlar. Əvvəlcə Allahdan şübhə edərlər. Allahdan şübhə etdiyinə görə Qurandan da şübhələnər. Ona görə münafiqlər Quranı çox təfərrüatlı şəkildə araşdırarlar. Bəlkə Quranda, haşa, bir əksiklik vardır deyə, müsəlmanlara qarşı istifadə edə biləcəkləri izah vardır deyə yaxşıca araşdırarlar. Münafiqlər çox mədəni və bilikli olarlar. Amma sırf İslama qarşı, müsəlmanlara qarşı mübarizə aparmaq üçün bundan istifadə edərlər. Gecə-gündüz oxuyarlar. Qurana inana bilmədiklərinə görə, həm də Qurana şübhə etdiklərinə görə yerləri araşdırarlar. Həm də müsəlmanları Quranla, hədislə haradan vura biləcəyini araşdırarlar. Çünki dindən başqa

bir şeylə vura bilməyəcəyini fikirləşər. Oradan bir şeylər etməyə çalışar. Ona görə də dilini əyib bükməyi lazım olur. Halalları haram etməsi, haramları da halal etməsi lazım olur. Buna görə səy göstərər. Quran buna işarə edir.

**OKTAR BABUNA: "... haqqa şübhə edirdiniz..."**

**ADNAN OKTAR:** Həmişə tərəddüd içində olarlar. Bir az da əsəbi olarlar. Bunlar ən sonuncu mərhələdə, manyak bir şəxsiyyətə sahib olarlar. Eyni ilə iblis kimi, şeytan kimidir. **Həmişə şübhələnərlər. Qurandan, Allahdan, Peyğəmbər (s.ə.v)-dən, özündən şübhələnərlər.** Bu şeytanın xüsusiyyətidir. Eynilə şeytan kimidir. Yəni münafiq şeytanın insan formasıdır. Bir də şeytanın cin forması vardır. Cinin münafiqi şeytandır. İnsan da münafiq olanda insanlığı şeytanlaşmış olur.

**OKTAR BABUNA**: **"...Allahın əmri gələnədək xülyalar sizi yoldan çıxartdı. Tovlayan şeytan Allah barəsində sizi yaman aldatdı".**

**ADNAN OKTAR:** O hiyləgər şeytan həmişə münafiqlərin dostu olur. Bəs şeytan onları necə aldada bilir? Allah ilə aldadır. Bəs münafiq necə aldadır? O da Allah ilə aldadır. **Müsəlmanlara qarşı nədən istifadə edir? Quranı, hədisi istifadə edir. Müsəlmanları parçalamaq, bölmək, təsirsizləşdirmək, şübhəyə salmaq, narahat etmək, məğlub etmək üçün var gücü ilə səy göstərər.** Təsirli olurmu? Olmur. Onlar pələngin üstündə uçan at ağcaqanadı kimidir. Yaxınlaşa bilməzlər. Yalnız havada dövr edərlər.

**OKTAR BABUNA:** Bu ayə bu qədər idi. Başqa ayə oxuyuram. Şeytandan Allaha sığınıram: **"Ayələrimizi qüvvədən salmağa cəhd göstərənlər isə əzaba düçar ediləcəklər". (Səba surəsi, 38)**

**ADNAN OKTAR:** Bu Quranın hökmüdür. **Məsələn, Quranda İslam əxlaqının dünya hakimiyyətindən bəhs olunur, elə deyilmi? Bunu necə təsirsizləşdirə bilərik? İslam Birliyini necə ortadan qaldıra bilərik? Hz. Mehdi (ə.s)-ın çıxışını necə dayandıra bilərik?** Dəccalın varlığını insanların gözündən necə gizlədə bilərik? Dəccal yox deyəcək, dəccalı gizlədəcək. Əlbəttə ki, saflığından, cahilliyindən edənləri tənzih edirəm. **Hz. Mehdi (ə.s)-ı necə gizlədəcək? Müsəlmanların şövqünü və həyəcanını necə məhv edəcək? Münafiq bununla maraqlanar.** Amma o vaxt da münafiq boş dayanmaz. Münafiqin əsas silahlarından biri də dürüst görünməyidir. **Münafiq dürüst görünmək üçün əlindən gələni**

**edər. Quranda diqqət yetirsəniz həmişə and içməklə başlayarlar.** Həmişə and içərlər. Bu münafiqin xüsusiyyətidir. Dürüst görünmək onlar üçün çox vacib məsələdir. Özünə görə dürüst və səmimi görünmək üçün çox diqqət yetirər. Elə bil sinəsi örtülü, amma kürəyi açıqdır, ancaq xəbəri belə yoxdur. O formada da gəzər. Heç nədən xəbəri olmaz. Paltar qabağında olar, arxası isə açıq qalar. Müsəlmanlar da çox dəqiqliklə bu əxlaqsızlığın və qansızlığın fərqinə vararlar. Gördüyünüz kimi dürüst görünüşündə olarlar. Peyğəmbərimiz (s.ə.v): "təbliğə çıxaq, dini yayaq" deyər. O isə havaya baxar, meteorologiya mütəxəssisi kimi: "Hava çox istidir, belə istidə çölə çıxmazlar" deyirlər. Yəni tamamilə axmaq, şeytan və iblis xarakteridir. Guya Peyğəmbər (s.ə.v), səhabələr havanın isti olub-olmadığını bilmir. Münafiq bunu yeni bir şey tapmış kimi izah edər. Ona ağlın əlaməti kimi baxar. Çox axmaqdır. Halbuki, burada əsl məqsədi qaçmaqdır. Çünki canı şirindir, gəlməyəcək. Gəlməmək üçün də guya insani bir bəhanə tapır. Məsələn, Peyğəmbərimiz (s.ə.v): "İsti olsa da gəl"-desə-"mən xəstələnərəm, sən necə imamsan mənim xəstələnməyimi istəyirsən?" İmamı özünə görə xalqın gözündə, haşa, hörmətdən salmaq istəyəcək. Peyğəmbər (s.ə.v)-i insanları qorumayan insan kimi göstərəcək. Münafiq mövzuların çox şeytani tərzini seçər. Burada çox şeytani bir şey seçmişdir. Məsələn, Allahın dini üçün yenə cəhdə, təbliğə çıxmaq üçün Peyğəmbər (s.ə.v): "haydı, sabah erkən durun" deyir, ayədə də var təxminən tərcüməsi belədir: Allah: "Sübh vaxtından onları oyat, təşviq et" deyir. Onlar isə: "Ya Rəsulullah, mənim evdə uşaqlarım, xanımım var, babam, qohumlarım var, ev-eşik başsız qalır, mən getsəm onlara kim baxacaq?" deyirdilər. Elə bil Peyğəmbər (s.ə.v)-in uşağı, xanımları, qohumları, eləcə də səhabələrin yaxın qohum əqrəbaları yoxdur. Əlbəttə ki, hamısının var idi. Amma əgər Peyğəmbər (s.ə.v) onu aparsa, o: "bilə-bilə, haşa, Peyğəmbər məni uşaqlarımdan, babamdan, ailəmdən ayırdı, ailəmi parçaladı, onları başsız buraxdı" deyəcək. "Buna görə onun, haşa, peyğəmbərliyi şübhə doğurur" deyəcək. Elə bir məntiq yaradacaq, yəni onlar bu cür qansızdırlar. **Məsələn, ailə, insanların sağlamlığı kimi, insanların gələcəyi, qohumluğu kimi insanların həssas yanaşdığı mövzuları əsrlərdən bəri, min illərdən bəri münafiqlər istifadə edərlər.** Yəni Peyğəmbər (s.ə.v)-i ailəyə qarşı olan bir insan kimi göstərdilər. İnsanların sağlamlığına, səhhətinə əhəmiyyət verməyən biri kimi təqdim edirdilər. Peyğəmbər (s.ə.v)-i eqoist kimi göstərirdilər ki, qoy onun peyğəmbərliyinə şübhə etsinlər. Lakin fikirləşmirlər ki, əgər Peyğəmbər (s.ə.v) cəhd etməsə onlar ailələrini bütöv itirəcəklər. Təkcə o deyil, digərləri də ailələrini itirəcəklər. Bunun qarşısını almaq üçün Allahın Elçisi (s.ə.v) səy göstərir. Allah üçün və vəhylə hərəkət edirdi. Bunu Allah əmr edirdi. Sadəcə Allahın dediyini yerinə yetirirdi. Amma bu ağılsızlar bunu düşünməzlər. Özü kimi ağılsızlara da bunu təlqin etməyə çalışar. Buna görə münafiq özünü çox ağıllı zənn edir və həmişə özünə görə bu cür həssas mövzulara toxunar. Məsələn, bir bəhanə tapmadıqda zəif, həssas nöqtələrə toxunar: "O zaman buna nə deyəcəksən?" deyərək sual verər. Ona cavab verdikdə isə digər həssas olan mövzuya toxunar: "Bəs buna nə deyəcəksən?"—deyə təkrar sual verər. Yəni həmişə həssas

məqamlara toxunar və bu, əsrlərdən bəri heç dəyişməmişdir. Buna qarşı çox ağıllı, diqqətli olmaq lazımdır. Yəni öz ağlına görə müsəlmanların zəif olanlarını seçib özünə tərəfdar etməyə çalışar. Münafiqin dedektiv kimi seçmə qabiliyyəti vardır. Müsəlmanlar buna qarşı çox gözüaçıq, diqqətli olmalıdırlar.

İndi bəzi insanlar Quran oxuyarkən elə zənn edirlər ki, münafiqlər, kafirlər təkcə Peyğəmbər (s.ə.v)-in dövründə olmuşdur, belə hadisələrin o dövrdə olub bitdiyini düşünürlər, ona görə belə məqamlara toxunmazlar, maraqlanmazlar, mövzunu bağlanmış hesab edərək bağlayarlar. "Belə hadisələr keçmişdə qaldı, biz 2000-ci, artıq 2010-cu illərdəyik, indi tam fərqli aləmdəyik" kimi düşüncələrə düşərlər. Quran bütün dövrlərə aid olduğu kimi, hal-hazırda yaşadığımız dövrə də aiddir. Dövrümüzdə baş verən hadisələrə və bizim qarşılaşacağımız hadisələrə də işarə edir. Məsələn, Quranda hər hansı bir hadisənin izah edilməsi, buna bənzər eyni hadisə ilə qarşılaşdığımız vaxt tədbirli davranmağımıza, ehtiyatlı olmağımıza işarə edir. **Münafiqlərlə əlaqədar hadisələr də qarşılaşdığımız zaman ehtiyatlı olmaq və hücuma hazırlıq görmək üçündür. Quranda verilən hadisələr olmuş bitmiş, bizi maraqlandırmayan hadisə kimi olmamalıdır. Ona görə hal-hazırda baş verən bənzər hadisələrlə əlaqəsini quraraq izah edirəm mən, bu çox əhəmiyyətlidir.**

.... Allah Peyğəmbərimiz (s.ə.v)-ə belə buyurur: **"Kafirlərə və münafiqlərə itaət etmə".** Bu ayəni hz. Mehdi (ə.s)-a aid edəndə, darvinistlərə, materialistlərə, kommunistlərə, faşistlərə, münafiqlərə və s. (səhərə kimi saymaq olar) itaət etməmək, onlara qarşı mübarizə aparmaq mənasını verir. Allah **"Onların (sənə olan) əziyyətlərinə əhəmiyyət vermə"** deyir. Çünki səni həbs etdirə bilərlər, böhtan ata bilərlər, təhqir edə bilərlər, bir qismi riyakarlıq edər, bir qismi də xainlik edə bilər, tələ qura bilərlər. **"Və Allaha təvəkkül et",** yəni bunlara qarşı mübarizə apararkən böyük güc, ordu qarşısında qorxma, **"...və Allaha təvəkkül et"** deyir Allah. Məsələn, hz. Mehdi (ə.s)-a milyardlarla insandan ibarət olan bir güc qarşı çıxacaq, bu ayə ilə Allah, onun tək başına tələbələri ilə mübarizə aparmalı olacağına işarə edir. İndi əvvəlki dini, Quranı unutmuş bir insan kimi baxsa, əziyyətlərinə baxıb təsirlənər. Allah isə: **"Əziyyətlərinə qarşılıq vermə"** deyir. Çünki əziyyətlərinə qarşılıq versə, Quran gözü ilə baxmasa ondan təsirlənər və zəifləyər. Əgər zəifləsə münafiqlərə və kafirlərə itaət edər. Yəni bir insan iman gözü ilə baxmasa, qurtulmaq üçün "mən bunlara itaət edim yaxamı qurtarım" deyər. Amma hz. Mehdi (ə.s) Quran gözü ilə baxdığına görə heç vaxt itaət etməz və əziyyətlərinə də qarşılıq verməz. Allah: **"Əziyyətlərinə qarşılıq vermə"** deyir. **Allahın "əziyyətlərinə qarşılıq vermə" ifadəsini bir çoxları sadəcə Allahın insanlara** tövsiyəsi kimi qəbul edirlər, amma belə deyil, bu, Allahın fərz qıldığı vacib hökmlərindəndir. Əziyyətlərə qarşılıq vermə, haramdır, ona görə əziyyətlərə qarşılıq verilməməlidir. **"Allaha təvəkkül et"** deyir Allah. Bu da Allahın bir tövsiyəsi deyil, fərz qıldığı hökmlərdəndir. Yəni təvəkkül etmək fərzdir, hər şeyin

Allahdan olduğunu bilməli və qəlbimiz rahat olmalıdır. **"Vəkil olaraq Allah yetər"** deyir Allah. Yəni hz. Mehdi (ə.s) Allaha təslim olacaq, bu onun xüsusiyyətidir, inşaAllah.

...Allah: **"Əgər ikiüzlülər, qəlbi xəstə olanlar və şəhərdə qarayaxma şayiələr yayanlar"** deyir. Peyğəmbər (s.ə.v)-in dövründə, onun əleyhinə münafiqlər və qəlblərində xəstəlik olanlar, yəni o dövrün mətbuatı, televiziyaları, qəzetləri, qeybətcil qadınlar, uşaqlar, adamlar, dəllallar orada-burada şəhərdə şaiyələr yayırdılar. Peyğəmbər (s.ə.v) haqqında onun əleyhinə şaiyələr yayırdılar. **"Əgər (öz yaramaz əməllərinə) son qoymasalar, səni onlara qarşı çıxardarıq. Sonra onlar orada artıq səninlə ancaq qısa bir müddət ərzində qonşuluq edər"** deyir Allah. Yəni Allah: **"Bəlalarını verərəm"** deyir. Eynilə hz. Mehdi (ə.s)-ın əleyhinə çıxanların da Allah bəlasını verər. Quran buna işarə edir. **"Onlar da orada çox az bir müddət qala bilərlər"** deyilir. Yəni bir mövqeyi varsa, mövqeyindən gedər. Yəni Allahın istəyi ilə, işi varsa işindən gedər, sağlamlığı varsa, sağlamlığını itirər, canı varsa, canını itirər. **"Və lənətlənmiş halda (qalarlar). Harada ələ keçsələr, yaxalanıb amansızcasına öldürülərlər"** deyir Allah. **"...Öldürüldükcə (həmişə) öldürülərlər".** O dövrdə Peyğəmbərimiz (s.ə.v)-ə qarşı döyüşmək istəyənlər, fitnə çıxardanlar, İslama, Qurana qarşı çıxanlara müsəlmanların özlərini müdafiə etmələrini bildirir və təhdid edir. Yəni: "Siz bir şey etsəniz onlar da özünü qoruyacaqlar" deyir. Allah **"Əvvəllər olub-keçənlər barəsində də Allahın hökmü belə idi. Sən Allahın qanunlarında heç bir dəyişiklik tapa bilməzsən**"—deyə buyurur. Tövratda da, İncildə də, Zəburda da belədir. Hz. İbrahim (ə.s)-ın dövründə də, hz. Nuh (ə.s)-ın dövründə də belə idi. Allah bütün dövrlərdə belə olduğunu bildirir. "Elçilərimə qarşı çıxsanız, hz. Mehdi (ə.s)-a qarşı çıxsanız sizi bəlaya salaram, pərişan edərəm" deyir Allah. Bu Allahın sünnətidir (qanunudur), inşaAllah.

## 17-Cİ SÖHBƏT
## 14 AVQUST, 2010-CU İL, KOCAELİ TV

**ADNAN OKTAR**: Artıq 2010-cu ildir, biz bu ilə kimi münafiqlər haqqında iki kitab yazdıq. Əvvəl də bu haqda danışmışdım, amma bu qədər dərindən analiz etməmişdim. Allah həmişə insanlara bir cür ilham verir. Təfərrüatlı analizlər çox vacibdir. **Çünki insanların canını yaxan, cəmiyyəti bu qədər iflic edən münafiqlərdir.** Münafiq şeytan kimi çox hiyləgərdir. Münafiqlərin öhdəsindən gəlmək üçün çox böyük diqqət tələb edir. Həmişə Quranı və haşa, İslamı istifadə etmək istədiyi üçün, çox diqqətli olmaq və ruh halını müəyyən etmək lazımdır. **Münafiqin ən qorxduğu şey aşkara çıxmasıdır (yəni münafiq olduğunun üzə çıxması, müəyyən edilməsidir). Çünki şeytanın da ən çox qorxduğu şey budur.** Çünki gizli olduqda rahat hərəkət edə bilir, amma tanınanda rahat hərəkət edə bilmir. Sizə münafiqlərin bir xüsusiyyətini də deyim. **Məsələn, münafiq evdə olanda, yəni təkbaşına olanda qətiyyən ibadət etməz.** Çünki namaz qılanda ağlına Allah gəlir, Peyğəmbər (s.ə.v)-i və hz. Mehdi (ə.s)-ı xatırlayır. Bu zaman da çox əzab çəkər. Quranı o dövrdə Peyğəmbərimiz (s.ə.v)-ə qarşı mübarizə aparmaq üçün oxuyurdu, bu dövrdə də hz. Mehdi (ə.s)-a qarşı mübarizə aparmaq üçün oxuyar. Yəni hədislərdə də "hz. Mehdi (ə.s)-ın əleyhinə nə iş görə bilərəm" deyə keçər. İndi mehdiyyət ilə şeytanın dünyada çox şiddətli bir-birinə qarşı (elmi) mübarizəsi aparılır. Hz. Mehdi (ə.s)-ın tərəfdarları ilə şeytanın tərəfdarları arasında çox böyük (fikri) mübarizə gedir. **Şeytan insanların diqqətini çəkmək üçün bütün imkanlarından hərtərəfli olaraq istifadə etməyə çalışır. Yəni mehdiyyətin qarşısını almaq üçün əlindən gələni edir. Mehdiyyət də onun bütün hiylələrini pozmaq üçün ona qarşı bütün gücü ilə mübarizə aparır. Əgər diqqətlə baxsanız, bütün dünyada bunun davam etdiyini görərsiniz.**

## 18-Cİ SÖHBƏT

## 17 AVQUST, 2010-CU İL, HARUNYAHYA.TV

**ADNAN OKTAR:** Küfrə qarşı şəfqət duymamalıyıq, mərhəmətli davranmalıyıq. Çünki onlar fikirlərini açıq şəkildə bildirirlər. Yəni gizlində hiylə qurmurlar, əksinə fikirlərini açıq-aşkar bildirirlər və: "mən inanmıram" deyirlər. Yəni: “xəstəyəm, mənə kömək edin" deyirlər, biz də onlara kömək etməliyik. Münafiq isə: "Mən övliyayam, sən özünü düzəltməlisən” deyir. Çox təhlükəli məxluqdur ki, dinsiz olduğu halda özünü dindar, övliya kimi göstərir. Ona görə küfrə qarşı mütləq şəfqət duymalıyıq, məqsədimiz onları xilas etmək olmalıdır, inşaAllah. Gözəl nümunə olaraq izah etməliyik, inşaAllah.

14-cü surənin 22-ci ayəsində: **"Həqiqətən"**—deyə buyrulur. **Bunu şeytan, yəni münafiqlərin başçısı deyir. "Həqiqətən də Allah sizə doğru vəd vermişdir".** Yəni: “sən düz danışmazsan, şeytana inanmarıq, etibar etmərik. Amma burada dediyi söz doğrudur" deyir. **“Həqiqətən də Allah sizə doğru vəd vermişdir. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım”.** Yəni özünü **dürüst kimi göstərir.** Yəni etiraf edən və dürüst adam simasındadır. Bu bütünlüklə münafiqin xarakteridir. Bəzən belə manyaklığı, bəzən də hiyləgərliyi tutar. **"Həqiqətən də, Allah sizə doğru vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin vədimə xilaf çıxdım"** deyir. Məhz belə şeylərə görə bəzən insanlar münafiqin sözünə etibar edər. Məsələn, bəzən səmimi etirafları da ola bilər. Səmimi kimi görünə bilər, amma burada da onlara aldanmaq olmaz, diqqətli olmaq lazımdır. **"Mənim üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi azğınlığa dəvət etdim"** deyir şeytan, fəlakətdən sonra adamı batırdıqdan sonra xaincəsinə: "**Mən sizi azğınlığa dəvət etdim, siz də dəvətimi qəbul etdiniz**" deyir. "**Siz də dəvətimi qəbul etdiniz**", amma burada düz deyir, çünki insanı həqiətən də artıq məhv etmişdir. **"Buna görə də məni yox, özünüzü qınayın"** deyərək yenə də özünü təmizə çıxardır. "Məni qınamayın" deyir. Elə bil milləti bu vəziyyətə salan o deyil. Düzdür, insan da gərək ona qulaq asmayaydı, bu ayrı məsələ, amma: "məni qınamayın" deyir. Eqoistliyndən qınanmaq da istəmir. Halbuki: "Bəli, mən də eləyəm, sən də eləsən" deməlidir, amma demir. **"Buna görə də məni yox, özünüzü qınayın. Nə mən sizin köməyinizə çata bilərəm, nə də siz mənə kömək edə bilərsiniz."** Elə bil ondan kömək istəyən var, hələ "sizi qurtaran deyiləm" də deyir. Bu da yenə manyaklığının bir əlamətidir. "Siz də məni qurtara bilməzsiniz". Əslində onların da yazıq olduğu bəllidir. "**Mən öncə (dünyada) sizin məni (Allaha) şərik qoşmağınızı da inkar etmişdim (qəbul etməmişdim)".** Yəni münafiqdir düz deyir, elə bir şey tanımır, amma münafiq xarakterində bu vardır. **Gizlədər, gizlədər, məhv etdikdən sonra ortaya çıxar. Yəni hədəfinə çatdıqdan sonra bəlli olar. Hədəfinə çatmamış münafiq əsla özünü büruzə verməz, görürsünüz. Özünü də, müsəlmanları da məhv etdikdən sonra dili açılar.** Çünki artıq onun riyakarlığı başqa məsələdir. Çünki bu fikrində qəti qərarlı olar, sonsuza qədər

də qərarından dönməz. Münafiq də elədir, sonsuza qədər qərarlıdır. Yəni dürüst olduğuna əmin olur. "Mən dürüstəm" deyir, "amma o səhv yoldadır, hərəkəti səhvdir" deyir, haşa. Yəni "insanların davranışı, rəftarları mənə səhv oldu" deyir. Allahın etdiyini də onsuz bəyənmir, haşa.

"Hörmətli müəllimim, siz Quranı gözəl oxuyur və gözəl şərhlər edirsiniz, inşaAllah. Bu ayəni də şərh etməyinizi istəyirik, təşəkkürlər. Bəqərə surəsi, 45-ci ayədə Allah belə buyurur: **“Səbir etmək və namaz qılmaqla Allahdan kömək diləyin. Həqiqətən, bu, (Allaha) itaət edənlərdən başqa (hamıya) ağır gəlir"**. Səbirlə, yəni müsəlmanın gözəl əxlaqda qərarlı olmağına səbir deyilir. Həmişə gözəl xasiyyətli, comərd olacaq və namaz qılacaq. Səbir deyəndə insanlar: "Səbir, səbir, səbir kasam daşdı" deyir. Bu əslində səbir deyil, dözümdür, o fərqlidir. Səbir sabitlik göstərmək, davam etməkdir, inşaAllah. Səbir sevinclə edilən bir ibadətdir. Səbirlə gözəl xasiyyətli olarsan, səbirlə sevərsən. **"Namazla kömək istəyin"**, yəni “namazı mütləq qılın” deyir Allah. Biz beş vaxt namazdan sonra dua edirik. O dua məqbuldur, inşaAllah. **"Həqiqətən, bu, Allaha itaət edənlərdən başqa hamıya ağır gəlir”.** Yəni münafiqlər Allaha dua etmək istəməz, çünki Allahdan daha böyük olduğuna inanır. Münafiqə ən ağır gələn şeylərdən biri də dua etməkdir. **Münafiq dua etməz, özünü dua edən kimi göstərər. Münafiq özünü çox böyük sayar. Münafiq dünyada özündən başqa nə üstün bir insan, nə də üstün bir varlıq qəbul etməz.** Ona görə hamısı fərqli-fərqli ağıldadırlar, manyakdırlar. Hamısı bir cür dəli, bir cür ağılsızdırlar. Onları təsəvvür etsəniz hamısının bir cür manyak olduğunu başa düşəcəksiniz və **hər biri də öz ağlına görə özünü bir cür dövlət kimi görər. Hər şeydə, ən doğru qərarı verdiklərini fikirləşirlər.** Ayədə də Allah: **"Allaha itaət edənlərdən başqa hamıya ağır gəlir"** deyir, yəni ibadət etmək məhz münafiqlərə ağır gəlir, onların nəfsinə ağır gəlir. Dua etmək də, namaz qılmaq da, münafiqə çox ağır gəlir. Ona görə Allah ayədə də onların istəməyərək namaz qılmaqlarını, səcdəyə qapanmaqlarını bildirir. Bu babaları şeytandan gələn bir ənənədir. Onların babaları da elə idi. Allah: **"səcdə et"** deyəndə şeytan havalandı. Ağır gəldiyinə görə çox hirsləndi. Sonra isə boş-boş danışmağa başladı: **"Məni atəşdən yaratdın, onu torpaqdan yaratdın"** deyir. Torpağı da, atəşi də yaradan Allahdır, elə deyilmi? Torpağı bəyənmir. Halbuki, hər şey xoş ətirli torpaqdan əmələ gəlir, elə deyilmi? Atəş də Allahın yaratdığı bir şeydir, torpaq da, inşaAllah.

**ALTUĞ BERKER:** Münafiqlərlə əlaqədar bir ayə oxuyuram. Şeytandan Allaha sığınıram: **"Onlardan bir dəstə demişdi: “Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!” İçərilərindən bir qismi isə: “Evlərimiz nəzarətsiz qalıb” deyərək Peyğəmbərdən izn istəyirdi. Halbuki, evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər". (Əhzab surəsi, 13)**

**ADNAN OKTAR: Orada Peyğəmbər (s.ə.v)-i, ailəni qorumayan, insanların ictimai ehtiyaclarına, təbii ehtiyaclarına əhəmiyyət verməyən bir insan olaraq göstərməyə çalışırlar.** Peyğəmbər (s.ə.v)-i bunu fikirləşməyən biri kimi göstərirlər. Amma bunu hiylə işlədərək günahsız, sakit, dürüst bir üslubla izah etməyə çalışırlar. Münafiq çox iblisdir, buna görə onlara qarşı çox diqqətli olmaq lazımdır.

Məsələn, Bəqərə surəsi, 204-cü ayədə belə buyrulur, şeytandan Allaha sığınıram: **"İnsanların eləsi də var ki, onun bu dünya həyatında danışdığı sözlər səni heyran edər. O, qəlbində olana Allahı şahid göstərər. Halbuki, o, ən qatı düşməndir".** Məsələn, müşriklər haqqında: **"onlar düşməndir"** deyilir, amma münafiqlərə isə: "**o, ən qatı düşməndir**" deyilir. Yəni şeytan da elədir. Qatı nə deməkdir? Məsələn, "qatı qatil" deyilir. Yəni heç vaxt adam öldürməkdən çəkinməz. Həbsə düşər, çıxar yenə də cinayət edər. Yenə həbsə düşər, yenə çıxar, yenə də təkrar cinayət etməkdən əl çəkməz. Ən qatı (təhlükəli) qatil deyilir. Yəni ümid edilməyən dərəcədə. Münafiq də elə qatı düşməndir. Allah ayədə: **"Halbuki, o ən qatı bir düşməndir"** deyir. Yəni özünü ya yaxşı adam kimi göstərər, ya da pis adam kimi. Məsələn, müsəlmanların diqqətini özünə çəkmək üçün bəzən özünü günahsız, dürüst kimi göstərər. Yəni buqələmun kimidir. **Buqələmun necə rəngini dəyişərək özünü büruzə vermək istəməz. O da özünü günahsız, dürüst kimi göstərərək əsl üzünü gizlədər. Oradan-buraya qaçar, buradan-oraya qaçar ki, tutulmasın.**

**OKTAR BABUNA:** İnşaAllah, münafiqlər haqqında: "İslam üçün ən böyük təhlükələrdən biridir" demişdiniz.

**ADNAN OKTAR: Ən böyük təhlükədir. Çünki şeytanın, dünyadakı insan olaraq fəaliyyət göstərdiyi qrupdur.** Bu cin şəklində olmayan şeytandır. **Bunlar şeytanın insan şəklində görünən qrupudur. Şeytanın ordusudur.** Davranışları və üsulları çox xain və riyakardır. Bu cəhətdən çox təhlükəlidir. Yəni üzə çıxmamaq üçün çox diqqətli hərəkət edərlər.

Allah küfrün münafiqləri haqqında, hansı ki, küfrün ən azğın alçaqlarıdır, Maidə surəsi, 13-cü ayədə belə bəhs edir: **"Ürəklərini sərtləşdirdik".** Bunlar belə qurumuş kərtənkələ kimidir. Həddindən artıq daşürəklidirlər, odun kimidirlər.

**"Onlar (Kitabda olan) kəlmələrin yerlərini dəyişdirirlər".** Məsələn, Quranda açıq bir hökmü müxtəlif formada şərh edər, möhkəm ayəni dinləməz, təşbehli (mütəşabeh) ayədən də müxtəlif mənalar, hökm çıxardar. Halbuki, Quranda haramlar, halallar açıq-aşkar bildirilib. Hədislərdə də əlavə olaraq ətraflı şəkildə izah edilir, inşaAllah.

**"Onlar heç bir möminə qarşı nə qohumluq bağlarını saxlamaz, nə də müqavilə hökmlərini yerinə yetirməzlər". Bu həm küfrün, həm münafiqlərin xüsusiyyətidir.**

Münafiq üçün qohum nədir bilirsinizmi? Kimdən mənfəət gəlirsə, o onun üçün qohumudur. İstər böyük qardaşı olsun, istər əmisi, dayısı, babası, atası, anası kim olursa olsun, hamısı ilə yalnız mənfəətə görə əlaqə saxlayarlar. Məsələn, baxar, əgər anasından mənfəət gəlirsə ancaq onda anasına sahib çıxar. Yoxdursa artıq ana hesab etməz. Atasında mənfəət varsa, gedər donuzun çirkli yerinə yapışan at ağcaqanadı kimi yapışar. Məsələn, baxar qardaşlarına hansı işinə yarayırsa onunla qohumluq əlaqəsi saxlayar. Əgər mirasa şərik çıxacaqlarsa, o zaman onları istəməz və yaxud onun rahatlığını pozacaqsa: "aman, uzaq olsun, onu istəmirəm" deyər. **Bəs kimi istəyirsən? soruşanda: "Onu, bunu, filankəsi və s." hansından mənfəət gəlirsə, işinə yarıyırsa onları sayar, yəni münafiq öz mənfəətinə uyğun olanları qohum qəbul edər. Yəni kimdən pul gələcəksə və yaxud kim rahatlığını pozmayacaqsa, kim ona kömək edəcəksə, o əxlaqsız dünyasında ona kim şərait düzəldəcəksə, onun tərəfini saxlayar.**

Bəqərə surəsi, 27-ci ayədə Allah: **"yer üzündə fitnə-fəsad törədirlər"** deyir. Fitnə-fəsad törətmək münafiqin xüsusiyyətidir. Amma çox hiyləgərcəsinə və xaincəsinə törədər. Məsələn, küfr əhli işlərini açıq-aşkar edərlər. Ona görə onları təsirsizləşdirmək asandır. Amma münafiq çox hiyləgərdir.

**"Yanındaykən qəbul edərlər, amma yanından çıxandan sonra onlardan bir qrup qaranlıqlarda sənin dediyinin əksini qurarlar"** deyir Allah. Yəni yanında ikən: **"bəli, düz deyirsən, gözəl izah edirsən"** deyərlər. Çölə çıxanda isə "o, tamamilə səhv danışır" deyərlər. Münafiq əsasən qaranlıqda iş görər, ruhu da, hazırladıqları üsul da, yaşadıqları yer də qaranlıqdır, inşaAllah.

Allah **"Allah qaranlıqlarda qurduqlarını yazır"** deyir. Amma bu, münafiqə təsir etməz. Çünki münafiq özünü çox üstün hesab edər.

Əraf surəsi 51-ci ayədə Allah belə buyurur: **"O kəslərə ki, dinlərini əyləncə və oyun etmişdilər və dünya həyatı onları aldatmışdı. Onlar bu günləri ilə qarşılaşmağı unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq".** Məsələn, münafiqlər ayələrin bir qismini qəbul edir, bir qismini isə qəbul etmir. Cihad etməyi, təbliğ etməyi, Allahın dinini yaymağı həqiqətən tətbiq etməyərək yox sayır. "Elə bir ayə ola bilər, amma mən tətbiq etmirəm" deyər. Birmənalı olaraq ayəni yox sayır, inşaAllah. Yəni həyata keçirmir, qəbul etmir. Hansı ayə maraqlarına uyğun gəlirsə yalnız onu qəbul edir.

Allah Tövbə surəsi, 24-cü ayədə belə buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gələnə qədər gözləyin"**

**"De: "əgər atalarınız" deyir Allah.** Nə üçün atası? **Münafiq atasını yalnız pul gələn yer kimi görər. Pulu atası qazandığına görə** əsl hakim də o olar, inşaAllah. Çünki malın, mülkün sahibi odur. Ona görə atanı çox əhəmiyyətli hesab edir. Miras alacağına görə, mirasın, pulun əsas mənbəyi ata olduğuna görə, ətrafdakılara da elə təsir edir, ona görə Allah: **"atalarınız"** deyir. Allah sonra: **"oğullarınız (uşaqlarınız)"** deyir. **Çünki uşağı ilə mal sahibi olar. Uşaq nə qədər çox olsa, onları işə qoyacaq, onlar evlənəcəklər, tayfa kimi olacaqlar, hər yerdən pul gələcək və bununla imkanı da çoxalacaq. Bunun yeməyini, içməyini təmin edəcəklər. Həyat zəmanəti kimi, onları sosial sığorta təşkilatı hesab edir.** Sonra: **"Qardaşlarınız"** deyir Allah. Çünki qardaş köməkçi olar, eyni zamanda onun miras payına şərik çıxacağına görə, münafiqlər qardaşlarına daha az əhəmiyyət verərlər.

**"...Zövcələriniz..."** deyir Allah. **Çünki zövcələriniz onun uşağını dünyaya gətirən mənbədir. Amma ümumiyyətlə münafiqlər zövcələrini çox sevməzlər. Çünki zövcələrini yalnız mühitinə qarşı silah kimi istifadə edərlər.** Yəni onlara rahatlığını təmin edən, ona yemək hazırlayan, paltarlarını yuyan, onu uşaqla təmin edən bir maşın kimi baxarlar. Münafiqlərdə qadınlara qarşı dərin nifrət hissi vardır. Qadınlara nifrət edərlər. Məsələn, arvadının qoluna girər və arvadını çəlik hesab edər. Yəni getdiyi yerdə ona yemək hazırlayan, onun ehtiyaclarını ödəyən, xəstələnəndə ona baxan bir maşın hesab edərlər. Qadının axirəti münafiqi maraqlandırmaz. Əgər vəzifələrini yerinə yetirə bilməsə dərhal, vaxt itirmədən lazımi tədbir görər, yəni qadını tərk edər, boşanar. Amma yenə də, öz ağlına görə dinə uyğun bir bəhanə ilə edər. Məsələn: "zövcəni niyə boşadın?"-soruşanda" təqvalı deyildi, ona görə boşadım"—deyə cavab verər. Ya da: "Bir yuxu gördüm, onun şeytanla əlaqəsi olduğunu gördüm" deyər. Mütləq saxtakarcasına şərhlər edər və yaxud qadına durduğu yerdə böhtan atar. Məsələn: "namussuzluq etdi, mən bilirəm, amma deyə bilmirəm" deyər. Günahsız qadının adını bir anda namussuzluğa çıxarar və boşayar. Uzaq qohumlar axıra qalar. **Yəni bunlar, əslində yaxınları olduğuna görə bunlara çox əhəmiyyət verər. Uzaq qohumları ikinci dərəcəli kəslərdir.** Quranda da Allah qohumlardan bəhs edərkən geriyə doğru sıralamışdır. Yəni əhəmiyyətli olanların ardıcıllığı bildirilir. Ayənin davamında Allah: **"qazandığınız mallar, iflasa uğramağından qorxduğunuz alış-verişiniz" deyir. Münafiq həmişə belə bir qorxu hiss edər. Az qazanc gəlməyindən qorxar. Nə qədər qazanırsa qazansın həmişə az qazandığını fikirləşər. "Və bəyəndiyiniz məskənlər"** deyir Allah. Onlar porsuq kimi, bir yerə girib, orada qan sovurmaq üçün oranı uyğun bir yer olaraq görərlər. **"Sizlərə Allahdan",** yəni Allahın dinini İslam əxlaqını dünyaya hakim etməkdən, səy göstərməkdən **"Onun Rəsulundan",** məsələn, əsrimizə aid etsək hz. Mehdi (ə.s)-dan, imama tabe olmaqdan, İmam Mehdi (ə.s)-a tabe olmaqdan, ona əsgər olmaqdan deyir Allah. **"Və Onun yolunda cihaddan"-** buyurur Allah. **Münafiqin ən qorxduğu şey onsuz da budur.** Səy göstərmək, Allahın dinini yaymaqdır. Münafiq, "aman-aman, nə pul verim, nə cəhd edim, Allah yolunda nə səy göstərim"-deyər. Yəni malını-mülkünü də vermək istəməz. **"Daha əzizdirsə, Allah Öz**

**əmri ilə gələnə qədər gözləyin".** Çünki münafiqin ən qorxduğu şey ölməkdir. Ölüm də ona çox sürətlə yaxınlaşar. **Hər gün təqvim səhifələri kimi vərəqlənər. Hər il ona tərəf yaxınlaşar. Yəni ölüm çox böyük sürətlə gələn bir avtomobil kimi onun üstünə tərəf gələr. Münafiq də bundan çox qorxar.** Allah da onu ölümlə təhdid edir. **"Allah fasiqlər birliyinə hidayət verməz"** deyir Allah. Allah onlara hidayət vermir. (Tövbə surəsi, 24)

Allah, Tur surəsi 30 və 32-ci ayələrdə münafiqlərə və kafirlərə belə buyurur: **"Yoxsa bunu onlara axmaq ağılları əmr edir?"** Allah onları çox ağılsız adlandırır. Amma onlar özlərini çox ağıllı hesab edirlər. **"Yoxsa onlar azğın bir qövmdürlər?"** Həqiqətən, belə manyaklara baxsanız, çox azğın və təcavüzkar olduqlarını görərsiniz. Yəni çox çətin zəbt edilərlər və münafiqlərdə də elədir, cinayət potensialı çox böyükdür. Cinayətə meyillidirlər. Yəni ruhlarında, gizlicə elə bir şey vardır. Münafiqlər qatil ruhludurlar. Maidə surəsi, 30-32-ci ayələrdə, Habil-Qabil hekayəsində də bunu görürük. Tur surəsi, 30-32-ci ayələrdə Allah: **"Yoxsa onlar bir şairdir"** deyir. Yəni bunu Peyğəmbərimiz (s.ə.v)-ə deyirlər, ona bu cür böhtan atırlar. **"Biz ona zamanın (gətirəcəyi) fəlakətləri gözləyirik"** deyirlər**,** münafiqlərin istəyi budur. Kənarda dayanıb müsəlmanlara fəlakət, bəla gəlməsini gözləyərlər. Yəni hücuma məruz qalmalarını, nəzarətə götürülmələrini, həbs edilməklərini, döyülməklərini, söyülməklərini gözləyərlər. Yəni əvvəl-axır bir şey olacağını gözləyirlər. "O zaman onda biz hücuma keçərik" deyirlər. Ona görə həmişə müsəlmanları güdərlər. "De: **"Gözləyin, mən də sizinlə birlikdə gözləyənlərdənəm".** Yəni: "İstədiyiniz qədər gözləyin, mən də gözləyirəm" deyir. Çünki: "Biz qalib olacağıq" deyir Allah. Yəni Allah tərəfdarları, müsəlmanlar da: "Siz də məğlub olacaqsınız" deyirlər. "Mənim peyğəmbərlərim, Mehdilərim qalib gələcək", inşaAllah.

ALTUĞ BERKER: Əstəğfürullah, səhabələrin bu münafiqlərə qarşı olaraq, nə qədər mübarək, gözəl, mömin rəftarı göstərdiklərinə dair fədakarlıq nümunələri var. Məsələn, Talha İbn Ubeydullah Uhud döyüşündə Peyğəmbərimiz (s.ə.v)-in yanında olan bütün səhabələrin şəhid olmağının ardınca, Rəsulullah (s.ə.v)-i öz bədəni ilə qorumuşdur. Talha İbn Ubeydullah Malik İbn Zübeyr adlı mahir atıcı Peyğəmbərimiz (s.ə.v)-ə atdığı oxların qarşısına əlini tutmuş, əli yaralanmış və buna görə barmaqları şikəst qalmışdır. Uhud döyüşündə də səksən yerdən yaralandığına baxmayaraq, hər yeri qılınc, mizraq və ox zərbələri ilə yaralı olduğu halda Rəsulullah (s.ə.v)-in yanından ayrılmamış, onu qorumağa çalışmışdır.

ADNAN OKTAR: Bir sözlə igid olublar, elə deyilmi? maşAllah, inşaAllah.

**ALTUĞ BERKER:** Buna qarşı münafiqlər də: **"...Biz döyüşməyi bilsəydik, əlbəttə, sizin ardınızca gedərdik...(Ali İmran surəsi, 167)"** deyirlər.

**ADNAN OKTAR:** Diqqət yetirin, o, səksən yara aldığına baxmayaraq Allah rizası üçün döyüşməyə davam edir. **Amma o (münafiq): "döyüşməyi bilsəydik sizin ardınızca gələrdik"** deyir. Amma əgər "burada zövcələriniz olacaq, mənfəətiniz olacaq" deyilsəydi, qaça-qaça gələrdilər, inşaAllah.

**OKTAR BABUNA:** Musab İbn Umeyr var, onun fədakarlığı haqqında oxuyum?

**ADNAN OKTAR:** Bəli, oxu.

**OKTAR BABUNA:** "Musab İbn Umeyr Uhud döyüşündə bir qılınc zərbəsindən sağ qolunu itirmişdir, buna baxmayaraq, bayrağı sol əlinə almışdır. İkinci bir qılınc yarası ilə sol qolunu da itirdikdən sonra, bu vəziyyətdə özünü Peyğəmbərimiz (s.ə.v)-in qarşısına atmış və onu qorumağa çalışmışdır. Peyğəmbərimiz (s.ə.v)-i qoruyarkən bədəninə batan bir nizə ilə şəhid olmuşdur".

**ADNAN OKTAR:** Mənim aslanım, maşAllah. O dövrlərdə də ortalıqda belə igidlər qaynaşırdı, inşaAllah.

**OKTAR BABUNA:** Hz. Mehdi (ə.s)-ın tələbələri də belə olacaq, inşaAllah.

**ADNAN OKTAR:** EvelAllah, EvelAllah, maşAllah.

Bacımız "Salam aleykum" deyir, əleykumsalam. "Dəfələrlə sizə yazdım, amma heç soruşulmadı. Münafiqlərdən bu qədər bəhs edildiyi halda, mənim sualım niyə cavablandırılmır?" Yəni münafiqlər çox vacib bir mövzudur. Bacımız niyə bizə hirslənir ki? Neslihan xanım, burada əsəbləşəcək nə var ki? Nə gözəl. "münafiqlər Qızıl dövrdə də bu hərəkətlərinə davam edəcəklər? İman etməyəcək bir adam qalmayacaqsa, indiki münafiqlərin vəziyyəti Qızıl dövrdə necə olacaq?" Allahdan qorxmayan, hz. Mehdi (ə.s)-dan qorxacaq. **O dövrdə münafiqin nəfəsi kəsiləcək. Yəni münafiqlik edə bilməyəcək. Münafiqlik edə bilmədiklərinə görə də fəaliyyətləri dayanacaq.** Güclüdürsə etsin. Amma edə bilməz. Hz. Mehdi (ə.s)-ın olduqca güclü xəbər almaq qabiliyyəti olacaq, qeyri-adi gücü olacaq. Həm fiziki, həm də metafizik (qeyri-təbii). Yəni imkan verməyəcək, bundan

söhbət gedə bilməz. Ona görə o dövrdə (hz. Mehdi (ə.s)-ın dövründə) hamı əlini qolunu sallayaraq, istədiyi kimi gəzəcək. Heç kim heç kimə pislik edə bilməyəcək. Əlbəttə ki, zəif insanlar olacaq, **amma vəziyyəti dəyişə bilməyəcək. Yəni hər hansı bir hərəkat təşkil edə bilməyəcəklər. Şeytan da olacaq, amma heç bir iş görə bilməyəcək. Edə biləcəyi bir şey qalmayacaq, inşaAllah.** Nə haqqında danışacaq şeytan? Darvinizm, materializm, marksizm, satanizm haqqında danışa bilməz. Danışsa da heç kim qulaq asmayacaq. Ona görə bir yerdə oturacaq, inşaAllah. Cəhənnəmə getmək üçün öz növbəsini gözləyəcək, inşaAllah.

## 19-CU SÖHBƏT
## 18 AVQUST, 2010-CU İL, HARUNYAHYA.TV

**ALTUĞ BERKER:** Dünən çox əhəmiyyətli bir mövzudan bəhs etdiniz, bu barədə həmişə danışırsınız, yəni münafiqlərin elçilərə qurduğu hiyləgər taktikaları nəzərdə tuturam. Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirəm, Peyğəmbər (s.ə.v)-in dini mövzuları, Allahı, həyatın həqiqətlərini qavraya bilmədiyini düşünürlər. İnsanları yaxşı tanımadığını, dünyanı yaxşı tanımadığını düşünərək, hiyləgərcəsinə, açıq-aşkar tənqid etmirdilər, amma düşünə bilmədiyini hiss etdirərək “evimiz yiyəsiz qalıb, hava istidir” deyərək, belə hiyləgər, yorucu taktikalarından istifadə edirdilər. Peyğəmbərimiz (s.ə.v)-i tənzih edirəm.

**ADNAN OKTAR:** Hal-hazırda münafiqlər bir dinə baxır, bir hadisələrə baxır, yəni müsəlmanların ümumi işlərinə baxır və "burada mən mənfəətim, hədəflərim cəhətdən nələri qiymətləndirə bilərəm?"—deyə fikirləşir. Yəni istifadə etmək üçün həddindən artıq bir çox şey tapır. Məsələn, cihad etməli, təbliğ etməli olduğunu bilərək, Peyğəmbər (s.ə.v)-in sübh erkəndən "haydı, hazırlanın" dediyini görərək, "xeyr, mən getmirəm"—deyə bilməyəcəyini fikirləşir. Ona görə başqa, müqəddəs bir bəhanə tapmalı olacağını başa düşür. “Müqəddəs bir bəhanə nə ola bilər? İndi “getmək istəmirəm” deyə bilərəm, “döyüşməyi bilmirəm” deyə bilərəm" deyərək fikirləşir və daha da təsirli bir bəhanə nə ola bilər?" deyir. "Evdəki uşaq-muşağı bəhanə edim" deyir. Hətta dilənçilər belə, insanların ona daha çox yazığı gəlsin deyə yanında uşaq gəzdirər. Məsələn, ailəni, ananı, qadını diləndirərlər, daha sonra uşağı diləndirərlər. "Ən yaxşısı yenə mən ailəni bəhanə gətirim, yəqin ki, bu bəhanə bir nəticə verər" deyər. Amma Peyğəmbər (s.ə.v)-ə qarşı kinli və qəzəbli olarlar. Elə hiyləgər üsuldan istifadə edirlər ki, “evimiz yiyəsiz qalıb” deyəndə, Peyğəmbər (s.ə.v) də, əlbəttə ki, Quran çərçivəsində ona cavab verməli olacaq və "evin başsız qalır amma, müsəlmanlar da təhlükədədir, bilirsən” deyəcək, başa salmalı olacaq. Beləliklə, Peyğəmbər (s.ə.v)-ə keçici də olsa bir problem çıxaracaq, inşaAllah. Bu yolla qarışıqlıq, şübhə yaradacaq. Guya, Peyğəmbər (s.ə.v)-in ağlına gəlməyən şeyi bu fikirləşib, haşa.

Şeytanın üslubu da eynilə belədir. Qurana baxanda şeytanın da **"mən daha əvvəl fikirləşdim"** dediyini görərik. Amma çox ağılsızcasına fikirləşdiyini iddia edir. "Mən bir şeyin fərqinə vardım" deyir. Yəni onu demək istəyir ki: "Ya Rəsulullah (s.ə.v), siz bir şey hiss edə bilmədiniz, mən sizdən daha ağıllıyam, haşa". **Burada iki cür təsir etmə var, həm bəhanə gətirək, həm də Peyğəmbər (s.ə.v)-i səhv çıxarmaq məqsədi var. O, bunu şeytanın hiyləsi ilə edir. Allah da vəhy edərək cavab verir.** Çünki Peyğəmbərimiz (s.ə.v) çox nəzakətli, hörmətli, sadə bir insan idi. Elə şeylərdən utanardı, qızarardı, minnət edənlərə də bir şey etməzdi. Peyğəmbər (s.ə.v) elə deyəndə, məsələn, "mən döyüşməyi

bilmirəm, evim başsız qalıb" deyən adama, fikirləşir ki, orada ona yaxşı cavab verərdim, razılaşdırardım onu, inşaAllah. Məsələn, ətraflı başa salmaq olardı. O da yaxşı başa düşdüyünü deyərdi və geri qayıdardı, inşaAllah. Amma Peyğəmbərimiz (s.ə.v) sadə insan idi, inşaAllah. Ona görə Allah həmişə vəhylə ona kömək edirdi. Dərhal Cəbrayıl (ə.s) gəlib, cavabını verirdi.

**İndi hz. Mehdi (ə.s)-ın dövrünün münafiqləri də çox qərarlı bir mübarizə aparırlar, yəni azğındırlar. Əsrin texnologiyasını, elmi imkanlarını istifadə edirlər.** Məsələn, əlaqə qurmaq üçün interneti istifadə edər, telefondan istifadə edərlər. Axırzaman münafiqləri daha əhatəli və geniş imkanlara sahibdirlər. O dövrdə qulaqdan-qulağa danışaraq fitnə çıxarırdılar, amma hz. Mehdi (ə.s)-ın dövründə hadisələr sürətlə artır, yəni həcmi daha çox inkişaf edir, inşaAllah. Hətta Peyğəmbərimiz (s.ə.v) hədisdə: "Buğdaya dadanmış qurd kimidirlər" deyir. Yəni hz. Mehdi (ə.s)-ın dövrünün münafiqləri qurd kimi çox olacaqlar. Məsələn, "buğdaların içini bir-bir təmizləyər, amma buğda yenə də qurd salar, hz. Mehdi (ə.s) bir daha təmizləyər yenə qurd salar. Amma sonda tərtəmiz buğdalar qalar. Məhz onlar hz. Mehdi (ə.s)-ın tələbələridir" deyilir, inşaAllah. **Mən dövrümüzün münafiqlərinin necə olacağını təxmin edirəm, yəni böyük ehtimalla onlar, küfrü hz. Mehdi (ə.s)-ın əleyhinə istifadə edəcəklər.** Yalandan xəbərlər yayacaqlar, məhkəmələri, polisi hz. Mehdi (ə.s)-ın əleyhinə istifadə edəcəklər. Eləcə də küfrü, azğın fikirli dini qrupları, azğın məzhəbləri, azğın inancları istifadə edəcəklər. Günahsız, məzlum müsəlmanları aldadan bir təbliğat aparacaqlar. Müsəlmanların arasında onların səhv yolda olduğunu, buna görə də etiqadlarının səhv olduğuna aid təbliğatlar aparacaqlar. **Amma Peyğəmbərimiz (s.ə.v), mehdiyyətin buna qarşı mütləq zəfərlə nəticələnəcəyini ifadə edir.**

Lakin, Peyğəmbərimiz (s.ə.v)-in dövründəki münafiqlər çox azğın, murdar və axmaqdırlar, əslində bir az da manyakdılar. Məsələn, Peyğəmbər (s.ə.v) söhbət edəndə biri əngəl törətmək üçün durub çıxıb gedirdi. Bu tamamilə axmaqlıq əlamətidir. Anadangəlmə ağıldan kəm olmaq günah deyil, amma bu şeytani ağılsızlıqdır. Anadangəlmə olan günahsızdır, çünki Allah elə yaratmışdır. Amma bu, şeytanın təsirində olduğuna görə ağlını itirmişdir. Buna görə digər münafiqlər: "Nə ağıllı hərəkət etdi, bu böyük bir insandır" deyir. Münafiq münafiqin axmaqlığını başa düşməz. **Yəni aralarında axmaq əlaqə vardır.** Münafiqlərin bir çox liderləri var, yəni bir çox hissələrə ayrılarlar, Quran buna diqqət çəkmişdir. **Yəni tək birlik halında olmurlar, amma ayrılmazlar. Məsələn, kiçik-kiçik hissələrdən ibarətdir, kimisi qurd kimidir və buna bənzər birliyə sahibdirlər, kimisi gənə birliyi kimi, kimisi murdar böcək birliyi kimi, bu cür xırda-xırda birliklər halında yaşayırlar.** Amma öz aralarında da mübarizə apararlar, münafiqlər müharibə vəziyyətində olarlar. Lakin ən pis xüsusiyyətləri həddindən artıq eqoist olmalarıdır. Yəni özlərini çox bəyənirlər. Hamısı da təqvalı olduğunu iddia edər, çox mükəmməl təqva sahibləri olduqlarını iddia edərlər.

## 20-Cİ SÖHBƏT
## 22 AVQUST, 2010-CU İL, HARUNYAHYA.TV

**OKTAR BABUNA:** Siz münafiqlərin cihad etmədiklərini demişdiniz. Onunla əlaqədar ayə oxuyuram, inşaAllah. Şeytandan Allaha sığınıram: **"Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər. Onlar Allah yolunda öz malları və canları ilə cihad etmək istəmədilər və: "Bu istidə döyüşə çıxmayın!" dedilər. De: "Cəhənnəm odu bundan da hərarətlidir!" Kaş anlayaydılar". (Tövbə surəsi 81)**

**ADNAN OKTAR:** İndi ayənin son qismini izah etdik, əvvəlki hissəsini açıqlamadıq. O əvvəlki hissəsini oxu.

**OKTAR BABUNA:** Bəli, inşaAllah. **"Döyüşə getməyib arxada qalanlar Allahın Elçisinin əleyhinə çıxaraq evdə qalmalarına sevindilər".**

**ADNAN OKTAR:** Allahın Rəsuluna, yəni imama və yaxud hz. Mehdi (ə.s)-a müxalif çıxarlar. İndi, münafiqin əsl xüsusiyyəti müxalif olmağıdır. **Məsələn, ağ desən, qara deyər. Qara desən, ağ deyər. Mütıəq bir qüsur axtaracaq. Eqoist olduğuna görə itaətetməz, buna görə çatışmazlıq gördüyü üçün özünü daha üstün sayar. Bu, münafiqin əsas xüsusiyyətlərindən biridir.** Məsələn, "burada oturaq" desən, "burada yox, orada otursaq daha yaxşı olar" deyər. Sən "qapı açıq qalsın" desən, "yox bağlansa daha yaxşı olar" deyər. Quranda əsas xəstəliklərinin "təbliğ və cihad" olduğu bildirilir. Bütün problemləri budur. Yəni əsasən, problemlərinin 90 %-i budur. Quranda Allah əsasən buna diqqət çəkmişdir. **"Oturub qalmalarına sevinərlər"** deyir Allah. Münafiqlər evdə oturub qalmaqlarını istəyərlər. Qaya porsuğu kimi bir deşiyə girib, orada yaşamaq istəyərlər və məqsədəuyğun hərəkət etdiklərini düşünərlər. "Müsəlmanların yanından gedərək çox yaxşı etdim. Mənim yerim buradır. İstədiyim kimi yeyib-içirəm, təhlükə yox, bir şey yox. Kimsə məni güdmür, həbs etmir. Böhtanla qarşılaşmıram, təhqir edilmirəm. Heç bir təhlükə yoxdur, çox yaxşı oldu ki, burada qaldım" deyərlər. Halbuki, təhlükənin düz ortasındadır. Münafiq cəhənnəmin ən dibinə gedəcək, inşaAllah. Amma bundan xəbəri yoxdur.

Quranda münafiqlərə aid təhdidləri xüsusilə müsəlmanlar çox yaxşı bilməlidirlər. Çünki münafiq onsuz da Quranın təhdidlərindən təsirlənməz. Biz bu münafiqə aid olan ayələri, münafiqlərin təsirlənməsi üçün, başa düşməsi üçün izah edirik, amma başa düşməzlər. Bunu əsl müsəlmanlar büşü düşər. Müsəlman qorxar, çəkinər, "aman

münafiq kimi olmaqdan Allah əsirgəsin" deyər. Çünki heç kim üçün cənnətə getmək zəmanəti yoxdur, bilirsiniz. "Allah qorusun, birdən münafiqlərlə eyni yerə gedərəm" deyə müsəlman tir-tir titrəyər, Allahdan qorxar. Münafiqlərdən də çox iyrənər. Allah onlardan iyrənək deyə ayəni endirir. Müsəlmanlar iyrənsin, nə qədər alçaq olduqlarını görsünlər, qəzəblə, yəni imani bir hirslə, imani qərarla onlara ürəkdən nifrət etsinlər deyə Allah bildirir, inşaAllah.

"Salam əleyküm, hocam. Qurani-Kərimdə mömin qadınların mömin kişilərlə evlənəcəyi buyurulur. Hz. Lut (ə.s)-ın xanımının inanmayanlardan olması və Fironun xanımının inananlardan olmasının bu ayə ilə əlaqədar hikmətini açıqlayarsınızmı?". Əleyküm salam və Rəhmətullahi və Bərəkətu.

Fironun xanımı peyindən iyrəndiyi kimi o alçaq məxluqdan da iyrənirdi. Burada evlilik qalmışdırmı? Amma o, hökmən davam edir. Qadın ən iyrənc peyindən də iyrənc, ən alçaq məxluq kimi baxırdı və heç bir şəkildə onunla birlikdə yaşamırdı. Amma kim bilə bilər, bəlkə də o it mübarək qadını təhdid edirdi, elə deyilmi? Bəlkə də o psixopat təzyiq altında da tuturdu. Ola bilsin ki, canının qorxusundan bir müddət elə evli qalmışdır. Yoxsa qadın onsuz da ürəkdən boşanmışdır. Yoxsa alçaq bir adamla, iyrəndiyi, alçaq bir məxluqla qadın necə evli qala bilər? Ürəkdən boşandıqdan sonra bir qadın, dilində qalsa nə olur? Onsuz da artıq bitmişdir. Ola bilsin ki, təhdid etdiyinə görə bir müddət qəbul etmişdir. Sonra hz. Musa (ə.s)-la getdi. Amma rəvayətdə o namərd Fironun onu sonra şəhid etdiyi deyilir. Hz. Musa (ə.s) ilə gedəndə onu tapmışdır, hər halda adamlarını göndərib tapdırmışdır və sui-qəsd nəticəsində anamızı şəhid etmişdir, inşaAllah. Məhz qorxduğu şeylə qarşılaşmışdır, görürsünüzmü? Firon ağılsız adam idi, ona görə orada nə qanun, nə də hüquq var idi.

Hz. Lut (ə.s)-ın da xanımı ola bilsin özünü büruzə verməmiş, əsl simasını gizlətmişdir. Münafiqlər özlərini ələ verməzlər, elə gizlədərlər ki, şərəfsiz, soysuz, namussuz olduğunu bilməzsən. Mütləq tanıyacaqsan deyə bir şey yoxdur. Münafiq gizli bir məxluqdur, bilinmir. Hz. Lut (ə.s)-ın da onun dinsiz, imansız, əxlaqsız, alçaq olduğunu bilsəydi onunla heç evlənərdi? Allah bilir necə bir münafiq üslubu ilə davranmışdır, özünü övliya kimi göstərmişdir. Allahdan, dindən bəhs edərək, namaz qılaraq "mən belə namusluyam, belə yaxşıyam, belə mədəniyyətliyəm, sənə belə sadiqəm, belə bağlıyam" deyə danışmışdır. O da Peyğəmbər olduğuna görə hüsni-zənn etmişdir, evlənmişdir, münafiq olduğunu haradan bilsin, elə deyilmi? Bunu bilmək üçün vəhy lazım idi, bu olmadan bilməz. Sonra qadının psixliyi üzə çıxdı, Allah da bəlasını verdi.

**...Münafiq açıq şəkildə çox rahat hərəkət edə bilirlər.** Məsələn, xaraktersiz insanlar da, əgər açıq şəkildə bilinməzsə çox rahat hərəkət edə bilirlər. O açıq şəkildə başa düşüləndən sonra çox utanarlar. **Lakin münafiqlər utanmazlar. Münafiqin abır-həyası**

**olmaz.** Ürəyində xəstəlik olan utanır, yəni, həqiqətən, o utana bilir. Yenə xəstə olduğuna görə bir yol axtarar, davam edər, lakin münafiq utanmaz.

## 21-Cİ SÖHBƏT

## 22 AVQUST, 2010-CU İL, KANAL AVROPA

**ADNAN OKTAR:** Hz. Mehdi (ə.s)-ın dövründə, hz. Mehdi (ə.s)-ın məşğul olacağı ancaq darvinizmdən, materializmdən, küfrdən və dəlalətdən ibarət deyil, eyni zamanda münafiqlərlə mübarizə aparacaq. Münafiqlərin hz. Mehdi (ə.s) barədə ən çox narahat olduğu mövzu nədir, bilirsinizmi? "Niyə hz. Mehdi (ə.s) İslam əxlaqını dünyaya hakim etmək istəyir? Öz işi ilə məşğul olsun, hakimiyyət nəyə lazımdır? Niyə İslam Birliyini istəyir? Niyə Türk-İslam Birliyini istəyirsən? Biz evdə otururuq, sən də otur. Get işinlə, gücünlə məşğul ol" deyəcəklər. Münafiqin ən həssas yanaşdığı mövzu cihaddır. Diqqət yetirin, cihad bir-birini vurmaq, öldürmək deyil, o ayrı məsələdir. Qətl deyil, adam öldürmək deyil. Cihad etmək - cəhd göstərmək, dini yaymaqdır. **İslamı təbliğ etmək, dini yaymaq münafiqin ən narahat olduğu məsələdir.** Bir az təzyiq göstərsən bir neçə kitab paylayar, bir qədər təbliğ edər. Amma digər mövzularda, məsələn, münafiqə “gəlin bir namaz qılaq” desən, gələr, çünki namaz qılmaqla bir şey itirməyəcəyini fikirləşər. “Oruc tut” desən, əgər başının üstündə dursan, yanında olsan oruc da tutar.Yanında heç kim olmasa gedər gizli-gizli yeyər, yenə orucuna davam edər. Bunlar münafiqin xüsusiyyətidir, görünmədiyi yerdə yeyər... Namazda da, yəni əgər göz qabağında olsa namazını mükəmməl şəkildə qılar. Təkkəsi ilə, hətta sarığı ilə belə sünnətlərə də əməl edər, tam itaətkarlıqla namazını qılar. Duanı tam mükəmməl formada edər, amma görməsən etməz. Münafiqin belə bir dünyası vardır. Ona görə ən zəif nöqtəsi də budur, müsəlmanlıqla əlaqədar digər mövzularda o qədər həssas yanaşmaz. Məsələn, “gəl bir iş gör, buranı təmizlə və s.” desən dərhal edər, yük də daşıyar.

**OKTAR BABUNA:** Hətta çox işgüzar da ola bilərlər, demişdiniz.

**ADNAN OKTAR:** İşləyər, hər işi görər. Ancaq cihaddan narahat olar, cihaddan, yəni dinin yayılmağından narahat olar. Dini istəmədiyinə görə, təməlli olaraq bir də dünyaya hakim olmağını heç istəməz. Onsuz da din içində yaşamaq istəməz, əslində dindən xilas olmaq istəyər. **Cihad-İslam əxlaqının dünyaya, hər yerə hakim olmağı deməkdir. İslam əxlaqı dünyaya hakim olanda münafiq üçün cəhənnəm kimi olacaq. Bunu heç vaxt istəməz.** Ona görə cihad etmək barəsində narahat olarlar. Əgər diqqət etsəniz Quranda münafiqlərin: "niyə yemək yemirik? Niyə məni işlədirsiniz?" dediyini görməzsiniz. Münafiqlər bu barədə heç danışmazlar. Münafiq qatır kimidir, onlara istədiyin işi gördürmək olar. Amma cihad etmək onları narahat edər, ən zəif nöqtəsi budur. **Münafiqin yeganə edə bilmədiyi iş ömrünü Allaha həsr etmək, Allah yolunda mübarizə**

**etmək, cihad etməkdir.** Digər mövzularda nə istəsən edər. İllərlə Peyğəmbərimiz (s.ə.v)-in yanında qalırdılar. Diqqət edin, görün Quranda nə deyir: "Bu istidə yemək yeməzlər, bu istidə yük, zibil daşımazlar, ev silib təmizləməzlər, ticarət etməzlər, işə gedilməz"-demir. Nə deyir?: "Bu istidə cihad edilməz" deyir. Çünki münafiqin ən həssas nöqtəsi budur. Həmişə bundan xilas olmaq istəyər. Quran, bunların ən əsas xüsusiyyətlərini açıqlayır. Allah Quranda təfərrüata girmir, əsas qaynaqları bildirir. Məsələn, başqa bir münafiq: "Mən əgər cəhd etməyi bilsəydim, sizinlə gələrdim” deyir. Əgər onlardan: "sən ticarəti bilərsənmi?”-soruşsan-“çox yaxşı bilirəm" deyər. "İş görə bilərsənmi? Onu da edərəm" deyər. "Pul qazanmağı bilirsənmi? Daş daşıyarsanmı?"-desən- "pul qazanmağı bilirəm, daş daşımağı da bilirəm" deyər. Yəni ağlına gələn hər işi görə bildiyini deyər. "Yeganə bacarmadığın iş nədir?"-soruşanda-"cihad edə bilmərəm, yəni bu işi bacarmaram. Onu siz edin, mən də başqa nə iş istəyirsinizsə onu edim. Mən bu işə girişməyim, xahiş edirəm" deyər.

Ən zəif nöqtələri budur. Tarixdəki münafiqlərə baxanda, bir də hal-hazırda yaşayan münafiqlərə baxıram, məsələn, münafiq olduğundan şübhələndiyim tiplər var, onlara baxdım gördüm ki, facebookda özlərinə yer ayırmışlar. Dedim, qoy diqqətlə baxım, görüm bunlar nə edirlər burada. Gördüm ki, barda içki içərkən, əylənərkən şəkilləri var, cütləşib bir yerdə hoppanırlar və s. hamısı var. Xoşbəxt adamlar kimi, murdar-murdar dişlərini ağardıb şəkil çəkdiriblər, amma dişlərini ağartmaları xoş gəlmir, yəni gülməsəyərək dişini ağartmaq deyil. Elə bil, xoşbəxtlik əsəri çəkməyə çalışmışdır, alovlanıb yanaraq görünür. Dedim baxım görüm nə yazıblar görəsən, səhifələrinə baxdım, gördüm ki, bir dəfə də olsun Allahdan bəhs etmirlər, Allahın adını çəkmirlər. Vay zalımlar vay. Kafir belə Allahdan bəhs edər. Elə deyilmi? Məsələn, haşa: "Allaha inanmıram" deyir. Yəni heç olmazsa Allah sözünü dilinə gətirir, elə deyilmi? Bunlar isə heç bəhs etməzlər. Məsələn, o birilərinə baxıram görürəm ki, orada da Allahdan bəhs etməzlər. “İnşaAllah, MaşaAllah”—deyə bilmir. Allahın heç xatırlanmamasını istəyərlər, bu böyük məna kəsb edir. Amma əsl müsəlman olanlar edir. Məsələn, övliya kimi əzbərdən ayələr, şeyxlərdən bəhs olunan hekayələr, hədisi şəriflərdən rəvayətlər danışar. Qurana diqqətlə baxanda, yeganə bağlandıqları nöqtənin cəhd olduğunu görürük. Burada qorxunc bir əzab çəkərlər. Ona görə, məsələn, belə deyərlər: "Belə münafiq olar, baxın görün müsəlmanların yanında xidmət edir. Daş desən daşıyır, zibil desən daşıyır. İş görür, bütün gəncliyini işə həsr edir". Əlbəttə münafiq iş görər. Çalışar, başqa işləri də edər. Amma cihad etməz. Özünü göstərmək üçün yalandan bir iki dənə iş görər. Məsələn, gedər bir neçə dənə kitab paylayar, bir neçə söz deyər. Nəzəri cəlb etməsin deyə bir-iki kiçik işlər görər. Amma onda da əzab çəkər, yəni bir kitab hədiyyə etmək bir münafiq üçün nə deməkdir bilirsinizmi? Əlini, qolunu qopartsan o qədər əzab çəkməz. Çox əziyyət çəkər. Xoşlamadığı işdir. Fikirləşər ki, birdən o kitabı oxuyan dini yayar və onun yaşaya bilməyəcəyi bir vəziyyət yaranar. Haşa, münafiq bu

ağıldadır. **Ona görə münafiqi təyin etmək istəyən hadisəyə bu yöndən baxsın. Münafiqlər müsəlmanlara on il, iyirmi il xidmət edə bilər, köməkçi ola bilər. Amma cihad etməkdən şiddətlə qaçarlar.** Müsəlmanların birləşməyindən və birlik olmasından çox narahat olarlar, həmişə müsəlmanların parçalanmağını istəyərlər. Amma ən əsas qorxduğu şey cihad etməkdir. Çünki Quranda Allah ayələrində bunu açıq-aşkar göstərir. Həmişə cihad etməkdən uzaq durarlar.

**OKTAR BABUNA:** Sizin açıqladığınız bir ayə var necə qaçdıqlarına aid, oxuyuram onu, inşaAllah. Şeytandan Allaha sığınıram: **"Onlar dedilər: "Ey Musa! Nə qədər ki, onlar oradadırlar, biz ora heç vaxt girməyəcəyik. Odur ki, sən və sənin Rəbbin gedin, onlarla vuruşun. Biz isə burada oturacağıq"". (Maidə surəsi, 24)**

**ADNAN OKTAR:** Görürsünüzmü?. Məsələn, büt düzəldəndə, bütə xeyli pul lazım olur, münafiqlər qızıllarını, bilərziklərini hamısını çıxarır verir, baxmayaraq ki, qızıl münafiq üçün çox qiymətlidir. "Qardaşım, ərit, bizə belə bir büt düzəlt" deyirlər. Edəcəyi rüsvayçılığa tərəf yönələr. Gedib qarşısında əyilib-büzülər, amma: "mənə Allahdan, cihaddan bəhs etmə" deyər. "Gedin siz mübarizə aparın, amma məni heç vaxt bu cihada yaxın buraxmayın" deyir. Həm də müsəlmanların cihad edəcəyini bildiyinə görə, cihad etməyin təhlükəli olduğunu fikirləşir və it kimi uzaqdan seyr edər. Ara sakitləşəndə, it nə edər qulaqlarını yelləyərək qaçar yeməyə gələr, münafiq də elədir, amma bir səs-küy eşidən kimi ortadan itər. **Münafiq səs-küyə heç vaxt gəlməz. Rahatlığını istəyər, aman kefi qaçmasın. Münafiq birdən həbs olunar, həbsə atılar, söz-söhbət, dedi-qodu olar, yəni adına-sanına bir xələl gələr, kefini qaçıran bir şey olar deyə cihad etməkdən qaçar.** Ona görə həmişə özünə bir yer tapar, donuzun murdar yerində yaşayar, gənə kimi yapışar, orada onun qanını sovurar, orada yaşayar və uzaqdan da müsəlmanların xəbərlərini eşidər. Münafiq normal halda müsəlmanı izləməməlidir, elə deyilmi? Münafiq qaçandan sonra, gedib küfrlə bir yerdə olmalıdır. Məntiqlə elə olmalıdır, çünki Allaha qarşı düşməndir. Allaha qarşı olan adamlarla birlikdə olmalıdır. Küfrə də getmir. Müsəlmanlarla heç maraqlanmamalıdır. Uzaqdan müsəlmanların xəbərlərini izləyərlər. Allah bu hissi məhz ona məxsus olaraq vermiş, mütləq bunu etməlidir. Bundan heç cür xilas ola bilməz, mütləq güdməlidir. Bu çox heyrətləndiricidir. Qanındadır elə bil, mütləq ki, güdməlidir. Xəbərləri eşidər "görəsən nə var, işləri necə gedir"—deyə maraqlanarlar. Ömrü boyu güdərlər, amma heç vaxt bu xasiyyətlərindən əl çəkməzlər. "Ürəkləri parçalanana kimi əl çəkməzlər" deyir Allah.

**OKTAR BABUNA:** Bu dediyiniz ayəni oxuyuram, inşaAllah. Şeytandan Allaha sığınaram: **"Münafiqlər müttəfiqlərin çıxıb getmədiklərini güman edirlər. Əgər müttəfiqlər bir də gəlmiş olsaydı, onlar bədəvilər arasında köçəri həyat sürüb**

**barənizdəki xəbərləri soruşub öyrənmək istəyərdilər. Hərçənd aranızda olsaydılar, çox az döyüşərdilər." (Əhzab surəsi, 20)**

**ADNAN OKTAR:** Yenə cihaddan bəhs edilir, görürsünüzmü? "İş görməzlər, ticarət etməzdilər"-demir Allah-"cihad etməzlər, dini yaymazlar" deyir. Ən həssas olduqları mövzu budur, Quranda hara baxsanız, buna aid ayələrlə qarşılaşarsınız. **Həmişə müsəlmanları izləməkləri bir möcüzədir, yəni xilas ola bilməyəcəyi bir maqnit kimidir** və bütün ömrü boyu müsəlmanlara və İslama qarşı mübarizə aparmalı olduğuna dair içində hiss olar, bundan da heç cür xilas ola bilməz. Ağlasığmaz bir kin bəsləyər. **Məsələn, Axırzaman münafiqlərinin ən çox kin bəslədikləri insan hz. Mehdi (ə.s)-dır. Müsəlmanların da ən sevdiyi insan hz. Mehdi (ə.s)-dır. İblis dəstəsinin ən nifrət etdiyi insan hz. Mehdi (ə.s)-dır, Rəhman tərəfdarlarının ən sevdiyi insan hz. Mehdi (ə.s)-dır.**

Rəsulullah (s.ə.v) dövründə də, möminlər Peyğəmbərimiz (s.ə.v)-ə aşiq idilər. Məsələn, hz. Əbubəkr (r.ə) Peyğəmbərimiz (s.ə.v)-i görən kimi gözləri dolardı, aşiqi idi. "Ya Rəsulullah sən necə də gözəlsən!" deyirdi. Yəni sevgisini ifadə edə bilmədiyinə görə nə edəcəyini bilmir. Həmişə onu tərfiləyir. Elə bil zəhmindən işıq saçır. Məsələn, Əbu Cəhl, Rəsulullah (s.ə.v)-i görəndə, "Ya Əbu Qasım sən nə qədər çirkin insansan" deyir. Peyğəmbərimiz (s.ə.v) də ona: "düz deyirsən" deyir. Hz. Əbubəkr (r.ə) də: "dünyanın ən gözəl insanı sənsən, həddindən artıq gözəlsən" deyir. Allahın nuru, işığı, sən də düz deyirsən" deyir. Səhabələr soruşurlar: "Ya Rəsulullah! Ona da düz danışırsan deyirsən, sən düz bir insansan, yalan danışmazsan, ikisinə də düz danışırsan deyirsən" deyirlər. Rəsulullah da: "Mən bir aynayam. Allahın aynasıyam, mənə baxan adam özünü görər. Nəyə baxırsa onu görər" deyir. **Münafiqin ruhu qapqaradır, yəni xəstədir, manyakdır, psixdir.** Məsələn, münafiq qadın düşmənidir. Münafiq gözəlliyi xoşlamaz. Yalnız mənfəət, yemək və təhlükəsizlik güdərlər, yəni it kimidirlər. Məsələn, it üçün gözəllik heç bir məna kəsb etməz, yalnız sığınacaq bir yer axtarar, yemək axtarar və özünü təhlükəsizlikdə hiss etmək və yaşamaq istəyər, it çox yaşamaq istəyər. Başqa bir şey istəməzlər. Bir də həmişə riski gözləyər. Qulağını tıxayar, olub-keçənə uzaqdan baxar. Ayədə deyildiyi kimi: **"...onu qovsan da dilini çıxardıb ləhləyər, qovmasan da..." (Əraf surəsi, 176).**

**OKTAR BABUNA:** Şeytandan Allaha sığınıram; **"Biz istəsəydik, bunun (həmin ayələrin) sayəsində onu ucaldardıq. Lakin o, dünyaya meyl saldı və öz istəyinə uydu. Onun məsəli itin məsəlinə bən-zəyir; onu qovsan da dilini çıxardıb ləhləyər, qovmasan da. Ayələrimizi yalan hesab edənlərin məsəli belədir. Bu əhvalatları (onlara) danış ki, bəlkə fikirləşələr." (Əraf surəsi, 176)**

**ADNAN OKTAR:** Münafiqlə dialoq qurmaq da mümkün deyil, Quran ona diqqət çəkir. Manyak kimidir. İzah edirsən axmaq-axmaq sifətinə baxar. Elə bil onunla danışmırsan, izah etmirsən. **Ağlasığmaz məntiq pozğunluqları vardır. Quranı, hədisi çox araşdırarlar. Münafiqlər Quran haqqında, hədislər haqqında böyük məlumata sahib olarlar, lakin öz sistemini qurtara biləcəyi şəkildə hərəkət edər. Cihad etməkdən, təbliğdən necə xilas olacağı üçün, necə rahat yaşayacağı üçün və müsəlmanlara necə hücum edəcəyi üçün istifadə edər.** Məsələn, münafiqlər Peyğəmbərimiz (s.ə.v)-ə qarşı ağlasığmaz dərəcədə kin bəsləyirdilər. Lakin özünü çox günahsız göstərərlər. **Məsumluq örtüyünə bürünər, elə bir maska taxar.** Baxanda tərtəmiz adam kimi görünər. Məsələn, Drar məscidini düzəldirdilər, çox böyük bir məscid idi. "Ya Rəsulullah! Bizim sənə bir müjdəmiz var" deyirdilər. "Biz gözəl bir məscid qurduq, siz də Drar məscidinə təşrif buyurun" deyirdilər. Halbuki, namərdlər Peyğəmbər (s.ə.v)-ə sui-qəsd etmək üçün oranı silahla doldurmuşdular. Peyğəmbərimiz (s.ə.v)-ə sui-qəsd hazırlayırdılar. Hətta öz aralarında məscidi tərifləyirdilər. "Bura qadın, uşaq filan da gəlmir" deyirdilər. Çünki Rəsulullah (s.ə.v)-in məscidinə xanımlar da, uşaqlar da gəlirdilər. Hətta zarafatlaşırdılar, məscidin içərisində o tərəfə, bu tərəfə qaçırdılar. Belə şeylər onların ağır, əzəmətli, eqoist quruluşlarına ziddir. Münafiq uşaqları heç sevməz, onlara nifrət edər. **Münafiqin ən zəhləsi getdiyi şey qadın və uşaqlardır, onları heç xoşlamazlar.** Bu cür ağır eqoistlik, münafiqin heç cür əl  çəkə bilmədiyi bir istəkdir. Münafiq özünü böyük sayar. Özünü nə qədər böyük saydığını bilirsinizmi? Özünü haşa, Allahdan da böyük sayar. Bunu ancaq öz-özünə və öz aralarında deyərlər. Müsəlmana deməzlər. Müsəlmana yalnız, əgər Peyğəmbərimiz (s.ə.v)-in dövründə yaşayırsa, özünün Peyğəmbərimiz (s.ə.v)-dən daha üstün olduğunu deyərlər. Məsələn: "Mən qadınlardan uzaq dururam. Mən nəfsinə, istəklərinə hakim olan bir insanam. Rəsulullah (s.ə.v) isə, bir çox qadınla evlidir, bir çox cariyələri var. Axşam xanımları ilə birlikdə olur. Hz. Həsən (r.ə), hz. Hüseyn (r.ə) onun yetişdirdiyi kəslərin də qadınlara qarşı böyük istəkləri var. Onlar da bir çox qadınla evləndi. Amma biz övliyayıq. Mən heç öz həyat yoldaşımla da əlaqədə olmuram. Yoldaşımdan uzaq dayanıram. Çünki özümü bütünlüklə Allaha təslim etmişəm. Həya edirəm" deyirdilər. Buna görə Peyğəmbərimiz (s.ə.v)-i ən çox bu nöqtədən, haşa, çətinə salacaqlarını zənn edirlər, bu yolla xanımlarına və ona hücum etmək istəyirdilər. Quranda buna aid bir çox cavablar vardır. Hətta xanımlarından bəzilərinin də bir vaxtlar, o münafiqlərin təzyiqindən Peyğəmbərimiz (s.ə.v)-ə qarşı rəftarlarını dəyişirlər. Allah: **"Əgər Allahı, Rəsulunu və Allah yolunda mübarizə aparmaq istəyirsinizsə gəlin mənimlə davam edin. Əgər nəfsinizin arzu və istəklərini istəyirsinizsə gəlin sizi gözəlliklə buraxım"** deyir. Bu, bir qadın üçün nə böyük fəlakətdir, Allah göstərməsin. Bax Allah bunu onlara xitab edərək deyir, fövqəladə bir vəziyyət yaranmışdır. Münafiqlər Peyğəmbər (s.ə.v)-i bu cür narahat edirdilər. Ona görə Allah ayədə: "Peyğəmbərə əziyyət verirsiniz, onu narahat edirsiniz" deyir. "Peyğəmbəri narahat etməyin, xanımlarının təhlükəsizliyi üçün pərdə arxasından danışsınlar. Xanımlarına da, sözü ədalı deməsin.

Qəlbində xəstəlik olanlar tamah edərlər”-deyir Allah. Bunlar necə bir insandır? Onlar bizim anamızdır, adam belə yerlərdə ikiqat olar, (yerə) torpağa baxar, inşaAllah. Allah bilir necə bir mühit olub ki, Allah pərdə çəkdirir və "sözü ədalı söyləməyin" deyir, xanımlarını da xəbərdar edir. "Və ondan sonra xanımlarını almaq sizə haramdır. Onlar sizin analarınızdır" deyir Allah. Peyğəmbərimiz (s.ə.v)-in dövrü çox çətin idi, oradakı insanlarla çox çətin anlar yaşadı. **Peyğəmbərimiz (s.ə.v) həm cahillərdən, həm də münafiqlərdən müxtəlif təzyiqlər gördü.**

## 22-Cİ SÖHBƏT

## 23 AVQUST, 2010-CU İL HARUNYAHYA.TV

**ADNAN OKTAR:** Sən indi zənn edirsən ki, biz izah edirik münafiq dinləyər və çox təsirlənər... Münafiq onsuz da heç maraqlanmaz, təsirlənməz. Münafiqi yalnız hirsləndirər. Münafiqlə əlaqədar olan ayələr yalnız müsəlmanlara təsir edir. "Aman Allah, Allah əsirgəsin, belə olmayım"-deyir və Allaha sığınır.

**Münafiqi ən dəqiq cihada çağırmaqla təyin etmək olar. Əgər Qurana baxsaq bunun nə qədər heyrətamiz olduğunu və bu mövzunun həmişə burada düyünləndiyini görərik. Cihad onların ən həssas olduqları mövzudur**. Məsələn, münafiqlər eləcə də müşriklər həccə gedərlər bundan çəkinməzlər. Namaz da qılarlar, oruc da tutarlar, zəkat da verərlər, amma bunu əziyyət çəkərək edərlər, ən acı çəkdiyi hadisə budur. Allah ayədə: **"mallarınızla və canlarınızla cihad edin"**-deyir. Məhz bu ayə onları ən çox yandırıb-yaxan ayədir, çünki malı ilə, canı ilə cihad etməkdən bəhs edilir. Yoxsa münafiq digər bütün ibadətləri yerinə yetirər, qarşı çıxmaz.

**OKTAR BABUNA: "Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular və: "Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin? Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" dedilər". (Nisa surəsi, 77)**

**ADNAN OKTAR:** Gördüyünüz kimi, hansı ayəyə baxsaq mövzunun bağlandığını görərik. Ayəni hissə-hissə oxu!

**OKTAR BABUNA: "Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular".**

**ADNAN OKTAR:** Bax, Allah insanlardan qorxmaqlarını deyir. İndi diqqət edin, Allahdan qorxan kimi, hətta daha da çox insanlara bağlanarlar. Çox möhkəm bağlanarlar. Adamlıq dininin mənşəyi budur, onlar: "millət nə deyər?" məntiqinə uyğun olaraq birbaşa insanlara görə hərəkət edərlər. Məsələn, məktəbə gedər. "Niyə gedirsən?"-soruşsan- "ətrafdakılar nə deyər, insanlar, oxuyan adam desinlər" deyir. "Niyə avtomobil alırsan?"-soruşsan-"Desinlər ki, maşını var"-deyirlər. Həmişə xalqın arasında "desinlər..." fikri ilə hərəkət edərlər, münafiqin əsas dərdi budur. Münafiq insanları ilahlaşdırar. Hər şeyi insana görə, onlardan gələcək mənfəətə görə qiymətləndirər. İnsana pul gətirən bir

varlıq kimi baxar, sağlamlığını insanlardan gəldiyini, yeməyin insanlardan gəldiyini fikirləşər... Hamısını insanlara bağladığı üçün insanları bütləşdirər. Yığıncaqlarda filan insanları bütləşdirdiyi üçün insanların bir qismi iflic olarlar. Əli ayağına dolaşar, nə danışacağını bilməz, sanki onları yaradan Allah deyilmiş, haşa. Halbuki, Allah insan görünüşlərini beynində yaradır. Var olan Allahdır, bir də təcəllilәri. Adam bunu unudar. İnsanları ilahlaşdırar, o görüntüləri ilahlaşdırar, Allahı unudar. Bunlar münafiqin xüsusiyyətidir. O yalnız görünüşə bağlanar, ona görə də hərəkət edər. Ən qorxduğu şey də canıdır, canı çox qiymətlidir, yorulmaq, risk etmək, təhlükəyə salmaq və s. bu cür şeylərdən çox şiddətlə çəkinər. Ona görə də: **"Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!"** deyərək təxirə salmaq istəyərlər. Həmişə təxirə salmaq istəyərlər. Məhz cihad etməyi təxirə salar, yoxsa iş görməkdən qorxmaz, necə lazımdırsa işləyər.

Allah ayədə: **"Onlar ticarət və ya əyləncə gördükləri zaman dağılışıb ona tərəf qaçdılar və səni minbərdə ayaq üstə olduğun halda tərk etdilər".** Məsələn: "...bir ticarət", yəni bir az qazanc əldə etmək bu anormal bir hərəkətdir. Gənə kimi gedər donuzun ən murdar yerinə yapışar. Gənəyə "Nə istəyirsən?" desən "qan sovurmaq istəyirəm" deyər. Belə murdar bir yerdə niyə yaşadığını soruşarsan, "sovurmağa qan var, ona görə burada yaşayıram" deyər. Onun yeganə məqsədi budur, ticarəti də odur. Ən murdar şəraitdə, ən pis yerdə belə, o, oradan bir şeylər qazanmaq istəyər. Allah **"...Ya da bir əyləncə"** deyir. Məsələn, diskotekaya gedər, dağıdar, əylənər, narkotik istifadə edər. **"...Səni minbərdə ayaq üstə olduğun halda tərk etdilər**" deyir Allah. Yəni cəhd etməyi, təbliği, Allah yolunda mübarizə aparmağı tərk edirlər. "Tərk etmək" münafiqin xüsusiyyətidir, həmişə qaçar və riyakarlıq edər. "Niyə qaçırsan?"-soruşsan-"ticarət var, mənfəət var, əyləncə var, ona görə qaçıram", deyər. "Burada niyə dayanmırsan?"-soruşsan-"orada təhlükə var, ölüm var, hücum edərlər, təhqir edərlər"-deyər. "Bəs cəhənnəmdə nə edəcəksən, orada da sonsuza qədər qalacaqsan?"-soruşanda da-"onsuz da cəhənnəmə inanmıram ki" deyər. "Cəhənnəmin olub-olmaması məlumdur?"-deyir. Allah da: **"bir az gözləsinlər"**-deyir, çox az bir müddət-**"Kürəklərinə vurularaq canları alınanda**" başa düşərlər.

**"Yer üzündə fitnə-fəsad çıxararlar"** deyir Allah, bu da məsələn, münafiqin xüsusiyyətidir.

**"... Sizi acı dilləri ilə (tənqid edib incidərək) qarşılayarlar"**-buyurur Allah. Münafiq zəhərli dili ilə tənqid edib incitmək üçün Quranı və hədisi istifadə edər. Öz ağlına görə bu yolla müsəlmanın zəif nöqtəsini axtarar. "Mən buna haradan hücum edə bilərəm?"—deyə düşünər. Müsəlman da Qurana qarşı, hədislərə qarşı, Peyğəmbərimiz (s.ə.v)-ə qarşı həssas davranar. Ona görə də münafiq müsəlmanın vicdana təzyiq göstərmək üçün mütləq Qurandan, hədisdən istifadə edər. Əgər müsəlman dərin bir məlumata sahib deyilsə, münafiqin təsiri altına düşə bilər, özünü günahkar hesab edər və yaxud bu yolla müsəlmanları özünə tərəf çəkə bilər. Çünki münafiqin bir xüsusiyyəti də odur, həm dağıtmaq, həm də dağıtmamaq istəyər, tərəddüd içində qalar.

**"...Lakin Allah yolunda əziyyət çəkərkən insanların (ona qarşı yönəltdikləri işgəncə) fitnəsini Allahın əzabı kimi qəbul edər".** Məsələn, həbs olunmaqdan, tutulmaqdan yaxud təhqir edilməkdən və ya təzyiqdən çox qorxar, bunları eşidəndə əsəbləşər. Tutulsa: "Mən, Allah yolunda mübarizə aparıram, lakin Allah məni həbsə atdı. Allah yolunda mübarizə aparıram, amma Allah insanları mənə hücum etdirdi" deyər. Haşa. "Buna görə Allaha inanmıram" deyər. **İmtahanın sirri də buradadır. Mömin burada Allaha sarıldığına görə cənnəti qazanar. Münafiq də nəfsinə sarıldığına görə cəhənnəmi qazanar, bu da onların əyləncəsi olar.**

**"İman edənlərlə qarşılaşdıqları zaman: "İman etdik"** deyərlər. Əlbəttə ki, tək elə **"iman etdik"** deməklə iş qurtarmır. Bəzilərinin başında sarığı, əlində təsbehi olar. Cibindən təsbehini çıxarar. Başında sarığı, hətta yanında misvakı, gümüş əqiq daşlı üzüyü, hər şeyi yerli-yerində olar. **Nəyi əskikdir bilirsinizmi? Cihad etməyi və zəkat verməyi, yəni Allah yolunda pul xərcləməsi əskikdir. Sırf bu iki şeyi münafiqdən istəmək olmur.** Əgər münafiqdən bu iki şeyi istəməsən, onunla bir yerdə qalmaq olar, problem çıxartmaz. **Bir cihad etməz, Allahın dinini yaymaz, bir də malını, mülkünü, pulunu Allah yolunda sədəqə verməz.** Əgər bunları münafiqlərdən tələb etməsən problem yaranmaz, çünki münafiq eşşək kimi işləyər, donuz kimidir. Tarlaya buraxıb eşşək kimi işlədə biləsən, eşşək kimidirlər. "Haydı cəhd edin"-deyəndə-"aman, aman"-deyib hoppanar-düşər. Ruhu buna qarşı reaksiyaya girər, qəbul etməz. Çünki canını çox sevir, canı şirindir.

**"İman edənlərlə qarşılaşdıqları zaman: "İman etdik" deyərlər. "**Yəni müsəlmanlarla qarşılaşanda namaz qılar, oruc tutar, həccə gedər. Həccə gəzmək yeri kimi baxarlar.

**"Şeytanları ilə baş-başa qaldıqlarında isə"** yəni tək qalanda yaxud özləri kimi fırıldaq münafiqlərlə olanda **"Şübhəsiz, sizinlə bərabərik. Biz (onlarla) yalnız lağ edirik" deyərlər".**

Başqa bir yoldaşı "sən onunla Quranla danışdın" deyir. "Bəs nə edim? Əlbəttə ki, onlar başqa yolla anlamazlar, Quranla danışacağam, onlar yalnız Qurana inanar" deyir. "Qurana nə ehtiyac var idi?" deyir. "Elə bil başqa cür yol var, varsa mənə de" deyir. Haşa, Allah bağışlasın, onların üslubuna görə. **Ona görə münafiqin Qurandan ayə deməyinə, hədis danışmağına aldanmaq olmaz.** Onları ancaq cihaddan çəkinməkdən tanımaq olar. Yəni qarışdırmamaq üçün həmişə bu ölçünü nəzərdə tutmaq lazımdır.

**"Bəs münafiq olanlar və ürəklərində xəstəlik olanlar: "Allah və Elçisi, bizə yalandan başqa bir şey vəd etmədi" deyirdilər".** İndi hz. Mehdi (ə.s) Axırzamanda çıxıb nə deyəcək? "Hz. Mehdi (ə.s) çıxacaq, İsa (ə.s) zühur edəcək və İslam əxlaqı dünyaya hakim olacaqdır" deyəcək. On il keçər, çıxmaz, iyirmi il keçər çıxmaz, otuz il keçər çıxmaz. "Ömrümüz nə qədərdir ki? Bezdim" deyər. Yəni arxasınca deyər. Ayədə (ayə təxminən belə tərcümə olunur): "qısa bir vaxt ərzində dərhal nəticə alacaqlarını bilsələr sizinlə birlikdə

gələrdilər"—deyə bildirir Allah. Allah “amma gediləcək yol onlara uzun gəldi" deyir. Allah da onları uzun müddətlə sınayar. Bu imtahanın xüsusiyyətidir, məsələn, hz. Musa (ə.s)-ı 40 il səhrada gəzdirmişdir, hz. Şuayb (ə.s) qızlarını evləndirmək üçün də 8 il gəzmişdir. "Əgər 8 ili 10 ilə uzadıb tamamlasan o da səndəndir" deyir. 10 il çox uzun bir müddətdir.

**"Münafiqlər və ürəklərində xəstəlik olanlar: "Allah və Elçisi, bizə yalandan başqa bir şey vəd etmədi" deyirdilər".** Məsələn, vaxt gələcək onlar: "bu Mehdi deyil, yalanmış, boş yerə bizi aldatdı" deyəcək. Belə hallar hətta hz. Mehdi (ə.s) cəmiyyətində də olacaq. "Sən bizə İslam əxlaqının hakimiyyəti olacaq"-dedin- "amma 10 il keçdi, olmadı, 20 il keçdi, olmadı. 30 il keçdi, olmadı. Sən bizi bir yalanla aldatdın" deyəcəklər. Çünki adam sərmayə qoyarkən iki yatırmışdırsa, on götürəcəyini fikirləşir. Çünki gəncliyini, vaxtını həsr etmiş, amma sonda çox böyük bir nəticə, mehdiliklə bol qazanc, bol pul, rahatlıq, etibar qazanacağını zənn edirdi. Halbuki, mehdiyyətin nəicəsində belə bir şey olmaz. Mehdi tələbələri sonda da yenə təvazökar, sadə yaşayacaqlar, yəni onun yatırtdığı pulun əvəzinə yüz misli qarşısına çıxmaz. Əlində pulu qalıbsa hz. Mehdi (ə.s)-a biat edəndən sonra onlar da gedər. Gəncliyinin çox hissəsini həsr edibsə qalan hissəsini də verəcək. Çünki Allah rizası üçün yola çıxmışdır. Mehdiyyətdə pul sərmayə qoymaq və əvəzində qat-qat artığını götürmək olmaz. Ona görə sərmayə qoyan axmaq münafiqlər bir müddət keçəndən sonra: "Biz axmaq olmuşuq, gör nə etmişik biz" deyir. "20 ilimizi verdik, pul verdik, imkan verdik, bu hz. Mehdi (ə.s) isə çıxmadı, İslam əxlaqı da hakim olmadı. “Vay halımıza, aldanmışıq”. Allah ayədə: **"münafiqlər: “yapışacaq yeriniz qalmadı, dönün artıq” deyərlər".** Allah onları ən zəif yerindən tutur, münafiqlər uzun müddət dözə bilməz. Münafiqlərin zəif nöqtələrindən biri də müddətdir. Quran buna işarə edir. Allah açıq-aşkar: "gediləcək yol onlara uzun gəldi, qısa olsaydı arxanızca gələrdilər, bir qazanc əldə etsəydik" deyir. Münafiq tələskəndir, dərhal qazanc yeri axtarır. **Halbuki, möminlər elə deyil, Allahın razılığını axtarın deyər və axirətə görə hərəkət edər, Allah rizasına görə hərəkət edər. Onun mükafatı Allahın razılığı olar, başqa bir şey istəməz. Amma münafiq məhz mal-pul, imkan, saraylar və s. istədiyinə görə sıxılar, darıxar.** Əsl sürprizləri isə İslam əxlaqı hakim olanda olacaq. Onlar: "Biz İslam əxlaqını dünyaya hakim etdik, sən də hər halda Mehdisən" deyəcəklər. "İndi isə artıq saraylar, əyləncələr qarşımıza çıxsın" deyəcəklər. Hz. Mehdi (ə.s) isə: "Axmaqlıq etməyin. Allah rizası üçün hərəkət etdiyinə görə, sən yalnız Allahın razılığını istəməlisən. Belə münafiq danışığından, üslubundan istifadə etmə. Buna görə sənin bundan bir maddi qazancın ola bilməz, maddi bir mənfəət güdə bilməzsən" deyəcək. İnşaAllah.

## 23-CÜ SÖHBƏT
## 2 SENTYABR, 2010-CU İL, HARUNYAHYA.TV

**ADNAN OKTAR:** Münafiq şüuraltında münafiq olduğunu bilər, amma instinktiv olaraq bilməz. Özünü o cəhətə istiqamətləndirər. Hətta əksinə çox dürüst insan olduğuna, çox namuslu olduğuna, namusunu qoruduğuna, insanları düz yola dəvət etdiyinə, islah etdiyinə, muslih olduğuna (yəni düz adam olduğuna) inanar. Ayədə deyildiyi kimi: "biz islah edənlərik" deyir. O ağılda olarlar. Amma çox fırıldaq və saxtakardırlar, lakin bunu ətrafdakılara büruzə vermədiklərinə görə münafiq deyilir. O, yalnız çox diqqətli baxışla, dərin məntiqlə təyin edilə bilər, Allahın istəyi ilə.

Məsələn, Tövbə surəsi, 54-cü ayədə belə buyrulur: **"Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allaha və Onun Elçisinə küfr edir".** Yəni bunlar infaq edər, amma Allah qəbul etməz. Çünki bunlar malını, mülkünü istəməyərək, canları yana-yana verərlər. Malı çıxanda elə bil ətindən qopardırlar. Ömürlərinin sonuna qədər də bunun dərdini çəkərlər. Lətifədə keçən "Eşşəyi oğurlanmış kəndli kimi" həmişə: "Aman, aman gör necə də oğurlatdıq, necə də əlimizdən çıxdı..." deyərlər. Ömrü boyu bunun dərdini çəkərlər. Onu Allah üçün verdiyini düşünmədiyi üçün qumarda verilən pul kimi hesab edər. Necə qumarda pul qoyarsan və udanda qat-qat çox qazanarsan, bunlar da Allah yolunda sərf etdikləri malı, pulu qumar kimi fikirləşiblər, amma qumar oynadığını və qumarda uduzduğunu düşünürlər. Məsələyə qumarbaz məntiqi ilə yanaşar. Buna görə də bunun əziyyətini çəkər. Qumarbaz necə itirdiyində peşman olursa, bunlar da "beş qoyduq, əlli götürəcəkdik, amma itirdik" deyərək peşman olar. Qumarbaz kimi həmişə əzab-əziyyət çəkər. **"Onların sərf etdiklərinin qəbul olunmasına yalnız o mane olur ki, onlar Allaha və Onun Elçisinə küfr edir".** Bir sözlə, özlərini haşa, Allahdan üstün tutarlar. Bir də elçisini tanımazlar, imam qəbul etməzlər, yəni lideri kimi, öz üstündə bir idarəçi kimi qəbul etməz. Münafiqin ən xoşlamadığı mövzulardan biri də budur. Şeytanın da ən çox acığı gələn budur. Necə ki, Allah: "Səcdə edəcəksən" deyir, bu onun çox acığına gəlir. **Münafiq də eynilə iblis kimidir, kiməsə itaət etmək istəməz. Ona görə itaətdən qaçar.** Müsəlmanların yanından qaçmasının ən böyük səbəblərindən biri də budur. Həm də infaq etmək istəmədiklərinə görə, çox az da olsa infaq edəndə əziyyət çəkərlər. İkincisi də itaət etməkdir. Çünki münafiq ancaq şeytana itaət edər. Başqa heç kimə itaət etməz. İblisin əmrindədir. Ona görə itaət etmək onun qüruruna toxunar. Ayənin davamında Allah: **"namaza tənbəlliklə qalxır və (mallarını) könülsüz xərcləyirlər"** deyir**.** Münafiqlər namaz qılmağı heç xoşlamazlar. Amma özünü çox xoşlayan kimi göstərər. Ən çox istəmədiyi şey namazdır. Tək olanda namaz qılmazlar, amma yanlarında başqaları olanda, başlarına sarıq taxarlar, təsbehi götürərlər, özünü itirmiş kimi ibadət edərlər. Özünü huşu içində namaz qılan kimi göstərmək münafiqin

xüsusiyyətidir. Sonra Allah belə buyurur: "**və (mallarını) könülsüz xərcləyirlər**". Amma bu xoşlarına getməyərək pul xərcləmələri, insanların nəzərindən qaça bilər. Allah yolunda mal-pul sərf edəndə elə bil kəlbətinlə ətindən qopadırsan, o cür əziyyət çəkərlər. Münafiqlərə ən çox əziyyət verən mövzulardan biri də budur.

Məhəmməd surəsi, 29-cu ayədə Allah belə buyurur: **"Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?". Münafiqlərdə ağlagəlməz bir kin vardır. Əvvəldən çox kinlidirlər**. Bəslədikləri kini müxtəlif formalarda ifadə etmək istəyər, amma o namərd ruhu, o pozğun ruhu və o riyakar ruhu ona icazə verməz. Çünki eqoistdirlər, lakin itaətkarlılıqla itaətsizlik eyni anda yaşanmadığına, özünü itaətkar kimi göstərməli olduğuna görə kinini gizlədər. Amma çox böyük kin bəsləyərlər. **Münafiqlər şeytan kimi nifrət edərlər. Eyni ilə onlarda şeytanın ruhu vardır. Münafiq şeytanın insan halında olan surətidir.**

Mucadilə surəsi, 10-cu ayədə Allah buyurur: **"Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca o, onlara heç bir zərər yetirə bilməz. Qoy möminlər Allaha təvəkkül etsinlər".** Yəni münafiqlər həmişə gizli yığıncaqlar təşkil edərlər. **Müsəlmanları guya narahat edəcəklərini, onları üzəcəklərini, hirsləndirəcəklərini fikirləşərlər... Halbuki, münafiq müsəlmana qida kimidir.** Onların gücü, qüdrəti olar, əzmini, mübarizəsini, şövqünü artırdıqca artırar, maşAllah. Amma o ağılsızlar isə, əlbəttə, ki, pislik etdiklərini fikirləşərlər.

Allah münafiqlərin xarakterini Qələm surəsi 10-13-cü ayələrdə belə açıqlayır: **"...hər tez-tez and içənə, alçağa".** Yəni münafiqlər həmişə Allahın adını xatırlayaraq yalan danışarlar, özlərini həmişə çox müttəqi kimi göstərərək hərəkət edərlər. "**Alçaq**" deyir Allah, çox alçaq və namərddirlər. Allah **"qeybət edənə, söz gəzdirənə"** deyir. Həmişə müsəlmanları lağa qoyarlar və pisləyərlər, dayanmadan tənqid edərlər. Məsələn, bir iş görəndə: "burasında səhv var, burada filan səhv etdilər" deyərlər. Yəni öz xaraktersizliyini, iblisliyini heç, özünün mübarizədən çəkindiyini, müsəlmanlara qarşı olan kinini fikirləşməz, həmişə müsəlmanları tənqid edərlər, pisləyərlər və özü lazım bildikdə düzgün, lazım bilmədikdə səhv hesab edər və həmişə tənqid edib pisləyər. Allah **"söz gəzdirən"** olduqlarını deyir. Namərd olduqlarına görə daim kəşfiyyatdaymış kimi hərəkət edərlər (müsəlmanları güdərlər), müsəlmanlar haqqındakı məlumatları həmişə gəzdirər. Küfrə, digər münafiqlərə söz aparıb-gətirər, müsəlmanların düşmənlərinə xəbər aparar. Gizli iş gördüyünü zənn edər. Ayədə **"xeyirə mane olana, (zülm etməkdə) həddi aşana, günaha batana"** deyilir. Yəni İslam əxlaqının dünyaya hakim olmağına mane olmaq istəyər. İslam Birliyinə mane olmağa çalışar, hz. Mehdi (ə.s)-ın çıxışının qarşısını almaq istəyər, hz. İsa (ə.s)-ın enişinə mane olmağa çalışar. Amma bunu əlbəttə ki, "hz. İsa (ə.s) gəlməsin, hz. Mehdi (ə.s) gəlməsin" deyərək deyil, şeytanın hiyləgər üsulları ilə edər. Allah: **“Daş ürəklidirlər”** deyir. Yəni təcavüzkar, cinayətə meyllidirlər, çox

namərddirlər. Bu cür xüsusiyyətləri Hitlerdə, Mussolinidə, hz. Mehdi (ə.s)-ın dövrünün münafiqlərində, Peyğəmbərimiz (s.ə.v)-in dövrünün münafiqlərində də görə bilərik. Pozğun təcavüzkar kimi həddindən artıq daş ürəkli, təcavüzkar və namərddirlər. Televiziyalarda bəzən görərsiniz pozğunların təcavüzkarlığını, münafiqlər də o tərzdədirlər. Allah **"...Əsli-nəsəbi bilinməyən qulağı kəsiyə (haramzadaya)"** deyir. Çünki Quranın təməl hökmlərinə qarşı könülsüz və qəzəblidirlər. Yəni İslam Birliyinə qarşıdırlar, İslam əxlaqının dünyaya hakim olmasını istəmirlər. **"Kobud-hörmətsiz"**, yəni çox hörmətsiz və mədəniyyətsizdirlər. Kobudluqla, güc tətbiq edərək işləri həll etməyə çalışar. Hitlerdə də, Mussolinidə də bütün faşistlərdə, Lenində də və bütün tipsiz, namərd münafiqlərdə bu xüsusiyyətləri görmək olar. Çox kobud və hörmətsizdirlər. **Münafiqlər hörmət etməyi heç sevməzlər.** Çox səmimiyyətsiz formada hörmət edərlər. Məsələn, fərz edək bir şeyxin yanındadır və əli-qolu bağlıdır, amma nə Allaha qarşı, nə Peyğəmbər (s.ə.v)-ə qarşı, nə də o şeyxə qarşı hörmət bəsləmirlər. Bu vəziyyətdə onlar özlərini hörmət edən kimi göstərərlər. Amma bir fürsət tapan kimi, dərhal o namərd xarakterini göstərər və açıq-aşkar hörmətsizlik etməyə başlayar. Taktikadan istifadə edərlər. Ayənin sonunda Allah: "**qulağı kəsiyə**", yəni tamamilə it-köpək dəstəsidir.

## 24-CÜ SÖHBƏT

## 2 SENTYABR, 2010-CU İL AKSU TV və KAÇKAR TV

**ADNAN OKTAR:** Bəli, Quranda münafiqun və münafiqatlarla əlaqədar ayələr var. Münafiqlərin bir xüsusiyyəti vardır, qadın düşmənidirlər. **Yəni tarixin ən qədim dövrlərinə baxsaq ya qadınları yandırdıqlarını, ya faciəvi şəkildə öldürdüklərini görərik.** Belə nakam və xəstə tiplərdir, pozğundurlar. Qisaslarını qadınlardan almağa çalışarlar. Yəni manyak tiplərdir. Ona görə qadını faciəvi şəkildə döyər və yaxud faciəvi şəkildə öldürərlər. Bu münafiqin xarakteridir. **Həm də qadınlara qarşı etibarsızlıq duyarlar, həddindən artıq nifrət edərlər, Quranı açın, baxın. Münafiqlərin bu cür xüsusiyyətlərinin olduğunu görərsiz.** Məsələn, qız uşaqlarını götürüb basdırarlar, nifrət edərlər. Qız, qadın görən kimi nifrət edər. Qadına qarşı olan sevgiyə də heyrətlənərlər. Peyğəmbərlərin, səhabələrin qadınlara, uşaqlara qarşı olan sevgilərinə, şəfqətə təəcüblənirdilər.

Münafiqlərdə çox böyük bir qürur və əzəmət hissi vardır. Ona görə şeytan çox yaxşı analiz aparar. Münafiqin ruhuna nə xoş gəlirsə, məsələn eqoizm, qürur kimi xüsusiyyətləri təmin edən sistem tapar. Məsələn, "faşizm". Faşist çox qürurlu, eqoist, azğın, qan tökən olar. "Faşist" tamamilə şeytanın dizaynıdır. Yəni faşizmi meydana gətirənlər şeytanı bir masaya qoyurlar. "İndi bizim ustadımız sənsən" deyirlər. "Bu nə istəyər, bir baxaq, fikirləşək? Birinci, qan istəyər, ikinci, qadın düşmənliyi, üçüncü də xurafat istəyər". Faşizmin xurafata çox ehtiyacı vardır. Hitlerin, Mussolininin xurafatlarının ucu-bucağı yoxdur. Düzdür, şeytan faşizmi istəyər, amma şeytan bununla kifayətlənərmi? Əlbəttə ki, xeyr, faşizmə zidd olan sistemdə olmalıdır. Şeytan bir az rəngli şeyləri də bəyənər. Məsələn, "Kommunizm". Kommunizmdə də qan, qürur var. Məsələn, kommunistlərin əksəriyyəti çox eqoist olarlar. Yəni dəli kimi inadkar olarlar. Məsələn, PKK-da bunu görürük. Yəni işi psixopatlıq dərəcəsinə çatdırarlar, bu da olmasa özünü yandırar, şeytan onları artıq dəli etmişdir. Şeytan kimi qürurlu olarlar. Hökumət onlara: "sizləri vətənə gətirək, adam kimi hərəkət edin" deyir. "Onların Cənub-şərqdən sinələrini qabağa verərək gəldiklərini gördünüzmü? Niyə sevinirsən, nə etdin ki, sinəni irəli verərək gəlirsən? Əksinə utanmalısan, başını aşağı əyməlisən. Mənim aslan kimi əsgərlərimi şəhid etməyiniz bəs deyil, hələ sinənizi gərərək gəlirsiz, əsgərləri siz öldürməsəniz də sizin dostlarınız, sizin qrupdan olanlar şəhid edib. Buna görə utanmalısınız, başınızı aşağı əyərək, üzr istəyərək gəlməlisiniz. Sinələrini gərərək gəldiklərini görəndə hamı əsəbləşdi, elə mən özüm də çox hirsləndim, inşaAllah... Təcavüzkarlıqlarının da kökündə qürur və qadın düşmənçiliyi vardır. Bədbəxt insanlardır, məsələn, kommunist qadınlara baxsanız çox bədbəxtdirlər. Gözəl kommunist qadın görə bilməzsən, ümumiyyətlə, əksəriyyəti çirkindir. Özlərinə baxmazlar, geyimləri cırıq-cırıq, pis vəziyyətdə olar. İstisnaları çıxsaq, əksəriyyəti belədir. Faşist qadınlar da elədir,

həmişə bərbad gündədirlər. Eynilə mafiya qadınları kimidirlər, qatil görünüşündə olarlar. Qadına bənzəməzlər, kişiyə xas və çox quru və qanıacı olarlar. Hətta onların dəriləri, əti, sümüyü belə fərqli olar, xoşagəlməz quruluşda olarlar. Hitlerin, Mussolininin, Frankonun dəstəsinə baxsanız bunu dərhal başa düşərsiniz. Çox böyük xırdaçı, böyük üstünlük, əxlaq və ədəb iddiasında idilər. Məsələn, Hitler özünü dünyanın ən əxlaqlı insanı hesab edirdi. Halbuki, dünyanın ən əxlaqsızı idi. **Hər münafiqin xarakterində bu vardır. Dünyanın ən əxlaqsızı olduğuna baxmayaraq özünü dünyanın ən əxlaqlı insanı sayırlar.** Məsələn, Lenin də çox əxlaqsız bir adam idi, amma ondan soruşsan özünü dünyanın ən əxlaqlı insanı hesab edərdi. Buna aid yazıları var. Mussolini, dünyanın ən əxlaqlı olduğunu və qurduğu sisteminin də ən əxlaqlı insanlar yetişdirdiyini iddia edirdi və çox dolaşıq təfərrüatlara əsaslanırdılar. Hamısının da ortaq xüsusiyyəti qadın nifrətidir. Məsələn, Hitler, Mussolini, Franko, Lenin pozğun olub, hamısı azğın insanlar idi. Bunun açıq-aşkar isbatları var. Bunların dəstəsi də eynilə özləri kimi pozğun olublar, bunun həm şahidləri, həm də isbatı var. Ağılları və məntiqləri bu istiqamətdə olub. **Ona görə şeytanın düzəltdiyi bu fəlsəfələri araşdırmaq üçün şeytanı yaxşı tanımaq lazımdır. Şeytanı yaxşı tanısaq bunları bütünlüklə təyin etmək olar.**

Məsələn, faşistlərin, kommunistlərin qüruru alçaldılanda yanlış olan mənalar çıxardarlar, anormal, boş-boş izahlar verərlər. Məsələn, əxlaqsızlığını bildirəndə, bu əxlaqsızlığı müdafiə etmək üçün anormal məntiqlər, ortaya qoyar, izah edərlər və qarşı tərəfi günahlandıraraq özlərini haqlı çıxarmağa çalışarlar. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in dövründə də elə idi. Münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in Zeynəb anamızla olan izdivacını çox vacib bir məsələ kimi ortaya atdılar. Peyğəmbərimiz (s.ə.v)-ə qarşı bunu bəhanə gətirərək istifadə etmək istədilər. Allah da ayə ilə Peyğəmbərimiz (s.ə.v)-in haqlı olduğunu, gözəlliyini və düzgün olduğunu onlara bildirdi. Peyğəmbərimiz (s.ə.v)-in evliliklərindən narahat olarlar, Allah onu da ayələrlə bildirdi. Bu səfər xanımlarından istifadə edərək onu narahat etməyə başladılar. Allah bunu da bildirdi. Məsələn, hz. Məryəmin dövründəki münafiqlər hz. Məryəmin əlindən, üzündən nur axdığına baxmayaraq, tərtəmiz olduğunu bildikləri halda ona böhtan atmaq istədilər, Allah onu bu böhtandan da təmizlədi, pak etdi. Münafiqlər hz. Musa (ə.s)-ın gücünü, babamızın iqtidarını, cəsurluğunu, görünüşünü qısqandılar və həsəd apardılar. Buna aid ayə var. Allah: "onların böhtanlarından onu təmizlədi və xilas etdi" deyir. Hz. Musa (ə.s)-ın, Rəsulullah (s.ə.v)-in gücünü qısqandılar, onlar mənim babalarımdır, onlarla fəxr edirəm. Allah cənnətdə qat-qat daha gözəllərini nəsib etsin, inşaAllah.

**Ona görə müsəlman həyatı münafiq üçün bir əzabdır.** Münafiqlərə hal-hazırda ən çox əzab verən kimdir bilirsənmi? Hz. Mehdi (ə.s)-dır. İndi xalq deyir ki, biz hz. Mehdi (ə.s)-ın kim olduğunu bilmirik. Həqiqətən, mən də bilmirəm, mən də axtarıram. **Amma münafiqlər onu tanıyarlar. Hansı münafiqdən soruşsan, şüuraltında hz. Mehdi (ə.s)-ın kim olduğunu bilirlər.** Çünki şeytan: "sənin ən düşmənin odur" deyir. "Dərhal buradan

onun kim olduğunu başa düşər. Yəni indi dünyada hz. Mehdi (ə.s)-ı tanımayan münafiq yoxdur. Hamısı tanıyar, maraqlananlara da eşitdirilər. Amma mömin əlbəttə ki, Allahu aləm qəlbən tanıyar. Allahu aləm o, deyər. Və vicdanı ilə qərar verər, dəstək olar, anlayar.

**ADNAN OKTAR**: Şeytandan Allaha sığınıram, Bəqərə surəsi, 14-cü ayədə Allah belə buyurur: **"Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" deyirlər"**. Bunlar hər yerdə, həmişə müsəlman olduqlarını deyərlər. Heç soruşmamış deyərlər. Nədənsə belə günahkarlıq hissi ilə həmişə müsəlman olduqlarını hiss etdirməyə çalışarlar. Təqva sahibi olduğunu, oruc tutduğunu, namaz qıldığını həmişə vurğulamağa çalışarlar. **"Onlar möminlərlə rastlaşdıqda: "Biz iman gətirdik!" deyirlər, öz şeytanları (azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik. Biz (möminlərə) ancaq istehza edirik!" deyirlər".** Yəni: "Qurandan, dindən bəhs edirik, bu haqda danışırıq, yaxud onları tənqid edirik, amma bizim məqsədimiz bu deyil" deyir. Münafiq bütün bunları kimə deyir bilirsinizmi? O, bunları ürəyindəki şeytana deyir. "Ey iblis, heç şübhə etmə, biz dostuq və sizinlə birik" deyir. Yəni bütün şeytan dəstəsi ilə birdirlər. "Biz, yalnız müsəlmanlara lağ edirik" deyir. "Biz onları tənqid edərik, onlara böhtan atarıq, amma bizim məqsədimiz onların yaxşı, düz olması və yaxud onların bir qüsurunu gördüyümüzə görə deyil. Bizim məqsədimiz yalnız lağ etmək, onları narahat etməkdir. Yoxsa mənim belə bir niyyətim yoxdur. Həqiqətən də sənin tərəfindəyəm, ey şeytan" deyir. Bunlar münafiqlərin xüsusiyyətləridir.

Şeytandan Allaha sığınıram, Nisa surəsi, 77-ci ayədə Allah belə buyurur: "Onlara vuruşmaq vacib edildikdə". Məsələn, Axırzamanda hz. Mehdi (ə.s): "Bu Allahın əmridir, gəlin İslam əxlaqını yayaq, dünyaya hakim edək" deyəcək. **"İçərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular".** Münafiqin ilahlaşdırdığı şey insanlardır. Yəni insanlar, münafiqlər üçün çox əhəmiyyət kəsb edir. Hər şeyi onlara görə fikirləşər, onlara görə nizamlayarlar. İman edənlər kimi, birinci, **"Ey Rəbbimiz!"** deyərək müraciət edir. Sonra isə həyasız, tərbiyəsiz bir üsluba keçir və: "**Rəbbimiz, vuruşmağı nə üçün bizə vacib etdin?"** deyirlər. Bunların azğınlığının dərəcəsinə bir baxın. Haşa, Allaha belə xitab edərlər? Tamamilə münafiq ağlıdır. Təkəbbür hissindən qaynaqlanır bu, Allahdan daha böyük olduğunu fikirləşir. **"Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" dedilər".** Diqqət edin, yüngül ağlı ilə çox ağıllı olduğunu hesab etdiyinə görə, haşa, Allahdan daha ağıllı olduğunu zənn edir. Ona görə özünü haşa Peyğəmbər (s.ə.v)-dən də, hz. Mehdi (ə.s)-dan da ağıllı hesab edərlər. Yalnız öz ağılsızlılarını görə bilmirlər, elə bil at eynəyindən baxırlar. Bir qismini görər bir qismini görməz. **"Bizə yaxın vaxtadək möhlət verəydin!"** deyirlər. Elə bil Allaha ağıl verir, haşa. Bu iş də şeytanın vəsvəsəsi ilə olar, münafiqdə də eyni şeyi görərsən.

Allah Bəqərə sürəsi, 11-12-ci aylərində belə buyurur: **"Onlara: "Yer üzündə fəsad törətməyin!" deyildiyi zaman".** Bu ifadə münafiqlərə fəsad çıxartmamaları üçün deyilir.

Allah “Gedib küfrün bağrına yapışıb onlarla yaşamaqdansa gəlin müsəlmanlarla birlikdə olun, İslamı təbliğ edin, yayın" deyir. Onlar isə: "Biz müsəlmanlarda bu səhvləri gördüyümüzə görə onların yanından ayrıldıq” deyirlər. Halbuki, yanına getdikləri münafiqlərin səhvləri trilyonlarladır. Müsəlmanlarda gördüklərini iddia etdikləri səhv onların səhvlərinin yanında çox cüzidir. Bu da sizin yalanınızdır. Cüzi ilə, trilyonlarla səhv müqayisə olunmazdır. Əgər bu qədər dürüstsünüzsə niyə heç nəticəsini fikirləşmədən bu cür alçaqlara qoşulursunuz? O cüzi səhvi bəhanə gətiriməyiniz də bir uydurmadır, özünüzün görə bilmədiyiniz bir həqiqətdir? İblis gözü ilə baxdığına görə bir gözəllik görəndə də onu tərsinə görərlər. **"Onlara: “Yer üzündə fəsad törətməyin!” deyildiyi zaman: “Biz ki, ancaq xeyirxahlıq edənlərik!” deyirlər".** Bu, münafiqlərin ümumi xüsusiyyətidir. Məsələn, Hitler də, Mussolini də: "**Mən xeyirxahlıq etməyə gəldim**" deyirdi. Münafiq də: "**Xeyirxahlıq etməyə gəldim**" deyir. Sən əvvəl yaxanı şeytanın əlindən qurtar sonra digərlərinə xeyirxahlıq et. Allah **"Bilin ki, onlar fəsad törədənlərdir"** deyir. Baxın dünyanı fəsada çevirdilər, 350 milyon insanın qətlinə səbəb oldular. **"Amma (bunu) başa düşmürlər"** deyir Allah. Yəni heyvan kimidirlər, dərk etmirlər.

Tövbə surəsi, 49-cu ayədə Allah belə buyurur: **"Onlardan eləsi də var ki:”**—burada Allah, münafiqlərin bir hissəsindən bəhs edir. **"Mənə izn ver (döyüşə getməyim), məni günaha (fitnəyə) batırma!” deyir".** Yəni: **"Mən gedim, çünki siz burada fitnə çıxaracaqsınız"** deyir. "Necə fitnə?"—deyə soruşursan. Deyir: "yaxşı qardaş, bu Quranın 99%-ni yerinə yetirdiyiniz başa düşdük, bəs bu qisim nə deməkdir, biz anlamadıq. Ona görə biz gedirik”. "Hara gedirsən?" deyirik. "Donuzun peyininin içinə" deyir. Sən yarım santimetrlik bilmədiyin haqq olan, amma çəp gözünlə qüsurlu gördüyün üçün, milyonlarla tonluq peyinin içinə girirsən, bu necə olur? Deməli, sən əxlaqsızsan. **"Mənə izn ver (döyüşə getməyim), məni günaha (fitnəyə) batırma**!” deyir. Yəni: **"Məni fitnəyə qatma, çünki siz fitnə çıxarırsınız”.** Müsəlmanlara **“Mən gedəcəyəm”** deyir. Allah **"Doğrusu, onlar artıq günaha (fitnəyə) batmışlar"** deyir. Yəni artıq o peyinin içinə girmişlər. Diqqət etsəniz Allah: "(günaha, fitnəyə) yanaşdılar və ya toxundular"-demir-“birbaşa pisliyin (günahın, fitnənin) içinə girdilər, düz ortasındadır” deyir. Münafiqin xüsusiyyəti budur. Amma çox qürurlu və eqoistdirlər, ağılsız olduqlarına görə heç kimin sözünə də qulaq asmaz. Məsələn, Hitlerə nə qədər izah etsəydin, danışsaydın, yenə də başa düşməyəcəkdi.

Allah Nisa surəsi 139-cu ayədə belə buyurur: **"Möminləri qoyub kafirləri (özlərinə) dost tutanlar gücü və əzəməti onlarda axtarırlar**?" Yəni: "qüvvət və qüruru bu murdar qrupun, donuz pisliyinin içindəmi axtarırsınız, ey münafiqlər?" deyir Allah. Allah burada eqoizmə, qürura, izzətə, böyüklüyə diqqət çəkir. Yəni münafiqin iki şeyə ehtiyacı var. Birinci, güc axtarır. Güc, yəni pul, kafirlərin gücü, onların dəstəyi nəzərdə tutulur. İkincisi, isə eqoizm, əzəmət və təkəbbür axtarırlar. Allah da bütün bu xüsusiyyətləri: **"Onların yanındamı axtarırlar?"** deyir. Yəni bataqlığın, peyinin içində axtarırlar. Əlbəttə ki,

axtardıqları şeyləri tapdığını zənn edir. Allah da: **“Halbuki, qüvvət və əzəmət tamamilə Allaha məxsusdur”**-deyir. Yəni bütün güc və qürur, Allahındır, onlar əbəs yerə eqoistcəsinə davranırlar, orda-burda güc axtarırlar. “Bataqlığın içindəsiniz" deyir Allah.

Maidə surəsi, 80-ci ayədə belə buyrulur, şeytandan Allaha sığınıram: **"Sən onların bir çoxunun kafirlərlə dostluq etdiyini görürsən".** Məsələn, müsəlmanların yanında dayana bilməyən bu adamlar, azğınlarla, əxlaqsızlarla bu cür murdar həyat yaşayırlar. Allah "dostluq etdiklərini görərsən" deyir. Yəni yapışır onlara və onların murdar yerlərində yaşayırlar. Rəsulullah (s.ə.v)-in dövründəki münafiqlər də elə idi.

Mömin surəsi, 19-cu ayədə Allah: **“(Allah) gözlərin xaincəsinə baxışını və köksların (nələr) gizlətdiyini bilir".** Yəni diqqətlə gözlərinə baxılsa o xainlik, nifrət, alçaqlıq bunların gözündə görünər**. "Və kökslərin (sinələrinin) saxladıqlarını Allah bilər"** deyir. "Amma Mən istəsəm, onların gözlərindən bunu başa düşərsiz" deyir. Yəni Allahın icazəsi ilə gözlərindən hər şey aydın olur. Həm də: "onların pis danışıqlarından da başa düşərsən" deyir Allah. Burada Allah, iki dəlil verir. Allah "Danışdıqları zaman onlara qulaq asarsan" deyir. Çünki münafiqlər məntiqli danışarlar, amma ağıllı danışmazlar. Şeytani və qüsursuza yaxın məntiq əlaqəsi vardır. Şeytanın ağlı ilə hərəkət etdiyinə onları görə çox ağıllı zənn edərsən. Budaqdan budağa tullanarlar, həmişə oyun oynayarlar. O yalandan bu yalana, o taktikadan bu taktikaya keçərlər, həmişə bu cür oyun oynayar və bunu inkişaf etdirərlər. Böyük bir məntiq işlədər. Ona görə zəif məntiqlə və yaxud orta bir məntiqlə düşünənlər bəzən onların haqlı olduqlarını bilərlər, yəni uyğun görünər. Ona görə Allah **"danışdıqları zaman onlara qulaq asarsan"** deyir. Danışdıqlarına qulaq asmaq maraqlı gələr, çünki söhbətlərinə yalnız məntiq hakimdir, amma ağılları heç yoxdur. Diqqət edin, Allah **"(Allah) gözlərin xaincəsinə baxışını... Allah bilir"** deyir. Yəni bəzən mürşid, vəli insanlar bunların gözündəki xainliyi görər, hiss edər, başa düşərlər. Onlar gözlərindəki baxışları ilə özlərini büruzə verərlər. Yəni diqqət çəkər, aydın olar, inşaAllah.

Tövbə surəsi, 67-ci ayədə Allah belə buyurur: **"Münafiq kişilər və münafiq qadınlar bir-birinin tayıdırlar. Onlar insanları pis işlər görməyə vadar edər, yaxşı əməlləri qadağan edərlər**". Məsələn, İslam əxlaqının yayılmasının qarşısını almağa çalışarlar, darvinizmin məhv olmağını istəməzlər, darvinizmi hiyləgərcəsinə dəstəkləyərlər, həm müsəlman olduqlarını deyərlər, həm də gizlicə darvinizmi dəstəkləyərlər. Bir qismi təbii cahilliyindən edir, amma bir qismi də münafiq olduqlarına görə edər.

Quranda Allah insan xarakterlərini çox analiz etmişdir. Münafiq, faşist, kommunist xarakterlərini, ən incə təfərrüatına kimi bildirmişdir. Bu, heç bir psixologiya kitabında yoxdur.

...

**ADNAN OKTAR:** Namus da qadının dəyərini qat-qat artırar. Çünki qadını qiymətləndirmək, ona hörmət etmək çox vacibdir. Qadına hörmət etməsən, qiymətləndirməsən qadın yox (mənəvi cəhətdən məhv olar) olar, tam fərqli bir şey olar. **Münafiq də qadına dəyər verə bilməz, hörmət edə bilməz. Ona görə Allah onun ürəyinə nifrət salar.** Münafiq qadınlar da münafiq həyat yoldaşlarından çox iyrənərlər, murdar şeydən iyrəndiyi kimi iyrənər. Amma onun puluna, onun yeməyinə möhtac olar. Ömrü boyu o murdar sistemdə yaşayar. Soruşanda da, məcbur olduğunu deyər. "Niyə məcbursan?" soruşsan ağlına uyğun bir məntiq tapar. Baxmayaraq ki, Allah: **"Allahın ərşi genişdir"** deyir. **Yəni münafiqin dar məntiqi vardır, öz ağlına uyğun məntiqlə o şərəfsizliyə, o səviyyəsizliyə, o alçaldılmağa, o əxlaqsız həyata mütləq məntiq tapar. Böyük bəhanələr gətirər.** Mən iyrəndiyimə görə bəhanələrini deməyə də ehtiyac görmürəm, çox murdar bəhanələrdir. Bir qab yeməyə görə qürursuzcasına, şərəfsizcəsinə o həyatı yaşayarlar. Mömin qadın şərəflidir. Lazım olsa ömür boyu subay da qalar, amma mütləq müttəqi olaraq, öz qiymətini bilməli, mütləq, hörmət edilən bir insan olmağına diqqət etməlidir. Çünki əks halda ruhu üsyan edər, bacarmaz. Əzab-əziyyət çəkər, yəni turşunun içinə düşmüş kimi olar.

## 25-Cİ SÖHBƏT
## 3 SENTYABR, 2010-CU İL, HARUNYAHYA.TV

**OKTAR BABUNA:** İncildə hz. İsa (ə.s)-ın münafiqlərlə əlaqədar bir ifadəsi var, onu oxumaq istərdim. *"Bundan sonra İsa xalqa və şagirdlərinə belə səsləndi: Sizə dediklərinin hamısını edin və yerinə yetirin, amma onların etdiklərini etməyin, çünki dediklərini özləri etməzlər. Ağır və daşınması çətin olan yükləri başqalarının kürəyinə bağlayıb yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə tərpətmək istəməzlər. Etdiklərinin hamısını nümayiş üçün edərlər". (Matda, 23)*

**ADNAN OKTAR:** MaşaAllah, Qurandakı üslubla eynidir, maşaAllah. Münafiq evlənməyi, yeməyi, içməyi, rahatlığı vacib sayar. Amma "namaz da qılaram" deyir. Yəni "namazı istəyirsənsə qılım" deyir. "Oruc da tutaram" deyir. Amma İslam əxlaqını dünyaya hakim etmək, İslam Birliyini qurmaq, özünü Allaha həsr etmək, varını-yoxunu Allah yolunda xərcləmək istəməz, "bunu məndən istəməyin" deyir. Bəzi klassik tiplər vardır ki, ailəsi ilə xoşbəxt yaşayar, amma zəkatını da verər, namazını da qılar, "bu oruclu ağzımla danışıram" deyər, "bu namazlı ağzımla danışıram" deyər. Amma İslam əxlaqının dünya hakimiyyəti onu heç maraqlandırmaz. Kasıb müsəlmanlar, İslam Birliyi, müsəlmanların əzab-əziyyət çəkməyi onu maraqlandırmaz. Onun dərdi gözəl ticarəti ilə, işi-gücü ilə məşğul olsun, ailəsi ilə xoşbəxt yaşasın. Təhlükəsiz dünyası olsun. Halbuki, Peyğəmbərimiz (s.ə.v)-in dövrünə baxdığımızda isə təhlükənin, çətinliklərin olduğunu görərik və İslam əxlaqının olduqca çox yayılması üçün var gücü ilə cihad etdiklərini görərik, inşaAllah.

**OKTAR BABUNA:** Siz, münafiqlərin Həccə getdiyini, nümayiş olsun deyə infaq etdiklərini, nümayiş olsun deyə namaz qıldıqlarını, amma heç vaxt cihad etmədiklərini demişdiniz. Bu mövzu ilə əlaqədar bir ayəni oxuyuram. Şeytandan Allaha sığınıram: **"Doğrudanmı siz hacılara su verməyi və Məscidulharamı abadlaşdırmağı Allaha və Axirət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eyni tutursunuz? Bilin ki, onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım qövmü doğru yola yönəltməz". (Tövbə surəsi, 19)**

**ADNAN OKTAR:** Əlbəttə ki, bu işləri edərlər. **Su paylayar, namaz qılar, hamısını edər, tək istəmədiyi şey, İslam əxlaqının dünyaya hakim olmasıdır. Bu məsələ onları çox narahat edər. Bütün müşriklərdə və münafiqlərdə bunu görərik.** Qadın düşmənidirlər, yəni düşməni deyəndə qadını, onu estetik və gözəl varlıq olaraq görməzlər. Onun

varlığından narahat olarlar. Onun dərdi ancaq pozğunçuluqdadır. Hətta qız uşaqlarını yeni doğulanda, potensial namusuna zərər verəcək bir varlıq olduğunu fikirləşdiyinə görə diri-diri torpağa basdırırdılar. Yəni münafiq eyni zamanda belə psixdir. Yəni küfrün başıdır. Münafiqlə kafirlərin xüsusiyyətləri eynidir. Kafirlərdən bəhs edən ayələr eyni zamanda münafiqlərə də aiddir. Amma kafirlə münafiq fərqlidir. Məsələn, münafiqin bəzi xüsusiyyətləri kafirdə olmaz. Münafiq bir çox mövzuda səmimiyyətsizdir. Amma kafir səmimidir, açıq-aşkar fikirləşdiyini deyər. Onun da səmimiyyətsizliyi vardır, amma açıq danışar. Yəni hiyləgər deyil, özünü gözlətmir, onları müəyyən etmək olur. Münafiq avara kimidir, müsəlmanların yanından bir başqa müsəlmanların yanına gedər, onların başına bəla olar. Başqa bir yerə gedər, yenə oranın başına bəla olar. Dünən də söyləmişdim, məsələn, müsəlmana deyər ki, "mən müsəlmanların bu xüsusiyyətlərini bəyənmədiyim üçün gedirəm". Müsəlmanlardakı bəyənmədiyi xüsusiyyətləri soruaşanda dırnaq ucu boyda bəhanə gətirər, onları anlamadığını deyər. Guya başa düşsəydi başqa cür olacaq idi. Yəni özünü görməməzliyə vurduğu üçündür. Bəhanə axtardığına görə, mütləq bəhanə tapar. Bəhanəni də kənardan, küncdən-bucaqdan tapar. Qərar verəcəyinə, yuxarıdan tapa bilmədiyinə görə aşağıdan axtarar (yəni böyük bəhanə tapa bilmədiyinə görə, kiçik bəhanələr tapar). Aşağıdan tapa bilməzsə sağdan, soldan axtarar. Amma mütləq, tapacağam deyər. Amma özünün getdiyi, sığındığı yer peyinin içidir, düz ortasına gedər. Ayədə deyir ki, pisliyin düz ortasına girərlər. Bəs müsəlmanlardan narahat olmuşdunuz? Bütün əxlaqsızlığın, alçaqlığın içinə niyə gedirsiniz? Çünki müsəlmanların yanında əxlaqsızlıq olmadığı halda bəhanə tapdığı pis şey, orada bir milyondur. Müsəlmanların yanındaykən olmayanı bəhanə etmisən. Varmış kimi göstərmisən. Amma orada mövcud pisliyin içinə girmisən. İş yerinə gedər, kafir dediyi, din əxlaqına zidd olduğunu dediyi adamlarla mehriban olar. Onlarla yaxın olar, onları sanki əziziymiş kimi qucaqlayar. Sirdaş olar, onlara etibar edər, onlara hər şeyini, hətta canını da təslim edər. Bəs müsəlmanları bəyənmirdin? Bəs sən doğru yolda idin? Deməli, mənfəətin olan yerə, pulun olduğu yerə gözübağlı girirsən. **Müsəlmanların yanından ayrılmağının səbəbi də sənin mənfəətlərin, eqoistliyin, qürurun, təkəbbür hissini edə bilməməyin.** Məsələn, Drar məscidinin münafiqləri, böyük bir məscid tikdilər, Drar məscidi və Məscidi Nəbəvi var (Peyğəmbərimiz (s.ə.v)-in məscidi). Peyğəmbərimizin məscidi sadə məscid idi, amma onlar böyük məscid tikdilər, bu məscidin tikilməsinə böyük əmək sərf etdilər. Müsəlmanlardan bəzi mövzularda narahat olduqlarını, amma oranın mükəmməl bir yer olduğunu iddia etdilər. Peyğəmbər (s.ə.v)-dən, səhabələrdən narahat oldular, haşa, amma dinsiz, imansız, kafirlərin içərisinə getdiniz. Onlarla can-ciyər oldular. Niyə Mədinədə getdiniz münafiqlərlə, kafirlərlə dost oldunuz? Müşriklərlə belə can-ciyər oldunuz? Onlarla ticarət edirsiz, bağrınıza basırsınız, yoldaşlıq edirsiniz. Tərtəmiz səhabələrdən niyə qaçırsınız, niyə Allahın Elçisi (s.ə.v)-dən qaçırsınız və deyirsən "biz burada namazı çox mükəmməl qılırıq"? Peyğəmbər (s.ə.v) sizə nə edirdi? **Peyğəmbər (s.ə.v)-in gücünü, gözəlliyini, sağlamlığını qısqanırdılar.** Hz. Həsən (r.ə)-i, hz.

Hüseyn (r.ə)-i görəndə əsəblərindən dəli olurdular. Yaraşıqlılığını, gücünü, sevincini hamısını qısqanırdılar, inşaAllah. **Bunlar (münafiqlər) özləri axmaq insanlardır. Başlarından, ruhlarından axmaqdırlar. Amma onlar çox güclü, qüdrətli insanlar idi. Bu mübarək insanların sağlamlığını, gözəlliyini, xoşbəxtliyini həsədlə qısqanırdılar, onları tərk edirdilər.** Çünki onlara orada mübarizə aparmaq təklif olunurdu, yəni Allah yolunda mübarizə aparmaq təklifi edirdilər, buna görə də dərhal məscidi tərk edib öz evlərinə gedirdilər. "Ailəmiz var, uşaqlarımız var, onları qorumalıyam, babamı qorumalıyam, atamı, qayınımı qorumalıyam" deyə bəhanə gətirirdilər. **Baba, ata, qayın, ailə qayğısınıın mənşəyində də mənfəət vardır. Mənfəət olmasa ailələrinin yanına getməzlər.** Məsələn, gənə nə üçün gedib donuzun ən murdar yerinə yapışar? Qan olmasa orada nə sovurar? Gənə çiçəkdən xoşlanarmı? Əlbəttə ki, xoşlanmaz. Saraydan xoşlanarmı? Xoşlanmaz. Çünki oralarda qan yoxdur. Harada qan varsa ora yapışar, bu da donuzun qanıdır. Ona görə oraya yapışar və qanını sovurar. Oranın həyatı onun xoşuna gələr. Soruşanda da zəruri olduğunu deyər. Başqa məscid qurmağa niyə zərurət yaransın? Peyğəmbərimiz (s.ə.v) Drar məscidini yerlə-yeksan etdi. Oradakı fırıldaqçılar nə edəcəklərini bilmədilər. Peyğəmbərimiz (s.ə.v) münafiqlərlə əlaqədar ümumi danışardı, onların da ödü qopardı, hamısı onlara xitab edildiyini zənn edirdilər. Münafiqlərlə əlaqədar bir ayə oxunanda, heç bir müsəlman narahat olmaz. Mömin mütəqqi olduğunu Allahın icazəsi ilə bilər və münafiqlərə aid söhbətlətin də ona aid olmadığını dərk edər. Amma elə olmaqdan qorxar və Allaha sığınar. Amma münafiq elə olduğuna əmin olduğuna görə yanıb yaxılar.

## 26-CI SÖHBƏT
## 4 SENTYABR, 2010-CU İL, KOCAELİ TV

**OKTAR BABUNA:** Siz münafiqlərdən bəhs edərkən ibadətlərini də nümayiş etdiklərini demişdiniz. Məsələn, oruc tutanda mütləq onu nümayiş etdirmək istəyərlər. İncildə tam buna aid nümunə keçir: *"Oruc tutduğunuz zaman ikiüzlülər kimi üzünüzü turşutmayın. Onlar oruc tutduqlarını insanlara bildirmək üçün özlərini pərişan vəziyyətə salarlar "(Matda hissəsi), maşaAllah.*

**ADNAN OKTAR:** Bu, məhz münafiqlərin üsullarındandır. Allah, Nisa surəsi 89-cu ayədə: **"Onlar, özləri inkar etdikləri kimi, sizin də inkar etməyinizi istəyərlər..."**—deyə buyurur. Özü necə mala-pula, rahatlığına görə bəhanə tapar, müsəlmanları tərk edib gedər, eləcə də müsəlmanları yolundan azdırmaq istəyər və: **"Əsla şeytan sizi Allah ilə aldatmasın"** deyər. Münafiq mütləq Allah ilə aldatmaq istəyər, yəni müsəlmanları dağıtmaq üçün mütləq Allahın adından istifadə edərək aldatmaq istəyər və özünü də nümunə olaraq göstərər. "Bax mən necə gedirəm, siz də gedin, sən də get və bu iddia dayansın" deyər. Bu münafiqin xüsusiyyətidir. **"Onlar, özləri inkar etdikləri kimi, sizin də inkar etməyinizi istəyərlər..."** deyir Allah. Beləliklə, münafiqlər, onlarla eyni səviyyədə olmağınızı istəyərlər. Nisa surəsi 81-ci ayədə Allah belə buyurur: **"Onlar: "İtaət edirik!" deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr (bir yerə yığışıb) sənin dediyinin əksinə tədbir görürlər..."**. Münafiqlərdə belə bir manyaklıq vardır. Məsələn, qəflətən müsəlmanların əleyhinə hərəkət etməyə başlayar, birdən-birə övliya kimi özünəməxsus üslubla əleyhinə çıxar. Bu şeytanın üslubudur. Ya birdən-birə müsəlmanların lehinə olan kimi görünər, ya havalanar, yenə müsəlmanların əleyhinə çıxar, ya da yenidən müsəlmanların tərəfdarı kimi görünər. Allah Nisa surəsi 91-ci ayədə: **"...Onlar hər dəfə fitnəyə qaytarıldıqda gözüyumulu ona qoşularlar..." deyir.** Yəni fitnə olanda, ən çox bununla maraqlanarlar. İslam, Quran onları maraqlandırmaz, onlar, ancaq müsəlmanların əleyhinə olan şeylərlə maraqlanarlar. Yəni müsəlmanın əleyhinə nə istifadə edə bilərsə, dinin o məsələləri ilə maraqlanarlar, dinin digər qisimləri məsələn, cihad, təbliğ, İslam əxlaqının dünyaya hakim olması onları heç maraqlandırmaz. Allah müsəlmanların vəfalı, sadiq, səbirli, etibarlı olmalarını bildirir. Yəni: "**...Güllə ilə binalar kimi saf bağlayıb mübarizə edənləri Allah sevər..."** deyir Allah. Bu ayələrin heç biri münafiqi maraqlandırmaz. Münafiqi maraqlandıran, təhlükədən uzaq, rahat yaşamaqdır və münafiq yalnız özünü düşünər, amma bunları özlərini dürüst kimi göstərərək edərlər. Bu, çox əhəmiyyətlidir. Axırzaman münafiqləri digər münafiqlər kimi deyil. Yəni Peyğəmbərimiz (s.ə.v) dövrünün münafiqləri də çox çətin adamlar idi. **Amma hz. Mehdi (ə.s) dövrünün münafiqləri isə onlara birbaşa şeytan kömək etdiyinə görə çox xırdaçı, dolaşıqdırlar. Çünki şeytan İslam əxlaqının dünyaya hakim olmağını istəməz.** İslamın

dünyaya hakim olmağını istəmədiyinə görə də münafiqləri dinə, İslama, Qurana bilavasitə qarşı çıxan şəkildə ortaya çıxartmaz. Buna görə şeytan münafiqləri dini, İslamı çox ciddi şəkildə müdafiə edən insanlar kimi qarşımıza çıxaracaq. Şeytan bizim bildiyimiz mənada elə də axmaq deyil. Şeytan çox ağıllıdır. Böyük bir zəkaya və məntiqə malikdir. Lakin ağıl cəhətdən axmaqdır, ağlı yoxdur. Ağlı və vicdanı məhv olmuşdur. Münafiq də şeytanın dünyadakı insan olaraq əks etdirdiyi surətidir. Ayədə **"...atlılarınla, piyadalarınla..."** deyilir. Yəni piyadaları insan şəklindədir. Gələr, danışar, fəaliyyət göstərər. Amma şeytan onları tənbeh edər. Heç vaxt dinsiz görünüşündə çıxmaz, əvvəlcə necə çıxmalı olduğunu soruşar, o da: "özünü çox dindar kimi, təqvalı kimi göstər, təqvalı görünüşünlə onları boğmalısan. Xırdaçılıq et, təfərrüatlara gir, müsəlmanların qüsurlarını axtarmağa çalış, mütləq bəhanələr tap, amma bunları edərkən də mütləq təqvalı görünüşündə et ki, kənardan baxanlar sənin kim olduğunu başa düşməsin. Bu sənin paltarındır" deyər. Ona görə Allah: **"Əsla şeytan sizi Allahla aldatmasın"**-deyir. Yəni Allahın adını xatırlayaraq aldatmasın, çünki Allahı çox anmaq iblisin və münafiqlərin üsuludur. Allahı çox anarlar. Yəni təqva görünüşü ilə edər bunu, dini qarmaqarışıq vəziyyətə salar, "sən çətinlikdən qaçırsan, amma mən çətinliyin içindəyəm" deyər. İndi ona baxan avam bir insan da, "bunlar asanlığın arxasında, onlar isə çətinliyin arxasındadırlar" deyərlər. "Çətinlikdən qaçmadıqlarına görə yəqin ki, doğru olan bunlardır" deyər. Halbuki, onu boğacaq bir sistem qurmuşdur o. Labirintlər qurmuşdur, o labirintlərin içində onu boğacaq. Qurana uyğun olmayan, hədisə uyğun olmayan qarmaqarışıq bir sistem qurar. Bunlar onun içində boğulanda: "mən sizə deməmişdim ki, mən güclüyəm, amma sən zəifsən? bax gördünmü boğuldun" deyər. Halbuki, onu təşkil edən də elə özüdür. Şeytanın üslubu bilirsiniz, bunu cəhənnəmdə də deyər. "Mən sizi yalnız dəvət etdim, mən Allahdan qorxaram" deyir. Nisa surəsi, 62-ci ayədə: "...**Şübhəsiz sonra onlar sənin yanına gəlib..."**—məsələn, hz. Mehdi (ə.s)-ın yanına və yaxud Peyğəmbərimiz (s.ə.v)-in yanına gəlib—**"Şübhəsiz deyərək Allaha and içərlər....".** Guya bunlar bu yolla təbliğ edirlər. "...**Biz yalnız yaxşılıq etmək və barışıq yaratmaq istədik**...". Guya yaxşılıq məqsədi ilə, ara düzəltmək, möminlərin yaxşı olmağını istəyərək, barışdırmaq niyyətləri olduğunu bildirərlər. Münafiqlər özlərini sülhsevər kimi göstərərlər. Heç nəyi veclərinə almayan kimi, kinsiz göstərərlər, belə hallarda əsla səhvə yol verməməliyik, diqqətli olmaq lazımdır. "...Biz yaxşılıqdan və barışdırmaqdan başqa bir şey istəmədik..." deyirlər, çünki mövqe qazanmalıdır. Münafiq tutulanda (elədikləri əməllər üzə çıxanda) çox tədbirli davranar, nəzərə çarpmasın deyə özünü yaxşılıq edən, barışdıran kimi göstərər. Özünü ələ verməmək, tutulmamaq üçün bunu edər. Ona görə münafiqlər ümumilikdə çox bacarıqlı olarlar. Yəni təxribatları çox şiddətli olar. Buna görə biz də bir az çətinlik çəkirik.

**"...Barışıq yaratmaq istədik"—deyərək Allaha and içərlər...".** Yəni Allahın adı ilə danışır, "and içirəm" deyir. "Yalnız barışıq və yaxşılıq istəyirik, bundan başqa heç bir

məqsədimiz yoxdur. Görürsünüz, burada ara qarışıb, mən də aranı düzəltmək istəyirəm" deyir. Halbuki, bütün məqsədi İslamı yıxmaqdır. Onda tapa bildiyi şey aranın qarışmasıdır ki, öz ağlına görə guya bunu bir fürsət sayır. Onu İslamın heç bir hökmü maraqlandırmaz, halbuki, yüzlərlə hökmü var, cihad var. Bu birinci planda olduğunu münafiq başa düşməz. O dolaşıq istiqamətləri, Quranda bildirilmədiyini zənn etdiyi, məsələn, hökm verilməyən məsələlər olur bəzən, günahkarlar da ondan istifadə etməyə çalışar. Münafiq də öz ağlı ilə Quranda açıq bildiyi yerlərdən hücum etməyə çalışar. Halbuki, Quranda bildirilməyən şeylər onsuz da halal sayılır. Məsələn, “albalı halaldırmı” deyə biz gedib albalını araşdırmarıq və ya üzüm halalmı deyə araşdırmarıq. Amma münafiq: "bunun hökmünü sən harada tapdın?" deyər. "Albalının hökmü varmı?” deyər. Yazmırsa haram deyil, halaldır. Açıq hökm yoxdursa deməli halaldır. Amma münafiq bunu qəbul etməz, bu üsulu öz ağlınca hiyləgərlik olaraq tətbiq edər.

**ADNAN OKTAR:** Tövbə surəsi, 74-cü ayədə Allah belə bildirib: "**...İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar...".** Bacarmadıqları şeyi hardan bilirsən? Zənn edərsən ki, münafiqin gözü böyüklükdə, böyük bir alim olmaq, yaxud Mehdi olmaq və ya Peyğəmbər olmaqdır. Əlbəttə ki, bu da bir azğınlıqdır. Amma bu onsuz da nifrət etdiyi sistemdir, yəni elə bir şey olmaz. Münafiq fərqlidir. Məsələn, saf tiplər vardır, ağlı zəifdir yaxud cəzbə halındadır və ya problemli var, Mehdi olmaq, müəyyən bir məqama çatmaq, alim olmaq istəyər, yaxud peyğəmbərlik iddiasında olar. Münafiq isə belə deyil. Münafiq, haşa, Allahı da bəyənməz. Özünü şeytan kimi hamısından üstün hesab edər, yəni eynilə şeytan kimidir. Allah: **"...İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar..."** deyir. Əsl şüuraltındakı hədəfləri budur. Allahdan da böyük olmaqdır, haşa. **"...Onların intiqam almağı yalnız Allahın və Onun elçisinin onları Öz lütfündən varlandırdığına görədir...".** Münafiq intiqam alandır, axşama qədər intiqam almaq fikrində olar. Xəstə və psix ruhludur, ancaq necə intiqam alacağını fikirləşər. Yaxud, müsəlmanlara hücum etdirmək üçün bəzilərinə nə deyəcəyini, yaxud müsəlmanların əleyhinə necə xəbər yayacağını fikirləşər və ancaq bununla məşğul olar. Axşama qədər, fikri-zikri ancaq budur. Beynindəki yeganə mövzu budur. Yemək, içmək, yatmaq və müsəlmanlardan intiqam almaqdır. Başqa bir şey haqqında düşünməzlər. **"...Onların intiqam almağı yalnız Allahın və Onun elçisinin onları Öz lütfündən varlandırdığına görədir...".** Yəni Allahın elçisinin vasitəsi ilə, ya da hz. Mehdi (ə.s)-ın vasitəsi ilə ən gözəl yaxşılıqları edər, ən gözəl ehsanlar təqdim edər, ən yaxşı mühitlərdə yaşadar. Amma bu onların azğınlığını və ona qarşı qəzəblərini artırar. Məsələn, Peyğəmbərimiz (s.ə.v) dövründə ən gözəl şəkildə geyinər, ən gözəl şəkildə yeyərdilər. Sakit bir mühit idi, pis söz eşitmirdilər, səhv danışıq olmurdu, çox mehriban, sevgi dolu, etibarlı bir mühit idi. Münafiq bunu dərk etmir, münafiq pislik içində yaşamaq istəyər, pisliyi sevər. Yəni dediyim kimi, donuzun çirkli yerində qan sovurar və ayrıla bilməz, gənə kimi yapışar və qanını həmişə sovurar. Gənə deyəndə arada uçacaq

və s. zənn edərsən, biraz fırlanar yenə gələr oraya yapışar, çünki qan oradadır. "Bu pisliyin içində neynirsən?" soruşduqda münafiq: "orada qan var, məni bu maraqlandırır" deyər. Ali İmran surəsi 154-cü ayədə, Allah buyurur: **"... Allah barəsində haqsız olaraq, cahiliyyə (dövründəkinə bənzər) düşüncələrə düşdülər...".** Cahil ağlı ilə fikirləşənlər deyilir. Yəni münafiq Qurandakı məntiqlə baxmaz, Qurandakı məntiqi Qurana qarşı mübarizə aparmaq üçün istifadə edər. Yəni Quranı, Qurana qarşı döyüşmək üçün istifadə edər. Ona görə hz. Əli (r.ə), hz. Mehdi (ə.s) haqqında olan hədisdə: "hz. Mehdi (ə.s)-ın işi çətindir, çünki münafiqlər Quranla onun qarşısına çıxacaqlar" deyir. "Münafiqlər, hz. Mehdi (ə.s)-ın qarşısına Quranla çıxacaqlar" deyir. **"...Allah barəsində haqsız olaraq, cahiliyyə (dövründəkinə bənzər) düşüncələrə qapıldılar..."** deyir Allah. "Bu işdən bizə nə var?" deyirdilər..." Mənfəətpərəst olduqlarına görə, baxır ki, görsün qan var ya yox? Görür ki, qan yoxdur. Qan ancaq donuzun murdar yerindədir. Gedər oraya yapışar. "Bu işdən bizə bir şey olsaydı, biz burada öldürülməzdik" deyirlər....". Yəni, "bir mənfəətimiz yoxdur. Ya həbs ediləcəyik, ya döyüləcəyik, ya da şərə düşəcəyik. Buradan bizə bir xeyir gəlməz" deyirlər. Bəs mənfəət harada olar? Donuzun murdar yerində. Ona görə münafiqlər Peyğəmbərimiz (s.ə.v)-in yanından toplu halında ayrılırdılar. Peyğəmbərimiz (s.ə.v)-in yanında qalmağa, mübarək, nurlu üzünü görməyə dözə bilmədilər. Onun nuru münafiqləri yandırıb-yaxırdı. **Peyğəmbərimiz (s.ə.v)-in üzünə baxa bilmirdilər. Onun nurunu görəndə yanırdılar. Hz. Mehdi (ə.s)-ın nuru da bütün münafiqləri yandırar.** Onu da görmək istəməzlər, ondan qaçdıqca qaçarlar. Ən çox istədikləri şeylərdən biri də hz. Mehdi (ə.s)-dan mümkün olduğu qədər uzaq durmaqdır. Peyğəmbərimiz (s.ə.v)-dən də mümkün dərəcədə uzaq dayanırdılar. Hətta Peyğəmbərimiz (s.ə.v) söhbət edəndə, dözə bilmir və ayağa qalxıb gedir, ağılsız münafiq də bunu bir qorunmaq, gizlənmək kimi başa düşür. Ayədə də deyildiyi kimi onunla birlikdə çıxıb gedir. Bu qədər ağılsızdırlar. Nəzərə çarpacağını fərq etmir. Bütün səhabələr orada ikən onun getməyini görməzdilərmi? Bununla özünü çox ağıllı zənn edir, hiyləgərlik etdiyini fikirləşir. **"...**Onlar öz payları ilə faydalanmağa başladılar...". Yəni payına düşən nədirsə, ona baxır və ondan faydalanmağa çalışırlar. Yeyib-içib, yatırdılar, Qurana qarşı çıxmaq üçün özlərini Quranı gözləyirmiş kimi göstərirdilər. Bunu necə edirdi? Namazı qılmaqla, orucu tutmaqla, cihad etməməklə, dinin yayılmağına əngəl törətməklə edirdi. Təbliğ etməzdi. Buna görə də hər münafiq anti-Mehdidir. Heç bir münafiq hz. Mehdi (ə.s)-dan danışmaq istəməz. Yəni ondan qaçar. **"...Siz də, sizdən əvvəlkilərin öz paylarıyla faydalanmağa cəhd etdikləri kimi, öz paylarınızla faydalanmağa başladınız...".** Əvvəlki münafiqlər necə idi? Onlar da paylarından faydalanmaq üçün müsəlmanların yanından qaçırdılar. Gedirdilər atalarından, analarından, yaxud böyük qardaşlarından və ya iş yerindən, paylarında nə var idisə ondan faydalanmaq üçün müsəlmanların yanından qaçırdılar. Bunlar münafiqlərin xarakterləridir. "Cahiliyyə (dövründəkinə bənzər) düşüncələrə qapıldılar", yəni əvvəlkilərin etdikləri kimi davrandıqlarını deyir Allah. Münafiq xarakterində bir dəyişiklik olmur. Onlar da eyni şəkildə Qurandan istifadə edərək, Qurana qarşı mübarizə

aparırlar. Qurandan istifadə edərək müsəlmanlara qarşı mübarizə aparmağa başlayırlar. Amma cihad etməkdən və təbliğdən çox uzaq durarlar. Ən çox istəmədikləri şeydir. Quranı müsəlmanların həqiqətən anlaya bilməyəcəyini zənn edərək, elə bir ağılsızlığın içinə girərlər. Quranın onlara bağlandığını başa düşməz. Quranın azadlığını da qavraya bilməz. Mənim əsas vəzifələrimdən biri də münafiqləri elmi yolla əzməkdir, amma Quranla, hədislə, elmlə, məlumatla, sevgi ilə əzməkdir. Sevgi, söhbət münafiqləri yandırar. Münafiq qan istəyər, zülm istəyər. Cahillərin bir qismi də bunu istəyir, amma bu başqa məsələdir.

**OKTAR BABUNA**: O dediyiniz ayəni oxuyuram, şeytandan Allaha sığınıram: **"Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın. Allah sizin aranızdan daldalanaraq xəlvətcə çıxıb gedənləri bilir. Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə sarsıdıcı bir əzab üz verməsindən qorxsunlar". (Nur surəsi, 63)**

**ADNAN OKTAR**: Münafiqlər həmişə bəla qorxusu ilə yaşayarlar, buna görə onların həyatları da bir cəhənnəmdir.

## 27-Cİ SÖHBƏT
## 4 SENTYABR, 2010-CU İL, HARUNYAHYA.TV

**OKTAR BABUNA:** Siz münafiqlərin gizli cəhətlərini ən incə nöqtələrinə kimi açıqlayırsınız, maşAllah. Allah razı olsun. Mübahisəçi olduqlarını, ağılsız şərhlər etdiklərini demişdiniz. Bir ayədə münafiqlərin Peyğəmbərimiz (s.ə.v) ilə əxlaqsızcasına mübahisə etdikləri xəbər verilir. "**Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər, sanki gözləri baxa-baxa ölümə sürüklənirdilər". (Ənfal surəsi, 6)**

**ADNAN OKTAR:** Bəli Peyğəmbər (s.ə.v)-lə həmişə mübahisə edirdilər. Yəni Peyğəmbərimiz (s.ə.v)-i öz axmaq ağıllarına görə Quranla guya susdurmağa çalışırdılar. Hər dəfə də rəzil, rüsvay olmuşdular. Peyğəmbərimiz (s.ə.v)-in evlilikləri dillərindən düşmürdü. Peyğəmbərimiz (s.ə.v)-ə özlərini hədiyyə edən qadınlar var idi, buna görə də çox narahat olurdular. Bİr çox mömin qadın özünü mehrsiz olaraq hibə etmişdi. Birbaşa Peyğəmbər (s.ə.v)-ə "mən səninəm" dedilər. Bu da münafiqlərin acığına gəlirdi. Allah Quran ayəsində ona xüsusilə diqqət çəkdi və xalasının, bibisinin qızlarını, hamısını Peyğəmbərimiz (s.ə.v)-ə halal etdi. Peyğəmbərimiz (s.ə.v)-in coşğusu, sevgisi, qadınlara qarşı olan məhəbbəti bu ağılsızların, ruhi xəstə tiplərin acığına gəlirdi, ona həsəd aparırdılar. Allah onlara alçaldılmağı, rüsvay olmağı, Peyğəmbərimiz (s.ə.v)-ə isə qüruru, gözəlliyi, izzəti, şərəfi, xoşbəxtliyi və sevinci, cənnəti nəsib etdi. Hamısından da vacib Allahın razılığını nəsib etdi, əlhəmdulillah.

**OKTAR BABUNA:** Münafiqlər həm də Peyğəmbərimiz (s.ə.v)-in tədbirlərini də öz ağıllarına görə bəyənmirdilər və qəribsəyirdilər, siz daha yaxşı bilərsiniz, inşaAllah. Bu da ayədə belə bildirilir, şeytandan Allaha sığınıram: **"Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar. Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər. Kaş ki, onlar Allahın və Onun Elçisinin onlara verdiyinə razı qalıb: "Allah bizə yetər. Allah da bizə Öz lütfündən verəcək, Onun Elçisi də. Həqiqətən də, biz Allaha rəğbət bəsləyirik" - deyəydilər." (Tövbə surəsi, 58-59)**

...

**ADNAN OKTAR:** Hz. Mehdi (ə.s) dövründə insanlar ləng hərəkət edəcəklər. Hz. Mehdi (ə.s)-ın camaatına qoşulmayacaqlar. Ona görə, bu mübarək birliyin sayı 313 adam olacaq. Onlara imtahan olaraq baş verən həbs, sürgün, böhtan, təhqir kimi çətinliklərdən, müsibətlərdən təsirlənib onlardan uzaqlaşacaqlar və ayədə deyildiyi kimi

uzaq qalmalarına sevinib belə deyəcəklər: **"Doğrusu Allah, mənə nemət verdi, çünki onlarla birlikdə olmadım"** (Nisa surəsi, 72). Bu, münafiqlərin sözüdür. Gülşən Dağçı "bu saxtakarlar Allahı xatırlayaraq, özlərini təqvalı kimi göstərməyə çalışaraq, hz. Mehdi (ə.s)-ın camaatına qarşı mübarizə aparacaqlar" deyir. Bu mesajı, Sinop 28.06.2009 tarixində saat 13:12-də göndərmişdir. Nisa surəsi, 72-ci ayədə Allah belə bildirir: **"İçərinizdə elələri də var ki, (cihada çıxdıqda) (özlərini) yubandırar və sizə bir müsibət üz vermiş olduqda: "Allah mənə mərhəmət göstərdi ki, mən onlarla birlikdə (bəlaya düçar) olmadım" deyər".** Münafiqlər işi həmişə yubadarlar, hər şeyi çətinləşdirərlər, işi uzadarlar. Bir qismi də bunu cahilliyindən edər. Lakin Allah hz. Mehdi (ə.s)-ın camaatına zəfər verib İslam əxlaqı dünyaya hakim olanda həmin kəslər **"kaş ki, onlarla birlikdə olsaydıq beləcə biz də böyük "qurtuluş və xoşbəxtliyə" çatsaydıq. (Nisa surəsi, 73)"** deyəcəklər. Bu münafiqlərin əxlaqıdır. **"Əgər sizə Allahdan bir fəzl (zəfər) üz versə...",** yəni hz. Mehdi (ə.s) və camaatı bir zəfər qazansa, İslamiyyət dünyaya hakim olsa: **"onda guya sizinlə onun arasında heç vaxt bağlılıq olmamış kimi: "Kaş mən də onlarla birlikdə olub böyük bir uğur qazanaydım!" deyər".** "Ayənin işarə etdiyi məna hz. Mehdi (ə.s)-ın dövrünə və Axırzamana aiddir" deyir.

...

**ADNAN OKTAR**: "Münafiqlik haqqında söhbət açılmışkən bir şey soruşmaq istəyirəm, inşaAllah. Bundan sonra küfr dələlətinə düşmərəm Allahın icazəsi ilə, amma münafiq olmaqdan çox qorxuram. Özümü bəzən çox səmimiyyətsiz hiss edirəm...". Nə gözəl, bu mömin əlamətidir. Münafiq onsuz da heç nəyi vecinə almaz. Amma münafiq olduğundan da əmin olar. Dediyim kimi "it" desən, "mənəmi dedin?" deyər. "Alçaq" desən, "mənəmi dedin?" deyər. Yəni nə desən, "mənəmi dedin?" deyər. Hər yerdən dəlillər çıxartmağa çalışar. Məsələn, "ağ kağız" desən, "mənim üzüm də ağdır, deməli bunun mənimlə əlaqəsi var, mənə deyirsən" deyər. Mütləq bir şey tapar və özünə aid edər. Amma səmimi mömin münafiq olmaqdan qorxar, çəkinər və münafiqə aid olan ayələrdən də ən çox mömin insanlar çəkinərlər. Bu ayələr yalnız möminləri maraqlandırar. Münafiq onsuz da münafiqə aid olan ayələri qəbul etməz, Quranı qəbul etmədiyinə görə, Quranda verilən xəbərdarlığı da qəbul etməzlər. Münafiqlər, münafiqə aid olan ayələrdən ancaq rüsvay olmalarına və alçaldılmalarına görə qorxarlar. Ayələrin yalnız bu cəhəti onları narahat edər. **Çünki Quranı elə izah edirik ki, yəni münafiqi təyin etməmək qeyri-mümkün olur. Münafiq də eqoist və qürurlu olduğuna görə hər izah edilənlər onun ox kimi ciyərinə batar. Elə bil başına çəkiclə vurarlar. Hər dəfə dəli kimi olar.** Tam hədəfi nişan alırıq. Hər məlumat bir hədəfi nişan alır. Ətrafındakı insanlar da bilir münafiq olduğunu, özü də bilir. İzah edilənlər də birə-bir uyğun gələndə "xeyr" deməyə halı da qalmayacaq. Yəni "bu uyğun gəlmir" deyə bilməyəcək. **Hər kəsin özünün başa düşdüyünü (yəni münafiq olduğunu) anlamaqlarından qorxar.** Yoxsa münafiq onsuz da Quran ayəsinə inanmaz. Yəni onu maraqlandırmaz. Amma müsəlman münafiq ayələrinin

hamısından çox çəkinər. "Aman Allah, görəsən bu ayə mənə aiddir?. Məndə belə bir xüsusiyyət varmı?" deyər və Allaha sığınar, hərəkətlərini düzəldər, özünə fikir verər. Münafiq heç birini qəbul etmədiyinə görə yalnız alçalmağından qorxar və həmişə bunun qorxusu ilə yaşayar. Ondan xilas olmaq üçün də yeni taktikalar, üsullar axtarar. "Mən Allahı xatırlayıram, Quranla danışıram, buna baxmayaraq mənim münafiq olduğumu necə bilərlər? Necə nəzərə çarpdım?" deyər. Münafiq yaralı bir donuz kimidir. Həmişə özünü gizlətməyə çalışar, amma yenə də özünü ələ verər.

"Özümü bəzən çox səmimiyyətsiz sayıram. **Münafiqlər münafiq olduğunu bilir? Bu suala cavab versəniz çox sevinərəm. Bu mesajı yazanda söhbət sona çatdı, nəsibdir artıq**" deyir qardaşımız. Nəsib tükənməz, Yasəmən. Görürsən, Allah yenə nəsibini ayağına, yaxınına gətirdi... Özünü səmimiyyətsiz görməyin səmimiyyət əlamətidir, səmimi olduğunu bildirir. Münafiq özünün münafiq olduğunu **bilir, həm də necə bilir, yəni beyninin ən son hüceyrələrinə kimi bunu bilir, amma heç vaxt da bunu qəbul etmək istəməz. Dili ilə qəbul etməz, amma ürəyi ilə başa düşər.**

Deyilənləri özlərinə aid etməzlər, amma axirətə gedəndə: "Biz belə bir şey etməmişik. Belə bir hadisə olmayıb" deyirlər. Allah ilə orada, haşa, öz ağıllarına görə mübahisə etməyə başlayırlar. Münafiqlər elə mürəkkəb və elə alçaqdırlar ki, onlara söz çatdırmaq olmur. Çünki yaralı dələ kimi, oradan-oraya hoppanar, oradan-buraya hoppanar. Amma axirətdə bunu edə bilmirlər. Hoppananda da həmişə donuz ovu kimi olar. Bu, müsəlmanın çox xoşuna gələr, əylənər. Münafiqlər həmişə özlərini ələ verərlər, ona görə də tutularlar, imanın nuru ilə başına vurarsan və o nur onu parçalayar. Axirətdə də Allaha qarşı bu hərəkətləri etmək istəyirlər, haşa. "Mən belə bir şey etməmişəm, fikirləşməmişəm" deyir. Dili isə: "sən fikirləşdin" deyir. "Mənim dərimin belə bir əlaqəsi yox idi, əlim belə bir iş görmədi" deyər. Əli, dərisi danışmağa başlayar və etdiyini deyər. "Buna nə oldu?. Bu necə olur danışır?" deyər. Hər şeyə nitqi verən, Allahdır, onları da bu cür danışdırdığını ifadə edir. Axirətdə bu, möcüzədir. Yəni münafiqlərin, küfrün məhv olacağı bir möcüzədir. Çox böyük əzab çəkəcəklər. Bədən orqanları danışmağa başlayacaq. Digər münafiqlər demoqoqdurlar. Məsələn: "Məni niyə cəhənnəmə saldın? Mən nə etdim?" deyir Allaha. Dərisi, dili, əli cavab verir, gözü cavab verir. Yəni bədən orqanlarını idarə edə bilmir. Ən çox bədəninə güvənirdi, hansı ki, axirətdə rüsvayçılıqla, bədəni pərişan halda yaradılar. Qapqara, gözləri bənövşəyi yaradılar. Başları geriyə dönmüş vəziyyətdə, yəni axirətdə insan üzü düz, küfrdə geriyə dönmüş vəziyyətdə yaradılır. Yəni üzünə baxanda peysərini görərsən. Üzünü görmək üçün arxa tərəfinə dönməsi lazımdır. Yəni üzü kürəyi tərəfdə olar. Elə olacaq, inşaAllah. Məhz orada Allah onları danışdırır. Orada alçaldılıb, rüsvay olarlar.

# 28-Cİ SÖHBƏT
# 5 SENTYABR, 2010-CU İL, KAÇKAR TV

ADNAN OKTAR: Bədiüzzaman onsuz da birbaşa bir küfr sisteminin olduğunu demir. "Münafiq hərəkatı" deyir. Münafiq sisteminin olduğunu deyir... Münafiqlərin də müsəlmanlar arasında güclü bir sistemi olduğuna görə, sırf Türkiyədə deyil, İslam aləmində böyük bir münafiq sistemi qurmuşlar. Türkiyədə də münafiq sistemi var. Kiçik halda, irili-xırdalı münafiq sistemləri yayılmışdır. Münafiq sistemində adamların təqvalı kimi görünməsi əsas şərtdir. **Amma praktikada İslam əxlaqının dünyaya hakimi olmasını istəməzlər, bunu bilmək çox vacibdir. Yəni Türk-İslam Birliyini istəməzlər. Amma bundan başqa hər şeyi edərlər. Bunlar dərviş olduqlarını deyər, saqqalını göbəyinə qədər uzadar, əlində təsbehi olar, hər şey edər. "Bəs İslam Birliyini niyə istəmirsən?"- soruşursan- "mən bunu istəmirəm" deyir. Əlbəttə ki, bunu açıq-aşkar demir, "bu fərqli bir mövzudur, mən əvvəl nəfsimi islah etməliyəm, ən böyük cihad insanın öz nəfsi ilə etdiyi cihaddır"** deyir. "Görürsünüz, çöldə nə qədər cazibədar bir mühit var, mən hal-hazırda ona qarşı cihad edirəm" deyir. "Bəs uşaqların nə edir?"-soruşursan- "onlar da cihad edir" deyir. Bununla da bu mövzunu bağlayar. **Bu cür bir çox hiyləgərliklə eqoist, yalnız özünü qurtarmağa çalışan bir sistem qururlar.** Məsələn, bir ailə olar və yalnız özünü qurtarmağa çalışar. Və yaxud ancaq öz iqtisadi azadlığını qazanmaq fikrində olar, ya da, yalnız təhsil almaq dərdində olar. **İslam aləmini bütünlüklə qiymətləndirən, hamısını birləşdirmək istəyən, Allahın əmri olan ruhu unudurlar.** Halbuki, bu dünyaya gəlməyimizin yeganə məqsədi  Allaha qul olmaq və İslam əxlaqını dünyaya hakim etməkdir. Əslində İslam əxlaqını dünyaya hakim etmək çox asandır, sadəcə insanlar, bunu gözlərində böyüdürlər, şeytan onlara böyütdürür. Məsələn, namazı da insanlar gözündə böyüdərlər, amma bir də baxar, namazı çox rahat qıldığını görər. Yaxud başqa bir ibadət olar, məsələn, oruc tutmağı gözündə böyüdər, amma oruc tutmağın çox asan olduğunu görər. İslam əxlaqının dünyaya hakimiyyəti də çox asandır. Yeganə, təkidlə çəkindikləri mehdiyyət məsələsidir. Bundan uzaq dururlar. Peyğəmbərimiz (s.ə.v)-in möcüzələrinə, gözəlliyinə qarşı çox böyük sevgiləri varmış kimi görünərlər. Peyğəmbərimiz (s.ə.v)-in olmayan, uydurma möcüzələr var, məsələn: "ağcaqanadın qanadını şorbanın içinə batırar, ağcaqanad da qabın kənarında dayanar". Bu olmayan bir hadisədir, amma bunu böyüdərək, böyük bir zövqlə izah edərlər. Bunu izah etmək yerinə Peyğəmbər (s.ə.v)-in həqiqətən baş vermiş möcüzələri var. Məsələn: "Kəbədə basqın olacaq" deyir. 1400 ildən bəri olmayan bir şeyi Peyğəmbər (s.ə.v), hz. Mehdi (ə.s) dövründə olacağını bildirir, həm də tarixini də deyir və dediyi hadisə də eynilə çıxır. Bu bir möcüzədir, amma heç bir qəzetdə, jurnalda nəşr edilmir. "15 gün ara verməklə Ay və Günəş tutulmaları olacaq" deyir Rəsulullah, bu çox böyük möcüzədir, bunu niyə nəşr etmirsiniz? Niyə bunu Peyğəmbərimiz (s.ə.v)-ə yaraşdırıb, böyük həyəcanla izah

etmirsiniz? O dövrdə İranla İraq arasında döyüş olacağını deyir, bu da çox böyük bir möcüzədir, dediyi kimi də çıxır, amma bunu izah etmirlər. Quyruqlu ulduzun çıxacağını deyir, Lulin quyruqlu ulduzu, eynilə dediyi kimi də çıxır, Halley quyruqlu ulduzunun çıxacağını deyir, eynilə də çıxır. Buna bənzər yüz əllidən çox hadisə var. Hər gün Peyğəmbər (s.ə.v)-in bir möcüzəsini açıqlayın, izah edin... Amma xurafat olanda dərhal, həyəcanla izah etməyə başlayırlar. Peyğəmbərimiz (s.ə.v)-ə qarşı həqiqətən hörmət və sevgi varsa, Peyğəmbərimiz (s.ə.v)-in möcüzələrinin izah edilməsi lazımdır. Bunlar təsdiqlənmiş, əllə tutulan möcüzələrdir. Qeyri-adi möcüzələrdir. Yəni İslam aləmində buna toplu qərar verilmiş kimi bəzi kəslər susurlar. Məsələn, bu gün internetə baxırıq, bu möcüzələri dildən-dilə dolaşdığını, bir-birlərinə izah etdiklərini görürük. Hər kəsin məlumatı var. Amma bəzi nəşr orqanları, özlərini bunlardan bixəbər kimi aparır. Məsələn, bir gün bir adam, Baş nazir ortaya çıxsa: "bunlar çox böyük bir möcüzədir, bunlar baş vermişdir, bunlar nə üçün danışılmır?"—desə, yer yerindən oynayar və dərhal bütün dünyada gündəmdə olar. Amma bu möcüzələrin xüsusilə bağlanıldığını görürük. Bu belə davam edəcək? Xeyr. Gələcəkdə bunları insanlar utancla, heyrətlə xatırlayacaqlar. Deyəcəklər, "bizə bu bir il, iki il, üç il izah edildi, dörd il izah edildi, təkidlə görməməzliyə vurduq, bu Allahın bir möcüzəsi idi, bəsirətimiz bağlandı. Bu necə oldu?" deyəcəklər. Məsələn, Türk-İslam Birliyini müdafiə etmədiklərinə görə utanacaqlar. Bunu məəttəl qalaraq xatırlayacaqlar, heyrətlənəcəklər. Hz. İsa (ə.s)-ın enişini inkar etdiklərinə görə utanacaqlar və elədiklərinə məəttəl qalacaqlar.

Bizim xidmətlərimizə mane olmaq üçün işlər görülər. Çünki əgər bu işlər olmasa insan bir az durğunlaşa bilər. **Münafiqlərin, küfrün hücumları insanı çox coşdurar, çox həyəcanlandırar.** Baxıram ateist saytlarda görürəm ki, tək məni hədəfə alıblar, bu çox xoşuma gəlir. Münafiq saytlarına baxıram, münafiqlərin tək hədəfi olduğumu görürəm, fəxr edirəm, maşAllah. Bu mənim üçün çox böyük bir şərəfdir. Məsələn, bir münafiq, baxmayaraq ki, dünyanın bir çox yerində küfr yaşanır, qeyri-qanuni həyat yaşanır, 7 milyardlıq dünyanın hamısına diqqət yetirə bilər. Amma heç biri ilə maraqlanmaz, birbaşa mənimlə maraqlanır. Mən və bizim fəaliyyətimizlə maraqlanır, bu, çox təəccüblü bir şeydir. Ətrafında qohumlarına baxsan, dəlalət içində olduqlarını, yoldaşlarına baxsan küfr içində batdıqlarını, digər yoldaşlarına baxsan münafiqlərlə bir yerdə olduqlarını görərsən. Küfrün, münafiqlərin düz ortasındadırlar, münafiqliyin başını çəkənlərdəndirlər. Yüzlərlə saytları var, hamısında da tək məni hədəfə alıblar. Bu nə gözəl bir nemətdir. Gözün başqa yerləri görmür. Həqiqətən bir iş görmək üçün kommunistlər var, ateistlər var, dinsizlər var, əxlaqsızlar var, min cür müxtəlif rüsvayçılıqlar var dünyada, narkomanlar var, zalımlar var, zülm edənlər var, müsəlmanları əzənlər var, Amerikada, Rusiyada, hər yerdə doludur. **Bunlara heç bir söz demədiklərinə görə, gecə-gündüz vaxtlarını mənə həsr etdiklərinə görə, deməli məndə**

**qeyri-adilik vardır inşaAllah, elə deyilmi? Əgər saytı sırf mənə görə açırsansa, deməli məndə qeyri adi bir şey vardır və mən də bununla fəxr edirəm.** Əks halda ən son xitab edəcəyin adam mən olardım. Amma mən ən başda olduğuma görə, deməli, ən əhəmiyyətli vəzifəni yerinə yetiririk, inşaAllah. Mən qüsursuzam, peyğəmbərəm demirəm, mən Allahın hər hansı bir quluyam. Amma o qədər küfr varkən, milyonlarla, milyardlarla küfr ayaqda ikən, on minlərlə, milyonlarla münafiq hücumuna məruz qalmışkən və sizlər də onların içində ikən, oturub məni əsas hədəf seçirsinizsə, deməli məndə qeyri-adilik görürsünüz. **Deməli, sizi çox yandırıram, ən yaralı yerinizə toxunuram, sümüyünüzə işliyirik, buna da** davam edəcəyik, ayağınıza (elmlə, fikirlə, sevgi ilə, biliklə) basacağıq və xəmir kimi yayacayıq, inşaAllah.

OKTAR BABUNA: Əvvəl icazə versəniz Bədiüzzamanın bir sözünü xatırlamaq istərdim: *"Axırzamanda dinsizliyin iki hərəkatı güclənəcək. Birincisi, nifaq pərdəsi altında Risalə-i Əhmədiyyə (s.ə.v)-i, yəni Rəsulullah (s.ə.v)-in peyğəmbərliyini inkar edəcəklər, Süfyan adında böyük bir şəxs, nifaq əhlinin başına keçəcək, yəni münafiqlərin başçısı olacaq, İslam şəriətinin təxribatına çalışacaq (yəni İslam şəriətinə qarşı mübarizə aparacaq). Ona qarşı, Peyğəmbərin Əhli-beytinin silsiləi -nuranisinə bağlanan əhli-vəlayət və əhli-kamalın başına keçəcək (yəni, Süfyan ordusuna qarşı, peyğəmbərin nəslindən bir şəxs başçı seçiləcək və Süfyana qarşı çıxan insanlara başçılıq edəcək). Əhli-beytdən olan Məhəmməd Mehdi adında nurani bir şəxs o Süfyanın şəxsi-mənəvisinin (yəni Süfyan ordusunun) hərəkatını məhv edib dağıdacaq",* inşaAllah.

Peyğəmbərimiz (s.ə.v), bir hədisdə də: ***"Ümmətimdən bir camaat həmişə Allahın əmri ilə düşmənlə onları məhv edənə kimi (elmlə) mübarizə aparacaq, müxalifləri onlara heç bir zərər verə bilməyəcək"*** deyir, inşaAllah.

# 29-CU SÖHBƏT
# 5 SENTYABR, 2010-CU İL, HARUNYAHYA.TV

**OKTAR BABUNA:** Siz daha yaxşı bilərsiniz, inşaAllah. Münafiqlər öz dayaz ağıllarına görə Peyğəmbərimiz (s.ə.v)-in tədbirlərini bəyənmirdilər və qəbul etmirdilər. Ayədə belə bildirilir: Şeytandan Allaha sığınıram: **"Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar. Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər. Kaş ki, onlar Allahın və Onun Elçisinin onlara verdiyinə razı qalıb: "Allah bizə yetər. Allah da bizə Öz lütfündən verəcək, Onun Elçisi də. Həqiqətən də, biz Allaha rəğbət bəsləyirik" - deyərdilər." (Tövbə surəsi, 58-59)**

**ADNAN OKTAR:** **İndi münafiqlərin bir xüsusiyyəti vardır, hansı ki, çox əsas təməl xüsusiyyətlərindən biridir, küfrlə mübarizə aparmazlar. Küfr, onlar üçün problem deyil. Digər münafiqlərlə də mübarizə aparmazlar. O da problem deyil.** Kimlə mübarizə aparar, bilirsiniz? Ən əsas müsəlman qrupla və yaxud hər hansısa bir müsəlmanla mübarizə aparar. Məsələn, ətrafında soysuzlar, əxlaqsızlar, fahişəlik edənlər, qeyri-qanuni əlaqəyə girənlər (zina edənlər), pozğunlar olar. Hətta onlarla çox yaxın dost olarlar, onları qucaqlayar, onlarla bir yerdə yaşayar, onların qanını sovurar, çirkini iyləyər, onlarla yaşayar. "Sən indi müsəlman olduğunu deyirsən, çox gözəldir. "Amma bax ətrafında küfr var, münafiqlər var, əxlaqsızlar var" deyəndə "mənim dərdim onlar deyil" deyər. "Bəs nədir sənin dərdin?" O dövrdə ən bacarıqlı hesab etdiyi kəs, ona münafiq olaraq yönəlirdi. Peyğəmbərdimiz (s.ə.v)-in dövründə münafiqlərin mübarizə aparacağı adam yox idi? Küfr, əxlaqsızlar, fırıldaqçılar, bir çox insan var idi. Bunların heç biri münafiqləri maraqlandırmırdı. Kim maraqlandırırdı bilirsiniz? Peyğəmbərimiz (s.ə.v), tək hədəf o idi. Onu tənqid edirdilər, Onun haqqında danışırdılar, Onun evliliklərini, onun qadınlara qarşı məhəbbətini, onun etdiyi hərəkətlərini öz ağıllarına görə qüsurlu gördüklərinə görə, haşa, rəftarını və s. gündəmdə tuturdular. Amma özləri gedib pozğunların qucağında otururdular, əxlaqsızlarla bir yerdə olurdular. Peyğəmbər (s.ə.v) dünyanın ən gözəl, ən müqəddəs insanı idi, sən niyə məhz onu hədəfə alırsan? Elə kafirlərlə, küfrlə, üsyankarla, dəlalətlə, pozğunlarla, fırıldaqçılarla maraqlan. Vaxtını onlara sərf edib, onlara qarşı mübarizə apar. Etməz, çünki şeytan onları vəzifələndirmişdir, yalnız müsəlmanlara qarşı olmalıdırlar. Müsəlmanlara qarşı çıxarlar. Münafiqlər müsəlmanın enerjisidir. Əgər müsəlmanın yanında kafir və münafiq yoxdursa, bir əksiklik olar, çox ciddi bir əksiklik olar. **Allahın bir lütfüdür. Allah münafiqləri və küfrü, müsəlmanların qarşısına çıxarar ki, igidlikləri, gücləri, təsirləri üzə çıxsın.** Başqa cür olmaz. Yəni bir əzən, yıxan güc var, bir də əzilməli olan mikroblar var. Onlar olmasa əzən, yıxan kəs olmaz. Bu zaman kimi

əzəcəksən? **Elə bil yod (dərman) var, amma mikrob yoxdur. Penisillin var, amma mikrob yoxdur. Allah yodu yaradarsa mikrobu da yaradar. Yodu mikrobun üstünə vurmalısan.**

Münafiqlərin bir xüsusiyyəti vardır, İslam əxlaqının dünyaya hakim olmasından ümidlərini kəsərlər. Bunu da hər dəfə bir vasitə ilə deyərlər. Məsələn, münafiqlər Peyğəmbərimiz (s.ə.v)-ə xəbər göndərirdilər. "Kömək yeriniz qalmadı, qələbə qazana bilməyəcəksiniz, bacara bilməyəcəksiniz, sizin edəcəyiniz iş deyil, sayınız azdır, gücünüz çatmaz, artıq vaz keçin, küfr çox güclüdür" deyirdilər. Lakin Rəsulullah (s.ə.v), Allahın istəyi ilə əzə-əzə, sökə-sökə İslam əxlaqını hakim etdi. Şeytandan Allaha sığınıram, Hicr surəsi, 55-56-cı ayələrdə Allah belə buyurur: **"Dedilər ki: "Biz sənə həqiqətlə müjdə veririk. Sən ümidini üzənlərdən olma! Dedi**: "**azanlardan başqa Rəbbinin mərhəmətindən kim ümidini üzər**?”. Çox mənalı ifadədir, dəlalətdə olanlar demir, məhz **“azanlardan (pozğunlardan) başqa”**, bunlar da münafiqlərdir. Münafiqlərin hamısı yolunu azanlardır, pozğunlardır. **"Dedi: "azanlardan başqa Rəbbinin mərhəmətindən kim ümidini üzər**?”. "Mən ümidimi kəsmərəm" deyir. **Ona görə münafiqlərin əsas xüsusiyyətlərindən biri də ümidini kəsməyidir, müsəlmanların da ümidlərinin ölməsi üçün əllərindən gələni edərlər. Bunu Quranda görürük.** “Kömək yeriniz qalmadı nə deməkdir?. "Yəni dağılın, yapışacaq yeriniz qalmadı" deyir. **Ey münafiqat və münafiqun, münafiq ordusu, müsəlmanların sığındığı yer Allahdır. Hablullah-ul Mətin, Urvet-ül Vuska olan Allahın ipidir.** Buna görə sığınacaq yerləri var. **Allaha möhkəm-möhkəm sarılmışlar və zəfər möminlərindir, zəfər mehdiyyətindir, zəfər hz. İsa Məsihindir, inşAllah.** İslam əxlaqı dünyaya hakim olacaq, ey münafiqlər mən də o dövrdə sizləri görəcəyəm, inşaAllah. Az qalıb, bir az səbir etsəniz görəcəksiniz.

Səba surəsi, 34-cü ayədə Allah: **"Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-cəlal içində yaşayan qudurmuş başçıları (varlıları)..."** deyir. Diqqət etsək onların, cah-calal içində yaşayayıb qudurduqlarını görürük. Gedib gənə kimi atasına, əmisinə, babasına nəyidirsə ona yapışıb, bunlar mirasda yeddi dəstədir, var-dövlətdən şişiblər. Manyak kimi şişərlər, bu, münafiqlərin xüsusiyyətidir. Bu cür şişən, quduran varlıları, başçıları ümumiyyətlə, cəmiyyət bu vəziyyətə gətirər, öndə gedən kimi tanıyarlar. Yoxsa bunlar, qeyri-adi bir xüsusiyyətə malik deyillər. **"“Biz sizinlə göndərilənləri inkar edirik!” dedilər".** Yəni "Biz nə İslam əxlaqının dünyaya hakimiyyətini qəbul edirik, nə hz. Mehdi (ə.s)-ı qəbul edirik, nə də İslam Birliyini qəbul edirik. “Belə bir şey olmaz. Qəbul etmirik" deyirlər. Münafiqlərin dərdi özlərini malın, övladların daha çox olmalarına görə, özlərini üstün saymalarıdır. Münafiq olduğuna görə əsas hədəfi mallar, övladlardır. Bunu da pullarını daha da çoxaltmaq üçün, dünyasını daha da genişləndirmək üçün istəyərlər. Malı, övladı **Allah üçün deyil, Allaha qarşı, haşa, mübarizə aparmaq üçün istəyərlər. "Daha çoxuq” demək üçün istəyərlər.** Allah **Səba surəsi, 35-ci ayədə: "Onlar: “Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir” dedilər**" buyurur. Özlərini çox təqvalı hesab etmələrinin

yeganə səbəbi məhz budur. Səba surəsi, 28-ci ayədə: "**Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən (bir peyğəmbər) kimi göndərdik. Lakin insanların çoxu (bunu) bilmir"** deyilir. Bu ayə həm Peyğəmbərimiz (s.ə.v)-in dövrünə aiddir, həm də hz.Mehdi (ə.s) -ın dövrünə işarə edir. Yəni: "Ey Mehdi, Biz səni bütün insanlara ancaq bir müjdə verən, İslam əxlaqının dünya hakimiyyətini müjdələyən, İslam Birliyini müjdələyən, Quranın dünya hakimiyyətini müjdələyən, ədalətin, bolluğun, bərəkətin gələcəyini müjdələyən, müsəlmanlara da cənnəti müjdələyən bir müjdə verici və elçi olaraq göndərdik. Allah heç vaxt darvinizm və materializmə qoşulmayasınız deyə, dələlətə düşməyəsiniz, münafiqlərin arxasınca getməyəsiniz, küfrün, dələlətin əlinə düşməyəsiniz deyə elçi göndərdik, ancaq insanların çoxu bilmirlər" deyir. Hal-hazırda hz. Mehdi (ə.s)-ı insanların çoxu tanıyırmı? Xeyr, bilmirlər. Peyğəmbərimiz (s.ə.v)-i də o dövrdə insanlar tanımırdılar. Səba surəsi, 29-cu ayədə: **"Onlar: "Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?" deyirlər"** bildirilir. Yəni hz. Mehdi (ə.s)-ın nə vaxt çıxacağını, hz. İsa (ə.s)-ın nə vaxt enəcəyini, qiyamətin nə vaxt qopacağını bilmək istəyirdilər. Mən ayəni indiki dövrümüzə aid olan tərəfini şərh edirəm. Ayədə **"De: "Sizə vəd edilmiş bir gün vardır ki, siz onu nə bircə saat belə yubada, nə də tezləşdirə bilərsiniz. (Səba surəsi, 30)"** deyilir. Yəni hz. Mehdi (ə.s), deyilən günün saatında çıxar, hz. İsa Məsih (ə.s) deyilən gündə, saatda enər, qiyamət deyilən günün saatında qopar, heç bir şəkildə dəyişiklik olmaz.

Qəsas surəsi, 76-cı ayədə Allah belə buyurur: **"Həqiqətən, Qarun Musa qövmündən (Musanın əmisi oğlu) idi. Onlara (İsrail oğullarına) qarşı (zülm etməkdə, Musanın üzünə ağ olmaqda və özünü yuxarı tutmaqda) həddini aşmışdı".** Yəni Qarunun birdən münafiqliyi tutur, qudurur. Əslində hz. Musa (ə.s)-ın qövmündən idi, onlarla birlikdə hərəkət edirdi. Sonra pul, dünya, mal-mülk ehtirası onu qudurdur və müsəlmanlardan ayrılır. O dövrün münafiqi idi. Allah "həddini aşdı" deyir. Yəni qudurdu, müsəlmanlara qarşı çıxdı. **"Biz ona açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik"**-yəni-"bol miqdarda mal verdik", deyir Allah. **"Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevməz"**. Yəni: "boş yerə öyünürsən" deyir, çünki öyünmək, qudurmaq küfrdən qaynaqlanır. Çünki küfrə düşməyən elə öyünməyə cəsarət edə bilməz. **Münafiqlərin cəsarətinin səbəbi də küfrdür. Müsəlmanlara qarşı belə qoçuluq etmələrinin, azğınlaşmalarının, başçılıq etmələrinin səbəbi küfrdür. Küfr olmasa, küfrdən qaynaqlanmasa, münafiq elə qudura bilməzdi.** Təxəyyül də edə bilməzdi. Münafiqin əxlaqsızlığının bir səbəbi də budur. **Göstərdiyi çirkin cəsarətinin tək səbəbi küfrdür.** Çünki əgər müsəlmanlarla qarşılaşsa: "Bax mənim arxamda küfr ordusu var, münafiq ordusu var, mən onlara güvənirəm" deyəcək. "Siz Allaha güvənirsiniz, mən də küfr ordusuna güvənirəm" deyəcək. Adətən münafiqlər müsəlmanlarla heç maraqlanmamalıdırlar. Amma münafiqin dərdi-səri müsəlmanlardır. Əsas işləri budur. Gedib küfrlə, dələlətlə, üsyançılarla, satanistlərlə, darvinistlərlə, materialistlərlə maraqlanmaz. Məhz müsəlmanlarla maraqlanırlar və bunlar koloniya halında, qrup

halında yaşayarlar. Ayrı-ayrı fikirləri olar, amma it sürüsü kimi qruplar halında, birlik halında yaşayarlar. Məsələn, it sürüsü ayrı yaşayar, kaftar sürüsü ayrı yaşayar, amma koloniya halındadırlar, ayrılmazlar, inşaAllah.

Münafiqlər, həmişə müsəlmanlar haqqında xəbər axtararlar. Dərdləri ancaq müsəlmanlar barədə xəbər, məlumat toplamaqdır. Şeytandan Allaha sığınıram, Allah Qəsas surəsi 66-cı ayədə belə buyurur: **"O gün xəbərlər onlardan gizli qalacaqdır. Onlar bir-birindən (heç bir şey) soruşa bilməyəcəklər".** Yəni artıq xəbər alma imkanları olmayacaq, nə internetdən, nə küçədən, nə başqa yerdən xəbər ala bilməzlər. Allah Qəsas surəsi, 61-ci ayədə belə buyurur: "Məgər verdiyimiz gözəl bir vədə (cənnətə) qovuşan kəs". Yəni müsəlmanlara nə vəd olunur? İslam əxlaqının dünyaya hakimiyyəti, İslam Birliyi, hz. Mehdi (ə.s)-a qovuşmaq vəd edilib. Allah: **"Məgər verdiyimiz gözəl bir vədə (cənnətə) qovuşan kəs..."** deyir. Yəni İslam əxlaqının dünya hakimiyyətinə, hz. Mehdi (ə.s)-a və hz. İsa Məsih (ə.s)-ın gəlişinə qovuşanda Quranın Axırzamandakı izahı ediləcək, inşaAllah. Ayənin davamında Allah: **"Dünya həyatının keçici zövqünü bəxş etdiyimiz"**—deyə buyurur. Yəni ev, bir az yemək, avtomobil, gəzmək, əylənmək, yəni keçici, az mənfəətlərə görə: **"Zövqünü bəxş etdiyimiz, sonra da qiyamət günü (cəhənnəmə) gətirilənlə eyni ola bilərmi?"** deyir Allah. Allah **"Münafiqlər və kafirlər kimidirmi?"** deyir. Onlara: "İmkanlar verərik, amma qarşılığı çox çətindir" deyir Allah, inşaAllah.

Münafiqlərin azğınlığına baxın. Nəml surəsi, 49-cu ayədə Allah belə buyurur: **"Onlar öz aralarında Allaha and içib...".** Münafiq tək olmaz. Mütləq it sürüsü kimi bir yerdə gəzərlər. İt sürüsü kimi bir-birlərini qoruyarlar. Məsələn, bir sümük olanda həmişə o sümüyə birdən hücum edər. Hamısı o sümüyün biri kənarından dişləyər. Allah **"Onlar, öz aralarında Allaha and içib"** deyir. Yəni Allaha inananlar kimi, Allahdan qorxanlar kimi, Allahı da çox xatırlayanlar kimi öz aralarında Allaha and da içərlər. Qurandan çox dəlil gətirərlər. **"Onlar öz aralarında Allaha and içib belə dedilər: "Biz gecə ona və ailəsinə hücum edib (hamısını) öldürəcəyik".** Namərdləri görürsünüz. "Gecə ona və ailəsinə" deyirlər, yəni tək ona düşmən deyil, ətrafındakı insanlara da düşməndirlər. **"Bir hücum təşkil edim"** deyir. Bunu indiki dövrə aid etsək bu necə ola bilər? Yazılı, şifahi ola bilər, danışaraq ola bilər, xəbər verərək, böhtan ataraq ola bilər. **"Sonra da onun yaxın qohumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, düzünü deyirik".** Görün münafiqlərin namərdliyi ayədə necə vurğulanır?"**...Biz, həqiqətən düzünü deyirik". Münafiqin ən çox istifadə etdiyi sözlərdən biri budur, yəni özünə görə öz dürüstlüyünü vurğulayar, düz danışdığını deyər. "...Həqiqətən..."** deyir. **Öz ağıllarına görə hiyləgərliklərini edirlər. "Ailəsinin öldürüldüyünü görməmişik deyək"** deyirlər. Yəni Allah ayədə bildirir: "bizdən xəbərsiz olmuş, baş verdiyini bilməmişik".

Münafiqun surəsi, 1-ci ayədə Allah buyurur: **"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, həqiqətən də sən Allahın Elçisisən!" deyirlər".** "Artıq bəllidir, inanırıq biz" deyirlər. Halbuki, dəqiq inanmırlar. Nə Allaha, nə Peyğəmbər (s.ə.v)-ə, nə hz. Mehdi (ə.s)-a, nə hz. İsa (ə.s)-a... hamısına qarşı kinlidirlər. **"Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar".** Yalançı olduqlarına görə də: **"biz həqiqətən şahidlik edirik ki, sən qəti olaraq Allahın elçisisən..."** deyirlər. Ona görə münafiqin "Allah birdir, Peyğəmbər Allahın Rəsuludur" deməsi istisna olmaqla heç nəyinə inanmamalıyıq. Bir də ayəni düz oxusa inana bilərik, ondan başqa həmişə riyakarlıq edərlər, özlərindən asılı deyil, iblisin qucağında olduğuna görə həmişə riyakarlıq edərlər.

Mücadilə surəsi, 8-ci ayədə Allah: **"Gizli söhbət qadağan ediləndən sonra yenə də qadağan olunmuş əmələ qayıdıb günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq üçün öz aralarında pıçıldaşanları..."**-deyə buyurur. Yəni münafiq ilk mərhələdə həmişə gizli yığıncaqlar təşkil edər. Onun quş kimi yuvaya yığışmaq dövrü vardır. Müsəlmanlardan ayrılıb, oralarda münafiqlərlə və küfrlə gizli-gizli əlaqə qurarlar. İlk mərhələləri bu cür keçir. Məsələn, "hara gedirsən?" soruşanda, "kahı almağa gedirəm" deyər, halbuki, münafiqlərin təşkil etdiyi bir yığıncağa gedir. Təkrar "hara gedirsən?" soruşanda, "kök almağa gedirəm" deyər, yenə münafiqlərin bir yığıncağına gedər. "Qadağan olunmuş əmələ qayıdıb" deyir Allah. Yəni əvvəl etdikləri hərəkətlər qadağan edilir, "sənin etdiklərin normal deyil, oraya-buraya gedirəm deyirsən, amma bunlardan əl çək" deyilir, "bu cür yığıncaqlara getmə, bu cür söhbətlərə qoşulma, vaz keç"—deyə xəbərdar edilir. Amma yenə "qadağan olunmuş əməllərə qayıdıb...", yəni məhz azğın kimi, mütləq edəcək deyə yenə həmin əməllərə qayıdır. **"Günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq üçün"** deyilir ayədə. Necə ki, dövrümüzdə məsələn, hz. Mehdi (ə.s)-a, imama, əsrin imamına qarşı çıxmaq üçün, **"(aralarında) pıçıldaşanları görmürsənmi?"** deyir Allah, deməli, bunları görəcəyik. **"Onlar sənə gəldikləri zaman, səni Allahın salamladığı şəkildə salamlayarlar".** Bu, münafiqin xüsusiyyətidir, mütləq müsəlman olduğunu vurğulamağa çalışar, var gücü ilə təqvalı olduğunu vurğulamağa çalışar. **"Və öz-özlərinə: "Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır?" deyərlər. "**Yəni "Allah bəla vermir" deyərlər, "əgər belədirsə, əgər Axırzamandırsa, əgər hz. Mehdi (ə.s) zühur etmişdi, bəs hanı bütün bunlar? İslam əxlaqı dünyaya bir hakim olsun görək, biz də qarşı çıxmağa hazırlaşaq. Amma belə şeylər onsuz da olmayacaq" deyərlər. **"Bəs niyə Allah bizi dediklərimizə görə cəzalandırmır? Cəhənnəm onlara yetər. Onlar orada yanacaqlar. Ora necə də pis dönüş yeridir".** Onsuz da münafiqi cəhənnəm heç maraqlandırmaz, inşaAllah.

Tövbə surəsi, 107-ci ayədə Allah belə buyurur: **"(Müsəlmanlara) zərər vurmaq",** yəni münafiqin əsl məqsədidir bu. Münafiqlər küfrə, münafiqlərə, darvinistlərə, materialistlərə zərər vermək istəməzlər, onlarla fikri ya da elmi mübarizə aparmazlar. **"Küfr etmək (inkar etmək)"**-deyilir ayədə, münafiqlər inkar edərlər, inkarı gücləndrərlər,

amma bunu açıq-aşkar etməzlər, gizli yollarla edər. **Yəni, özünü Quranı, hədisi müdafiə edən kimi apararaq inkarı gücləndirər, dinsizliyi gücləndirər. "Möminlərin arasını ayırmaq"-deyilir ayənin ardında. Yəni müsəlmanların bölünməsi üçün işlər görər.** Münafiqin ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Məsələn, küfrün, münafiqlərin bölünməsini istəməz, çünki küfrə arxalanır. Münafiqlərin bölünməsini istəməz, çünki kürəyini söykəyir. Tüğyan və dəlalətin bölünməsini istəməz. **"Möminlərin arasını ayırmaq və daha əvvəl Allaha və elçisinə qarşı döyüşəni müşahidə etmək üçün"- deyir Allah**. Onların gəlməsini gözləyirlər. O dövrdə müsəlmanlara zərər vermək üçün iş görürdülər. Xəbərçilik edərlər, sonra da uzaqdan güdərlər. Münafiqlər çox hiylə ilə xəbərçilik edərlər. Açıq-aşkar etməzlər, gizlicə xəbər verərlər, məsələn, bir xəbər göndərər o xəbərin içində də bir xəbər olar. Yəni xəbərlə xəbərçilik edər. Quranda, hədisdə biz bunu çox açıq görürük. Məsələn, bir xəbər göndərər, "onların yapışacaq yerləri qalmadı" deyərək bir məktub yazar, bu bir xəbərdir. Küfrə deyirlər ki, "yapışacaq yerləri qalmadı, bunlar zəif, hər an əzə bilərsiniz" deyərlər. Müsəlmanlara da küfrün gücü, imkanları var deyərək panikaya salacaqlarını fikirləşərlər. Bu sözləri deyərək eyni zamanda bu küfrə bir xəbər vermiş olurlar. Xəbərçilik edəndən sonra da "nə var bunda, səmimi olaraq bir məktub yazdım" deyərlər. Bu xəbərin küfrün əlinə keçəcəyini bilirlər. Yəni mütləq bu xəbərdən xəbərdar olacaqlarını bilərək edər bunu. Bu xəbərlər sayəsində o dövrdə həm müsəlmanları çaxnaşmaya salacaqlarını, həm də küfrü cəsarətləndirib, hücuma keçirəcəyini fikirləşirdilər. "**Zərər vermək, inkarı gücləndirmək, möminlərin arasını vurmaq və daha əvvəl Allaha və elçisinə qarşı döyüşəni müşahidə etmək üçün məscid tikənlər"** deyilir ayədə. Onların məscid tikdiyi yer onsuz da şeytanın yığıncaq təşkil etdiyi yer olur, yəni şeytani bir məscid, şeytan məscidi qururdular. Məsciddən kənar yığıncaq yeri olurdu. **"Biz yaxşılıqdan başqa bir şey istəmədik"- deyə and içəcəklər. Allah şahiddir ki, onlar yalançıdırlar".** Heç vaxt dillərindən Quran, hədis və "yaxşılıq, yoluna qoymaq, islah etmək istəyirik" kimi sözlər düşməz. "Get, küfrə danış bunları, onları islah et" deyərsən, "olmaz" deyərlər. Çünki "mən onlara arxalanıram" deyərlər. "Allah münafiqlərə qarşı mübarizə aparmağı əmr etdi" deyirsən, onlar isə "münafiqlərə də arxalanıram" deyər. "Münafiqlər üsyan edər, dəlalətdədirlər" deyirsən, onlar isə, "onlarsız mən heçəm, onlara arxalanıram, qorumalarına ehtiyacım var. Bir şey olsa mən kimə arxalanaram. Ona görə mən onlara əl vura bilmərəm" deyir. "Bəs kimdir sənin hədəfin? Müsəlmanlardır" deyir. "Onların bəzi səhvlərini görürəm, onlarla maraqlanacağam. Mənim mövqeyim budur" deyir. Allah "Yaxşılıqdan başqa bir şey istəmədik deyə and içənlər" deyir. Yəni bunlar dürüstlük, yaxşılıq, gözəllik, aranı düzəltmək, Allah rizası üçün xəbər verdim" deyərlər. Allah buna təkidlə diqqət çəkir.

Tövbə surəsinin 108-ci ayəsində Allah: **"Heç vaxt orada (münafiqlərin məscidində) namaz qılma"** deyir. Allah "Belə bir birliyə, belə bir düşüncəyə heç vaxt yaxınlaşma" deyir. **"İlk gündən təqva üzərində qurulmuş məscid, əlbəttə, namaz qılmağın üçün daha**

**layiqdir".** Yəni əsl müsəlmanların toplandığı yerdə olun. Sizə başqa bir yer göstəriləndə heç vaxt oraya getməyin. Çünki münafiqlər bir çox məscid qurarlar. **Müxtəlif yerlər, bölmələr düzəldərlər, hər birində də müxtəlif fikirlər qura bilərlər.** Allah **"İlk olan yer əsasdır"** deyir. Yəni ilk hz. Mehdi (ə.s)-ın olduğu yer əsasdır. Peyğəmbərimiz (s.ə.v) də o dövrün Mehdisi idi. Allah "Ora əsasdır. Ondan başqa bir yerə getməyin" deyir. **"Orada həqiqətən də mənəvi təmizlənməyi istəyən insanlar vardır. Allah da təmizlənənləri sevir..".** Diqqət edin, təmizləndiyini demir. **"Orada həqiqətən də mənəvi təmizlənməyi istəyən insanlar vardır"**-deyir. Allah təmizlənməyi istəyir və təmizlənmək üçün cəhd göstərənləri bildirir. Allah artıq təmizləndiklərini demir. Bu, Peyğəmbərimiz (s.ə.v) üçün də vardır, digər insanlar təmizlənməyə davam edirlər. **"Allah təmizlənənləri sevər"** deyir. Bir ibadətdir. Əksikliyini, qüsurunu müsəlmanlar özü Qurandan, hədisdən, ağlı və vicdanı ilə anlayır. **Amma münafiqlər müsəlmanları əsas hədəf götürərlər, küfrlə mübarizəni dayandırarlar, onsuz da onların təmizlənməsi deyə bir şey yoxdur.** Küfrün təmizlənib düzəlməsi üçün onlarla maraqlanmazlar, münafiqlərlə heç maraqlanmazlar. Çünki münafiqi onsuz da qoruyan, sahibi hesab edir.

**"Onlar: "Əgər biz Mədinəyə qayıtsaq ən qüdrətlilər (münafiqlər)",** yəni şəhərə qayıtsaq, ən eqoist, təkəbbürlü, maddi gücü, pulu, imkanları çox olan, siyasi gücü çox olan, münafiq dəstəyi və kafir gücü çox olanlar **"ən zəifləri (Peyğəmbəri və ona iman gətirənləri), əlbəttə, oradan çıxardacaqlar!". Münafiqlər, müsəlmanları zəif və gücsüz hesab edərlər, ona görə qoçuluq edərlər.** Qurana baxdığımızda bunu aydın görmək olur. Özünü güclü hesab etməyinin səbəbi, bütün küfrə arxalanmağından, arxasında milyonlarla insanın olmağından, müsəlmanların isə azlıq təşkil etməyindən qaynaqlanır. Çirkin cəsarəti bundan irəli gəlir. **"Ən güclülər ən zəifləri (ən həqirləri - Peyğəmbəri və ona iman gətirənləri), əlbəttə, oradan çıxardacaqlar!" - deyirlər. Halbuki, şərəf-şan da, (qüvvət və qələbə də) yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur, lakin münafiqlər (bunu) bilməzlər!"** Yəni dövrümüzə aid etsək qələbə Allahın, hz. Mehdi (ə.s)-ın və möminlərindir. Allah **"Ancaq münafiqlər bunu bilməzlər"** deyir. Münafiqun surəsini, Allah onlar üçün xüsusi surə olaraq "Munafiqun" adlandırmışdır. Bütün münafiqlər bu Münafiqun surəsindəkilərə aiddirlər. Amma münafiq bu surə ilə heç maraqlanmaz, çünki buna inanmırlar.

Allah, Nisa surəsi 138-139-cu ayələrdə belə buyurur: "**Münafiqlərə müjdə ver ki, onlar üçün şiddətli bir əzab vardır. O münafiqlər ki, möminləri qoyub kafirləri dost tuturlar".** Möminləri qoyub gedərlər. "Niyə qoyub getdin?"-deyirsən-"burada bir səhvini gördüm" deyər. "Yaxşı, bəs kafirin?" Kafir başdan-ayağa xətalıdır ki, onunla niyə dostluq edirsən? "O məni qoruyandır" deyir. "Münafiq? O da başdan-ayağa səhvdir, onunla niyə dostluq edirsən?" soruşursan. "O da məni qoruyandır" deyər. "Bəs üsyançılar, dələlətdə olanlar necə?" soruşduqda "Bəs biz kimə arxalanarıq? Onsuz da onlarla yaşayacağıq, onlar mənim əsl yoldaşlarımdır" deyir. "Yaxşı, bəs iblisin orduları, şeytanın orduları

necə?" soruşursan "biz onsuz da onun əmrindəyik" deyirlər. Şeytandan Allaha sığınıram, Allah ayədə belə buyurur: **"Münafiqlərə müjdə ver ki, onlar üçün şiddətli bir əzab vardır. O münafiqlər ki, möminləri qoyub kafirləri dost tuturlar".** Çünki onlardan pul gəlir, yemək gəlir, gücü onlarda tapır, onlara arxalanır, onların içində özünü daha azad hiss edir, rahat yaşayacağını düşünür. Allah **"(İzzət və) qüdrəti onların yanındamı axtarırlar?"** deyir. Yəni donuzun peyininin içində axtararlar, dövrümüzə aid edəndə bu mənanı verir. Allah **"Şübhəsiz, "bütün qüvvət və qürur" Allahındır"** deyir. Möminlərin yanında tapa bilmirlər, çünki möminlərin yanında həyatı təhlükəli, çətin görür. Özünü azad hiss edə bilmir. Donuzun peyininin içinə girəndə, ona çox gözəl gəlir. Donuzun murdar yerinə yapışır, orada yaşayır və Quranda da gördüyünüz kimi, həmişə Allahdan, təqvadan bəhs edərək "yaxşılıq etmək istəyirik, məqsədimiz budur" deyərlər. "Yaxşı, yaxşılıq etmək istəyirsən, küfrə qarşı mübarizəyə apar"-deyirsən-"mənim vaxtım yoxdur, yemək, içmək, əylənməkdən vaxtım az qalır, onu da müsəlmanlarla mübarizə aparmağa sərf edirəm, bundan başqa aparacağım mübarizə yoxdur" deyir. Özü kafirlərə, münafiqlərə arxalandıqlarına görə onlara qarşı mübarizə aparmazlar.

Şeytandan Allaha sığınıram; Allah "**elə isə, dünya həyatına qarşılıq axirəti satın alanlar",** yəni Allaha tamamilə təslim olanlar **"Allah yolunda mübarizə aparsınlar"** deyir. Bu ayə də əbcədi Axırzamanda hz. Mehdi (ə.s) dövrünü verir, inşaAllah. (Nisa surəsi 74)

Şeytandan Allaha sığınıram, Allah Nisa surəsi, 75-ci ayədə, müsəlmanlardan, bütün insanlardan, əsasən də dövrümüzdəki müsəlmanlardan belə soruşur: **"Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart".** "...**Xalqı zalım**..." deyir Allah, məsələn, Əfqanıstanda, İraqda və bir çox yerdə, sabaha kimi saymaq olar, müsəlmanlara zülm edirlər, hər yerdə müsəlmanlara qarşı zülm var. **"Bizə Qatından bir vəli (himayəçi, köməkçi)"**-yəni bir Mehdi "**göndər deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?**" deyir Allah. Yəni "niyə oturub qaldınız? Niyə bütün fitnə yer üzündə məhv olana kimi, din Allahın olana kimi vuruşmursunuz, mübarizə aparmırsınız?" deyir Allah. Bir daha oxuyuram ayəni: **"Sizə nə olub ki, Allah yolunda (hicrət etməyib, yaxud əsir kimi Məkkədə qalıb): "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) kənara çıxart".** Deməli, müsəlmanlar mütləq bir başçı, bir idarəçi, bir Mehdi istəyir. Bu, Allahın sünnətidir. Allah burada öz sünnətini açıqlayır. Yəni bu, Allahın qanunudur. **"Bizə Qatından bir vəli (qoruyucu sahib)" sahib, sahibi zaman, yəni Hz. Mehdi (ə.s) "göndər"** baxın, ayənin ikinci qismində davam edir; **"bizə Qatından bir kömək edən göndər" deyən zəif kişilər, qadınlar və uşaqlar adına mübarizə aparmırsınız?".** Müsəlmanlar bütün dünyada indi qurtuluş gözləyir. Xristian aləmi də gözləyir və pərişan haldadırlar. Lakin bunu möminlər "bir kömək edən göndər"—deyə söyləyir. Münafiq bunu söyləyə bilməz. Kafir onsuz da söyləməz. Münafiq söyləsə, onsuz da ilk əvvəl münafiqə qarşı mübarizə aparacaq, ona görə münafiq deməz. **"Bizə Qatından bir vəli"**-deyilir, yəni hz. Mehdi Allahın vəlisidir, qoruyucu sahibdir. Bu dövrün sahibi

kimdir? Sahibzamandır, elə deyilmi? Sahibzaman hz. Mehdi (ə.s)-dır, elə ləqəbi də sahibi zamandır. Bax sahib deyir burada: **"(sahib göndər) kömək edən göndər" deyən zəif kişilər, qadınlar və uşaqlar adına mübarizə aparmırsınız?".** Bu ayənin əbcədi də yenə mehdiyyəti göstərir.

Allah Nisa surəsi, 76-cı ayədə belə buyurur: **"Möminlər Allah yolunda, kafirlər isə tağut yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir".** Yəni möminlər, bütün mənliyi ilə, bütün gücləri ilə mübarizə aparırlar, inkar edənlər, müşriqun və müşriqat (müşrik qadınlar və müşrik kişilər), münafiqun və münafiqat (münafiq qadınlar və münafiq kişilər) və kafirlər isə Tağut yolunda döyüşərlər. "**Elə isə şeytanın dostları ilə vuruşun!**" deyir Allah, yəni münafiqlərlə, küfrlə mübarizə aparın. "**Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir**". Yəni münafiqlərin, küfrün hiyləli nizamı çox zəifdir. "Axmaq hərəkət edərlər, çox asanlıqla məğlub edərsiniz" deyir Allah, inşaAllah.

Allah, Nisa surəsi 77-ci ayədə belə buyurur: **"Məgər sən, özlərinə: "(Müharibədən) əl çəkin, namaz qılın və zəkat verin!" deyilən kəsləri görmədinmi? Onlara vuruşmaq vacib edildikdə, içərilərindən bir dəstəsi Allahdan qorxduqları kimi və ya daha artıq qorxu ilə insanlardan qorxdular".** Münafiqlər də elədir, çox qorxaq olduqlarına görə müsəlmanların yanından qaçarlar. Allahdan qorxmaz, amma insanlardan qorxar. İnsanlardan qorxduğuna görə, kefi və rahatlığına görə müsəlmanların yanından qaçarlar, sonra bax belə həyasız bir üsluba keçərlər: **"Ey Rəbbimiz! Vuruşmağı nə üçün bizə vacib etdin?"** deyərlər. Gördüyünüz kimi Allaha qarşı çox düşüncəsiz və həyasız bir üslub işlədirlər, haşa. **"Nə olardı ki, bizə yaxın vaxtadək möhlət verəydin!" dedilər".** Deməli, bu cür üslub münafiqlərə və küfrə aiddir, Allaha qarşı belə düşüncəsiz bir çirkin üslubu yalnız, münafiqlər və kafirlər cəsarətlə istifadə edə bilərlər. Müsəlman bunu etməz.

# 30-CU SÖHBƏT

# 7 SENTYABR, 2010-CU İL, HARUNYAHYA.TV

**OKTAR BABUNA:** Siz əvvəl də münafiqlərin Peyğəmbərimiz (s.ə.v)-i qısqandıqlarını, qısqanc olduqlarını demişdiniz, inşaAllah. Hz. Yusif (ə.s)-ın qardaşları da hz. Yaqub (ə.s)-ın ona olan sevgisini qısqanırdılar. Hətta onu şəhid etmək istəyirlər. Qısqanclıqdan gözləri qaralırdı. Ayələrdə də belə bildirilir. Şeytandan Allaha sığınıram: **"Bir vaxt onun qardaşları dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusif və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir. Yusifi ya öldürün, ya da onu uzaq bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməli salehlərdən olarsınız". Onlardan biri dedi: "Yusifi öldürməyin! Əgər ona qarşı hökmən nə isə etmək istəyirsinizsə, onda onu bir quyuya atın ki, karvanlardan biri onu götürsün!" Onlar dedilər: "Ey atamız! Sənə nə olub ki, Yusifi bizə etibar etmirsən? Həqiqətən də, biz ona xeyir arzulayırıq. Sabah onu bizimlə göndərsən, bir qədər əylənib oynayar. Biz onu mütləq qoruyarıq!". O dedi: "Onu aparmağınız məni narahat edər. Həm də qorxuram ki, sizin başınız oyuna qarışıb onu nəzarətsiz qoyduqda, canavar onu yesin". Onlar dedilər: "Biz bütöv bir dəstə olduğumuz halda canavar onu yesə, demək biz ziyana uğrayanlarıq". Qardaşları onu aparıb quyuya atmaq qərarına gəldikdə biz ona belə vəhy etdik: "Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən". Onlar axşam ağlaya-ağlaya atalarının yanına gəlib dedilər: "Ey atamız! Biz Yusifi əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar da onu yedi. Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən". Qardaşları onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. Yaqub dedi: "Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır"."** (Yusif surəsi, 8-18)

**ADNAN OKTAR:** Əlbəttə ki, hz. Yusif (ə.s)-ın qardaşları səhv iş görmüşdülər, amma orada da yenə münafiqlərə bir istinad var. Münafiqlərin nə qədər qısqanc olduqlarını, hadisəni hara qədər uzada biləcəklərini, cinayətkarlığa meyilli olduqlarını, nə qədər hiyləgər, adam öldürməyə meyli olduqlarını Quran göstərir. Əslində ayəni hissə-hissə oxusan daha yaxşı aydın olar.

**OKTAR BABUNA:** İnşaAllah. Onlar belə demişdi: **"Bir vaxt onun qardaşları dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusif və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir".**

**ADNAN OKTAR**: Məsələn, hz. Mehdi (ə.s)-ı və hz. İsa (ə.s)-ı götürək. Münafiqlər **hz. Mehdi (ə.s)-ı da, hz. İsa (ə.s)-ı da qısqanırlar.** Hər ikisinin də səltənətindən və gücündən narahat olurlar, yoxsa "gəldi, keçdi və ya 1000 il sonra gələcək" deməzlər. "570 il sonra gələcək" demələrinin mənşəyində də bunlar dayanır. Bir müsəlman dərhal görmək istəyər. **Sevdiyi bir dostuna "səni 1000 il sonra görəcəm" deyərmi?** Dərhal görmək üçün Allaha yalvarar, dua edər, istəyər. Əlbəttə ki, Osman Ünlü, Cübbəli bunları cahilliyindən deyir. Amma digərləri çox səmimiyyətsizdirlər.

**OKTAR BABUNA**: Allah "...**Biz bütöv bir dəstə olmağımıza baxmayaraq**..." -deyə buyurur.

**ADNAN OKTAR**: Məhz müşrik və münafiqlər bir-birləriylə çox sıx əlaqədə olarlar. Böyük bir kütlə yaradarlar. Ona görə o əlaqəyə, o gücə güvənərək təcavüzkarlıq edərlər. Hz. Mehdi (ə.s)-a qarşı da münafiqlər və müşriklər böyük bir birlik yaradacaqlar. Böyük ittifaq quracaqlar. Hz. Mehdi (ə.s)-ın fəaliyyətlərini dayandırmaq, Türk-İslam Birliyini dayandırmaq üçün çox sıx bir fəaliyyət göstərəcəklər. Allah Yusif surəsində buna diqqət çəkir. Yusif surəsi birbaşa mehdiyyəti izah edən bir surədir. Yəni hərtərəfli mehdiyyəti izah edən bir surədir, inşaAllah. Çünki Peyğəmbərimiz (s.ə.v) ***"hz. Mehdi (ə.s) hz. Yusif (ə.s)-a bənzəyər"*** deyir. Bu o deməkdir ki, hekayələrdə nə keçirsə, hz. Mehdi (ə.s)-a işarə edir.

**OKTAR BABUNA**: **"Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir."**

**ADNAN OKTAR**: Hz. Mehdi (ə.s)-ı və ona uyanları ağılsızlıqla günahlandıracaqlar. Quran ona işarə edir.

**OKTAR BABUNA**: **"Yusifi ya öldürün, ya da onu uzaq bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin".**

**ADNAN OKTAR**: Diqqət edin, birbaşa cinayət etməyi düşünürlər. Şəhid etmək istəyirlər. Amma ikinci yol nədir? Məsələn, insanı həbsxanaya atarsan, həbsxanada cinayətkar insanların yanına atanda orada hər hansı bir döyüşə, hər hansı bir hadisəyə, gərginliyə alışmış insanlar onu öldürmək istəyər və öldürə bilər. Bu bir oyundur, bir üsuldur. Ya da bir insanı hər hansı bir ölkədə qatil ruhi xəstələrinin içərisinə atsan, həmişə o dəli insanlar öldürməyə hazır olduğuna və dəli olduğuna görə oradakı adamı

qısqanar və ya hirslənər, hər hansı bir yolla öldürə bilər. Bu birbaşa adam öldürmə üsuludur. Nəticədə də "mən etmədim o etdi" deyəcək. Məsələn, E5 şose yoluna kiçik bir uşağı buraxar, uşaq da iməkləyərək gedər. Uşaq bilmədən bir küçədən digərinə keçər. Avtomobil də görməz vurub keçər. Soruşanda isə: "Mən, yalnız uşaq təmiz hava alsın deyə oraya buraxdım. Mənim məqsədim bu deyildi" deyəcək. Halbuki, məqsədi uşağı öldürmək idi. "Amma mən elə bir şey etmədim" deyəcək. Yəni vicdanını qurtarmaq və günahını boynundan atmaq üçün bir üsuldur. Üsullardan biridir. Bunun eyni formada hz. Mehdi (ə.s)-a qaşı ediləcəyini də anlayırıq. Quran buna işarə edir. inşaAllah.

**OKTAR BABUNA**: İnşaAllah, müəllimim. **"Bundan sonra siz əməli salehlərdən olarsınız".**

**ADNAN OKTAR**: Deməli, münafiqlər, müsəlman olduqlarını iddia edəcəklər. Müşriklər və münafiqlər yaxşı, mükəmməl bir müsəlman olmaq fikrində olacaqlar. Həm cinayətə meyilli, həm əxlaqsızlığa meyilli, həm də mükəmməl müsəlman olmaq fikrində olacaqlar. Yəni ayənin işarə etdiyi mənanı deyirəm, hz. Yusif (ə.s)-ın qardaşları üçün demirəm.

**OKTAR BABUNA**: **"Onlar axşam ağlaya-ağlaya atalarının yanına gəlib..."**

**ADNAN OKTAR**: **Münafiqlərin əsas xüsusiyyətlərindən biri də bol-bol saxta ağlamalarıdır.** Göz yaşı tökərlər. Saxta göz yaşı tökmək onun üçün bir oyuncaqdır. "Qorxdum" deyər ağlayar. "Utandım" deyər ağlayar. **Namuslu görünmək, yalan danışmaq, pul almaq, müttəqi, mömin kimi görünmək üçün ağlayar. Münafiqlər və müşriklər ağlamağı ümumiyyətlə, oyun üçün istifadə edərlər.** Bu həmişə etdikləri şeydir, amma səmimi ağlayanları tənzih edirəm, təbii.

**OKTAR BABUNA**: **"Dedilər ki: “Ey atamız! Biz Yusifi əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar da onu yedi. Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən."**

**ADNAN OKTAR**: Deməli, müşriklər və münafiqlər o qədər də sakit görünmürlər. Məsələn, biz hz. Mehdi (ə.s)-a qarşı da küfrün yaxud ateist masonların, ateist sionistlərin birbaşa, açıq-aşkar mübarizə aparacağı bəllidir, amma əsl münafiqlərin çox böyük bir şey edəcəyini, onların öldürmək məqsədi olduğunu və hz. Mehdi (ə.s)-ı dayandırmağı

hədəflədiyini görürük. Həm də böyük bir gücə sahib olduqlarını görürük, Quran buna işarə edir, Allahualəm.

**OKTAR BABUNA: "Qardaşları onun köynəyinə yalandan qan ləkəsi çəkib gətirdilər".**

**ADNAN OKTAR:** Deməli, hz. Mehdi (ə.s)-ın dövründə də saxta dəlillər, böhtan atarkən saxta hüquqi dəlillər də olacaq. Yəni qarşı tərəf, münafiqlər tərəfindən böhtanı gücləndirmək üçün saxta dəlil çıxararaq, bir silah kimi hz. Mehdi (ə.s)-a qarşı istifadə edəcək. Quran buna işarə edir, inşaAllah.

**OKTAR BABUNA: "Yaqub dedi: “Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir””.**

**ADNAN OKTAR:** Əlbəttə ki, müsəlmanların da bunları nəzakətli bir üslubla tənqid edəcəyi aydın olur. "Nəfsiniz sizi yanıltmış və səhv bir şeyə vadar etmişdir" deyir. Burada, sakit və nəzakətli bir üslubla tənqid görürük, Quran buna işarə edir.

**OKTAR BABUNA: "Mənə gözəl səbir gərəkdir (lazımdır). Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır".**

**ADNAN OKTAR:** Hz. Mehdi (ə.s) tələbələri də, hz. Mehdi (ə.s) da səbirli olacaq. Bədiüzzaman da, hz. Mehdi (ə.s)-ın mühüm bir xüsusiyyəti olaraq səbrini əsas götürür. Səbir, mətanət, cəsarət olaraq hz. Mehdi (ə.s)-ın xüsusiyyətlərini bildirir. Hz. Mehdi (ə.s)-ın mühüm bir xüsusiyyəti səbirdir.

**OKTAR BABUNA: "Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır".**

**ADNAN OKTAR:** Yəni hz. Mehdi (ə.s)-a qarşı, yalandan böhtanlar atacaqlar. Yalanlar uyduracaqlar, riyakarlıq, saxtakarlıq edəcəklər. Böhtan üçün buna ehtiyac vardır. Deməli, münafiqlər və küfr hz. Mehdi (ə.s)-a qarşı saxta, uydurma iddialarla ortaya çıxacaqlar. Quran buna işarə edir, inşaAllah.

## 31-Cİ SÖHBƏT

## 7 SENTYABR, 2010-CU İL, QAZİANTEP OLAY TV və ÇAY TV

**OKTAR BABUNA:** Qadın düşmənliyindən bəhs etmişdiniz, xüsusilə münafiqlərin və kafirlərin qadın düşməni olduqlarını demişdiniz. Ayələri oxuyuram, müəllimim. **"Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralırdı. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir. Bilmir nə etsin, körpəni rüsvayçılıq içində saxlasınmı, yoxsa onu torpağa basdırsın? Onların verdikləri qərar necə də pisdir!" (Nəhl surəsi, 58-59)**

**ADNAN OKTAR:** Çünki müşriklər və münafiqlər qadına namussuzluğun bir simvolu kimi baxarlar, yəni namussuz və çox təhlükəli məxluq sayarlar. Haşa. Ona görə ya uşaqkən öldürərlər, ya da sağ ikən gedib məsələn, güllələyər. Bu cür şeyləri qəzetlərdə də görə bilərsiniz.

Sad surəsinin 2-ci ayəsində də Allah: **"Kafirlər təkəbbür və nifaq içindədirlər"** deyir. İslam aləmini də parça-parça etmək üçün var gücləri ilə çalışarlar. Böyük parçalara ayırmaq onlara kifayət etmir, daha da kiçik parçalara ayırmaq istəyərlər.

# 32-Cİ SÖHBƏT

## 2 OKTYABR, 2010-CU İL, Kocaeli TV və Aba TV

**ADNAN OKTAR:** Şeytandan Allaha sığınıram, Nisa surəsi, 54-cü ayədə Allah belə buyurur: **"Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?".** Münafiqlər möminlərə verilən nemətlərə görə çox həsəd apararlar. Peyğəmbərimiz (s.ə.v)-i də çox qısqanırdılar. Rahatlığını, sakitliyini, zənginliyini, Allahın ona çox həyat yoldaşı nəsib etməyini, zəfərlərini, gözəlliyini, yaraşıqlılığını, qüdrətini, hamısını qısqanırdılar, maşaAllah. MaşaAllah Peyğəmbərimiz (s.ə.v)-ə maşaAllah. Münafiqlərə Allah lənət etsin. **Münafiqlər çox hiyləgərdir. Hiyləgərliyə ciddi yanaşarlar.** Məsələn, müsəlmanlara zərər vermək istəyəndə bunu psixoloji yolla edər. Küfrdə və müşriklərdə bu açıq-aşkar edilər, açıq şəkildə hücum edərlər. **Münafiqlərin isə hiyləgər döyüş üsulu vardır. Məsələn, gözlərindən istifadə edər, gözü ilə murdar baxar, gözü ilə narahat edər.** Məsələn, Quranda, **"gözləri ilə səni az qala yesinlər"** deyir. Yəni Peyğəmbərimiz (s.ə.v)-ə baxan insanın aşiq baxışı ilə, sevgi ilə baxmalı olduğu halda, münafiqlər elə baxmaz. Qudurmuş öküz kimi adama baxar. Heyvan kimi baxar. Allah ayədə: **"gözlərin xain baxışlarını bilər"** deyir. Bu da münafiqlərin üsullarından biridir. Münafiqlər həm də ağılsızdırlar, açıq döyüşdən və ictimai mübarizədən qaçarlar. Məsələn, Peyğəmbərimiz (s.ə.v)-in söhbət etdiyi vaxtda biri qalxıb ayrılmaq istəyir. Onlar, cübbəli və yaxud uzun bir köynək də geyinərlər. Yəni onun paltarının genişliyi, bədəninin gücünə güvənərək, münafiq tam onun yanına gəlib paralelində onunla birlikdə gedir. Çıxarkən çalışırdı ki, Peyğəmbərimiz (s.ə.v) onu görməsin. Yəni uzaqdan baxanda sadəcə birinin getdiyi kimi görünür. Amma əslində iki adam gedir. İndi münafiqin orada vermək istədiyi mesaj var. Burada bir neçə məqam diqqəti çəkir. Birincisi, açıq şəkildə gizlilik metodundan istifadə edir. Lakin Peyğəmbər (s.ə.v)-in bunu nəzərindən qaçıracağını zənn edir. Öz ağlına görə buradan bir mesaj verir. İkincisi, oradakılara münafiqyana mesaj verir. "Peyğəmbər (s.ə.v) məni görə bilmədi, görürsünüz?" deyir. Yəni: "siz də belə etsəniz sizi də görməz. Buna görə onun diqqəti ilə mənim hiyləgərliyimi bir müqayisə edin. Mən daha hiyləgər və ağıllıyam. Amma Peyğəmbər (s.ə.v) diqqətli deyil, haşa. Oyun oynayıram" deyir. Aydındır? Əgər müvəffəqiyyətlə aradan çıxarsa, nəzərə çarpmasa, oradakı münafiqləri də çox həyəcanlandırır. "Bacardı, çox böyük iş gördü" deyirlər. "Mən daha fərqlisini edim o zaman. Daha münafiqyana, bəyəniləcək, münafiqlərə görə daha təqdirə layiq bir hərəkət edim" deyir. **Münafiqlərin bəyənməsi üçün etdiyi bu şəkildə hərəkətlər çox olar. Yəni özünü ələ vermədən zərbə vurmaq münafiqin xüsusiyyətidir.** Onların özünə xas bir halı da var. Məsələn, Allah ayədə: **"Əgər istəsəm sən onları simalarından tanıyarsan, pis danışıqlarından başa düşərsən" deyir. Simalarında da bir anormallıq olur. Münafiqlərin çox pis aurası olar və murdar təəssürat bağışlayarlar.** Yəni üzündə nur, nuranilik olmaz. Müsəlmanları narahat

edər. Allahın diləməsi ilə, Allah istəsə bunu hiss etdirir. Münafiqlərin danışıqları da çox hiyləgər olar. Yəni diqqətli olmaq lazımdır. Məsələn, söhbət edəndə bəzi sözlərdə, haşa, Peyğəmbər (s.ə.v)-in əleyhinə sözlər danışar. Amma diqqət verilsə görərik ki, bunu nəzərə çarpacaq şəkildə edir. Əslində çox zəkalı olarlar. Bədiüzzaman da münafiqlər haqqında: "Şeytan kimi ağıllı olarlar" deyirdi. Yəni çox böyük bir zəkaya sahib olarlar. Elə bir cümlə qurur ki, ancaq münafiqlər bunu başa düşər. Yəni cümlələri münafiqlərin başa düşəcəyi şəkildə qurar, yəni bu işdə ustalaşmış münafiqlərin fərq edə biləcəyi bir üslubda danışar. Çünki müsəlmanlar hüsnü-zənn etdiyinə, xeyirə yozduğuna görə, onun qardaşı olaraq gözəl bir şey söylədiyini düşünür. Halbuki, o cümlənin içərisində bir çox gizli mesaj olar. Onu digər münafiq görəndə bu hərəkətindən münafiq şəhvəti, yəni münafiq həyəcanı, şeytani həyəcan hiss edər. Onu müvəffəqiyyətli hesab etdiyinə görə heyranlıqla dolu bir zövq alar. Şeytani bir zövq alar. Necə yarasa qan içməkdən zövq alırsa, peyin böcəyi peyindən necə zövq alırsa, onlar da bundan zövq alarlar. Məsələn, psixopat Amerika əsgərləri, birinin boynundan vurar, qan axar və bundan həzz aldığını, xoşuna gəldiyini deyir. Şəhvət duyduğunu deyir. "Sevişməkdən daha gözəl gəlir mənə" deyir. Onun kimi münafiq də bunda həyat görər. Yəni bir yarasa kimi, onun qanı odur. Pislik etməkdən zövq alar. Hər pislik edəndə ona bir qida kimi gələr. Mömin də hər gözəllik etdiyində içi rahatlanar. Məsələn, cəhd edər, küfrə elmi yolla bir zərbə vurar, yəni elmi zərbə, bir iman həqiqəti izah edər, bir xeyir iş görər, xidmət edər, müsəlmanların olduğu yeri təmizləyər, onlara bir yemək hazırlayar, içməyə bir şey gətirər və yaxud onları maddi cəhətdən təmin edər və bununla xoşbəxt olar. Münafiq də müsəlmanlara etdiyi pisliklərlə, alçaqlıqlarla, etdiyi rüsvayçılıqlara görə xoşbəxt olar. Amma bunu açıq-aşkar, göz qabağında edə bilməyəcəyinə görə münafiqin çox böyük bir zəkaya, çox diqqətli olmağa, gizliliyə ehtiyacı olur. Quranda buna işarə edilmiş ayələr var. Məsələn, Peyğəmbər (s.ə.v)-ə qarışıqlıq içində çox pis, murdar baxışla baxarlar. Elə baxır ki, elə bil təkcə Peyğəmbər (s.ə.v)-i görür. Əgər Peyğəmbər (s.ə.v): "Niyə elə baxırsan?" soruşsa, dərhal baxışını düzəldər. Beləliklə, öz ağlına görə Peyğəmbər (s.ə.v)-ə haşa tələ qurduğunu fikirləşir. Amma Peyğəmbər (s.ə.v)-in sözünə onsuz da oradakı möminlər inanırdı, iman edirdi. Yəni münafiq üçün Peyğəmbər (s.ə.v)-i, haşa, çıxılmaz vəziyyətə salmaq çox əhəmiyyət kəsb edir. Belə edərək özünü ucaltdığını, yüksəltdiyini fikirləşər. Ona görə məsələn, Peyğəmbərimiz (s.ə.v): "döyüşə çıxacağıq, cihad edəcəyik" deyir. Onlar isə Peyğəmbər (s.ə.v)-i, haşa, öz ağlına görə xəcalətli edib, çətin vəziyyətə salacağını düşünərək: "hava çox istidir, ya Rəsulullah (s.ə.v)!" deyirdilər. Guya Peyğəmbər (s.ə.v) havanın isti olduğunu bilmir? Amma münafiq öz düşüncəsinə görə, Peyğəmbər (s.ə.v)-in haşa, diqqətsiz və haşa, bunu fikirləşmədiyini düşünür. Münafiq əslində heyrətamiz şəkildə axmaqdır. Həm çox şeytani zəkası vardır, amma ağıl cəhətdən çox axmaqdır. İstiliyi kim bilməz? Hər kəs bunu bilər. Peyğəmbər (s.ə.v)-in bunu bilmədiyini fikirləşir. "Bu istidə çıxmaq olmaz" deyir. Bununla o, münafiqlərə də mesaj verir: "Peyğəmbər (s.ə.v) (haşa) isti olduğunu, bu havada çölə çıxılmadığını belə bilmir" deyərək

qoruyucu görünüşündə ortaya çıxar. Münafiq, həmişə özünü xilaskar kimi göstərir. Məsələn, “hava istidir” deyərək guya müsəlmanları istidən qurtarmış olar, ailəni qurtarmış olar. "Ailəm açıqda, başsız qalıb" deyir. Həmişə xilaskar rolunu oynayır. Məsələn: "döyüşməyi bilsəydik sizinlə gələrdik" deyir. Yəni guya döyüşməyi bilməyən insanı Peyğəmbər (s.ə.v) döyüşə apardığını demək istəyir, haşa. Orada da Peyğəmbər (s.ə.v)-i, haşa, insanların gözündən salmaq istəyir. Peyğəmbər (s.ə.v)-i hörmətdən, sevgidən və etibardan salmaq üçün əlindən gələni edər. İki məqsədi olar. Həm özünü ucaltmaq istəyər, həm də Peyğəmbər (s.ə.v)-i insanların gözündən salmaq, əhəmiyyətini azaltmaq istəyər, haşa. Münafiqlər buna çox diqqət göstərərlər. Amma bunları çox şeytani formada edər. İlk baxışda qəflət gözü ilə haqlı danışan kimi bir üslubla danışar. Çünki Allah ayədə də: **"danışdıqlarına qulaq asarsan"** deyir. Bu ayə çox mənalıdır. Yəni zahirən çox ağıllı danışar. Quran gözü ilə, ağıl gözü ilə baxmayanda haqlı kimi görünər. Amma Quran və ağıl gözü ilə baxanda arxasındakı şeytanlıq aydın olur. Bir oyun olduğu aydın olar. Əksinə, Peyğəmbər (s.ə.v)-in sözünün doğru olduğu və onun səhv olduğu, yalan olduğu üzə çıxar. Münafiqin bu xüsusiyyətlərini Allah Quranda çox təfərrüatı ilə izah etmişdir. Diqqətlə baxanda bunu görmək olur. Məsələn, Allah Tövbə surəsi, 74-cü ayədə belə bildirir: **"Allaha and içirlər ki, (nalayiq sözlər) deməyiblər. Onlar küfr sözünü demiş, İslamı qəbul etdikdən sonra kafir olmuş və bacara bilmədikləri bir işə can atmışlar".** Yəni çox böyük iddiaları olar. Məsələn, ən böyük olmaq istəyərlər. Haşa, Peyğəmbər (s.ə.v)-dən də, Allahdan da üstün olmaq istəyərlər. **"Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir"** deyir Allah. Rahatlıq onları narahat edər. Peyğəmbər (s.ə.v)-in verdiyi imkanlar, zənginlik, güc, etibar, hörmət, rahatlıq, sevinc, yaxşılıq mühiti, bərəkət mühiti onları narahat edər. **"Allahın və elçisinin bol lütfkarlığından"** deyilir, yəni Peyğəmbərimiz (s.ə.v)-də Mehdilik xüsusiyyəti olduğuna görə həmişə əliaçıq, lütfkar olub. Ən böyük Mehdi olduğuna görə çox əliaçıq olub. "**Onların intiqam almağı yalnız Allahın və Onun Elçisinin onları Öz lütfündən varlandırdığına görədir**"-deyir Allah. Yəni rahatlıq və nuranilik onlarda həsəd hissi, qısqanclıq hissi oyadır. Bu da hirsə və kinə çevrilir. Amma bir çətinlik içərisində olanda bunları etməz. Zənginlik və fərahlıq münafiqin qudurmasına səbəb olur. Yəni müsəlmanların rahatlığına həsəd aparar. Şeytandan Allaha sığınıram, Allah Ali İmran surəsi, 119-cu ayədə belə buyurur: "...**Təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər. De: “Qəzəbinizdən ölün!**" Yəni hirsə və nifrətə həddindən artıq meyilli olarlar. Yəni azğın bir kin bəsləyər, dəlicəsinə kin bəsləyər. Ona görə kinin şiddətindən cinayətə meyilli olar. Münafiqlərdə həmişə cinayətə meyillilik vardır. Peyğəmbərimiz (s.ə.v) dövründə, sui-qəsd planlaşdırdılar, hz. Əli (r.ə) Peyğəmbərimiz (s.ə.v)-in yerində, yatağında yatdı, heç bir şey edə bilmədilər. Dəfələrlə sui-qəsd törətməyə cəhd ediblər. Çünki münafiqlər həddindən artıq gərgin olarlar. Yəni müsəlmanlara qarşı şiddətli kin bəsləyərlər. Allah Mumtəhənə surəsi, 2-ci ayədə: **"Sizə düşmən kəsilərlər, əllərini və dillərini pisliklə sizə uzadarlar"** deyir. Normalda dili ilə,

amma əli ilə də məhz cinayət edər. Əlini uzatmasının mənası cinayətdir. Yaxud, müsəlmanları yandırıb yaxmaq, dağıtmaq mənasındadır. Amma Allah dillərini də pisliklə sizə uzatdıqlarını deyir. Amma bunu edərkən Quranla və hədislə hərəkət edərlər. Əks halda münafiq, münafiq olmaz. Birbaşa küfr adına ortaya çıxsa kafir olar. Münafiqin xüsusiyyəti din və Allah adına yalandan ortaya çıxmaqdır. Daha təqvalı olmaq, İslamı daha mükəmməl yaşamaq iddiası ilə ortaya çıxar. Nəticədə: **"Dillərini pisliklə sizə uzadarlar"** deyir Allah. Quranı və hədisi istifadə edərlər. Amma şeytani bir məqsədləri olar. Onların mənafeylərinə uyğun gələn qisminin mənasını dəyişdirərək istifadə edərlər, yəni dillərini əyib bükərək, müsəlmanların haqq olan rəftarlarını batil kimi göstərməyə çalışırlar. Peyğəmbərimiz (s.ə.v)-ə qarşı göstərdikləri davranışlarından bunu anlayırıq.

...

**ADNAN OKTAR:** Ali İmran surəsi, 118-ci ayədə Allah belə buyurur: **"Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər".** Necə zərər verə bilərlər? Məsələn, gedib yalandan xəbər uydurar, yalandan şahidlik edər, oyun oynayar, müsəlmanların arasına fitnə salar, müsəlmanlara bir-birindən böhtan məlumatlar verər, müsəlmanların müsəlmanlarla əlaqəsini kəsməyə çalışar. Hər cür zərər verməyə çalışar, yəni hər cür maddi, mənəvi zərər vurmağa çalışar. **"Sizin sıxıntıya düşməyinizi istəyərlər"** deyir Allah. Yəni müsəlmanların həbs olunmasını, həbsə atılmasını, əziyyət çəkmələrini, şəhid edilmələrini, istəyirlər. **"Düşmənçilikləri onların ağızlarından (çıxan sözlərdən) bəllidir"** deyir Allah. Yəni özlərini tuta bilmirlər.

**"Düşmənçilikləri onların ağızlarından (çıxan sözlərdən) bəllidir"** deyir Allah. Yəni içlərində vulkan kimi çox şiddətli bir kin var. Amma özlərini nəzakətli aprarlar, bunu büruzə verməzlər, münafiqlər buna çox diqqət yetirərlər. Çünki başqa cür olsa özünü büruzə verər. Həm din üslubu ilə, Qurana, hədisə tabeymiş kimi görünən danışığı, həm də özünə görə qismən nəzakətli danışmağı lazımdır, münafiq belə məsələlərə çox diqqət yetirər. Amma hərdən havalanar. Ona görə: **"Köksləri̇ndə gizlətdikləri düşmənçilik isə daha böyükdür. Sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir"** deyir Allah. Artıq dözə bilmir, səbri daşır. Daşdığına görə də özlərini idarə edə bilmirlər, hisslərini xaricə vurmağa başlayırlar. "**Kökslərində (içlərində) gizlətdikləri düşmənçilik isə daha böyükdür**", yəni Allah öldürücü kin və nifrət içində olduqlarını bildirir.

Ali İmran surəsi, 118-ci ayədə Allah deyir: **"Əgər düşünür dərk edirsinizə, Biz ayələri artıq sizə bəyan etdik".** Yəni Allah fikirləşməyi buyurur.

Məhəmməd surəsi, 29-cu ayədə belə buyrulur: **"Yoxsa qəlblərində xəstəlik olanlar"**-əlbəttə ki, münafiqlərə də işarə edir ayə-**"elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?"** Çünki münafiqin ürəyində xəstəlik olar. Amma bir də ürəyində xəstəlik olub həyata keçirməyənlər var. Bunlar müsəlman ehtimal olan

kəslərdir. **"Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?".** Yəni bir gün mütləq, çətin vəziyyətə düşüb, kinlərini üzə çıxaracaqları bir hadisə olur. Məsələn, müsəlmanlara hücum ediləndə münafiqlər dərhal rezin top kimi atılıb-düşərlər. Təzə doldurulmuş top kimi dərhal havaya uçar. Ona görə sakitlik olanda belə xüsusiyyətə malik insanların, ürəyində xəstəlik olanların yaxşı davranmağı çox əhəmiyyət kəsb eləmir. Çətin vəziyyətdə təhlükəli ola bilərlər, ona görə ürəyində xəstəlik olanı, ürəyindəki xəstəlik davam edərkən müalicə etmək çox əhəmiyyətlidir. "Bir şey olmaz" demək düzgün deyil, çünki çətin vəziyyətdə əgər xəstədirsə atılıb çölə çıxar. O vaxt artıq təhlükəli bir məxluqa çevrilər. Ona görə, müalicəsi mümkün ikən, "nə olacaq, bir şey olmaz" deməyib müalicə etmək lazımdır. Çünki əks halda çox təhlükəli olarlar.

Bəqərə surəsi 204-cü ayədə, Allah, münafiqlər üçün **"Dünya həyatına bağlı sözləri sənin xoşuna gələr və ürəyindəkinə baxmayaraq Allahı şahid gətirər"**-deyir. Yəni münafiqlər, ürəyindəki əxlaqsızlığa, namərdliyə baxmayaraq Allahı şahid gətirər, Allah adına yalan danışar, ayə ilə, Quranla danışar. **"Halbuki, o qorxunc bir düşməndir"** deyir Allah. Göründüyü kimi, normal düşmən deyil, qorxunc bir düşməndir. Onlarda öldürücü bir kin vardır. Münafiq gecə-gündüz müsəlmanlara necə zərər vermək üçün düşünər. Səhər durar nə təbliğ, nə İslamı yaymaq, nə İslam Birliyi, nə Türk-İslam Birliyi, nə küfrlə mübarizə, nə darvinistlərlə, nə də materialistlərlə mübarizə aparmaz, bunlar onu maraqlandırmaz. Münafiqin yeganə hədəfi müsəlmanlardır. Axırzamanda da hz. Mehdi (ə.s)-ın camaatının münafiqləri ən şiddətliləridir. Son 1400 ilin ən şiddətli münafiqləri hz. Mehdi (ə.s)-ın dövründə çıxan münafiqlərdir. Peyğəmbərimiz (s.ə.v)-in münafiqləri də ən şiddətliləri olanlar idi. Sonrakı şiddətlilik də 1400 il sonra hz. Mehdi (ə.s)-ın dövrünün münafiqləridir. Çox şiddətlidirlər və vaxt ötdükcə Allah daha da şiddətlərini ortaya çıxardar. Ona görə, "Mehdi (ə.s) həmişə təmizləyər. Buğdaya düşmüş qurd kimidirlər. Təmizlədikcə yenə gələrlər, təmizləyər yenə gələrlər, ən sonda tərtəmiz buğdalar qalar" deyir. 313 buğda qalar. Allah, münafiqləri iyrənc qurdlara bənzədir. Qurd hara düşər? Yaraya düşər, peyinə düşər, çürümüş şeylərə yapışar. Münafiqlər də gedər çürümüş, murdar şeylərə yapışarlar, orada bəslənərlər. Ona görə təmizlənmələri vacibdir. Allah onları hadisə ilə təmizləyir. Şeytandan Allaha sığınıram, Məhəmməd surəsində Allah bunu açıq-aşkar bildirir: **"Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq?"** Bir gün mütləq üzə çıxarlar.

Peyğəmbərimiz (s.ə.v)-in evliliklərini, gücünü dəhşət qısqanırdılar və xanımlarına da artıq böhtan atmağa başlayırdılar, gözləri dönmüşdü, havalanırdılar. Nur surəsi, 11-ci ayədə Allah belə buyurur: **"Şübhəsiz ki, (Aişə barəsində) yalan xəbər gətirənlər özünüzdən olan bir dəstədir. Onu özünüz üçün pis bir şey hesab etməyin. Əksinə, bu, sizin üçün xeyirlidir. O dəstədən olan hər bir şəxsin qazandığı günahın cəzası vardır.**

**İçərilərindən günahın böyüyünü öz üstünə götürəni isə böyük bir əzab gözləyir"** deyir Allah. Kim əxlaqsızlıq etsə ona daha böyük cəza verilər.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini rədd etmək məqsədi ilə ortaya atılan, lakin müvəffəqiyyətli ola bilməyən və elmdən kənar olan mənasız fikirdən başqa bir şey deyil. Canlının cansız maddələrdən təsadüfən meydana gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çoxlu möcüzəvi nizam olduğunun elm tərəfindən isbat edilməsi ilə və təkamülün heç bir zaman baş vermədiyini ortaya qoyan 300 milyona yaxın qalığın tapılması ilə çürümüşdür. Beləcə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsinə dəstək olmaq üçün dünya səviyyəsində aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, çoxtərəfli şərh olunmasına, elm adı altında deyilən yalanlara və edilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizləyə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixinin ən böyük yalanı olduğu son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə, 1980-ci illərdən sonra aparılan araşdırmalar darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu həqiqət bir çox alim tərəfindən də dilə gətirilmişdir. Xüsusilə, ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrdən olan çoxlu sayda tədqiqatçı alim darvinizmin əsassızlığını görür, canlıların mənşəyini yaradılış həqiqəti ilə açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini digər bir çox əsərlərimizdə bütün elmi təfərrüatları ilə göstərdik və göstərməyə davam edirik. Ancaq mövzu böyük əhəmiyyət daşıdığına görə burada da ümumiləşdirməkdə fayda vardır.

### Darvini yıxan çətinliklər

Təkamül nəzəriyyəsi tarixinin qədim yunanlara qədər gedib çıxan bir nəzəriyyə olmasına baxmayaraq, əhatəli olaraq 19-cu əsrdə ortaya atıldı. Nəzəriyyəni elm dünyasında gündəmə gətirən ən əhəmiyyətli yenilik Çarlz Darvinin 1859-cu ildə nəşr olunan "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı fərqli canlı növlərinin Allahın ayrı-ayrı yaratdığı həqiqətinə qarşı çıxırdı. Darvinə görə, bütün növlər ortaq bir atadan gəlirdilər və zamanla kiçik dəyişmələrlə fərqliləşiblər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, yalnız bir məntiq irəli sürmək idi. Hətta Darvinin kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox əhəmiyyətli suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin önündəki çətinliklərin inkişaf edən elm tərəfindən keçiləcəyini, yeni elmi tapıntıların nəzəriyyəsini gücləndirəcəyini ümid edirdi. Bunu

kitabında tez-tez ifadə etmişdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin təməl iddialarını bir-bir əsassız etmişdir.

Darvinizmin elm qarşısındakı məğlubiyyəti üç təməl başlıqda nəzərdən keçirilə bilər:

1)Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2)Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, həqiqətdə təkmilləşdirici bir təsirə sahib olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3)Fosil (qalıq) qeydləri təkamül nəzəriyyəsinin nəzərdə tutduqlarının tam əksi olan bir cədvəl ortaya qoyur.

Bu hissədə bu üç təməl başlığı ana xətləri ilə araşdıracağıq.

### Keçilə bilməyən ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada ortaya çıxan tək bir canlı hüceyrədən gəldiyini iddia edir. Tək bir hüceyrənin necə oldu ki, milyonlarla kompleks canlı növünü meydana gətirdiyi və əgər həqiqətən bu cür təkamül reallaşmışdırsa, niyə bunun izlərinin fosil qeydlərində olmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül müddətinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Haqqında danışılan o ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı cahil olaraq rədd etdiyi üçün və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün o ilk hüceyrənin heç bir məqsəd, plan və tənzimləmə olmadan təbiət qanunları içində təsadüfi olaraq meydana gəldiyini iddia edir. Yəni nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən fundamental biologiya qanunlarına zidd bir iddiadır.

### “Həyat həyatdan gəlir”

Darvin kitabında həyatın mənşəyi mövzusundan heç danışmamışdı. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə bir quruluşa sahib olduğunu fərz edirdi. Orta əsrlərdən bəri insanların inandığı “öz-özünə törəyən nəsil” adlı nəzəriyyəyə görə, cansız maddələrin təsadüfən bir yerə gəlib canlı bir varlıq meydana gətirə biləcəyinə inanırdılar. Bu dövrdə böcəklərin yemək artıqlarından, siçanların da buğdadan meydana gəldiyi geniş yayılmış bir düşüncə idi. Bunu isbat etmək üçün də maraqlı təcrübələr aparılmışdı. Çirkli bir əskinin üzərinə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların meydana gələcəyi zənn edilmişdi.

Ətlərin qurdlanması da həyatın cansız maddələrdən törəyə bildiyinə bir dəlil sayılırdı. Halbuki, daha sonra aydın olacaqdı ki, ətlərin üzərindəki qurdlar öz-özlərinə meydana gəlmirlər, ağcaqanadların gətirib qoyduğu gözlə görünməyən sürfələrdən çıxırdılar.

Darvinin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən meydana gəldiyi inancı elm dünyası tərəfindən qəbul edilirdi.

Halbuki, Darvinin kitabının nəşr olunmasından beş il sonra məşhur fransız bioloqu Luis Paster təkamülə əsas verən bu inancı qəti olaraq təkzib etdi. Paster apardığı uzun təcrübələr nəticəsində aldığı nəticəni belə yekunlaşdırmışdı:

Cansız maddələrin həyat meydana gətirə biləcəyi iddiası artıq qəti olaraq tarixə basdırılmışdır.[1]

Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pasterin tapıntılarına qarşı uzun müddət müqavimət göstərdilər. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin kompleks quruluşunu ortaya çıxardıqca, həyatın öz-özünə meydana gələ biləcəyi iddiasının əsassızlığı daha da aydınlaşdı.

## 20-ci əsrdəki nəticəsiz cəhdlər

20-ci əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq bu işlər müvəffəqiyyətsizliklə nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamını əhatə edən ən qaranlıq nöqtəni meydana gətirir.[2]

Oparinin yolunu izləyən təkamülçülər həyatın mənşəyi mövzusunu həll edəcək təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stanley Miller tərəfindən 1953-cü ildə təşkil edildi. Miller ibtidai Yer atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə qurğusunda birləşdirib və bu qarışığa enerji əlavə edib zülalların quruluşunda istifadə edilən bir neçə orqanik molekul (aminturşular) sintez etdi.

O illərdə təkamül adına əhəmiyyətli bir mərhələ kimi tanıdılan bu təcrübənin əsaslı olmadığı və təcrübədə istifadə edilən atmosferin həqiqi dünya şərtlərindən çox fərqli olduğu növbəti illərdə ortaya çıxacaqdı.[3]

Uzun sürən səssizlikdən sonra Millerin özü də istifadə etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi.[4]

Həyatın mənşəyi problemini açıqlamaq üçün 20-ci əsr boyu aparılan bütün təkamülçü səylər davamlı olaraq müvəffəqiyyətsizliklə nəticələndi. San-Diyeqo Skrips institutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə nəşr olunan bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün 20-ci əsri geridə qoyarkən hələ 20-ci əsrə girdiyimizdə sahib olduğumuz ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başladı?[5]

**Həyatın kompleks quruluşu**

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda belə böyük çətinliyə düşməsinin başlıca səbəbi ən sadə zənn edilən canlı quruluşların belə inanılmaz dərəcədə kompleks quruluşlara sahib olmasıdır. Canlı hüceyrəsi insanların düzəltdiyi bütün texnoloji məhsullardan daha kompleksdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında belə cansız maddələr bir yerə gətirilərək canlı bir hüceyrə çıxarıla bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər əsla təsadüflərlə açıqlana bilməyəcək qədər çoxdur. Hüceyrənin ən fundamental quruluş maddəsi olan zülalların təsadüfi olaraq sintez edilmə ehtimalı 500 aminturşuları orta hesabla bir zülal üçün $1/10^{950}$-dir. Ancaq riyaziyyatda $1/10^{50}$-dən kiçik ehtimallar praktik olaraq qeyri-mümkün sayılır. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumatı saxlayan DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın kağıza köçürüldüyü təqdirdə 500 səhifədən ibarət 900 cildlik bir kitabxana meydana gətirəcəyi hesablanmışdır.

Bu nöqtədə çox maraqlı bir tərəddüd daha var: DNT yalnız bəzi xüsusiləşmiş zülalların (fermentlərin) köməyi ilə cütləşə bilər. Amma bu fermentlərin sintezi də ancaq DNT-dəki məlumatlar yönündə reallaşır. Bir-birindən asılı olduqlarından cütləşmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə meydana gəldiyi ssenarisini çarəsiz vəziyyətə salır. San-Dieqo Kaliforniya Universitetindən məşhur təkamülçü professor Lesli Orqel “Scientific American” jurnalının oktyabr, 1994 tarixli sayında bu həqiqəti belə etiraf edir:

Son dərəcə kompleks quruluşlara sahib olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda, təsadüfi olaraq meydana gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısilə, insan həyatın kimyəvi yollarla ortaya çıxmasının əsla mümkün olmadığı nəticəsinə gəlmək məcburiyyətində qalır.[6]

Şübhəsiz, əgər həyatın təbii amillərlə ortaya çıxması qeyri-mümkündürsə, bu vəziyyətdə həyatın yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət, əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvin nəzəriyyəsini əsassız edən ikinci böyük nöqtə nəzəriyyənin təkamül mexanizmləri olaraq qarşıya qoyduğu iki anlayışın həqiqətdə heç bir təkmilləşdirici gücə sahib olmadığının aydınlaşmasıdır. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə təbii seleksiya mexanizminə bağlamışdı. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə aydın olurdu: növlərin mənşəyi, təbii seleksiya yolu ilə...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun və güclü canlıların həyatda qaldığı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhdid edilən bir maral sürüsündə daha sürətli qaçan marallar həyatda qalır. Beləcə, maral sürüsü sürətli və güclülərdən meydana gəlir. Amma, əlbəttə, bu mexanizm maralları təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Buna görə də, təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə sahib deyil. Darvin də bu həqiqətin fərqində idi və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər meydana gəlmədiyi müddətdə təbii seleksiya heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı.[7]

### Lamarkın təsiri

Bəs bu "faydalı dəyişikliklər" necə meydana gələ bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı içində bu sualı Lamarka əsaslanıb cavablandırmağa çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar yaşayış dövrlərində keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə köçürürlər və nəsildən-nəslə yığılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxırdı. Məsələn, Lamarka görə, zürafələr ceyranlardan törəmişdir, yüksək ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəsilə boyunları uzanmışdı.

Darvin də buna bənzər nümunələr vermiş, məsələn, "Növlərin mənşəyi" adlı kitabında yemək tapmaq üçün suya girən bəzi ayıların zamanla balinalara çevrildiyini iddia etmişdi.[8]

Amma Mendelin kəşf etdiyi və 20-ci əsrdə inkişaf edən genetika elmi ilə dəqiqləşən irsilik qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə köçürülməsi əfsanəsini qəti olaraq rədd etdi. Beləcə, təbii seleksiya özbaşına və dolayısilə, tamamilə təsirsiz bir mexanizm olaraq qalırdı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər bu vəziyyətə bir həll tapa bilmək üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiyaya faydalı dəyişiklik səbəbi olaraq mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya köçürmə səhvləri nəticəsində yaranan pozulmaları əlavə etdi.

Bu gün də hələ elmi olaraq əsassız olduğunu bilmələrinə baxmayaraq, Darvinistlərin müdafiə etdiyi model neodarvinizmdir. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan müddət nəticəsində meydana gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz duruma salan açıq bir elmi həqiqət vardır: mutasiyalar canlıları inkişaf etdirməzlər, əksinə, həmişə canlılara zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində yaranan hər hansı bir təsadüfi təsir ancaq zərər verər. Amerikalı genetik B.G.Ranqanatan bunu belə açıqlayır:

Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamüli inkişaf meydana gətirə bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələ biləcək təsadüfi bir dəyişmə ya təsirsizdir, ya da zərərlidir. Bir qol saatında meydana gələn təsadüfi dəyişmə qol saatını inkişaf etdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda, təsirsiz olar. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, onu dağıdar.[9]

Necə ki, bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı inkişaf etdirən mutasiya nümunəsi müşahidə edilməmişdir. Bütün mutasiyaların zərərli olduğu görülmüşdür. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi olaraq göstərdiyi mutasiyalar həqiqətdə canlıları yalnız korlayan, şikəst edən genetik hadisələrdir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəngdir). Əlbəttə, korlayıcı bir mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, özbaşına heç bir şey edə bilməz. Bu həqiqət bizlərə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə də təkamül deyilən xəyali müddət yaşana bilməz.

### Fosil qeydləri: ara nümunələrin izi yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin yaşanmadığının ən açıq göstəricisi isə fosil (qalıq) qeydləridir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəmişlər. Əvvəldən mövcud olan bir canlı növü zamanla bir başqasına çevrilmiş və bütün növlər bu şəkildə

ortaya çıxmışlar. Nəzəriyyəyə görə, bu çevrilmə yüz milyonlarla il davam edən uzun zaman kəsiyini əhatə etmiş və addım-addım irəliləmişdir.

Bu vəziyyətdə iddia edilən uzun çevrilmə müddətində saysız ara növlər meydana gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətləri qazanan yarı balıq, yarı sürünən canlılar yaşamalıdır. Yaxud sürünən xüsusiyyətlərini daşıyarkən bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanan sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid müddətində olduqları üçün də şikəst və qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri varlıqlara ara keçid nümunəsi adını verirlər.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşamışdırsa, bunların sayı və növləri milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların fosillərinə mütləq fosil qeydlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşadıqlarının dəlilləri də yalnız fosil qalıqları arasında ola bilər".[10]

## Darvinin puç olan ümidləri

Ancaq 19-cu əsrin ortalarından bu yana dünyanın dörd tərəfində çoxlu fosil araşdırmaları aparıldığı halda, keçid nümunələrinə rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və araşdırmalarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə qüsursuz və nöqsansız şəkildə ortaya çıxdığını göstərmişdir.

Məşhur ingilis paleontoloqu Derek V. Ager bir təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

Problemimiz budur: fosil qeydlərini təfərrüatlı olaraq araşdırdığımızda istər növlər, istərsə də siniflər səviyyəsində olsun davamlı olaraq eyni həqiqətlə qarşılaşırıq; pilləli təkamüllə inkişaf edən deyil, birdən-birə yer üzündə yaranan qruplar görürük.[11]

Yəni fosil qeydlərində bütün canlı növləri arasında heç bir keçid nümunəsi olmadan qüsursuz şəkilləri ilə birdən-birə ortaya çıxırlar. Bu, Darvinin nəzərdə tutduğunun tam əksinədir. Hətta bu canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü bir dəlildir. Çünki bir canlı növünün öz-özünə təkmilləşən heç bir atası olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının tək izahı o növün yaradılmış olmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında verilə biləcək yeganə iki açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və qüsursuz bir şəkildə ortaya

çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişmə müddəti sayəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkmilləşərək meydana gəlməlidirlər. Amma əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxmışlarsa, o halda, sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmış olmalıdırlar.[12]

Fosillər isə canlıların yer üzündə qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxdıqlarını göstərir. Yəni növlərin mənşəyi Darvinin zənn etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəliyə gətirdikləri mövzu insanın mənşəyi mövzusudur. Bu mövzudakı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi varlıqlardan gəldiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu müddətdə müasir insanla ataları arasında bəzi ara nümunələrin yaşadığı iddia edilir. Həqiqətdə tamamilə xəyal olan bu ssenaridə dörd təməl kateqoriya sayılır:

1-*Australopithecus*

2-*Homo habilis*

3-*Homo erectus*

4-*Homo sapiens*

Təkamülçülər insanların saxta ilk meymunabənzər atalarına "cənub meymunu" mənasını verən *australopithecus* adını verirlər. Bu canlılar həqiqətdə soyu tükənmiş bir meymun növündən başqa bir şey deyil. Məşhur ingilis və amerikalı iki anatomiyaçı Lord Solli Zukerman və prof. Çarlz Oksnardın *australopithecus* nümunələri üzərində apardığı çox geniş əhatəli tədqiqat bu canlıların yalnız soyu tükənmiş bir meymun növünə aid olduğunu və insanlarla heç bir bənzərliklərinin olmadığını göstərmişdir.[13]

Təkamülçülər insan təkamülünün bir sonrakı mərhələsini də *homo*, yəni insan olaraq sinifləndirirlər. İddiaya görə, *homo* ardıcıllığındakı canlılar *australopithecus*lardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali bir təkamül sxemi meydana gətirirlər. Bu sxem xəyalidir, çünki həqiqətdə bu fərqli siniflər arasında təkamüli bir əlaqənin olduğu qətiyyən isbat edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin 20-ci əsrdəki ən əhəmiyyətli müdafiəçilərindən biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir həqiqətdə itmişdir", - deyərək bunu qəbul edir.[14]

Təkamülçülər "*australopithecus > homo habilis > homo erectus > homo sapiens*" sıralamasını yazarkən bu növlərin hər birinin bir sonrakının atası olduğu təəssüratını verirlər. Halbuki, paleoantropoloqların son tapıntıları *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın fərqli bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir.[15]

Bundan başqa, *homo erectus* sinifləməsinə aid insanların bir hissəsi müasir dövrlərə qədər yaşamış, *homo sapiens, neandertalensis* və *homo sapiens sapiens* (müasir insan) ilə eyni mühitdə yan-yana olmuşlar.[16]

Bu isə, əlbəttə, bu siniflərin bir-birlərinin ataları olduğu iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld özünün də bir təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-birilə paralel şəkildə yaşayan üç fərqli hominid (insana xas) xətti varsa, o halda, bizim soy ağacımıza nə oldu? Açıqdır ki, bunların biri digərindən gələ bilməz. Bundan başqa, biri digəri ilə müqayisə edildiyində təkamüllü bir inkişaf tərzi göstərmirlər.[17]

Qısası, mediya və dərsliklərdə yer alan bir neçə xəyali "yarı meymun, yarı insan" canlılarının cizgiləri ilə, yəni sırf təbliğat yolu ilə canlı tutulmağa çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və hörmətli alimlərindən Lord Solli Zukerman bir təkamülçü olmasına baxmayaraq, ortada meymunabənzər canlılardan insana uzanan həqiqi bir soy ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman bir də maraqlı elm şkalası tərtib etmişdir. Elmi olaraq qəbul etdiyi bilik sahələrindən elmdən kənar qəbul etdiyi bilik sahələrinə qədər bir yelpik hazırlamışdır. Zukermanın bu cədvəlinə görə, ən elmi (yəni konkret məlumatlara əsaslanan) bilik sahələri kimya və fizikadır. Yelpikdə bunlardan sonra biologiya elmləri, sonra da ictimai elmlər gəlir. Yelpiyin ən aşağısında, yəni ən elmdən kənar sayılan hissəsində isə Zukermana görə telepatiya, altıncı hiss kimi duyğu sonrası qəbul etmə anlayışları və bir də insanın təkamülü vardır! Zukerman yelpiyin bu yerini belə açıqlayır:

"Obyektiv həqiqətin sahəsindən çıxıb bioloji elm olaraq fərz edilən bu sahələrə (yəni duyğu sonrası qəbul etməyə və insanın fosil tarixinin şərh olunmasına) girdiyimizdə təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görərik. Belə ki, nəzəriyyələrinə qəti inanan bu adamların ziddiyyətli bəzi qərarların eyni anda qəbul etmələri belə mümkündür".[18]

Məhz insanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi fosilləri birtərəfli şəkildə izah etmələrindən ibarətdir.

### Darvin düsturu

İndiyədək araşdırdığımız bütün texniki dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə axmaq bir inanca sahib olduqlarını bir də uşaqların anlaya biləcəyi qədər açıq bir nümunə ilə yekunlaşdıraq.

Təkamül nəzəriyyəsi həyatın təsadüfən meydana gəldiyini iddia edir. Dolayısilə, bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə gələrək əvvəlcə hüceyrəni meydana gətirmişlər və sonra eyni atomlar bir şəkildə digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək: həyatın elementi olan karbon, fosfor, azot, kalium kimi elementləri bir yerə gətirdiyimizdə bir topa meydana gələr. Bu atom topası hansı əməliyyatdan keçirilsə də, tək bir canlı meydana gətirə bilməz. İstəyirsinizsə, bu mövzuda bir təcrübə hazırlayaq və təkamülçülərin, əslində, müdafiə etdiyi, amma yüksək səslə dilə gətirə bilmədiyi iddianı onlar adına "Darvin düsturu" adı ilə araşdıraq:

Təkamülçülər çoxlu sayda böyük bir qabın içinə həyatın quruluşundakı fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə olan ancaq bu qarışığın içində olmasını lazım gördükləri vəsaitləri də bu qablara əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (tək birinin belə təsadüfi meydana gəlmə ehtimalı $10^{-950}$ olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə istilik və nəmlik versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Qabların başına da dünyanın ən öndə gələn alimlərini qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəsilə köçürərək növbəti milyardlarla, hətta trilyonlarla il davamlı qabların başında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtlərin mövcud olması lazım olduğuna inanılırsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə etsələr də, o qablardan qətiyyən bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, rəngarəng kəpənəkləri və bunun kimi milyonlarla canlı növündən heç birini meydana gətirə bilməzlər. Yalnız burada bir neçəsini saydığımız bu canlı varlıqları deyil, bunların tək bir hüceyrəsini belə əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə gələrək hüceyrəni meydana gətirə bilməzlər. Sonra yeni bir qərar verib, bir hüceyrəni ikiyə bölüb, sonra ard-arda başqa qərarlar alıb elektron mikroskopunu tapan, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında izləyən professorları meydana gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat tapar. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd olan cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az belə düşünmək yuxarıdakı nümunədə olduğu kimi, bu həqiqəti açıq şəkildə göstərər.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən izah edə bilmədiyi bir başqa mövzu isə göz və qulaqdakı üstün qəbul etmə keyfiyyətidir.

Gözlə əlaqədar mövzuya keçməzdən əvvəl, “necə görürük?” sualına qısa cavab verək. Bir cisimdən gələn şüalar gözdə retinaya tərs olaraq düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə çatır. Bu elektrik siqnalları bir silsilə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü kimi qəbul edilir. Bu məlumatdan sonra indi düşünək:

Beyin işığa bağlıdır. Yəni beyinin içi tamamilə qaranlıqdır, işıq beyinin olduğu yerə girə bilməz. Görmə mərkəzi deyilən yer qaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

Üstəlik, bu o qədər dəqiq və keyfiyyətli bir görünüşdür ki, 21-ci əsr texnologiyası belə hər cür imkana baxmayaraq, bu dəqiqliyi təmin edə bilməmişdir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Bu anda gördüyünüz dəqiqlik və keyfiyyətdəki bu görünüşü başqa bir yerdə gördünüzmü? Bu qədər dəqiq bir görünüşü sizə dünyanın bir nömrəli televizor şirkətinin çıxardığı ən inkişaf etmiş televizor ekranı da verə bilməz. 100 ildir ki, minlərlə mühəndis bu dəqiqliyə çatmağa çalışırlar. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, araşdırmalar aparılır, plan və dizaynlar inkişaf etdirilir. Yenə bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük bir dəqiqlik və keyfiyyət fərqinin olduğunu görəcəksiniz. Üstəlik, televizor ekranı sizə ikiölçülü bir görünüş göstərir, halbuki, siz üçölçülü, dərin bir perspektivi izləyirsiniz.

Uzun illərdir ki, on minlərlə mühəndis üçölçülü ekran düzəltməyə, gözün görmə keyfiyyətinə çatmağa çalışırlar. Bəli, üçölçülü bir ekran sistemi düzəldə bildilər, amma onu da eynək taxmadan üçölçülü görmək mümkün deyil, qaldı ki, bu süni bir üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiyası kimi durur. Heç bir zaman gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görünüş meydana gəlməz. Kamerada da, televizorda da mütləq görünüş itkisi meydana gəlir.

Məhz təkamülçülər bu keyfiyyətli və dəqiq görünüşü meydana gətirən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi biri sizə: “Otağınızdakı televizor təsadüflər nəticəsində meydana gəldi, atomlar bir yerə gəlib bu görünüşü meydana gətirən aləti meydana gətirdi”, - desə, nə düşünərsiniz? Minlərlə adamın bir yerə gəlib edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha primitiv olan bir görünüşü meydana gətirən alət təsadüfən meydana gələ bilmirsə, gözün və gözün gördüyü görünüşün də təsadüfən meydana gələ bilməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulaq üçün də məqbuldur. Xarici qulaq ətrafdakı səsləri qulaq çanağı vasitəsilə qəbul edib orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəyişlərini gücləndirib daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri

elektrik siqnallarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində reallaşır. Gözdəki vəziyyət qulaq üçün də məqbuldur, yəni beyin işıq kimi səsə də bağlıdır, səs keçirməz. Bu səbəbə görə, çölü nə qədər gurultulu olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, izdihamlı bir mühitin bütün səs-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada kəskin bir səssizliyin hakim olduğu görüləcək.

Dəqiq bir görünüş əldə edə bilmək ümidi ilə texnologiya necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdir davam etdirilir. Səs yazma cihazları, musiqi mərkəzləri, bir çox elektronik alət, səs qəbul edən musiqi sistemləri bu işlərdən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq, qulağın meydana gətirdiyi dəqiqlik və keyfiyyətdə bir səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini  düşünün. Səsi yazdıqda mütləq səsin bir qismi itir və ya az da olsa, mütləq əngəl meydana gələr və ya musiqi mərkəzini açdığınızda hələ musiqi başlamadan bir xışıltı mütləq eşidərsiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər son dərəcə dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi setində olduğu kimi, xışıltı və ya əngəl qəbul etməz; səs necədirsə, tam və dəqiq bir şəkildə onu qəbul edir. Bu vəziyyət insan yaradıldığı gündən indiyədək belədir. İndiyə qədər insanların düzəltdiyi heç bir görünüş və səs cihazı, göz və qulaq qədər həssas və müvəffəqiyyətli bir qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa böyük bir həqiqət yenə vardır.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltisini dinləyən, gülü iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beyinə gedir. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görünüşün beyində necə meydana gəldiyinə dair bir çox məlumat oxuyursunuz. Ancaq bu mövzu haqqındakı ən əhəmiyyətli həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik siqnallarını görünüş, səs, qoxu və hiss olaraq qəbul edən kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac duymadan bütün bunları qəbul edən bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini meydana gətirən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı

ruhdur. Ruh görünüşü seyr etmək üçün gözə, qulağa, buruna ehtiyac duymaz. Bunlardan əlavə düşünmək üçün beyinə ehtiyac duymaz.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan, beyninin içindəki bir neçə kub santimetrlik qaranlıq məkana bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığdıran uca Allahı düşünməli, Ondan qorxmalı, Ona sığınmalıdır.

## Materialist bir inanc

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi tapıntılarla açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, qarşıya qoyduğu təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və fosillər nəzəriyyənin tələb etdiyi ara formaların yaşamadığını göstərir. Bu vəziyyətdə, əlbəttə, təkamül nəzəriyyəsinin elmə zidd bir düşüncə olaraq bir kənara atmaq lazımdır. Necə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi israrla elmin gündəmində tutulur. Hətta bəzi insanlar nəzəriyyənin tənqid olunmasını elmə hücum kimi göstərməyə belə çalışırlar. Yaxşı, bəs niyə?...

Bu vəziyyətin səbəbi təkamül nəzəriyyəsinin bəzi çevrələr üçün özündən əsla imtina edilə bilməyəcək doğma bir inanc olmasıdır. Bu çevrələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə gətirilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər.

Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur bir genetik və eyni zamanda məşhur bir təkamülçü Riçard Levontin əvvəl materialist, sonra alim olduğunu belə etiraf edir:

Bizim materializmə bir inancımız var, “a priori” (əvvəldən qəbul edilmiş, doğru fərz edilmiş) bir inancdır bu. Bizi dünyaya materialist bir izah gətirməyə məcbur edən şey elmin üsulları və qaydaları deyil. Əksinə, materializmə olan “a priori”yə bağlılığımız səbəbi ilə dünyaya materialist bir izah gətirən araşdırma üsullarını və anlayışları hazırlayırıq. Materializm mütləq doğru olduğuna görə də ilahi bir izahın səhnəyə girməsinə icazə verə bilmərik.[19]

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğruna yaşadılan bir ehkam olduğunun açıq ifadələridir. Bu ehkam maddədən başqa heç bir varlığın olmadığını fərz edir. Bu səbəblə də, cansız, şüursuz maddənin həyatı yaratdığına inanır. Milyonlarla fərqli canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz içindəki qarşılıqlı təsirlərlə, yəni yağan yağışla, çaxan şimşəklə cansız maddənin içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağıla, həm də elmə zidd bir qəbuldur. Amma darvinistlər özlərinə

görə Allahın açıq-aşkar olan varlığını qəbul etməmək üçün, bu ağıl və elmdən kənar qəbulu cəhalətlə müdafiə etməyə davam edirlər.

Canlıların mənşəyinə materialist zehniyyətlə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün bir güc, bilik və ağıla sahib olan bir Yaradıcının əsərləridir. Yaradıcı bütün kainatı yoxdan var edən, qüsursuz şəkildə təşkil edən və bütün canlıları yaradıb şəkilləndirən Allahdır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli cadusudur**

Burada bunu da ifadə etmək lazımdır ki, zehniyyətsiz, heç bir ideologiyanın təsiri altında qalmadan, yalnız ağıl və məntiqindən istifadə edən hər kəs elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinin inanılması qeyri-mümkün bir iddia olduğunu asanlıqla anlayacaq.

Yuxarıda da ifadə edildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir qabın içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman içində düşünən, bir çox tapıntının müəllifi olan professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi alimlərin, Frank Sinatra, Çarlton Heston kimi sənətkarların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Üstəlik, bu axmaq iddiaya inananlar alimlər, professorlar, mədəni və təhsilli insanlardır. Bu səbəblə, təkamül nəzəriyyəsi üçün "dünya tarixinin ən böyük və ən təsirli cadusu" ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin önünə sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia yoxdur.

Bu, qədim misirlilərin günəş tanrısı Raya, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə sitayiş etməsindən, hz. İbrahim qövmünün əlləri ilə düzəltdikləri bütlərə, hz. Musa qövmünün qızıldan düzəltdikləri buzova ibadətlərindən daha dəhşətli və ağlasığmaz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlanacağını və həqiqətləri görməkdə aciz duruma düşəcəklərini bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində isə bu insanların möcüzələr görsələr belə, inanmayacaq qədər ovsunlandıqlarını belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütlənin üzərində bu cadunun təsirli olması insanların həqiqətlərdən bu qədər uzaq tutulması və 150 il bu cadunun təsirini itirməməyi isə sözlə izah edilə bilməyəcək qədər heyrət verici bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, axmaqlıq və məntiqsizliklərlə dolu iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın dörd tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə gəlib fövqəladə bir təşkilat, intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, həyat üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının cadudan başqa bir izahı yoxdur.

Necə ki, Allah Quranda inkarçı fəlsəfəni müdafiə edən bəzi adamların etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa və firon arasında keçən bir hadisə ilə bizlərə bildirir. Hz. Musa firona haqq dini izah etdiyində firon hz. Musaya öz bilikli sehrbazları ilə insanların toplandığı bir yerdə qarşılaşmasını istəyir. Hz. Musa sehrbazlara əvvəlcə onların bacarıqlarını göstərməyini deyir. Bu hadisənin açıqlandığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrbazları öz hiylələri ilə (hz. Musa və ona inananlar xaricində) insanların hamısını ovsunlaya bilmişlər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!", - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, daha əvvəl insanları ovsunlayaraq təsir edən bu adamların etdiklərinin bir saxtakarlıq olduğu başa düşülməsi, həmin insanların alçalmasına səbəb olmuşdur. İndiki dövrdə də bir sehr təsiri ilə elm adı altında son dərəcə axmaq iddialara inanan və bunları müdafiə etmək üçün həyatını həsr edənlər əgər bu iddialardan imtina etməsələr, həqiqətlər tam mənası ilə ortaya çıxdığında və sehr pozulduğunda pis vəziyyətə düşəcəklər. Necə ki, təxminən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq daha sonra həqiqətləri görən Malkom Muqerig təkamül nəzəriyyəsinin yaxın gələcəkdə süqut edəcəyi vəziyyətini belə açıqlayır:

**Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq olunduğu sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük zarafat vəsaitlərindən biri olacağına inandım.** Gələcək nəsil bu qədər səhv və naməlum bir fərziyyənin inanılmaz bir saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaq.[20]

Bu gələcək uzaqda deyil, əksinə, yaxın zamanlarda insanlar "təsadüflər"in ilah ola bilməyəcəklərini anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq tanınacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd tərəfində insanların üzərindən qalxmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən bir çox insan bu yalana necə aldandığını heyrətlə düşünür.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən! (Bəqərə surəsi, 32)**

# QEYDLƏR


1.Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, s. 2

2.Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953, s.196

3."New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Noyabr 1982, s. 1328-1330

4.Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7

5.Jeffrey Bada, Earth, Fevral 1998, s. 40

6.Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Oktyabr 1994, s. 78

7.Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 189

8.Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 184

9.B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988

10.Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 179

11.Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, s. 133

12.Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. s. 197

13.Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, sf. 389

14.J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Dekabr 1992

15.Alan Walker, Science, c. 207, 1980, sf. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, sf. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, s. 272

16.Time, Noyabr 1996

17.S. J. Gould, Natural History, c. 85, 1976, s. 30

18.Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 19

19.Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Yanvar 1997, s. 28

20. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, s.43